www.kitabxana.net

MILLI VIRTUAL KITABXANA

**FƏXRƏDDİN ZİYA**

*Təmənnasız yaxşılıq etməkdən*
*zövq alan insanlara ithaf edirəm.*

# YAXŞILAR

**Bakı-2004**

Redaktor: Esmira Fuad (Şükürova)

Fəxrəddin Ziya *(Fəxrəddin Mansur oğlu Əliyev).*
*Yaxşılar:* Bakı, 2004. – 424 s.

Müəllifin «Yaxşılar» adlı yeni toplusuna son illərdə yazdığı şerləri və əvvəlki kitablarından seçilmələri daxil edilmişdir.

F.Ziya sözünün qayəsi gözəlliyə vurğunluq, Vətənə, torpağa məhəbbət, bəşərə sevgi, haqqa, birliyə çağırışdır.

Cəhalətə qarşı barışmaz ruhu ilə diqqəti çəkən narahat şairin şerlərinin hər birində haqsızlığa, ədalətsizliyə, nadanlığa qarşı mübarizliyi oxunur, ürək çırpıntıları eşidilir, isti nəfəsi duyulur.

Seçdiyi mövzuların təbiiliyi, deyim tərzinin sadə və səmimimliyi ilə seçilən şairin, ümumən dili şirin, təbi rəvan, misraları fikir yüklüdür.

Hesab edirik ki, bu kitab tələbkar oxucularla həmsöhbət olmağa qadirdir.

© F.Ziya, 2004

## DUYĞULU POEZİYA

Şeir də doğulur, dünyaya gəlir. Söz-söz, sətir-sətir, misra-misra, bənd-bənd yaranır və öz ömrünü yaşayır. Şerin də hamiləlik dövrü var. Bu dövrün zamanı çatanda şer həmişəlik bətndən xilas olur. Hətta bədahətən yazılan misralar da heç şairin özündən asılı olmayaraq hamiləlik mərhələsini yaşayır. Çox zaman şairlər bunların əhəmiyyətinə varmır, yaxud da bu barədə danışmaq istəmirlər. O şeirlər güclü olur ki, onlar hamiləlik dövrünü keçirdikdən sonra vaxtında-zamanında ədəbi-bədii dünyaya gəlirlər. Misraları və sətirləri hamiləlik dövrünü keçirdikdən sonra ədəbi-bədii mühitə gələn şer müəliflərindən biri də Fəxrəddin Ziyadır. Fəxrəddin Ziyanın sevincinin, kədərinin bir ucu sözə hamiləlik, o biri ucu isə sözü bədii cizgilərlə sətirə, misraya, bəndə, bir sözlə şerə çevirməkdir. Odur ki, bu ağır və əzablı prosesi yaşayan Fəxrəddin Ziya yazır:

*Şairlər dünyanın söz yaradanı,*
*Şairlik şerə hamiləlikdir.*

Elə bu misra əsas verir deyim ki, Fəxrəddin Ziyanın misralarının hər biri onun doğma ədəbi-bədii övladlarıdır. O, bir şair kimi bu övladlarını min cür əzab-əziyyətlə ədəbi-bədii mühitin ixtiyarına vermişdir. Doğub törətdiyi şer adlı övladlarının hər birinin minnətsiz-filansız qayğısını çəkməyə hazırdır.

*Şerin də anası şairdir, əlbət,*
*O ağrı çəkməsə, şer doğulmaz!*
*Ömrünü şerinə qıysa da, fəqət,*
*Şerin möhnətindən bir yol yorulmaz!*

Deyirlər ki, övlada çəkilən qayğılar heç biri valideyni yormur. Fəxrəddin Ziya yaradıcılığına bu prizmadan yanaşmaq məcburiyyətində qalmaqla qeyd etməliyəm ki, o, şerlərinin qayğıkeş, yeri gələndə tələbkar, bəzən kövrək, bəzən istiqanlı

valideyndir. Onun yaradıcılığında hər iki tərəfi görmək mümkündür: Bunlardan biri şair, digəri isə bu şairin duyğu və düşüncəsidir. Biri şair-müəlif-valideyn, o biri isə şairin-müəllifin-valideynin şer adlı övladlarıdır.

Fəxrəddin Ziya Ulu Tanrıya, yaradana inamlı olan, ona arxalanan bir şairdir. O, geniş mənada Azərbaycan milli düşüncəsinin ümid dolu baxışlarının tapındığı inam yerini dəqiq koordinatda belə ifadə edir:

*Oxusun şərqisini,*
*Qoy bu elim, ulusum.*
*Türk Tanrıya tapınmış,*
*Tanrı Türkü qorusun!*

Yaxud*:*

*Türkmən, tatar, qazax, qırğız,*
*Başqırd, kərkük, qıpçaq, oğuz.*
*Bir rəngdədir bayrağımız,*
*Türküz, türkü oxuyuruz.*

Fəxrəddin Ziya öz könlünü sözün, şerin qulu bilən şairdir. Bütün şairlər kimi onun da Tanrısı sözdür, şerdir. Sevgisi də Tanrısı ilə qoşadır. Əgər o, söz, şer adlı Tanrıya, sevgiyə inanmasa, heç yaşaya bilməz. Özü demişkən:

*Mən kiməm? – bu yolda milyondan biri,*
*Qəvvaslar yanında bir naşı fəhlə.*
*Ancaq şerə könül verəndən bəri,*
*Gedirəm ümidlə, səylə, fərəhlə.*

Fəxrəddin Ziya minillik Azərbaycan ədəbiyyatından qaynaqlanan şairdir. O, Azərbaycan ədəbiyyatında əruz, heca və sərbəst yaranmış şer nümunələrindən bəhrələnməklə yanaşı, öz qələmini bu çeşidlərdə sınağa çəkmişdir.

Onun əruz, heca, sərbəst vəznlərdə yazdığı şerlər mövzu, sənətkarlıq və bədii dəyərləri baxımından diqqəti cəlb edir. Bu mənada Fəxrəddin Ziyanın "Əcəb xoş gəldin", "Hər canım ağrıyanda", "Yaxşılıq", "Zaman, səndən hara qaçım", "Ağrıma, ürəyim" şerləri və "Gəlməz", "Bu gecə", "Qəzəlxan olmuşam", "Yetişsin", "Gəlmədi" və s. qəzəlləri mövzu, sənətkarlıq, bədii məziyyətləri baxımından olduqca uğurludur. Onun şerlərini oxuduqda hiss edirsən ki, mayası həm də sözdəndir, göbəyi isə sözə qiymət verən bir mühitdə, məkanda kəsilibdir. Yalnız bu cür olanlar sözü oynatmağı, ipə-sapa düzməyi bacarır, sözü yerində, məqamında poetik dəyərində işlədir, təsir gücünü nümayiş etdirməyi bacarırlar. Əgər belə olmazsa, onda şairlər bədii düşüncə sahibləri kimi bir-birindən fərqlənməzlər. Məhz Fəxrəddin Ziyanın da bədii düşüncə tərzi çoxlarından fərqlənir, nəticədə öz üslub və dəst-xəttini yaradır. Məsələn, «ayrılıq» mövzusunda xeyli sayda ədəbi-bədii nümunələr vardır. Hər birini də oxuyanda fikirləşirsən ki, daha bundan dəyərlisi yarana bilməz. Ancaq bu mövzuya müraciət edən Fəxrəddin Ziya olduqca dəyərli, təsirli və könülləri fəth edən ədəbiyyat nümunəsi yaratmışdır. Onu oxuduqda da eyni hissi keçirirsən ki, görəsən bundan güclü ədəbi nümunə yaratmaq olarmı? Hər halda Fəxrəddin Ziyanın misralarının təsirindən ayrıla bilmirsən:

*Dad, sənin əlindən, aman, ayrılıq,*
*Məndən can cövhərin uman ayrılıq.*

*Qəlbimi zülmünlə ram eylədikcə,*
*İçimdə inləyən kaman ayrılıq,*
*Aman, ay ayrılıq, aman, ayrılıq!*

Yaxud:

*Gör mən nə sayırdım, fələk nə saydı,*
*Bəlkə də bəxtimə kəsilən paydın?*
*Sən mənim yaramı sızlatmasaydın,*
*Məni sındırmazdı zaman, ayrılıq,*
*Aman, ay, ayrılıq, aman, ayrılıq.*

Yeri gəlmişkən, deməliyəm ki, təsirli və hər bir oxucunun qəlbinə hakim kəsilən ədəbiyyat nümunələri bir müddətdən sonra müəllifsizləşir, xalq ədəbiyyatı nümunəsinə çevrilir. Hər bir şifahi xalq ədəbiyyatı nümunəsi də məhz bu cür yaranmışdır. Xalq hər hansı bir müəllif tərəfindən yaranmış ədəbiyyat nümunəsini öz malına çevirmişdir. Şübhə yoxdur ki, Fəxrəddin Ziyanın bu misraları da bir müddətdən sonra xalqın malına çevriləcək, heç bir kəs onun müəllifinin kim olmasını düşünməyəcəkdir. Niyə? Ona görə ki, xalqın istək və tələbatını ödəyən nə varsa, onun hamısı xalqındır. Doğrudan da, bu misralardan təsirlənməmək olmur:

*Mən son nəfəsdəyəm, sən can həvəsdə,*
*Mən qan ağlayıram, sən kam həvəsdə.*
*Qəlbim səksəkədə, qulağım səsdə,*
*Sın, ey çərxi fələk, dayan, ayrılıq,*
*Aman, ay ayrılıq, aman, ayrılıq!*

Fəxrəddin Ziya milli düşüncə tərzinə, milli dəyərələrə sadiq şairdir. O, bir sıra milli dəyərlər var ki, onu zamanın, dövrün tələbinə uyğunlaşdırmaqdan çox uzaqdır. Məsələn yaxşılıq, insanlıq, mərdlik, kişilik, pislik, xeyirxahlıq, laqeydlik və s. dəyərlərə ata-babalarımızın yanaşma tərzini əsas tutur. Nəticədə “Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir” atalar sözünə sadiq qalaraq yazır:

*Sədaqəti başına tac bilən dost,*
*Bu dünyada naxələf çox, gəda çox.*

*Çörək kəsən ona qiymət qoymursa,*
*Elə sanma çörəyinin duzu yox.*

Yaxud:

*Ər kişilər süfrəsiylə tanınar,*
*Cılızların səxavətdə payı yox.*
*Qardaş, sənin çörəyinin duzu var,*
*Nakəslərin ləyaqətdə payı yox.*

Bununla da Fəxrəddin Ziya milli dəyərlərdən daha çox reallıqlara, zamana və onun tələblərinə uyğunlaşmaq istəyənlərə öz etirazını bildirir. Mən deyərdim ki, şairin saf duyğuları onu o qədər üstələyir ki, hətta daha çox reallığa söykənən yaponların "Yaxşılıq et, onu başa düşmürlərsə, onda yaxşılığından əl çək" həyat tərzi ilə barışmır. Deməli, Fəxrəddin Ziyanın milli düşüncə tərzi onu milli dəyərlərə sadiq olmağa «məcbur» edir və bu da oxucunu milli kökə sadiqlik ruhunda tərbiyə edir.

Fəxrəddin Ziyanın yaradıcılığından aydın olur ki, o, saraylara, dəbdəbəli həyata, harınlara, təmənna ilə yaşayanlara, saxtakarlara, xəbislərə etiraz edən şairdir. "Mən saray şairi ola bilmərəm", "Boşaldın ürəyinizi", "Biz hara gedirik", "Bilmərik" və s. şerlər bu qəbildəndir. Belə şerlərin mövzusu hər bir oxucunun qəlbini, ruhuna oxşamaqla yanaşı, həm də milli ruhu və anlamı ilə xalqımızın deyim və duyum tərzinə çox yaxındır.

Məsələn:

*Hərdən diqqətsiz anımı*
*Dərd eləmə, dərdin alım.*
*İstəsən, verrəm canımı,*
*Dərd eləmə, dərdin alım.*

Yaxud:

*Oğrun-oğrun, xumar-xumar*
*Hər baxanda içim yanar.*
*Tək mənəmmi qəlbi qübar,*
*Dərd eləmə, dərdin alım?*

Fəxrəddin Ziya yaradıcılığında sevgi, məhəbbət, şirin xatirələr, xoş duyğular, insana qol-qanad verən arzular, hicranın göz yaşları, uğursuz sevgi, bir sözlə, insanın təbii yaşam tərzi şair duyğusunda poetik dil açır. Bu sırada "Unut bu sevdanı", "Sənsən", "Ayrıla bilmirəm", "Şirin xatirəmsən", "Bu qədər öyrətmə özünə məni", "Bu sevdada" və s. şerlər xüsusi yer tutur. Bu şerlərdən bir daha aydın olur ki, Fəxrəddin Ziya adi bir Azərbaycan vətəndaşının, övladının həyat tərzini yaşayır, özü də sadə, insani duyğulara üstünlük verən bir insan kimi. Ancaq adi adamlardan fərqli olaraq Fəxrəddin Ziya öz hisslərini, duyğularını nəzmə çəkir, şerə çevirir və bu işin öhdəsindən bacarıqla gəlir. Çoxlarının yaza bilmədiyi duyğuları poetik dildə, şerə verilən tələblərə uyğun meyarlarla ifadə edir:

*Sən mənim ömrümün yarıdan çoxu,*
*Sən mənim könlümün cənnət payısan.*
*Qayıt, istəyimi gözümdən oxu,*
*Qayıt, ürəyimi verrəm, qayıtsan.*

Yaxud:

*Ha deyirəm daha səni unudam,*
*Ürəyimlə bacarmıram, neyləyim?*
*Öz içimdə gizli yanan bir odam,*
*Kimsə bilməz nədir yanğım, göynəyim,*
*Ürəyimlə bacarmıram, neyləyim?*

Fəxrəddin Ziya yaradıcılığında ana, vətən, yurd həsrəti, millətə bağlılıq və sevgi, vətənin dərdi və ağrıları dil açır, çağdaş problemlərimiz fonunda şairin öz üslubuna uyğun bir şəkildə oxucu auditoriyasına apaydın görünür. Eyni zamanda, Azərbaycan adlı dünyamızda vətəndaşlıqdan uzaq, dərd-

sərimizə biganə, tamahı və qərəzi tükənməyənlərə sözünü millət üçün yanan Mirzə Cəlil, Sabir kimi ustadlarımıza üz tutaraq deyir:

*Hələ tezdir bizi deyib gəlməyiniz!..*
*Uyu, uyu Sabir babam,*
*Uyu, uyu Mirzə Cəlil.*
*Qoy qəbriniz nurla dolsun,*
*Kaş yeriniz behişt olsun.*
*Nə yaxşı ki, bu günləri görmədiniz,*
*Nə yaxşı ki, bizi deyib gəlmədiniz.*
*Nə yaxşı ki, gəlmədiniz,*
*Nə yaxşı ki, gəlmədiniz!*

Deməli, Fəxrəddin Ziya vaxtı ilə "Molla Nəsrəddin" curnalında çap olunmuş "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım…" cümləsi ilə manevr edərək dövrümüzün, günümüzün problemlərini Mirzə Cəlil, Sabir sayağı deməyə cəhd edir və bunu bacarır. Onun yaradıcılığında belə bir üslub tez-tez hiss olunur. Məsələn: "Xalqa zülm eyləyən kişi", "Dözmək olmur", "Bu millətin ağrısını duymaz harınlar", "Bu millətin dərdi nə çox" və s. şerlər bu cərgədə dayanır.

Fəxrəddin Ziya bənzərsiz duyğulu, bəzən dərdli, qəmli-qüssəli, bəzən də gözələ və gözəlliyə əsir olan şairdir. O, öz yaradıcılığında gözələ və gözəlliyə ustalıqla şeir payı ayırmağa qadirdir:

*Gözəllik - qəlbimin sevgi hədəfi,*
*Önündə yay kimi gərilirəm mən.*
*Bir gözəl sevəndə yüz yol ölürəm,*
*Bir gözəl görəndə dirilirəm mən!*

Fəxrəddin Ziya yaradıcılığı həm də musiqiyə yatımlı, mahnı mətnlərinə uyarlıdır. Odur ki, onun "Odlar yurdum", "Qız qalası", "Bakı", "Yuxuma gir", "Ayrılıq", "Keç günahımdan", "Bağış-

la", "Səndən qeyri kimim var" və s. şerlərinə musiqi bəstələnmişdir.

Fəxrəddin Ziyanın mövzu rəngarəngliyindən tutmuş, ta sənətkarlığına qədər seçimləri o qədər çalarlıdır ki, onun yaradıcılığının yükünü təhlil etməklə hər şey bitmir, tükənmir. Mənə elə gəlir ki, hələ Fəxrəddin Ziya da, onun yaradıcılığını təhlil edənlər də sözdən neçə-neçə çələng hörəcəklər.

**Buludxan Xəlilov**
*filoligiya elmləri doktoru, ADPU-nun professoru,*
*Azərbaycan Curnalistlər və Yazıçılar Birliyinin üzvü*


SÖZ KARVANIM
©Scott T. Smith/Corbis

## GÖZƏLLİK

Günüm gözəllərin vəsfində keçər,
Şerimdə dilimin söz gözəlliyi.
Ürəyim sevməyə bir sənəm seçər,
Gözümdə dünyanın yüz gözəlliyi.

Gözəllik məst edir, bizi nə gözəl,
Tükənmir qəmzəsi, nazı, nə gözəl.
Ömrün qışı nə xoş, yazı nə gözəl,
Hər fəslin, hər ayın öz gözəlliyi.

Yenə gül qoxuyur çölün nəfəsi,
Çiçəyin şəbnəmi, bülbülün səsi.
Qoy öpsün üzündən düzün laləsi,
Əyilib ahəstə üz gözəlliyi.

Ürək də bir gözdür, göz də bir ürək,
Baxışdan odlanaq, duyğudan ölək.
Tökülsün bəbəyi, kor olsun gərək,
Heyrətlə görməsə göz gözəlliyi.

Yandırıb-yaxmaqmış gözəldə adət,
Bu da bir peşəymiş, bu da bir sənət.
Nə ayrı aləmmiş, nə incə vəhdət,
Bədən gözəlliyi, üz gözəlliyi.

Fəxrəddin, bu nə ah, bu nə sızaqdı,
Gözəllər gözünün giləsin sağdı.
Guya ki, baxmaqla nə olacaqdı,
Ha durub qıraqdan süz gözəlliyi.

*10.04.00*

## YAXŞILAR

*Yaxşılıq etməyə tələsin.*
***Məhəmməd peyğəmbər***

Dünya elə yaranışdan yaxşıdır,
Yaxşı səma, yaxşı Günəş, yaxşı Ay.
Ömrümüzün, bəxtimizin naxşıdır
Yaxşı sutka, yaxşı həftə, yaxşı ay.

Xoş günlərin carçısıdır, əl eylər,
Dağda-daşda cığır salar, yol eylər.
Nemət adlı ruzisini bol eylər
Yaxşı payız, yaxşı bahar, yaxşı yay.

Bardan qalar onsuz bostan, bağ, zəmi,
Elimizin, obamızın zəmzəmi.
İsti gündə təşnəmizin məlhəmi
Yaxşı bulaq, yaxşı kəhriz, yaxşı çay.

Bir dəmət tut bağından gül dərilsə,
Sözdən yarat, ömür qəsrin hörülsə.
Müdriklikdir, təmannasız verilsə
Yaxşı bəxşiş, yaxşı sovqat, yaxşı pay.

Ay Fəxrəddin, ötüşdükcə ruzgar,
Hər arzudan, kaş doğa bir xoş qərar.
Nə yaxşı ki, hələ çoxdur yaxşılar,
Yaxşıların yaxşısını yaxşı say!

*06.09.1998*

## MƏNİM SARBANIM

Bir ağır yol gəlir hələ karvanım,
Dözür bu səfərdə min məşəqqətə.
Mənim kitablarım – ömür sarbanım,
Üz tutmaq istəyir əbədiyyətə.

Bu yolda nə qədər yolçular itmiş,
Səni çaşdırmasın şöhrət, a sarban.
Bu yoldan ustadlar, dahilər keçmiş,
Bu yolda yol salan izlərə qurban.

Burda başdan-başa dünya yaraşıq,
Bu yol kənarında kol olsan, sevin.
Bura od yarışı, tonqal yarışı,
Sən burda zərrəcə kül olsan, sevin.

Burda adilərçün açılmaz meydan,
Burda fövqəlbəşər şair Nizami.
Şer peyğəmbəri Füzuli burdan
Baxır söz mülkünün heyranı kimi.

Bura çox müqəddəs bir fəxri ünvan,
Bura söz meydanı, şöhrət meydanı.
Kim bilir, bəlkə də böyük Yaradan
Bu yerdən Meraca çəkmiş insanı!

Bu ömür yolunda duyğum – sultanım,
Baxtımın qışından, yazından keçər.
Mənim şerlərim – mənim karvanım,
İçimdən yol gəlib kağıza köçər.

Nə söykənc yerim var, nə pənah yerim,
Bu yolda müsafir olmaq nə çətin!

Nə and yerim bəlli, nə pənah yerim,
Nə heyrət etməyə çatmır qüdrətim.

Bu sənət yolunda yollar nahamar,
Sən məni nahaqdan yorma, a sarban.
Hər misra üstündə ürəyim qabar,
Qısqanıb qəsdimə durma, a sarban.

Mən kiməm? – bu yolda milyondan biri,
Qəvvaslar yanında bir naşı fəhlə.
Ancaq şerə könül verəndən bəri
Gedirəm ümidlə, səylə, fərəhlə.

Şerimdir möhnətim, bəxtiyarlığım,
Şerim idrakımdan, qəlbimdən keçər.
Mənim yazdıqlarım, mənim varlığım,
Hələ ki, kağızdan kağıza köçər.

*Oktyabr,1999*

## MİNİLLİYİN AYRICINDA

Bəlkə elə xoşbəxtlərin xoşbəxti bizik,
Yeni ili, yeni əsri qarşılayırıq.
İki mini yola salıb, il ayrıcında
Yeni gələn minilliyi qarşılayırıq.

İki min il ötüb keçdi yeni eradan

Qərinələr, milyon illər qovhaqovunda.
Demək, korluq çəkməmişik zaman sarıdan,
Bərkimişik əsrlərin od-alovunda.

Çox dahilər görüb bəşər öz tarixində,
Hərəsinin arxasında danılmaz hünər.
Ancaq bütün ucalardan yüksəkdə durar
Fövqəlbəşər şəxsiyyətlər – iki peyğəmbər.

Yeni dövrün ilk ilində Həzrəti İsa
Yazmış bəşər tarixinə öz imzasını.
Bu peyğəmbər yaşasa da ömrü çox qısa,
Vermiş Adəm övladına xoş rizasını.

İlahi bir sehr varmış hər kəlməsində,
Sinə gərmiş istibdada qolları bağlı.
İnsanlığın humanistlik səlnaməsi də
Bu möhtəşəm peyğəmbərin adıyla bağlı.

O zamandan ötüb keçmiş neçə yüz illər,
Gəlmiş sonuncu peyğəmbər – Ali Məhəmməd.
Demiş şübhə edən varsa verim şəhadət,
Qalxıb gördüm Meracı mən – Allahu Səməd!

Bu da onun kitabıdır – Qurani-Kərim,
Hər kəlməsi, hər surəsi bir səmavi sirr.
Tövbə, əgər bir sözündən varsa xəbərim,
Mələklərlə nazil olmuş ayələr bir-bir…

Xəyalımda canlandıqca yaddaş tarixim,
Keçir fikir süzgəcimdən illər qatarla.

Öz sözünü deyənləri vaxt adlı hakim
Yazmış ölməz yaddaşına bir iftixarla.

Daha bir də yer üzünə peyğəmbər gəlməz,
Mələklər də nazil olub görünməz, yəqin.
Bu min ilin seçilmişi kim olacaq bəs,
Bu min ilin seçilmişi olmaq çox çətin?

Hələ nə çox keşməkeşlər gözlər insanı,
Xəyal gizli məqamları yozur min yerə.
İndi Adəm övladının milyarddır sanı,
İndi kosmos silahlanır kiməsə görə.

Günü-gündən böyüdükcə təfəkkürümüz,
Əməlimiz yer üzünə meydan oxuyur.
Bircə tükdən asılıdır indi ömrümüz,
Atom, raket sınaqları ölüm qoxuyur.

Bəşər indi ağlasığmaz kəşflər önündə,
Bir günümüz keçmişin yüz ilindən mühüm.
Dünya əgər dağılmasa min il içində,
Açılacaq bizə gizli sirlər büsbütün.

Bəlkə elə yaxınlaşır sonu dünyanın,
Bəlkə bu cür milyon illər ötuşəcəkdir?
Kim bəşəri qovğalardan qoruya bilsə,
Bu min ilin tarixinə o duşəcəkdir!

Bəlkə elə xoşbəxtlərin xoşbəxti bizik,
Yeni ili, yeni əsri qarşılayırıq.
İki mini yola salıb, ilayrıcında

Yeni gələn minilliyi alqışlayırıq!

*Dekabr, 2000 – yanvar, 2001*

## MİLLƏT ŞƏRQİSİ

Qalx, ey zavallı millətim, yetər
Bu qədər əzaba dözdüyün illər.
Yadlar neçə yol yurd yerlərini,
Doğmalar sadəlövh xalqı böldülər.

Qalx, vətəndaş millət, həmrəy olmağa,
Qalx, aldanmış millət, həmrəy olmağa!

Rədd olsun araya nifaq salanlar,
Rədd olsun kütlədən qisas alanlar.
Biz tayfa deyilik, ixtiyar xalqıq,
Hayqıraq – istiqlal, deyək – azadlıq!

Bacılar, qardaşlar bir rəyə gəlin,
Gələcək naminə birliyə gəlin!

Qalx, ey yaraları hələ qan Vətən,
Gücünü birlikdə göstər, can Vətən.
Bizim nicatımız bütövlüyündə,
Azad Azərbaycan həmrəyliyində.

Yığılın, soydaşlar həmrəy olmağa,
Bu xalqa, bu yurda kömək olmağa!

*İyul,2001*

## ŞEIR DÜNYASI

Şer düşüncənin şəhd-şirəsidir,
Sözünü aləmlə bölməyə gələr.
Cücərər bir zərif hissin ucunda,
Ən incə məqamda köməyə gələr.

O, Quran dilidir, sən inan şerə,
Baxma adi gözlə heç zaman şerə.
Ötəri həvəsdən yaranan şerə
Bişmiş toyuğun da gülməyi gələr.

Yaz sözü onda ki, misraya gəlsə,
Dilin səlis olsun, yolun düz, kəsə.
Nadan sözü söztək anlaya bilsə,
Bir yol xəcalətdən ölməyi gələr.

Sərraflar yazanda bir yeni əsər
Hər kəlmə üstündə titrəyər, əsər.
Kim sözü külçətək, kərpictək kəsər,
Onu söz mülkünə hörməyi gələr.

Fəxrəddin, şairlik duyğudu, dərddi,
Şerin gah şirindi, gah acı, sərtdi.
Kim söz bağçasından bir buta dərdi,
Onun misrasından gül iyi gələr.

*07.09.2000*

# XƏTAİ İŞIĞINDA

***(dördlüklər)***

*Xətainin heykəli önündə düşüncələr*

Ey böyük məmləkət quran Xətai,
Düşmənin əzmini qıran Xətai.
Sən qoyan Vətəndən qalmayıb əsər,
Qılıncı əlində duran Xətai.

Hünər təcəssümü, məğrur Xətai,
Təpədən dırnağa qürur Xətai.
Kim səni oturtdu bu daş üstündə?
Sıyır qılıncını, bir dur, Xətai.

Sən ey fikri məchul, pərişan babam,
Qələbə əzmiylə alışan babam.
Çaldıran çölünə kim çəkdi səni,
Tutduğu əməldən peşiman babam?

Ey şair Xətai, ey şah Xətai,
Dövlətə, millətə pənah Xətai.
Şerin ürəkləri fəth eyləsə də,
Qılıncın etdi min günah, Xətai!

Ayıl, dərdli babam, ey şahe-Mərdan,
Sənsiz yarımadıq bir dostdan, yardan.
Qoruya bilmədik əmanətini,
Bu aciz milləti hifz eylə qurddan.

Səndən utanırmı torpaq satanlar,
Millətin ömrünə zəhər qatanlar?
Vətən təəssübü çəkirlər  guya,
Pulu qeyrətindən üstün tutanlar.

Ey ulu əcdadım, ey böyük aləm,
İstərəm sənintək yaşayam, öləm.
Yazdın bu millətin hünər tarixin,
Bir əlində qılınc, birində qələm!

*16-17.11.1998*

## XALQA ZÜLM EYLƏYƏN KİŞİ

*İxtiyar iqtidar nümayəndələrinin*
*bəzi qudurğanlarına*

Nə durmusan qəsdimizə,
Xalqa zülm eyləyən kişi?
Kəkələmə üstümüzə,
Xalqa zülm eyləyən kişi.

Sən gələndən bu diyara
Ömrümüz, günümüz qara.
Quldur, nakəs, qəlbiqara,
Xalqa zülm eyləyən kişi.

Nola, dərd gələ Xudadan,
Qurtulaq səntək gədadan.
Peysərin dönmür ədadan
Xalqa zülm eyləyən kişi.

Bu ölkədir, xanlıq deyil,
Başçılıq sultanlıq deyil.
Məmləkət qurbanlıq deyil,

Xalqa zülm eyləyən kişi.

Qazandığın rüşvət, haram,
Yığ kütlədən, qoy banklara.
Sən hara, vəzifə hara,
Xalqa zülm eyləyən kişi?

Tutubdu gözünü şöhrət,
Nə ar bilirsən, nə hörmət.
Barı, özünə qoy qiymət,
Xalqa zülm eyləyən kişi.

Cana doyduq əməlindən,
Zinhara gəldik əlindən.
Qəddin qırılsın belindən,
Xalqa zülm eyləyən kişi,
Xalqa zülm eyləyən kişi!

*Oktyabr,2001*

## DÖZMƏK OLMUR

*Rüşvətxorluq bizi içimizdən yeyir.*
***Heydər Əliyev***

Axır illər qarğınıbdı bu yer elə bil,
Milyonların ruhu sönük, çöhrəsi gülmur.
Bu xalq üçün bəla təkcə işsizlik deyil,
Bu ölkədə işləyən də dolana bilmir.

Bu dövlətin içindəmi əliəyrilik,
Bu ölkədə ədalətin keşiyində kim?

Haqq-ədalət kürsüsünə «göndərilirsə»,
Qanunumu qoruyacaq prokuror, hakim?

Məzənnələr qoyulubdu hər vəzifəyə,
Təyinatlar, göndərişlər tamam pul ilə.
«Dayı» tapıb kölgəsində baş girlədirlər
Bölgələrə başçı gedən başçılar hələ.

Bu ağrının gözu dərin, axır, qurtarmır,
Min əzaba dözmək olar, sonu xeyirsə.
Ləyaqətdən danışmağa haqqımız varmı,
Məmləkətin əsgəri də rüşvət verirsə?

İndi uşaq böyütmək də əzab, faciə,
Bir aylıq maaş təkcə kitab-dəftərə yetmir.
Şagirdlərdən pul yığılır hər ay məktəbdə,
Daha kasıb balaları məktəbə getmir.

Süfrəsində yeməyə tək yavan çörək var,
Evdə daha heç nə yoxdur aparıb sata.
Övladının üst-başından qəlbi qan ağlar,
Ayağına ayaqqabı tapmayan ata.

Beş-on «şirvan» maaş alır həkim, müəllim,
Məmurunsa məvacibi milyondan artıq.
Pencəyində yamaq gəzir zavallı alim,
«Ləbbeyk» deyən deputatlar xalqı aldadır.

Siz ey ixtiyar kişilər, müdrik insanlar.
Harda gəzək, nədə tapaq çıxış yolunu?
On illərdir xoşbəxtliyə sarı gedirik,
Amma yenə görünməyir bu yolun sonu.

*Oktyabr, 2001*

## YALANÇI DÖVLƏTQULU

Son illər elə bil tilsimlənibdi,
Baxtı bağlanıbdı Dövlətqulunun.
Yazıq işsizlikdən təngə gəlibdi,
Qazana bilməyir çörək pulunu.

Ağıllı, işgüzar, ali təhsilli,
Razıdır, lap gedib köləlik edə.
Bir manat maaş almır, gör neçə ildir,
Ona çox görürlər fəhləliyi də.

Hər gecə yuxusu ərşə çəkilir,
Obaşdan tələsir qul bazarına.
Bu cür gün keçirir məhəl qoymadan
Yayın istisinə, qışın qarına.

Toxtayır məşğulluq tapa biləndə,
Olur, daş daşıyır, torpaq dağıdır…
Qəsrlər tikilir Bakıda indi,
Bu filan…, bu filan…, kəsin bağıdır!

Vaxt olur iş tapmır həftə uzunu,
Ötürür üzücü günləri hədər.
Nə olar boş qalan qulun qazancı-
Ürəyində ağrı, gözündə kədər?

Axşam geri dönür manata möhtac,
Evdə də ehtiyac gözləyir onu.

Haçandır söz verir meyvə alacaq,
Axı, yalanın da olur bir sonu.

Uşaq hər gün ondan meyvə istəyir,
Uşaq hər gün yeni adlar öyrənir.
Ata içəridən yanır, göynəyir,
Uşaq atasına görün, nə deyir:

- Anarın əlində alma var idi,
Şəhriyar şaftalı yeyirdi o gün.
Babası o axşam banan gətirdi
Balaca Babəklə Bəxtiyar üçün.

Sən evə bəs haçan nə gətirərsən,
Sən bizi nə qədər aldadacaqsan?
Nə vaxt soruşuram, - sabah - deyirsən,
Bilirəm, sabah da almayacaqsan…

Uşaq atasını ittiham edir,
Onun hər kəlməsi əzab, işgəncə.
Tutub əl-qolunu çeynəyir, didir
Ağlaya-ağlaya bu kiçik dəcəl.

Uşaq hey danışır, yüz sual verir,
Meyvə adlarını söyləyir bir-bir.
Qonşu uşaqların atalarının
Nələr aldığını misal göstərir.

Ata da dinləyir əlacsız, naçar.
Qırışmış çöhrəsi bir dəfə gülmür.
Uşaq hardan bilsin zavallı ata

Meyvə-tərəvəzə pul  tapa bilmir.

*20.07.2002*

## QARIŞDIRMA

*Eyni adlı şerin müəllifi,*
*xalq şairi Qabil İmamverdiyevə*

Tərif ilə mədhiyyəni,
Yalmanmaqla fəxriyyəni,
Rüşvət ilə hədiyyəni,
Rütbə ilə səviyyəni
qarışdırma.

Qanun ilə ədaləti,
Təqib ilə ədavəti,
Xəta ilə cinayəti,
Məhbəs ilə əsarəti
qarışdırma.

Məhəbbətlə ülviyyəti,
Ünsiyyətlə rəsmiyyəti,
Ləyaqətlə şan-şöhrəti,
Çətinliklə məşəqqəti
qarışdırma.

Kəmiyyətlə keyfiyyəti,
Sakitliklə əmniyyəti,
Etirazla şikayəti,
Sərbəstliklə hürriyyəti
qarışdırma.

Hidayətlə məsləhəti,
Vacibliklə əhmiyyəti,
Öyüd ilə nəsihəti,
Nisgil ilə vəsiyyəti
qarışdırma.

Böyüklüklə əzəməti,
Hökumətlə səltənəti,
Kütlə ilə cəmiyyəti,
İnad ilə qətiyyəti
qarışdırma.

Bayram ilə təntənəni,
Adət ilə ənənəni,
Sevinc ilə şənlənməni,
Kədər ilə qəmlənməni
qarışdırma.

Səfər ilə ziyarəti,
Günah ilə qəbahəti,
Sürgünlüklə səyahəti,
Möminliklə ibadəti
qarışdırma.

Şadlıq ilə səadəti,
Yardım ilə səxavəti,
Etibarla sədaqəti,
Kişilklə şücaəti
qarışdırma.

Durğunluqla sükunəti,
Tənbəlliklə ətaləti,
Rəvayətlə hekayəti,
Rəvanlıqla şeriyyəti

qarışdırma.

*Noyabr, 2001*

## VƏTƏNİN İŞSİZ GƏNCLƏRİNƏ

*Qeyri-rəsmi statistikaya görə, Azərbaycan gənclərinin yarıdan çoxu işsizlikdən və bir tikə çörək qazanmaq zərurətindən tərki-vətən olmuşlar.*

*Həmin məlumata görə, məmləkətin əyalətlərində yaşayan subay oğlanların sayı subay qızların sayından səkkiz dəfəyə qədər azlıq təşkil edir.*

*Zavallı millətimiz üçün bu az bəla imiş kimi, həmin gənclərin yaşıdları olan bu qədər böyük sayda – ismətinə, həyasına bürünmüş Azərbaycan qızları ya ata evində qarımaq reallığı ilə barışmalı, ya da əqidəsini dəyişmək barədə düşünməlidirlər. Nə qədər acı olsa da, qeyd edim ki, onların çoxu daha heç vaxt özlərindən əvvəlki nəsil səviyyəsində firavan və qayğısız yaşaya bilməyəcəklər, bundan sonra ana olmayacaqlar və bəlkə də heç qadınlaşmayacaqlar! Bu qızlar olsa-olsa, onları haçansa sevən «vəfasız» eloğlularının ürəyində ilk məhəbbət mələyi kimi bütləşəcəklər.*

*Bu cür acı taleyin səbəbkarlarına iqtidarmı deyək, yoxsa müxalifət?!*

*Onların adlarını sükutlamı qarşılayaq, ya lənətləyək?*

*Bu adları daşıyanlara adi insan deyək, yoxsa quldur, cani?! Hər halda onların Tanrı dərgahında və axirət günü, məhşər ayağında günahları qədərsiz olar!*

*Gəlin ümid edək ki, gec də olsa, onların yatmış vicdanları oyanacaq və qorxu hiss edərək tutduqları səhv yoldan dönəcəklər!*

Bu da sizin baxtınıza yazılmış zaman,
Bu da sizin ömrünüzün gənclik illəri.
Siz qürbəti özünüzə yurd seçən andan
Solur Vətən bağçasının zərif gülləri.

Bəlkə bu heç ömür deyil, bir faciədir,
Dözürsünuz taleyin sərt sınaqlarına.
Öz dərdiniz özünüzə az imiş kimi,
Tuş gəlirsiz gözəllərin qınaqlarına.

Çoxunuzun ürəyində ilk məhəbbəti
Ləçəkləri vağam olmuş gül-çiçək kimi.

Çoxunuzun xəyal olmuş sevgililəri
Gəlir hərdən yuxunuza bir mələk kimi.

İçinizdən yeyər sizi bu gizli savaş,
İttihamla dolu vicdan mühakiməsi.
Ah, nə qədər ağrılıdı, ağırdı, qardaş,
İki aciz sevənlərin qəlb məhkəməsi!

Ağrınızı, arzunuzu duymaq istəməz
Əqidəsi, ruhu süni bu çoxüzlülər.
Siz yoxsunuz, qahmarı yox, - Vətən qızları
Biganələr oylağında ovtək gəzirlər.

Ah, nə böyük müsibətdi, cavan yaşında
Öz elində gərəksiz bir insan olasan.
Ağıl, kamal, elm, təhsil – hər şey başında,
Amma sahibin yox, deyə küncdə qalasan!

Azad insan, öz elində kölə dolanan,
Sən əsgəri xidmət üçün lazımsan ancaq.
Ey ölkənin nazirləri, ayılın, aman,
Bu minvalla vətən heç vaxt qorunmayacaq!

Bir usanın hərislikdən, düşünün hərdən
Kim bağışlar, kim yuyacaq günahınızı?
Tamahınız çoxaldıqca xalq düşür heydən,
Allah kəssin bu doymayan iştahanızı!

Ey məcburən öz evindən qaçaq düşənlər,
Kimdir sizi yad ellərə didərgin salan?
Xalqı bu gün işlə təmin edən kəslərin

Sözündəki qayğı yalan, məhəbbət yalan!

Nə qədər ki, yerlibazlıq, tayfabazlıq… var,
Üzümüzə talesizlik güləcək hələ.

Məmləkəti mənimsəyən sahibkarlarla
Başımıza müsibətlər gələcək hələ.

Siz yoxsunuz, haqq hayqıran sayımız çatmır,
Seyrəkləşir meydanlarda etiraz səsi.
Yaltaqların, yalaqların səyiylə artır,
Bir dəstənin bir xalqla şər mübarizəsi.

Siz ey Vətən oğulları, yığışın, gəlin,
Qatlaşın hər əziyyətə, Vətən dardadı.
Gah xaricdən sıxılırıq, gah içəridən,
Heç bilmirik dost hardadı, düşmən hardadı?!

*Oktyabr,2001*

## QOCALAR EVİ

*Övladları onları yola vermədiyi üçün qocalar evini öz halal od-ocağından üstün tutub ömrünün sonunadək bu kimsəsizlər yudunda yaşamağa qərar verən zavallı, pənahsız insanları sakit, emosiyasız dinləmək olmur.*

*Nə qədər ağrılı və acı görüş!*
*Başın batsın, nankor övlad!*
*Ölümün olumundan daha əfzəl!*

Salam verib hər vaxtınız xeyir, - söylədim,
Aqibətin xeyir olsun, oğul, - dedilər.
Mənə ömrün qürubuna xeyir dilədi
Aqibəti qara gəlmiş bu nisgillilər.

Aqibəti xeyir olmaq, nə uğurlu yol,
Hansımıza qismət olar, qalıb baxtabaxt.
Od-ocaq qur, övlad böyüt, sonra da qovul,

Sən həyatın təzad dolu min üzünə bax!

Qırış kəsmiş çöhrələri xiffətdən solar,
Nurdan düşmüş gözlərində qəm yuva salar.
Hər gün qüssə, qəhər ilə oyanar, yatar
Yuxusunda övlad, nəvə görən qocalar.

Bu ixtiyar yaşlarında sərgərdan olub
Doğmalardan uzaq düşmək nə qədər ağır.
Nə arabir bir günlüyə qayıda bilir,
Nə yurd-yuva, nə qonşular yadından çıxır.

Gecə-gündüz lənətləyib qara baxtını,
Kimlərisə yada salar, səssiz ağlayar.
Hələ hərdən nəyəsə sərf edər vaxtını,
Hələ hərdən kimə isə ümid bağlayar!

Hərdən fikir neçəsini çəkər uzağa,
Xəyalında nəvəsinə nağıl danışar.
Keçər oğul günahından bu qəlbi yuxa,
Övladının təhqirini udar, barışar.

Lakin gəlməz övladlardan quru təklif də,
Göz yaşıyla dərdlərini yayındırarlar.
Boş arzuyla, xam xəyalla qalıb təklikdə
Bu tənhalar bir-birini ovundurarlar.

Daha daim fikri məchul, qaşı çatılar,
Günü-günə, ayı-aya satar qocalar.
Sanki kədər ümmanına lövbər atarlar
Dəryalarda gəmiləri batan qocalar.

Aman, Allah, nə sitəmdir qocalar çəkir,
Bu cür dərdə nə baş dözər, nə ürək dözər.

Qaçqınların, köçkünlərin gününə şükür,
Övlad, nəvə didərgini olmaqdan  həzər.

Bir yerdə ki, valideynə ehtiram olmaz,
Batsın o yurd, uçsun o ev, sönsün o ocaq.
Vətənə də vətəndaş yox, ləkədir ancaq,
Anasına, atasına xor baxan alçaq!

Bu gərəksiz vücuduna de, nə ad verək,
Gözümüzdə cılızlaşan, ay arsız oğul?
Südünümü, zatınımı, nəyini deyək,
Nankor övlad, naqis xələf, qürursuz oğul?

Övlad gərək kəfəninə bürünüb gedə,
Valideyni ölümə də onu çağırsa.
Ulu Tanrım, sənin səbrin nə vaxt daşacaq,
Oğlu qoca anasını evdən qovursa?!

Dünya həm şər meydanı, həm hünər meydanı,
Kim nə bilir, əkdiyini kim biçəcəkdir?
Bu ağacın acı dadan meyvələrindən
Övladların sənə də pay göndərəcəkdir.

Cahil insan, düz yolundan sapdığın yetər,
Şərəfin san valideynçün diz çökməyi sən.
Tanrı-əcəl körpüsündən keçməzdən əvvəl,
Öz övladlıq borclarını ödəməlisən!

*Dekabr,2001*

## VƏTƏN BİZİM PƏNAHIMIZ

Vətən bizim pənahımız,
Vətən bizim gülzarımız.
Çəkər daim qayğımızı
Bu sevimli diyarımız.

Vətən bizim atamızdır,
Vətən bizim anamızdır.
Uca adı qəlbimizdə
Yaşayacaq andımızdır.

Bu mehriban ölkəmizdə
İldən-ilə böyüyürük.
Biz sizinlə fəxr edirik,
İşinizlə öyünürük.

Biz hər şeyi anlayırıq,
Baxmayın ki, çox uşağıq.
Böyüyəndə hamınızın
Xidmətində duracağıq.

Öyrənirik elm, savad,
Qəhrəmanlıq, hünər hələ.
Gedəcəyik qaliblərin
Zəfər dolu yolu ilə.

Qoruyarıq, yaşadarıq
Sizdən qalan od-ocağı.
Həm sabahın qurucusu,
Həm əsgəri olacağıq.

*12.12.2001*

## TAPILMAZ

Nə yaxşı ki, zaman yazır tarixi,
Zamandan ki, bir mötəbər tapılmaz.
Gündə ruhən çəkilsək də çarmıxa,
İsa kimi bir müzəffər tapılmaz.

Başçı olmaq sevdasına düşən çox,
Alıların gözlərini deşən çox.
Koroğlutək bığlarını eşən çox,
Düşmən üstə getməyə ər tapılmaz.

Ömrüm boyu qurumayan yaş gözüm,
Öz arzuma atılacaq daş, özüm.
Bu canavar yığnağına, kaş dözüm,
Mənə qahmar bir hünərvər tapılmaz.

Ram olandan yüz dayaza, axmağa,
Başlamışıq hər dayaza axmağa.
Doğmasına, dostuna şər yaxmağa
Özümüzə tay, bərabər tapılmaz.

Bu nə gündür yaşayırıq, bu nə il,
Bu istəklə həm rəzilik, həm səfil.
Nadanlığa qurşanandan müttəsil,
İçimizdə bir xoşxəbər tapılmaz.

*13.02.1999*

## ÖZ YERİNİ BİLMƏYƏNLƏRƏ

Sən ey ağlı tam yetkinləşmədiyi üçün
özündən razı insan,
söylə, nə vaxt
anlayıb ağıllanacaqsan?
Yerli-yersiz danışıb qaçırırsan
hər sözun dadını,
adam da bu qədər bezdirər adamı?
Özünü çox gözə soxmağa çalışma,
Sənə aid olmayan işlərə qarışma.

Bir azca artırıb səbrini,
Bil özün özünün qədrini.

Sən ey emosiyası daşan,
kəmhövsələ insan,
səndən fərqli olaraq
mən özümə hörmət edən adamam.
Söz verilməyən məclisdə,
lüzum duymadığım yerdə
danışmaram heç zaman.
Sakitcə oturub dinləyərəm, anlayaram, duyaram.
Məclisdən bu sayaq həzz alıb doyaram.
Deyəcəyim üççə kəlmə söz olar.
Gələndə səmimi bir «salam»,
gedəndə – «sağ olun, hələlik» - vəssalam.

*Yanvar, 2002*

## BİR MƏZAR DAŞINDA YAZI

Sən bir nazlı xanım idin,
qədd-qamətli, nəcabətli.
Sən bir müdrik qadın idin
kövrək qəlbli, səxavətli.
Sən hamıdan məhrəm idin
qohum, qonşu, dost içində.
Sən həmişə doğma idin
yaxın üçün, yad üçün də.
Yoxluğundan yananların
gəlir indi güzarına.
Səni daim ananlardan
salam olsun məzarına.

*Noyabr, 2001*

## ÖMUR VƏFA QILSA

Hələ neçə insanın əlini məhəbbətlə sıxacağam,
Hələ neçə füsunkar varlığa min heyrətlə baxacağam.
Hələ neçə alovun üstünə dolu kimi yağacağam,
Hələ neçə haqsızlıq önündə şimşək kimi çaxacağam,
ömür vəfa qılsa.

Hələ neçə əməli salehlə yaxşılıqda yarışaram,
Hələ neçə gözü nəm çəkənin kirpiyində alışaram,
Hələ neçə dəlisov cavanın günahıyla barışaram,
Hələ neçə qəzəb tonqalını söndürməyə çalışaram,
ömür vəfa qılsa.

Hələ neçə mücdəni, xoş anı yaşadaram, yaşayaram,
Hələ neçə əlsiz-ayaqsızın möhnətini daşıyaram.
Hələ neçə evsiz-eşiksizlə qışı birgə üşüyərəm,
Hələ istək qapımı döyürəm, arzum sonsuz, yaşım yarı,
ömür vəfa qılsa.

Hələ neçə edə bilmədiyim köməyimlə qalacağam,
Hələ neçə bənizi solmuşla ağrıyaram, solacağam,
Hələ neçə nisgili, qubarı ürəyimə salacağam,
Hələ neçə imkansız üçün mən də imkansız olacağam,
ömür vəfa qılsa.

Mən dünyaya işığı, duyumu, gözəlliyi sevib gəldim,
Mən sənəti, sözü anlayanda məftunluqdan, sehrdən öldüm.
Yazdığım hər misra üçün, öncə həyatımı şerlə böldüm,
Hələ bəlkə bir neçə misramı bundan sonra yaza bildim,
ömür vəfa qılsa!

*02.02.2002*

## QEYRƏT XOCALIDA, ŞUŞADA QALIB

*Xocalının işğalının 6-cı ildönümünə*
*(26.02.1998)*

Üz tutub yalvarma bir də Allaha,
Heyrət Xocalıda, Şuşada qalıb.
Namusdan, şərəfdən danışma daha,
Qeyrət Xocalıda, Şuşada qalıb.

Göstərə bilməsək orda şücaət,
Əyilsin səndəki, məndəki qamət.
Nə qola güc gələr, nə dizə taqət,
Qüvvət Xocalıda, Şuşada qalıb.

Silahdan yapışsın əli silahlı,
Çomağın götürsün əli çomaqlı.
Yığılsın harda var başı papaqlı,
Qüdrət Xocalıda, Şuşada qalıb.

Biz indi tufanda boğulan ada,
Nə nalə, nə fəryad yetişər dada,
Çağırma heç kimi daha imdada,
Vəhdət Xocalıda, Şuşada qalıb.

Nərə çək, yürüş et, atılaq oda,
Ya biz də bilmərrə gedərik bada,
Ya da bir dəfəlik dərs verək yada.
Millət Xocalıda, Şuşada qalıb,
Qeyrət Xocalıda, Şuşada qalıb.
Vəhdət Xocalıda, Şuşada qalıb!

*25-28.02.1998*

## SƏDAQƏTİM – XƏCALƏTİM

*XX əsrin 40-cı illərinin əvvəllərində Rus-Alman savaşına yola salınmış əmi və dayılarımızın bir üzü qız, bir üzü gəlin cavan həyat yoldaşlarının əksəriyyəti gedər-gəlməz olmuş ərlərinin yollarını hələ də ümid və intizarla gözləyirlər. Onlardan biri də əri cəbhəyə göndərilərkən 40 günün gəlini olmuş dayım arvadı Nənəbacı xanımdır. Bu cür ilahi sədaqətinə görə onların qarşısında diz çökür, Qarabağ savaşı və Xocalı soyqırımı zamanı əsir düşmüş qadınlarımızın önündə acizliyimizə... görə əzab və xəcalət çəkirəm.*

O gün sənin çıxmaz heç vaxt yadından,
O gün sənin qara baxtın yazıldı.
O gün sənin qismətinin yanında
Qara lövhə, qara yazı asıldı.

Üzündəki həya, abır pərdəsi
O gün səni görüşməyə qoymadı.
Öz-özünlə hey danışıb ağladın,
Nə dil-dildən, nə göz-gözdən doymadı.

Heç bilmədin gəlin oldun, qız qaldın,
Səadətin gedər-gəlməz quş oldu.
Bu gün, sabah saya-saya qocaldın,
Bir ömürlük ayrılığa tuş oldun.

Əlli ildir yollar əzir gözünü,
Ayrılıqda mürüvvət yox, aman yox.
Yetər daha aldatdığın özünü,
Daha onun gəlməyinə güman yox.

Ümid dolu məktubun var, nə qədər,
Hər kəlməsi, hər cümləsi bal dadır.
Bu məktublar, bəsdir səni üzdülər,
Bu məktublar, anam, səni aldadır.

Dedin - onu yuxularda görürəm,
Ölənəcən gözləyərəm yolunu.
Dedin - o da narahatdır, bilirəm,
Gör nə vaxtdır görməyir öz dulunu?

Bilə-bilə qurban etdin ömrünü
Həsrət dolu, xiffət dolu illərə.
Kaş qayıda o qırx günün bir günü,
Kaş yığışa sevgililər bir yerə!

Sənin ömrün bir sədaqət yoludur,
Sənin ömrün bir örnəkdir millətə.
Sənin kimi qız-gəlinlər doludur,
Qurban olum sizdə olan qeyrətə!

Ay yurdumun səbri ümman ər qızı,
Dözüm sənin varlığında ucalır.
Başım üstdən asıb qanlı qılıncın,
Düşmən yenə diş qıcadır, bac alır.

İndi Vətən tamam ayrı dardadır,
İndi yenə çəkirik yüz zilləti.
Baxın, görün, bu kişilər hardadır?
Siz qaldırın ayağa bu milləti.

Xalta saldıq qaçqınların boynuna,
Çatmırkən öz boynumuzun halqası.
Alıb indi məmləkəti qoynuna
Sanki milli qeyrətsizlik dalğası.

Şərəf, qürur tapdalanar, yolunda
Malımızı, canımızı qoymasaq.
Tanınmarıq, sayılmarıq bir an da,
Biz özümüz özümüzü saymasaq.

Gör nə qədər qız-gəlin var əsirdə?
Bu bir Tanrı sınağıdır bəlkə də.
İmkanlımız ömür sürür qəsrdə,
İmanlımız pul xərcləyir Məkkədə!

Kasıb qardaş, qalx ayağa, irəli,
Yenə sənsən bu diyarın pənahı.
Bir yurdu ki, qorumursa əsgəri,
O torpaqdan üz döndərər Allahı.

Ey balıncı daşdan olan bahadır,
Ayılt çaşan, yolun azan milləti.
Axı, hər cür ləyaqətdən ucadır
Namus yükü, ana-bacı qeyrəti!

Ciyərlərin əgər nəfəs alırsa,
Dırnağınla qoru türkün adını.
Yaşamağa yox haqqımız, qalırsa
Əsirlikdə Azərbaycan qadını!

...Ana yurdun ləyaqəti qadınlar,
Darda olan yarınıza hay verin.
Sizdə olan o ismətdən, qürurdan
Biz, qeyrətsiz kişilərə pay verin!

*03.05.1998*

## CAVANLIQDA

Gördüyün yüz tərbiyənin faydası yox,
Qazanmasan hüsn-rəğbət cavanlıqda.
Uşaqlıqdan xəcillikdən, tənədən qorx,
Qoy özünə qədir-qiymət cavanlıqda.

Hələ nə çox gizli sirri təbiətin,
Bir ilahi açılması var hər hikmətin.
Gözəlliyi olduğutək duymaq çətin,
Yaranmasa qəlbdə heyrət cavanlıqda.

Yazılmamış qanunu var hər millətin,
Hünərli ol, dilə düşsün söz-söhbətin.
Yaş ötdükcə ləkəsini yumaq çətin,
Qorunmasa namus, qeyrət cavanlıqda.

Ayağını yerə çırpsan, torpaq yatar,
Yumruğunun zərbəsindən divar batar.
Zəhmindən fil təntiyər, pələng yatar,
Ram olmayan dəli qüdrət cavanlıqda.

Ovucunun istisində su qaynayar,
Bərk yapışsan daş ovular, dağ oynayar.
Kürək versən bənd bağlanar, çay dayanar,
Qolda qüvvət, dizdə qaqət cavanlıqda.

Bir ümid var sonluğunda hər zillətin,
Zor dayanır arxasında hər taqətin.
Gündən-günə bu kiçilən məmləkətin
Xilasıyçün göstər cürət cavanlıqda.

Yatmasa da ipə-sapa cavanlıqda,
İnsan gərək yolun tapa cavanlıqda.
Hər şey gərək qazanıla cavanlıqda,
Həm var-dövlət, həm şan-şöhrət cavanlıqda!

*Mart, 2000*

## EY MƏNİM MÖHTƏRƏM PREZİDENTİM

*Bir gün, qələminə və şəxsiyyətinə hörmət bəslədiyim yazıçı dostlarımdan birisi mənə zəng edib bildirdi ki, xalq artisti Mikayıl Mirzə Heydər Əliyevə həsr edilmiş şerlərdən ibarət kitab-albom hazırlayıb, onu prezidentin 80 illik yubileyinə töhfə olaraq buraxdırmaq istəyir.*

*- Təcili sən də bir şer göndər, ora daxil edək.*

*Dostum kitabın neçə nəfis buraxılacağını, şair olub-olmayan kimlərin, kimlərin orada «ürək sözlərini, istəklərini» ifadə edəcəklərini özünəməxsus tərzdə eyham və yumorla diqqətimə çatdırdı. Mən gülümsəyib ona acizliyimi biruzə verdim:*

*- Axı, sən bilirsən, mən bu səpgidə şerlər yazmıram.*

*O isə fikrindən dönməyərək israrla, - yox, yazmalısan, bu cür xahişlə bir neçə şair dostlara müraciət etmişəm. Çünki burada elə cızmaqaralar yazıb-yaratmaq istəyənlərin imzası var ki, mən o şerdən xəbərsiz ədafların bəzilərini utandırmaq, bəzilərini də çıxdaş edib kənarlaşdırmaq istəyirəm. Hökmən deyil ki, Prezidentə boğazdan yuxarı tərif və ya mədh yazasan. Ümumən vətən, dövlətçilik haqqında və onun böyük işləri barədə bir şey fikirləşmək olar. Əsas odur ki, yazılan həqiqi şer olsun.*

*Mən, artıq zarafatla - mənim şerim orada getməz – söylədim. O eyhamımı başa düşüb - elə yaz ki, getsin də - dedi. Və əlavə etdi ki, bu kitabın yüksək səviyyədə təqdimatı olacaq. Burada sənin bilmədiyin vacib məqamlar var, mütləq bir yazı yaz, - deyə, bir daha ərkyana təkid etdi.*

*- Fikirləşərəm - söylədim. Doğrudan da fikirləşdim, çalışdım, çünki artıq konkret fakt məni tutmuşdu. Və bir neçə gündən sonra bu şer yarandı. Əlbəttə, ora təqdim olunmaq üçün yox! Öz gələcək kitabıma daxil etmək üçün.*

Ey əzabkeş xalqın qəhrəman oğlu,
Kimsə keçə bilməz keçdiyin yolu.
Vətənin qırx ili adınla bağlı,
Ey mənim möhtərəm Prezidentim.

Biz elə bilirdik pənahımızsan,
Çin olar arzumuz, sabahımızsan.
Nə bilək ağrımız, əzabımızsan,
Ey mənim möhtərəm Prezidentim.

Ev yox, məşğulluq yox, istirahət yox,
Harın zənginlərsə qədərindən çox.
Bir qalx, bu millətə öz gözünlə bax,
Ey mənim möhtərəm Prezidentim.

Qış gəlir, paltar yox, nə tapıb geyək,
Qazan boş, gödən ac, nə alıb yeyək?
Bəlkə bu günçün də «çox sağ ol» deyək,
Ey mənim möhtərəm Prezidentim?

Bir soruş bu xalqın məzlum halını,
Axı, doğrultmadın etimadını.
Ehtiyac qul edir indi hamını,
Ey mənim möhtərəm Prezidentim.

Elə düşünmə ki, nankor, dəliyəm,
Ya da əqidəsiz, əliəyriyəm.
Bu cür düşünən çox, mindən biriyəm,
Ey mənim möhtərəm Prezidentim.

Yanında naqis çox, naqisləri qov,
İkiüzlüləri, xəbisləri qov,
Qov-qov ətrafından bu pisləri qov,
Ey mənim möhtərəm Prezidentim.

Onlardır kütləyə divan tutanlar,
Onlardır günahsız qana batanlar.
Onlardır sənə də yalan satanlar,
Ey mənim möhtərəm Prezidentim.

Vallah, bu məmurlar caydırır səni,
Naziri, başçısı, lap cangüdəni,
Bütün aləm bilir, bilmirsən yəni,
Ey mənim möhtərəm Prezidentim?

Çoxunun dediyi qətiyyət, hökm,
Əyilir önündə prokuror, hakim.
Bu cür azğınları ram edər bəs kim,
Ey mənim möhtərəm Prezidentim?

Mədh deyənlərin nəfəsi yalan,
Hamısı pay uman, vəzifə uman.
İnanma onlara, inanma aman,
Ey mənim möhtərəm Prezidentim.

Sən ey dünya görmüş, ixtiyar qoca,
Şöhrəti bir əsrə bərabər qoca.
Bu qədər günahı kim yuyar, qoca,
Ey mənim möhtərəm Prezidentim?

Hər il eyni sözü deyirsən açıq:
- Bu il torpağları qaytaracağıq.
Yoxsa biz gözündə hələ uşağıq,
Ey mənim möhtərəm Prezidentim?

Qarabağ savaşı – gün kimi aydın,
Səni aldatdılar, vaxtı uzatdın.
Bəs iç tədbirləri niyə yubatdın,
Ey mənim möhtərəm Prezidentim?

Bununçün qüdrətin qədərincədir,

Ölkədə sərvət də yetərincədir.
Ətrafın «şişdikcə» kütlə «incəlir»,
Ey mənim möhtərəm Prezidentim.

Niyə dərk etməyir bu kor ağalar,
Hər şeyin bir sonu, bir axırı var?
«Ac qalınca çapar» - demiş atalar,
Ey mənim möhtərəm Prezidentim.

Seçim önündəsən, hələ gec deyil,
Tükənir səbrimiz, millət gic deyil.
Xalq ayağa qalxsa, ordu güc deyil,
Ey mənim möhtərəm Prezidentim,
Ey mənim əzmli Prezidentim,
Xalqıtək dözümlü Prezidentim.

*Noyabr, 2002*

## MƏDHİYYƏÇİ YAZARLARA

*Şərəfli bir həyat yaşayın.*
**Məhəmməd peyğəmbər**

Ey mədhiyyə, şərəfnamə yazan yazarlar,
Doğrudanmı yazdığınız təbinizcədir?
Doğrudanmı sizə elə gəlir ki, ancaq
İqtidarın qəlbi geniş, ruhu incədir?

Bəs həyatın əsl üzü, acı reallıq,
Gözünüzü deşmirmi bu aclıq, səfalət?
Vicdanızın səsinə bir səs verin, barı
Məmləkətin harasında vardır ədalət?

Bir səf-nəzər eyləyin bu «seçilmişləri»,
Sərvətləri başdan aşan «xırda şahları».
Azğınlıqdır, quldurluqdur yurdda işləri,
Fəqət bircə şəxs yanında «yox günahları».

Bu yaralı məmləkətdə gündə çal-çağır,
Siz də ilham alırsınız sözdə hünərdən.
Bu minvalla Qarabağı geri alırıq,
Yox heç yerdə belə xalqdan, belə rəhbərdən.

Sərhəd qoyun fikrinizə, düşüncənizə,
Sındırmayın söz adlı o əlahəzrəti.
Haram olsun bu istedad, bu vergi sizə,
Mədhiyyəyə çevirərkən ciddi söhbəti.

Lazımdırmı bu qəlibsiz, duzsuz tariflər,
Bu qaçqınlıq, məhrumiyyət əzmirmi sizi?
Şöhrət üçün xalqa yalan satan mütriflər
Tarix silər yaddaşından hər birinizi.

Sözün də var öz meyarı, halal-haramı,
Məclislərdə qızışanda ayılın hərdən.
Gözümüzdən salmayın hər toyu, bayramı,
Bir utanın beşmərtəbə mədhiyyələrdən.

Biri deyir korifeydir, biri peyğəmbər,
Biri xalqın vuran nəbzi, coşan qeyrəti.
Dil boğaza qoymayan ey mütilər, yetər,
Sizə baxıb əcnəbilər söyür milləti.

Aman, Allah, tərifin də ölçüsü olar,
Bu minvalla müqəddəslər çıxacaq yaddan.
Qalmayıb bu asilərdə nə iman, nə ar,
Bu nütvəsi natəmizlər yaranır hardan?

Biz özümüz özümüzə qənim kəsilən,
Tərif sevən, mədh deyən dostlarıq, ey zat!
Bu səbəbdən əli yerdən, göydən üzülən

Unudulmuş insanlartək yaşarıq, heyhat!

*Fevral, 2002*

## YAZ LÖVHƏLƏRİ

*Xalq şairi Mirvarid Dilbazi Masallıda, təbiətin qoynunda yerləşən «Türkan» sanatoriyasında istirahət müddətini bitirib Bakıya qayıtdığı zaman həyətdə dayanaraq çiçəkli çəmənləri və yaşıl ormanları biixtiyar seyr edərkən, onu maşina əyləşməyə tələsdirənlərə – «Bu mənim Masallı təbiəti ilə, yəqin ki, son görüşümdür, imkan verin, doyunca baxım», - demişdi.*

*Doğrudan da, duyğulu insanları gözəllikdən ayırmaq çətin olur. Ruhu şad olsun.*

Ah, nə gözəl çiçəkləyib bu çəmən,
Bu güllərin ləçəkləri solmaya.
Hər ləçəyin üstündə bir damla şeh,
Butaların gözü yaşla dolmaya!

Gör necə də göz oxşayır bu çəmən,
Çəmən deyil, çiçəklərin çələngi.
Elə bil ki, bu yer üçün yaranıb
Təbiətin gül qoxuyan min rəngi.

Əcəb dadlı, ətirlidi bu çəmən,
Hər qönçədə bir arının bal payı.
Hər yarpaqda bir kəpənək əksi var,
Hər budaqda bir bülbülün harayı.

Ağ-qırmızı, al-əlvandı bu çəmən,
Bu allıqdan bir işıq çək, işıqçı.
Amma möhkəm qorunur ha, bu çəmən,
Qara palıd dörd yanında keşikçi.

Ovsunlanıb, sehrlənib gedirəm,
Mümkündürmü qəlbim burda qalmaya?
Bir də nə vaxt yolum düşər, bilmirəm,
Kaş həsrətin sonu ölüm olmaya,

*İyun, 2002, Masallı-Bakı*

## QIŞ ETÜDLƏRİ

Yağır dərəyə, düzə
Səmada üzə-üzə.
Hərdən çox ağır-ağır,
Hərdən şiddətlə yağır.
İndi çox yağdığından
Hər tərəf ağ görünür.
Yollar da, ağaclar da
Ağ örpəyə bürünüb.
Təbiət bir gecəyə
Dəyişib öz rəngini.
İtirib üstündəki
Hər qaranı, çirkini.
Bu ağ tülün altında
Torpaq hələ dincələr.
Bir azdan hər qarışdan,
Yeni zoğlar yüksələr.
Təbiətin, gör neçə
Bər-bəzəklü üzü var.
Hər günün öz havası,
Hər fəslin öz izi var.
Nə yaxşı, Tanrı bizə
Heyranlığa göz verib.
Yaşayıb yaratmağa,
Duyğu verib, söz verib.
İnsan dəyərləndirir,
Yaxşı-yaman hər şeyi,
Qışın öz ahəngi var,
Yazın öz gözəlliyi

*18.03.2001*.

## ALLAH QOYSA

Uşaq ikən arzuların qanadında böyüyürdüm,
Ən adi bir sevincimlə, uğurumla öyünürdüm.
Hər fikrimi, niyyətimi
ilk olaraq mən anama danışardım:
Böyüyəndə kim olaram, nə edərəm.
Hər hissimi, hər duyğumu söyləməyə çalışardım.
Hər dəfə də mənim yüz cür istəyimə
Anam ancaq bir ifadə işlədərdi:
Allah qoysa!
Nə söyləsəm – Allah qoysa,
Nə istəsəm – Allah qoysa!
Bu minvalla mənim uşaq yaddaşımda
iz salmışdı «Allah qoysa»,
Ümidimin, gümanımın fəzasına
yol tapmışdı «Allah qoysa».
İllər ötdü, mən böyüdüm,
Ömür yetdi yaşın yetkin hissəsinə.
Xəyal uçdu istəyimin zirvəsinə.
Könlüm quşu qanadlandı, butalandı duyğularım,
Ürəyimdə yüz həvəsim, coşub-daşdı qayğılarım.
Həyat məni azdıraraq qoydu yolun yarısında,
Acı ruzgar sıxdı, əzdi, məngənələr arasında.
Bir səs verən tapılmadı harayıma, «hey» səsimə,
Təslim oldum zaman adlı bir hakimin diktəsinə.
Unuduldu uşaqlığım, neçə arzum, neçə andım,
Öz-özümün qarşısında sarsılaraq mən utandım.
Bir zamanlar ürəyimdə gecə-gündüz at çapan «söz»,
Məni tez-tez Məlikməmməd nağılına aparan «söz»
Əriyərək cılızlaşdı, adiləşdi bir anlığa,
Çıxarmadı bir arzumu qaranlıqdan aydınlığa.

Nə fanatam, nə dindaram, nə sufiyəm, nə romantik,
Hər kəlməmdə, hər duyğumda var bir azca həyatilik.
Ürəyimdə bir az boşluq, bir az ümid, bir az inam,
Taleyə həm inanır, həm inanmıram.
Odur hərdən qayğı ilə gözləyirəm yeni ayı, yeni ili,
Nə Allahın xoş sabahı görünməyir,
nə arzumun son mənzili.

*Mart, 2002*

# VƏTƏN HAQQINDA YEDDİ ŞER

## EY VƏTƏN

*İlham Abdullayev musiqi bəstələmişdir*

Hələ tərifini verməsəm də mən,
Sənsiz olmamışam bir an, ey Vətən.
Mən sənin sinəndə məskən salmışam,
Sən mənim qəlbimdə, inan, ey Vətən.

Hələ can borcumu verməmişəm mən,
Hələ borcum nə çox önündə, Vətən.
Hələ xidmətimi görməmisən sən,
Ölərəm bir çətin günündə, Vətən.

Məni darda sına, çətində sına,
Haqqım yox adını danam, ey Vətən.
Mən sənin sıravi bir övladınam,
Sən mənim müqəddəs anam, ey Vətən.

Mənim Kəbəm də sən, Mədinəm də sən,
Bir daşın bəs eylər min heyrət üçün.

Bir ovuc torpağın yetər, ey Vətən
Yüzlərlə zəvvara ziyarət üçün.

Hissimsən, duyğumsan, şirin canımsan,
Tükənməz sevgindən yaranmışam mən.
Sən mənim ən ali komandanımsan,
Farağat əmrində dayanmışam mən!

*Oktyabr,1998*

## VƏTƏN

İstəsə canını, ver, sevgili yarındır Vətən,
Qırılar sınsa əgər, çünki vüqarındır Vətən.

Başa tac, qəlbə fərəh bil onu, hər anın üçün,
Ən müqəddəs qürurun, namusun, arındır Vətən.

Onun məğrurluğunu gözlə yox, qəlbində ara,
Ucalardan ucadır, zirvədə qarındır Vətən.

Doğmalar doğmasıdır, daim dolan dövrəsində,
Öz evindir, öz elindir, öz diyarındır Vətən.

Həm gözəllik, həm fəxarət, həm bol nemətdir sənə,
Əsl cənnət bağıdır, güllü baharındır Vətən.

O da bir cür Yaradan, gah qaldırar, gah endirər,
Fəxrəddin, qıl səcdəsin, hər ixtiyarındır Vətən!

*15.05.1998*

## HARDAN BAŞLANIR VƏTƏN

Ayaq basdım bu müqəddəs torpağa,
Məzarıstan, müşk-ənbərə batan yer.
Vətən oğlu, getmə burdan uzağa,
Bu məkandır əcdadımız yatan yer,
Dememişkən, burdan başlanır Vətən.

Bir tilsim var torpağında, daşında,
Vurulmuşam kələ-kötür hüsnünə.
Ovucla, qoy ürəyimin başına,
Ovucla, qoy gözlərimin üstünə,
Dememişkən, burdan başlanır Vətən.

Yaddaşında yaşadır yüz qərinə,
Soykökümüz görünür bu güzgüdə.
Cavanlıqda varmasaq da fərqinə,
Yaş artdıqca artıq ona sevgi də,
Dememişkən, burdan başlanır Vətən.

Əgər varsa əbədiyyət, axirət,
Demək burda «yaşayırlar» ölənlər.
Ən müqəddəs borcdur onu ziyarət,
Qoy eşitsin bizdən sonra gələnlər,
Dememişkən, burdan başlanır Vətən.

Axıtdıqca qanımızı torpağa,
Ruhumuzu çəkənlər var sınağa.
Qan qardaşım, canım sənə sadağa,
Qoyma onu yad tapdağı olmağa,
Dememişkən, burdan başlanır Vətən!

## VƏTƏN, VƏTƏN

Sən hansı arzudan, istəkdən yoğrulub yarandın,
Sən hansı duyğudan, sevgidən, həsrətdən doğuldun?
Bir aydın, günəşli, ulduzlu səmadan od aldın,
Böyüyüb gözümdə yer oldun, su oldun, göy oldun,
Vətən, Vətən!

Cənnətdir Qarabağ, Qonaqkənd, Xanbulan, Hacıkənd,
Ormanlar çəkibdir üzünə yaşıldan bir rübənd.
Dağ çayı zirvənin boynuna atılan ağ kəmənd,
Doymaram, gəzsəm də mən səni evbəev, kəndbəkənd,
Vətən, Vətən!

Sinəndə cəmlənib yerlərin, göylərin min rəngi,
Qoynunda qış-bahar göyərər güllərin çələngi.
Yeraltı, yerüstü sərvətin tükənməz, nə zəngin,
Bəs sənin qeydinə qalan kim, xeyrini görən kim,
Vətən, Vətən!

Nə vaxtdır səmanda naləli sədası var neyin,
Talanır, tapdanır sərvətin, qeyrətin, hər şeyin.
Qurbanlıq toğlunun bəxtinə bənzəyir taleyin,
Qırılsın qələmim, dəymirsə sənə bir köməyim,
Vətən, Vətən!

*05.04.2001*

## VƏTƏN FƏRYADI

Bir yaralı aslan kimi çəkildin geri,
İtkisinə, ağrısına saç yolan Vətən.
Həcv deyir indi sənə nakəsin biri,
Ünvanına söylənilir yüz yalan, Vətən,
Satqınların əlləriylə satılan Vətən.

Bu namərdlər sırasında pozuldu sıran,
Bu tülkülər arasında təkləndin yaman.
Bu xisləti murdarlardan diləmə aman,
Ədalətsiz döyüşlərə atılan Vətən,
Satqınların əlləriylə satılan Vətən.

Ötüşsə də ömrümüzün yüz ili belə,
Çiçək açmaz arzumuzun bir gülü belə.
Kimlər çəkir gözümüzə bu mili belə?
Qəhər olub gözlərimə, a dolan Vətən,
Satqınların əlləriylə satılan Vətən.

Sənin baxtın bir oyunmuş, əsrin oyunu,
Tarixini dəyişənlər dandı soyunu.
Bir Çaldıran döyüşü qur, çaldır toyunu,
Sərkərdəsi əsgərinə mat olan Vətən*,
Satqınların əlləriylə satılan Vətən.

Nə bir paltar, nə bir kəfən biçilməz belə,
Nə bir şərbət, nə bir zəhər içilməz belə,
Vətən adlı müqəddəslik kiçilməz belə,
Oba-oba yad ellərə qatılan Vətən,
Satqınların əlləriylə satılan Vətən.

Səndən qisas, imdad umur şəhid balası,
Gözləyirsən, səbr kasan nə vaxt dolası?
Kimlər verdi bu torpağı, kimlər alası?
Hiddəti də səbri boyda bir ümman Vətən,
Satqınların əlləriylə satılan Vətən.

Qeybdən mənə bir səs gəlir, ilahi bir səs,

---

* 1992-ci il may ayının 8-də Şuşa süqut edən gün Respublika Prezidenti və Ali Baş Komandan vəzifələrini müvəqqəti icra edən c. Yaqub Məmmədov televiziya ilə çıxış edərək xalqa bildirdi ki, mən üç gündür müdafiə naziri c. Rəhim Qaziyevi axtarıram, ancaq tapa bilmirəm. O, mənə tabe olmur.

İndiyəcən satıldığın, satqınlığın bəs.
Yurda dönük çıxanların başlarını əz!
Zəfər səsin eşidilsin Batıdan, Vətən.
Satqınların əlləriylə satılan Vətən.
Ədalətsiz savaşlara atılan Vətən.

*15.06.1997*

## ODLAR YURDUM

*Sərdar Fərəcov musiqi bəstələmişdir*

Torpağına gülşən dedik,
Ana dedik, Vətən dedik,
Bir cənnətdir sinən dedik,
Doğma diyar, Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Gül çiçəksən başdan-başa,
Çələng hörüb çəkək başa.
Çölün-düzün bir tamaşa,
Ey bəxtiyar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Gözəldir həyat,
Günlər bir büsat,
Gülür kainat
Sənin qoynunda.

Sehrindən qanadlandım,
Baba dağım, Savalanım.
Səsim səndə havalansın,
Ey ixtiyar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Bizdən qədim od-ocağın,

Bir aləmdir hər bucağın.
Abşeronda Yanar dağın,
Ey füsunkar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Sən sirdaşımız,
Qan yaddaşımız,
Qurban başımız
Daim yolunda.

Təbiətin əsrarəngiz,
Bir yanın dağ, biri dəniz,
Suyun büllur, göyün təmiz,
Ey xoşqərar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Murovdağda yağanda qar,
Astarada gülər bahar.
Qarabağda dağ-daş yanar,
Ey ecazkar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Şöhrətim, şanım,
Dinim, imanım,
Qoy qanadlanım
Asimanında.

Ormanlarda səf-səf bağlar,
Dərələrdə çaylar çağlar.
Qaynar gözlü buz bulaqlar
Göz oxşayar, Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Zərif, incə bir duyğusan,
Şirin arzu, sağ sayğısan,
Həm güvəncsən, həm qayğısan,
Həm ixtiyar, Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Adın andımda,
Sevgin canımda,
Olum yanında
Kaş hər anımda.

Başımızın tacı Vətən,
Hər dərdin əlacı Vətən,
Ey taleyi acı Vətən,
Köksü qubar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Nə qədər ki, yurd dərdi var,
Qəm qəlbimdə tutmaz qərar.
Xətainin ruhu naçar
Bizi tutar Odlar yurdum,
Azərbaycan, Azərbaycan.

Qüdrətin bəlli,
Qaldır bu eli,
Qoyma nisgili
Qala canımda.

*Aprel, 2001*

## ÖLDÜYÜN YER VƏTƏNDİR

Ey həmişə özünü düz, sözünü haqq sayan kəs,
Xoş gününün xatirinə millətini soyan kəs!
Ey torpağın satan satqın, ey yurduna qıyan kəs,
Qazandığın, topladığın murdarlanmış kəfəndir.

Yaman tutub gözlərini bu yalançı şöhrətin,
Nə cəbhədə bir nəfərin, nə qanında qeyrətin.
Sən daşı sərvətlərini, biz çəkərik möhnətin,
Bu çətinlik müvəqqəti, bu gün, sabah ötəndir.

Bu canavar xislətinlə ha dünyanı dolan, gəz,
Qərib yerdə keçən ömür onsuz da bəs eyləməz.
Ulun harda uyuyursa, o torpaqdır müqəddəs,
Olduğun yer Vətən deyil, öldüyün yer Vətəndir.

*21.12.1998*

## DƏRD DEMƏYƏ KİMSƏMİZ YOX

Böləndük neçə hissəyə,
Qaldıq azlar arasında.
Qoyduq sadəlövh kütləni
Kələkbazlar arasında.

«Allahu-Əkbər» söylədik,
Xalqı yalanla küylədik.
Həcci ziyarət eylədik
Allahsızlar arasında.

Məmləkətin haqsızı çox,
Anlamayır bir acı tox.
Dərd deməyə kimsəmiz yox,
Bu boz üzlər arasında.

Çox özünü yorma, könül,
Hər müşkülə varma, könül,
Mərhəmət axtarma, könül
Həris gözlər arasında.

Bu yurdsuz yurddaşlarımın,
Bu işsiz qardaşlarımın,
Zavallı soydaşlarımın
Qəlbim sızlar arasında.

*20.11.1998*

## AĞRIMA, ÜRƏYİM

*Nəriman Məmmədov musiqi bəstələmişdir*

Nə qədər arzum var səndən xəbərsiz,
Ağrıma, ürəyim, ağrıma hələ.
Mən yaşda insan yox dərdsiz, kədərsiz,
Ağrıma, ürəyim, ağrıma hələ.

Ömür hələ yarı yaşa çatmamış,
Solur gül çələngim, qışa çatmamış.
Nə qədər işlər var başa çatmamış,
Ağrıma, ürəyim, ağrıma hələ.

Hərə sağlığıma bir cür tost deyir,
Biri qardaş deyir, biri dost deyir.
Hər ürək həkimi hələ dost deyil,
Ağrıma, ürəyim, ağrıma hələ.

Körpəm də baxışın mənə tuşlayır,
Nəvaziş istəyir, sığal xoşlayır.
Qayğılı günlərim təzə başlayır,
Ağrıma, ürəyim, ağrıma hələ.

Hər sən ağrıyanda anam ağlayır,
Qısılıb bir küncə, sonam ağlayır.
Qaralır gözümdə dünyam, ağlayır,
Ağrıma, ürəyim, ağrıma hələ.

Sənə necə deyim, çox yanma belə,
Ancaq dar günümdür, dayanma hələ.
Aman, öz qanına boyanma hələ,
Ağrıma, ürəyim, ağrıma hələ.

Dünya işvəsində, naz-savaşında,
Çoxları kef çəkir altmışında.
Hələ nə görmüşəm mən bu yaşımda?
Ağrıma, ürəyim, ağrıma hələ.

Bir az möhlət eylə, könlüm həmdəmi,
Göstər dözümünü, qov dərdi, qəmi,
Bu nə imtahandır çəkirsən məni?
Ağrıma, ürəyim, ağrıma hələ.

Sənin döyüntündür mənə güc verən,
Ay eşqim-həvəsim, ay həyat çeşməm.
Gör neçə dost baxır, gör neçə düşmən,
Qoy sevgin dağ çəksin bağrıma hələ,
Ağrıma, ürəyim, ağrıma hələ.
Ağrın ürəyimə, ağrıma hələ.

*13-15.02.1998*

## TƏZƏ İL

*İlham Abdullayev musiqi bəstələmişdir*

Mücdələr gətirdin təzə günlərə,
Səpirsən torpağa ətir, təzə il.
Yolunu həsrətlə gözləyənlərə
Gəl, öz salamını yetir, təzə il.

Zəhmətlə ucalır bu ana torpaq,
Hünərlə qoyuruq dağ üstünə dağ.
Başımın üstündə üç rəngli bayraq,
Sən bizə səadət gətir, təzə il.

Xoş keçsin baharın, qarlı qışın da,
Günəş çələng olsun sənin başında.
Vətən torpağının hər qarışında,
Qələbə gülləri bitir, təzə il!

*1975*

## TANRI TÜRKÜ QORUSUN

*İndi də Balkanlarda albanlara (türklərə) qarşı bir savaş başlanmışdır. Böyük türk nicatını yenə də özündə və Tanrısında axtarır. Tanrı türkü qorusun!*

Siz ey türkü hərb ilə
Hədələyən haqqsızlar.
Bilinməz bu savaşda
Kim udar, kim uduzar.

Bu zaman kəsiyində
Qırılsa da yarısı.
Türkü məğlub olmağa
Qoymaz onun Tanrısı.

Kimsə qıra bilməmiş
Əzmini, qürurunu.
Min illərdir qoruyur
Ocağının qorunu.

Başında yüz qovğa var,
Önündə yüz qadağa.
Suçu oldu-olmadı
Türk çəkilir sınağa.

Ərzin hər bir savaşı
İzlər onun soyunu.
Taleyinə yazılmış
Didərginlik oyunu.

Bu ulu türk dünyası,
Yenilməzlər dövləti.
Hələ irəlidədir
Onun əsl qüdrəti.

Türk boz qurddan süd əmmiş,
Türk qorxmaz, türk cəngavər.
Cəsarətdə, cürətdə
Yox ona tay-bərabər.

Bu ad uğrunda hər an
Başımızı qoyarız.
Türk oğlu olduğundan
Daim şərəf duyarız.

Oxusun şərqisini
Qoy bu elim, ulusum.
Türk Tanrıya tapınmış,
Tanrı türkü qorusun!

*Aprel, 1999*

## MƏMMƏD ARAZ KARANDAŞI

*Xətainin qılıncını suvardım,*
*Məmməd Araz karandaşı göyərdi.*
**Məmməd Araz**

Nə yatmısan, qoca vulkan-deyən şair,
Qalx ayağa Azərbaycan - deyən şair,
Ömrü boyu qüssə, kədər yeyən şair,
Dərdi böyük, qəlbi qübar Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar Məmməd Araz.

Eşitdinmi, Vətən oğlu, at çiyninə yapıncını?
Yuxun qaçsın, çöldə-düzdə səngər qurub daşdan düzəlt balıncını.
Qoyma bir an korşalmağa öz qınında qılıncını,
Ər görəndə, nər görəndə düşmən susar Məmməd Araz,

Xətainin qılıncını suvar, suvar Məmməd Araz.
Yox haqqımız vəsf etməyə toy-mağarda Qarabağı,
Üzümüzə bir sillədir Topxananın hər yarpağı.

Kimlər verdi, kimlər satdı yağılara bu torpağı?
Ürəyimdən daş asılar, qanlar axar, Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar Məmməd Araz.

Nə müddətdir Vaqif çəkir cəbri orda,
Tükənibdir qız-gəlinin səbri orda.
Ağı deyir Ələsgərin qəbri orda,
Hamımızın gözləri kor, qulağı kar, Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar Məmməd Araz.

Yağı düşmən igidləri qollarından kəsir indi,
Hiddətindən Qoç Koroğlu at belində əsir indi.
Qarışdırıb yuxusunu, Həzi düşüb əsir indi,
Bundan ağır bir dərdmi var, bir günmü var, Məmməd Araz?
Xətainin qılıncını suvar, suvar, Məmməd Araz.

Çox başçılar min fənd ilə meydan açdı söz deməyə,
Öz başını qorumaqçün sus deməyə, döz deməyə.
Türk oğlu türk, dar günündə gəlməyəcək yad köməyə!
Yolumuzu tapmayınca olarıq xar, Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar, Məmməd Araz.

Çoxu gedib Həcc yolunda dilər keçsin günahından,
Möminləri nicat istər Xudavəndin dərgahından.
Zalımlara xətər yetməz məzlumların yüz ahından,
Haqq yolunda, din yolunda olduq biar,
Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar Məmməd Araz.

Xalqın yaşar dahisi sən, öndəri sən,
Söz mülkündə at oynadan hünəri sən,
Hayqır qalxsın çağırışınla Azəri sən!
Zavallı xalq qurtuluşu səndə arar, Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar, Məmməd Araz.

Tariximə abidədir şəhidlərin məzar daşı,
Torpağımın daş yaddaşı, taleyimin qan yaddaşı.

Yurdu talan olan şair, neyləyirdin karandaşı?
İndi yalnız silah verər yurda qərar, Məmməd Araz,
Xətainin qılıncını suvar, suvar, Məmməd Araz.
Məmməd Araz karandaşın bir də suvar,
Məmməd Araz!

*09.05.1997*

## NƏ YAXŞI Kİ, GƏLMƏDİNİZ

*Sizi deyib gəlmişəm, ey mənim*
*müsəlman qardaşlarım...*

**«Molla Nəsirəddin» curnalından**

Allah sənə rəhmət etsin, Mirzə Cəlil,
Görüm, qəbrin nurla dolsun, Sabir babam.
Nə yaxşı ki, bizi deyib gəlmədiniz,
Nə yaxşı ki, bu günləri görmədiniz.
Siz gedəndən dəyişməyib, babam, inan,
Ürək açan, göz oxşayan heç nəyimiz.
Səbr ilə, ümid ilə yaşayırıq hər birimiz.
Dəyişən bir tariximiz.
Ömür keçir yaxşı-yaman.
Zaman sanki həmin zaman,
Dövran elə həmin dövran.
Biz də o vaxt gördüyünüz
Elə həmin müsəlmanıq.
Arta-arta səbrimiz,
Azalıbdı tədbirimiz.
Yaşayırıq iqtidarda sözü keçməz,
Oxunmayan qəzetlərin bolluğunda.
Dayanmışıq müntəzirtək
Böyüklərin qulluğunda.
Qul oluruq gözlərini bərəldənə,
İnanırıq hələ ölü dirildənə.

Fürsət tapan didir, sökür bu dövləti,
Gör nə günə qalıb indi
Milyonçular səltənəti.
Babam, yenə hər meydanın,
Hər bazarın öz lotusu.
Bundan başqa yaranıbdır
Neçə-neçə neft lotusu,
Qaz lotusu, söz lotusu.
Hərəsinin arxasında
Bir partiya, bir dəstə var.
Kütlə üçün nə fərqi var
Müxalifət, ya iqtidar?
Məramları, məqsədləri
Qorumaqdır özlərini.
Görünməmiş bir hərislik
Tutub indi gözlərini.
Nə vecinə, düşmən tutub torpaqları,
Nə vecinə, əsirlikdə saralıbdır
Qız-gəlinin yanaqları.
Nə vecinə, soydaşının bir milyonu
Ev-eşiksiz, sərgərdandı.
Bu millətin torpaq satan,
Qadın satan oğulunda
Namus hanı, qeyrət hanı?
Sözdə yüz yol köçürürlər
Qaçqınları yurd yerinə.
Gözəl, rahat ev-eşik də
Vəd edirlər hər birinə.
Hamınızın güzəranı
bircə ilə yaxşılaşar söyləyirlər.
Min kələklə özlərini dövlət mənsəb,
Əhalini ümid yiyəsi eyləyirlər.
Bir siyasi mübarizə aparırlar
min vəch ilə.
Neçə-neçə sarsaqları məddahlıqçün
aldadırlar,

Neçəsinin qabağını saxlayırlar
hədə ilə, həcv ilə.
Qalan bütün çalışmalar, öhdəliklər
Səməd Mənsur söyləmişkən «bir rəngdir»,
Babam, sizin vaxtınızda olan kimi.
İndi yenə bu ölkənin sərvətini daşıyanlar
Özləriylə «firəngdir»*,
Tamam sizin vaxtınızda olan kimi.
Yoxdur hələ iqtidarın bir eləsi
Bu zavallı məmləkəti
Vətən sanıb, yurd biləsi.
Tapılmayıb hələ xalqın
dərd-sərinə qəlbdən yanan,
ətəyi pak bir yiyəsi,
Gəlib ona sirr açası, dərd deyəsi.
Özümüzə qənim olan qisas yaşar
Beynimizdə, elimizdə, köçümüzdə,
Əsl düşmən «çıxıb yaddan»,
Qalıb indi bir qıraqda,
Öz məkrində, hiyləsində.
Bizsə hələ düşmənləri
axtarırıq içimizdə.
Siz ey müdrik babalarım,
Sözlərimi yersiz sayıb gülməyiniz,
Hələ tezdir bizi deyib gəlməyiniz!..
Uyu-uyu, Sabir babam,
Uyu-uyu, Mirzə Cəlil.
Qoy qəbriniz nurla dolsun,
Kaş yeriniz behişt olsun.
Nə yaxşı ki, bu günləri görmədiniz,
Nə yaxşı ki, bizi deyib gəlmədiniz.
Nə yaxşı ki, gəlmədiniz,
Nə yaxşı ki, gəlmədiniz!

---

* «Молла Нясряддин» ъурналында вя о вахткы ядябиййатда «Гярб» бу жцр адланырды.

*1998*

## YERİYİN DÜŞMƏN ÜSTÜNƏ

*Savaşda zəfər qazanın.*
***Məhəmməd peyğəmbər***

*(Döyüşən əsgərlərimizə)*

Haydı igidlərim, cürət vaxtıdır,
Yeriyin, yeriyin düşmən üstünə.
Ya olum, ya ölüm - qeyrət vaxtıdır,
Yeriyin, yeriyin düşmən üstünə.

Yenə qan içində Turan, qardaşım,
Nə qədər yurd-yuvan viran, qardaşım.
Düşmənlə üz-üzə duran qardaşım,
Yeriyin, yeriyin düşmən üstünə.

Aldandıq vədlərə, "bu gün-sabaha",
Vaxt indi bizimçün hər şeydən baha.
Biz ala bilməsək, qayıtmaz daha*,
Yeriyin, yeriyin düşmən üstünə.

Yaşlılar xiffətdən düşdülər dərdə,
Getdi həya, abır, götürüldü pərdə.
Qız-gəlin o tayda, "qanunsuz ərdə",
Yeriyin, yeriyin düşmən üstünə.

İndi xalqın güvənc yeri sizsiniz,
Babəkin, Həzinin biri sizsiniz.
Bu ölü torpaqda diri sizsiniz,
Yeriyin, yeriyin düşmən üstünə.

---

* 90-cı illərin əvvəllərində erməni işğalçıları tərəfindən zəbt edilmiş 20% əraziyə işarədir.

İz salın Murovun ağ zirvəsinə,
Hay verin boz qurdun haray səsinə.
Hələ çox fırlanar dünya tərsinə,
Yeriyin, yeriyin düşmən üstünə.

Əzin düşmənləri, əzin, yeriyin,
Üzün başlarını, üzün, yeriyin.
Yarı qırılsaq da dözün, yeriyin,
Yeriyin, yeriyin düşmən üstünə!

*27.09.1998.*

## ÇAĞIRIŞ

*Qan vermək ən böyük səxavətdir.*

Eşit məni, soydaşım,
Dinlə bacım, qardaşım,
Aç xeyirxah əlini,
Yaxşılıq et birinə,
Yaşat qan yaddaşını,
Demə-dünya xalidir.
Donor kimi qan vermək
Qorxusuz və əzabsız,
Müqəddəs və alidir.
Hər damla donor qanı
Bir döyüşən fədai,
Bir oyanan taledir!

*1991*

## ÖMRÜN XƏZANI

Nə yaman köhnəlir bu ömür sarayım,
Taqətim tükənir, dizlərim bükülür.
Bir xəzan nəsimi saçımı darayır,

Ağaran ağarır, tökülən tökülür.

Ahəstə cismimi tərk edir min sərvət,
Arzuya, xəyala çevrilir eyş-işrət,
Əyilir şux qamət, büzüşür təravət,
Mən nələr çəkirəm, qəlb duyur, dil bilir.

Nə vaxtdır şahinim göylərdə süzməyir,
Məstanə baxışlar qəlbimi üzməyir.
Ruhumun yükünə bədənim dözməyir,
Nə qalantək qalır, nə ölən tək ölür.

Tükənir istisi ocaqda közümün,
Əriyir sağlamlıq, azalır dözümüm.
Mənim bu halıma ağlayan gözümün
Altından ruzgarın sürməsi çəkilir.

Dünyanın min dərdi çulğamış başımı,
Haqladım ömrümün peyğəmbər yaşını.
Bu qəsri yaradan ustadmı, naşımı?
Elə hey tikirəm, elə hey sökülür.

Fəxrəddin, fəsillər su kimi axışır,
Xoş keçən günlərin ömrünün naxşıdır.
Taleyin hökmüylə barışsan yaxşıdır,
Bu pünhan bildiyin dərdinə el gülür.

*İyun, 1997*

## İL AYRICINDA

Tarixin yaddaş arxivini gözləyirdi
Ömrümüzün daha bir ili.
Toxunub tamamlanan xalının
axırıncı ilmələrinə bənzəyirdi
dekabrın son dəqiqələri...

Bir azdan zamanın
ətəyindən yapışacaq,
Köhnə ilin hələ ki,
havadan asılı əlləri...
Yeni ilin ilk günü gəlirdi,
qarlı, küləkli bir yanvar səhəri.
Xəzan vurmuş yarpaqlar
Üstünə şahin şığıyan
kəklik balaları kimi
orda-burda gizlənirdi.
Bir ilin yığılıb qalmış
tör-töküntüsündən
Sanki yer də, göy də təmizlənirdi.
Təbiətin atılası nəyi vardısa,
Külək qabağına qatıb qovurdu.
Sulu qar yağırdı,
Dünya bum-buz su ilə,
əzab çəkə-çəkə,
öz-özünü yuyurdu,
deyəsən neçə əməli üçün
günahkar olduğunu duyurdu dünya.
bəlkə də bu yolla saflığını,
paklığını qoruyurdu dünya.
Yeni ili alnı açıq,
üzü ağ qarşılamaq üçün.
Eheey... yurddaşlarım,
Eheey... qardaşlarım,
Gəlin, biz də yumağa başlayaq
günahlarımızı.
Köhnə ildə saxlayaq
nöqsanlarımızı —
paxıllığımızı,
xəbisliyimizi, kinimizi,
bir də özümüzün özümüzə
qənim kəsilməyimizi.
Göylərə tutaq üzümüzü,

haqdan dərək nəfəsimizi.
Və bundan sonra
Tanrıdan umaraq əfvimizi,
Xoş arzularla mücdələyək
yeni günümüzü,
ayımızı,
ilimizi.
Açıq ürəklə, gülər üzlə
salamlayaq bir-birimizi.
Bəlkə, onda, özümüzə yox,
düşmənə kəsilək qənim,
Amin, yüz dəfə amin!

*31.12.1998 - 01.01.1999*
*Ramazan ayı*

## OXUCULARIMA

Ey mənim hörmətli oxucularım,
Ey mənim diqqətli oxucularım.
Siz mənim ən böyük güvənc yerimsiz,
Siz mənim min yerdə söykənc yerimsiz.
Əgər şerimdə bir işıq vardısa,
Bir söz xoşunuza gəlsə, hardasa,
Tənqid atəşinə tutun siz məni,
Min qovğa içinə atın siz məni.
Beləcə ayırın qorumu küldən,
Beləcə ayırın alağı güldən.
Dediyim sözümdə məni xar edin,
Duyğumu, fikrimi tarimar edin.
Sizdən incimərəm zərrə qədər də,
Sevinc arayaram mən bu kədərdə.
Açın gözlərimi, qoy pisi seçim,
Yaxşını, ortanı, naqisi seçim.

Hər yeni şerimin ilkin yarı siz,
Hər təzə matahın xiridarı siz.

Ey mənim sevgili oxucularım!
Ey mənim sayqılı oxucularım!
Tənqiddir meyarı şerə hörmətin,
Siz mənim sevimli müxalifətim.
Qovun, bu cığırda yol açım, gedim,
Qovun, qoy tövşüyüb qol açım, gedim.
Sıxın, nəyim varsa, çıxarın üzə,
Sizdə mizan təzə, tərəzi təzə.

Siz ey sədaqətli oxucularım!
Siz ey ədalətli oxucularım!

Əgər şerimdə bir misra yoxdusa,
Deyilmiş, çeynənmiş sözlər çoxdusa,
Şerim bir dərdlini ovundurmasa,
Bir gəncin qəlbində yuva qurmasa,
Sərraflar tapmasa bir bənd içində,
Demək, yanılmışam mən bu seçimdə.
Onda kitabımı atın qırağa,
Budur mənim üçün əsl qadağa.
Nümayişkaranə cırın, yandırın,
Özümü-özümə siz tapındırın.
Ey mənim qüdrətli oxucularım!
Ey mənim cürətli oxucularım!

Siz Allah, salmayın məni çətinə,
Mərifət xətrinə, ədəb xətrinə
Tərif istəmirəm heç birinizdən,
Yalançı təriflər saldılar gözdən,
Millətin nə qədər baş bilənini.
Özünü yurduna daş bilənini,
Qoyun daş yerində otursun müdam,
Budur əsl hörmət, budur ehtiram.

Mən ki, çox uzağam mədhsevərlərdən,

Şerim gözəllikdən, qəmdən, kədərdən,
Ya da xoş duyğudan yaza bilməsə,
Onda sözünüzü söyləyin kəsə.
O hökmün önündə daim hazıram.
Bir daha deмərəm şer yazıram!

*27.01.1999*

## BİZ HARA GEDİRİK

*Televiziyanın bəzi qərəzli*
*verilişlərinə baxarkən*

Biz hara gedirik bu yolla görən,
Millətin başında duranlar yazıq?
Sözdə zərbəmizdən sınır yüz kərən,
Çırmanıb iş görə bilməyə azıq.

İçimiz düşmənlə doluymuş bizim,
Ayazlar, rəhimlər, surətlər nə çox*.
Hərdən ekranlara bərəlir gözüm,
Hərdən kürəyimə sancılır yüz ox!

Hamı satqın imiş, dönükmüş, heyhat,
Hər gələn Vətənə düşmən kəsilmiş.
Mən belə düşünə bilmərəm heç vaxt,
Kimlər nanəcibmiş, kimlər əsilmiş?

Nə namus bilirik, nə qeyrət, nə ar,
Bu cür olan-qalan ümid də itər.

* XX əsrin son illərində müxalifət mövqeli siyasi aktivlər.

Düşməni içində gəzən iqtidar,
Düşməni içində tapdığın yetər.

Hərdən öz-özümə xoflanıram mən:
— Nə oldu bu xalqın övladlarına?
Başsız başçıların əfəlliyindən
Satdıq torpaqları dünya malına.

Gündə bir don alır, bir kostyum geyir,
Bu boz sifətlilər, yekə qarınlar.
Qaçqının, şikəstin payını yeyir,
Bu nazir quldurlar, başçı harınlar.

Onları ağrıtmaz əsir gəlinlər,
Onları üşütməz soyuq çadırlar.
Onlar dəbdəbəli evlərdə hələ
Ziyafət verirlər, rahat yatırlar.

Kütlənin üzünü görürlər ancaq,
Qara maşınların pəncərəsindən.
Bir milyon işsizsə yata bilməyir,
Öz ac körpəsinin ağlar səsindən.

Çətin anında da, xoş günündə də
Onlara qurbanlıq gərəkdi bizdən.
Heç biri anlamaq, qanmaq istəmir
Qara qanlar axır ürəyimizdən.

Yurdu dağılıbsa, oğlu ölübsə,
Bu millət necə də yasa batmasın?
Bir Cövhər Dudayev gərəkdir bizə,
Oğlunu əsgərdən üstün tutmasın.

Ey Vətən, gözləmə bunlardan kömək,
Sənin rəqibin çox, düşmənin çoxdur.
Bir vahid nöqtəyə vura bilməsək,

Bizim yaşamağa haqqımız yoxdur!

**2002-ci İlin Qışı**

Bakıda və məmləkətdə güclü qar yağdı.
Bir günün içində
Qara şəhərin hisli havası təmizləndi,
Qara yolları ağardı.
Şəhər sanki tamam dəyişdi,
Paklaşdı, başqalaşdı.
Amma bu qarın soyuğu
Paklığından çox oldu.
Əhali üşüdü,
İnsanlar bir-birinə qarışdı.
Qaydasında bildiyimiz çox işlər dolaşdı.
Evlərə işıq və istilik verən kişilər
Bir-birinə qarşı durdu, dalaşdı.
Çünki biri işığa qənaət etmək istədi,
O biri istiyə,
Nəticəsi gəlib çıxdı sakinlərə pisliyə.
Sən demə, daxildə əlavə israf üçün
Nə ehtiyat neftimiz var,
Nə ehtiyat qazımız.
(ancaq əcəb gəlir avazımız).
Axı, onları satırıq,
Paylayırıq, bağışlayırıq böyük və
müstəqil dövlətlərə.
Həm də bəzi «nüfuzlu kişilərmiz»
Öz xeyirləri üçün

Nefti, qazı göndərirlər
Daha neçə-neçə yerə!
Bəs necə milyonlar qazansınlar birdən-birə?!
Amma «qara qızıl» mədəni - Bakının
İşıqları hər gecə
Mürgü vurur məhəllə-məhəllə,
Küçə-küçə.
Biz də bürünüb paltoya,
Adyala,
Yorğana,
Büzüşüb çəkilmişik, hərəmiz bir yana.
Hamımız narahat və nigaranıq.
Ömrümüzə hakim kəsilib
soyuq, aclıq,
Və gecələr mütləq qaranlıq!
İşə bax, gərdişə bax,

Dünyaya neftini, qazını satan
Özü boğulur ehtiyacdan.
Biz necə vətənpərvərik, ay aman?!
Nə deyim, bəlkə də
Tanrıdan bizə sərvət yox
Qüdrət yox,
Dərd üçün verilib -
Hisi, tüstüsü özümüzün,
Rahatlığı, istisi ayrısının olan
«qara və mavi qızıl»!

*Dekabr, 2002*

## ÖMÜRDƏN NARAZI OLMAYAQ...

Ömürdən narazı olmayaq əbəs,

Həyata göz açan öləcək bir gün.
Qalsa da qəlbində arzu, kam, həvəs,
Zaman öz hökmünü verəcək bir gün.

Demə, səndən ötrü dəyişər ruzgar,
Nə bulud kövrələr, nə külək susar.
Sənə «Ömrüm», - deyən şəhla gözlü yar,
Özgənin üzünə güləcək bir gün.

Tapılar hər dərdin öz əlacı da,
Silinər qəlblərdən ağrı, acı da.
Sızlayan, inləyən ana, bacı da
Axan göz yaşını siləcək bir gün.

Ay ürək, dövranı sanma müqəssir,
İnsan hisslərinə əsirdir, əsir.
Vurulmaq bir bəla, sevilmək min sirr,
Dərd əhli dərdini biləcək bir gün.

*1974*

## MƏN BU ÖMRÜ YAŞADIM

Mən duyğumla bir doğuldum,
Duyğum mənim yaşıdım.
Gah sevincin daddım onun,
Gah möhnətin daşıdım.

Ulduzlar kəhkəşanında,
Milyon saya vuruldum.
Asimanın üzük qaşı
Günə, Aya vuruldum.

Kainatı anladıqca,
Heyrət etdim dünyaya.
Gördüm bir aləm yox bunca,
Vuruldum yaza, yaya.

Göydə buludlar kövrələr,
Ayaq altında xəzəl.
Qar yağışı üstələyər,
Qış payızdan da gözəl.

Hər fəslin öz mənası var
Zaman adlı biçimdə.
Məkan məni ovsunlayır
Bu cah-cəlal içində.

Bağlar boynuma qol salır,
Gülür arzum, diləyim.
Ayna göldə əksim qalır,
Axan çayda ürəyim.

Seyrə dalan bihuş olur
Gül-çiçəkli çəməndə.
Bülbülün gözləri dolur,
Arı şirə çəkəndə.

Quşun da öz aləmi var
Seçir qışı, baharı.
Gör necə nizamla uçur,
Qərib durna qatarı.

Təbiət bir möcüzəli,
Sirli, füsunkar gözəl.
Daim pakdı, bakirədi,
Qoymaz heç nəyə məhəl.

Dağlar əzmkar bir igid,
Yaşıl meşə pərisi.
Dərə boyu axan çayı
Boynunun mirvarisi.

Nə müşkül bir bəla imiş,
Bu sevda macərası.

Sinəsini cadar etmiş
Yer üzünün səhrası.

Yer bir sevgi ilahəsi,
Ay onun pərvanəsi.
Günəş kainatın şamı,
Daim yanmaq peşəsi.

Bu dünyanın ümmanı da,
Zərrəsi də bir hikmət.
Zaman-zaman açmasına
Yazılır yüz hekayət.

Vətən, mənə göylərindən
Sən hava ver bir udum.
Arzularım gül açınca
Sönməyəydi, kaş odum.

Gah dərədə sısqa bulaq,
Gah zirvədə qar olum.
Yıxılana arxa, dayaq,
Yiyəsizə yar olum.

Çox günləri itirmişəm,
Çox illəri ötürdüm,
Ancaq harda imkan oldu
Bağ əkdim, gül bitirdim.

Kimə, necə bacardımsa
Qayğı, diqqət yetirdim.
Məclislərə xoş söz dedim,
Təzə nəfəs gətirdim.

Hərdən çətin anlarımda
Neçə dostu sınadım.
Kimdənsə qayğı umanda
Öz-özümü qınadım.

Hərdən sərt üzünü gördüm,
Hərdən də mərd üzünü.
Mən həyatın hər üzünü,
Hər üzünü tanıdım.

Öz dövrüylə bir çəkilə,
Qoşalaşa, kaş adım.
Qarışa min-min daşına,
Heykəlləşə daş adım.

Bu göy uçduğum fəzadır,
Bu Yer qoşa qanadım.
Mən özümü bu torpaqda,
Bu diyarda sınadım.

Bu yer mənim Vətənimdir,
Bu yurd mənim yaşıdım.
Mən bu yurda sədaqətlə,
Məhəbbətlə yaşadım.

Mən bu ömrü itirmədim,
Mən bu ömrü yaşadım!

*May, 1998*

## TALEYİNDƏN, QİSMƏTİNDƏN QAÇ, GÖRÜM

*Ömür-gün köçdü, neynim,*
*Taleyim puçdu, neynim?*
*Qisməti paylayanda*
*Mənə bu düşdü, neynim?*

Ey Günəşin zərrəsindən bac alan,
İşıq olub aləmə nur saç, görüm.
Min çiçəyin qönçəsindən bal alan,
Bir qönçənin butasını aç, görüm,
Taleyindən, qismətindən qaç, görüm.

Ömür yolu tamam qurban-sadağa,
Kim nökərdir, kim yavərdir, kim ağa.
Hərəmizin önündə yüz qadağa,
Bu sədləri, bu bəndləri aş, görüm,
Taleyindən, qismətindən qaç, görüm.

Ey dünyaya hakimliyə əhd edən,
Süleymanlar taxt-tacına cəhd edən,
Ayı, Marsı, Asimanı fəth edən
Gəl, fələyin əlindən al bac, görüm,
Taleyindən, qismətindən qaç, görüm.

Sirli dünya yaranışdan tapmaca,
Kim düşünüb, kim öyrənir, kim aça?
Qoyub bizi qismət adlı Hərraca,
Bu afətin qıfılbəndin aç, görüm,
Taleyindən, qismətindən qaç, görüm.

Səninləyəm, tükü tükdən seçən kəs,
Ömür yolu min əzabdan keçən kəs,
Bir şirinçün, min acını içən kəs,
Səhv sandığın bu işdən aç baş, görüm,
Taleyindən, qismətindən qaç, görüm.

Umma yüz yol Xaliqindən əfvini,
Anla bir gün buraxdığın səhvini.
Kimlər görmüş təkəbbürün nəfini?
Məğrurluqdan başında bir tac görüm,
Taleyindən, qismətindən qaç, görüm.

Kəsilibmiş varlığıma dərd qənim,
Mən özümü tanıyandan dərd mənim.
Qələm çalan, qırılaydı qələmin,
Belə tale yazan yerdə, kaş görüm!
Taleyindən, qismətindən qaç, görüm.

Tale özü səhv paylanmış binadan,
Gör  nə qədər nakam, miskin, sərgərdan.
Bu bölgünü aparարkən, Yaradan,
De, sıxdınmı bağrına bir daş, görüm?
Axıtdınmı gözlərindən yaş, görüm?

Taleyindən, qismətindən qaç, görüm!
Taleyindən, qismətindən qaç, görüm!

*1996*

## DUZ-ÇÖRƏK QİYMƏTİ

*Yaxşılığına qarşı laqeydlik və ya yamanlıq gördükdə «Çörəyimin duzu yoxdur» deyib təəssüflənən bəzi saf və sadəlövh insanlara.*

Sədaqəti başına tac bilən dost,
Bu dünyada naxələf çox, gəda çox.
Çörək kəsən ona qiymət qoymursa,
Elə sanma çörəyinin duzu yox.

Ər kişilər süfrəsiylə tanınar,
Cılızların səxavətdə payı yox.
Qardaş, sənin çörəyinin duzu var,
Nakəslərin ləyəqətdə payı yox.

Hər kişinin işi deyil yaxşılıq,
Dam dolusu işıq verməz hər ocaq.
Bizdən sonra adımıza yaraşıq
Təmənnasız əldən tutmaq olacaq.

İndi biclik əyyamıdır, yox hörmət,
Dostun dostu aldatmağı əcəb dəb.
Doğmalığa, sədaqətə xəyanət
Nə ərlikdi, nə əxlaqdı, nə ədəb.

Diqqətinə laqeyidlikçün qəm yemə,
Kaş ruzin bol, verən əlin var olsun.
Yaxşılıq et ulu Tanrı eşqinə,
Əltutan ol, Allah sənə yar olsun.

İbadətdən irəlidir səxavət,
Bu sözümə kim nə deyir, qoy desin.
Duzdan öncə çörəkdədir hər hikmət,
Əsli olan ona hörmət eyləsin!

***

Süfrəndə yoxsa çörək
Dad verməz heç bir xörək.
Anadan əvvəl Vətən,
Qurandan öncə çörək.

Dost dostuna tən gərək,
Dost ürəyi gen gərək.
Sədaqət körpüsüdür
Dostla kəsilən çörək.

Mən aşiq duz-çörəyə,
Düz sözə, düz çörəyə.
Müqəddəs and içəndə,
Gəl tutaq üz çörəyə!

*May, 1999*

## NİYƏ BELƏ VƏFASIZSAN, ƏZİZ DOST

*Dostunu, ətrafını özünü sevdiyin kimi sev.*
**Musa peyğəmbər**

Söz xətrinə söz deməyə sözün çox,
Danışırsan «sədaqətli», «nəfsi tox».
Əməlində vədlərindən zərrə yox,
Niyə belə vəfasızsan, əziz dost?

Aldatmağa çalışırsan hamını,
Dost dostundan almaz rəqib kamını.
Mən ki, sənə qıyırdım öz canımı,
Niyə belə vəfasızsan, əziz dost?

Sən bu yola öyrəşmisən, deyəsən,
Elə bilmə aldadırsan yenə sən.
Qarışdırma kiminləsə məni sən,
Niyə belə vəfasızsan, əziz dost?

Neçə dəfə sınamışam səni mən,
Doğmam bilib qınamışam səni mən.
Çətin gündə tanımışam səni mən,
Niyə belə vəfasızsan, əziz dost?

Doğrudan da, nəzərində yadamsa,
Anlayardım xislətini haçansa.
Özü ayrı, sözü ayrı adamsan,
Niyə belə vəfasızsan, əziz dost?

Heç qıyarmı dost dostuna bu qəsdi?
Bu nə arzu, bu həvəs nə həvəsdi?
Bundan sonra etirafın əbəsdi,
Niyə belə vəfasızsan, əziz dost?

Dostluq ki, var üç almadır, biləsən,
İkisini gərək dosta verəsən.
Bu hikməti anlamazsan hələ sən,
Niyə belə vəfasızsan, əziz dost?

İndi səndən xatirə—bir quru səs,
Tənha payız yarpağı tək üşü, əs.
O əhdimiz, o andımız hanı bəs?
Niyə belə vəfasızsan, əziz dost?
Niyə belə vəfasızsan, əziz dost?

## BİLİNMƏZ

Dolan kainatın qızıl tasında,
Əvvəli görünməz, başı bilinməz.
Fırlanar bir sonsuz üzük başında,
Çevrəsi bağlanmaz, qaşı bilinməz.

O bir Aləmdir ki, zərrəsi bəsin,
Ona yol yoldaşı olmaq da çətin.
Bu yolda azacıq büdrəyən kəsin
Fəryadı dinlənməz, «kaş»ı bilinməz!

İlahi bir istək yatır hər əhddə,
Qoyma ömrün keçə möhnətdə, dərddə.
Daim gözəlliyi axtar vəhdətdə,
Gözü kor olanın qaşı bilinməz.

Haqqı sədəqədir fağır olanın,
Qəlbi qubar olar sağır olanın.
Ayıq ol, yuxusu ağır olanın,
Yerini, yurdunu daşı, bilinməz.

Cürəti olmasa əgər qanında,
Qılıncın korşaldar igid qınında.
Haqsız dövrlərin burulğanında
Ustadlar seçilməz, naşı bilinməz.

Hamıya ən böyük meyar-el gözü,
Ağbirçək öyüdü, ağsaqqal sözü.
Müdriklik-dünyanın o biri üzü,
Çeşməsi bulanmaz, daşı bilinməz.

Baxırsan, çox şeylər oxşardı üzdə,
Ha axtar, tapmazsan şəkəri duzda.
Bir gözəl saç açıb çimən hovuzda
Güzgü gözə gəlməz, kaşı bilinməz.

Cövhərdir, qiymətin bilsən hər anın,
Cənnətdir üzünə gülsən dünyanın.
Ürəyi sevgiylə vuran insanın
Sinni yüz olsa da, yaşı bilinməz.

Bir ilham pərisi gəzər içimdə,
Bir sevda dəmi var, dözər içimdə,
Tükənmiş bir səbr bezər içimdə,
Qəlbimdə hıçqırar, yaşı bilinməz!

## QƏLB HƏKİMİ

*Xəstəsinin səhhətini hər şeydən uca tuta bilən bütün həssas, duyğulu, vicdanlı və savadlı kardioloqlara ithaf edirəm.*

Mənim bir dostum var, gündə on kərə
Qəlbi sıxılana ilkin hay verir.
Ürəyi əzabla vuran kəslərə
Sağlamlıq bəxş edir, ömür pay verir.

O bir ad daşıyır, — ürək həkimi,
Bu adın şöhrəti, möhnəti sonsuz.
Min qəlbdə yaşayır ürək həkimi,
Min qəlbi sıxılan darıxır onsuz.

Yaranın, xoranın əlacı rahat,
Dalağı, böyrəyi kəsirlər asan.
Şəkəri endirmək olur o saat,
Ürəyi sağaltmaq — ağır imtahan!

Duyğudur, istəkdir ürəyə hakim,
İnsan öz-özünü aldada bilməz!
Qəlbində duyğusu olmayan həkim
Ömründə bir ürək sağalda bilməz!

Ürəyim üstündə çox gəzdirmə əl,
Əl ilə gəzdiyin tapılar asan.
Həkimlik dərdimi tapmazdan əvvəl
İnsanlıq dərdimi gərək duyasan!

Onun hər anını öyrən müfəssəl,
Qıyma ağrısını gizlicə çəkim.
Sən ürək həkimi olmazdan əvvəl,
Gərək qəlb həkimi olasan, həkim!

Bura qeyri-adi bir şəfaxana,
Əcəb də adı var, «Kardioloci».
Burda, kaş qatıla hər bir dərmana
Ürək oxşaması, qəlb nəvazişi.

Min sirr mənbəyidir hər müayinə,
Hər anın üstündə çatılsın qaşın.
Yığsan da yanıma yüz həb, yüz iynə,
Dərdimi sağaldan sənsən, qardaşım.

Deyirsən — yüz ot var ürək məlhəmi,
Mənə o otlardan sən, az yaz, həkim.
Qəlbinin odundan od götürməsə,
Ürəyim min otla sağalmaz, həkim!

Köksümdə infarktdan çapıq görəndə
Karıxma, diqqətli ol, qadan alım.
Narahat illərin ağır yüküdür,
Salıb ürəyimdə yol, qadan alım.

Ay dərdim əlacı, ay qəlb həkimi,
İkiqat duyğulu olsan, nə yaxşı.
Yurdun Həkərisi, Oxçusu kimi*,
Axıb ürəyimə dolsan, nə yaxşı.

Səninlə anlaqlı yolumuz kəsə,
Hər ürək həkimi duysa, nə vardı.
Ürək nahaq yerə incidilməsə,
Çoxu altmış yox, yüz yaşayardı.

Gəl, vaxtsız, vədəsiz görün yanımda,
Gəl ki, gəlişinlə azalsın qəmim.
Kədərli günümdə, dərdli anımda,
Ol ürək məlhəmim, ol qəlb həmdəmim!

Sənin hər gəlişin bir ürək sevinc,
Ümidin bir dünya səadət, həkim.
Yüz ürək həkimi işləyən yerdə
Sən qəlb həkimi ol, qəlb sağalt, həkim.

*24.08.1998*

---

* Həkəri və Oxçu çayları hal-hazırda düşmən tapdağında qalan torpaqlarda ən iri çaylarımızdır.

## BU GƏRDİŞ

*Öz yolunu heç azmadı bu gərdiş.*
***B. Vahabzadə***

Bir aqildir, min ixtiyar yaşında,
Bir zirvədir, zirvələrin başında.
Bəşər övladının qan yaddaşında
Saxlanıb qorunan andı bu gərdiş.

Bizə örnək etdi Nuh əyyamını,
İçirtdi Sokrata zəhər camını.
Min övrət əhd edən Süleymanının
Müqəddəs andını dandı bu gərdiş?

Ənəlhəqq söylərkən Mənsuri-Həllac
Yerdə edamına verildi rəvac.
Loğman öz dərdinə tapmadı əlac,
Kimlərin halına yandı bu gərdiş?

Neçə yol göstərmiş öz hünərini,
Kimsə tapa bilməz bərabərini.
Nəmrudun atəşi peyğəmbərini
Yandıran məqamda dondu bu gərdiş.

Tanınmaz düşməni, bilinməz dostu,
Ürəyi atəşdi, baxışı buzdu.
İsanı çarmıxa çəkəndə susdu,
Kimləri laməkan sandı bu gərdiş.

Bir ucu Asiman, bir ucu Yerdi,
Aqil də, nadan da gözündə birdi.
Bir gəda Əli tək nəhəngi sərdi[1]

[1] Möminlərin əmiri Həzrəti-Əliyə işarədir.

Qılıncdan süzülən qandı bu gərdiş.

Müqəddəs sandığın nə ki var, odur,
Ruhunu oxşayan novbahar, odur.
Biz bir rəiyyətik, ixtiyar odur,
Məlikdi, Sultandı, Xandı bu gərdiş.

Bir üzü işvə-naz, bir üzü sitəm,
Əcəb bəxtəvərdir onu vəsf edən.
Ölənlə əbədi köç edib gedən,
Körpəylə qayıdan candı bu gərdiş.

Odur rəvac verən əzəliyə də,
Odur rövnəq verən gözəlliyə də.
Əbədi sandığın əbədiyə də
Ən uzaq nəhayət, sondu bu gərdiş.

*1997*

## CAN, BACIM

*Ağlı kəsəndən ömrü məşəqqətlərdə keçmiş, olmazın əzab-əziyyətlə övladlarını böyütmüş və ömrünün ixtiyar çağında iki cavan oğlu namərd gülləsinə tuş gəlmiş, özü isə bundan xəbərsiz halda, orucluq ayının bir günü, sübh namazı vaxtı əllərini uca göylərə açıb, ulu Tanrıdan qərib övladlarına iltimas diləyərkən, fəryad səsinə eyvana çıxıb həyətində iki tabut görən, lakin soyuq ağlını və müdrik düşüncəsini itirməyən, heç vaxt əqidəsindən dönməyən, ibadətindən qalmayan polad iradəli əziz bacım Reyhan xanıma dərin hüzn və məhəbbətlə ithaf edirəm.*

Dilim gəlmir sənə: — toxta, - deməyə,
Ağla, bacım, sızla, bacım, yan, bacım.
Necə baxdın sən o müdhiş səhnəyə,
Kaş dolaydı gözlərinə qan, bacım?!
Ağla, bacım, sızla, bacım, yan, bacım!

Boyanmışdı al qanına hər biri,
Yandırırdı qan tabutu, qan yeri.
Yubanırdı sökülməyə dan yeri,
Həyətində sökülürdü dan, bacım,
Ağla, bacım, sızla, bacım, yan, bacım!

Uşaqlıqdan min əzaba alışdın,
Kirpiyində od götürdün, alışdın,
Sən taleyin hər hökmüylə barışdın,
Kübra bacım, Bəyim bacım, Xan bacım.
Ağla, bacım, sızla, bacım, yan, bacım!

Orucluqmuş o günləri, sən demə,
Oruc tutdun, zəkat verdin, xeyri nə?
Sübh namazı yalvararkən Rəbbinə
Övladların can verirmiş, can, bacım,
Ağla, bacım, sızla, bacım, yan, bacım!

Gör nə böyük əzab verdi o nakəs,
Ölüb getdi Rəyasətlə hər həvəs.
Nə var imiş bu dünyada müqəddəs?
Bütün ülvi hisslərini dan, bacım,
Ağla, bacım, sızla, bacım, yan, bacım!

Ötər aylar, qovuşacaq il-ilə,
Füzulidən qalar acı xatirə.
Yuxularda qovuşarsız bir yerə,
Yuxuları ömrünə pay san, bacım,
Ağla, bacım, sızla, bacım, yan, bacım!
Kübra bacım, Bəyim bacım, Xan bacım!

*Fevral, 1997*

## AXTAR

Şəbnəmi güldə,
Şəkəri dildə,
Sevgini eldə,
Qiyməti ləldə axtar.

Laləni düzdə,
İsməti üzdə,
Heyrəti gözdə,
Hikməti sözdə axtar.

Sonanı göldə,
Turacı çöldə,
Hiddəti seldə,
Atəşi küldə axtar.

Ləzzəti aşda,
Qüvvəti xaşda,
Sərtliyi daşda,
Qüdrəti başda axtar.

Məstliyi meydə,
Naləni neydə,
Caynağı leydə,
Fələyi göydə axtar.

Paklığı qarda,
Şirəni narda,
Muğamı tarda,
Dostluğu darda axtar.

*17.04.1998*

## OLMUR

Bu külü qorunda yanan dünyanı,
Qanırsan olmayır, qanmırsan olmur.
Göz yaşı üzündə donan dünyanı,
Danırsan olmayır, danmırsan olmur.

Yaddaşı süzgəcdən keçirib hərdən
Qəm simi üstündə köklənir sinən.
Neçə dost — doğmanı özünə düşmən
Sanırsan olmayır, sanmırsan olmur.

Bir də görürsən ki, yetkin yaşında
Bir sevda şimşəyi çaxır başında.
O, adı pünhanın naz savaşında
Yanırsan olmayır, yanmırsan olmur.

Özün bir yerdəsən, könlün min yerdə,
Keçir səksəkədə vaxt da, ömür də.
Fikirdən, xiffətdən düşəndə dərdə,
Sınırsan olmayır, sınmırsan olmur.

Tanı dövrün «böyük» insanlarını,
Dinlə bər-bəzəkli yalanlarını.
Ömrün hədər keçmiş bu anlarını
Anırsan olmayır, anmırsan olmur.

*Noyabr, 1997*

## HƏR CANIM AĞRIYANDA

Hər canım ağrıyanda
Özümə yer tapmıram.
Gəzirəm ev-eşiyi,
Səhərəcən yatmıram.

Çox küsəyən oluram,
Tez çıxıram özümdən.
Həyat maraqsızlaşır,
Ömür düşür gözümdən.

Gəlir hər xəstəlikdən
Bir acizlik qoxusu.
Yaman ağrıdır məni
Gərəksizlik qorxusu.

Ən çox çəkindiyim hal —
Umu, ələbaxımlıq.
Mənə qismət olmasın,
Bu cür qayğı, yaxınlıq.

Biri sayğı göstərir,
Biri məqsədli gəlir.
Kimi gizli sevinir,
Kimisi qüssələnir.

Bu sınaq xəlbirində
Hamı bir-bir ələnir.
Övladın da qiyməti
Çətin gündə bilinir.

İllər xəstəsi olan
İtirir marağını.
Əvvəlki doğmalar da
Almırlar sorağını.

İçimdə dərd, üzüntü,
Ürəyimdə min fikir.
Mən indi anlayıram
Qocalar nələr çəkir,
Tənhalar nələr çəkir!

*22.02.1999*

## ATA MƏHƏBBƏTİ

*Yox, yox ağlamadım namərd ölümçün,*
*Ağladım, atamı görmərəm bir də.*
***Zülfüqar Qodmanlı***

Mən atamı çox gənc ikən itirdim,
Mən atamı heç doyunca görmədim.
Nə atama bir xoş mücdə yetirdim,
Nə atama bir dəstə gül dərmədim.

Nə biləydim dünya belə kəcrəftar,
Nə biləydim əcəl belə sərt, qəddar.
Nə biləydim ölüm adlı o qatar
Qəfil gəlib, onu bizdən aparar.

Bir qayğısız tələbəydim, cavandım,
Düşünmürdüm dünyanın dərd-sərini.
Mən atamı itirəndə anladım
Ataların dağdan uca yerini.

O zamandan qəlbim yuva dərd üçün,
Bağrım başı göynəməsin, neyləsin?
Öz ömrünü xərcləyənim mənimçün
Heç görmədi zəhmətimin bəhrəsin.

Gecə-gündüz ağlayırdım o günlər,
İçimdə bir iztirab var indi də.
Kövrəlirəm, hər oğlumu öpəndə,
Hönkürürəm, hər yuxuma girəndə.

İndi qəbri son təsəllim, pənahım,
Karıxıram lal baxışı önündə.
Bu nə çətin imtahandı, Allahım,
Boğuluram qışın soyuq günündə?

Xəyalımdan çıxmır atam heç zaman,
Daşa dəymiş onsuz arzum, muradım.
Ən çox ona yanıram ki, bircə an
Mən atamın xidmətində durmadım.

*24.02.1999*

## ƏCƏB XOŞ GƏLDİN

*Bir səhər ayna qabağında saçımı darayarkən gicgahımda ağ tük görüb ani olaraq özümü itirdim.*

Ay naqafil gələn qonaq,
Əcəb xoş gəldin, xoş gəldin.
Di danışaq, əhval tutaq,
Əcəb xoş gəldin, xoş gəldin.

Donüb qaldım bir anlığa.
Nə tez qul oldum qulluğa?
Qədəm qoydum ahıllığa,
Əcəb xoş gəldin, xoş gəldin.

Qəlbimdə ümman sevincim,
Sanırdım ki, hələ gəncəm.
Tamam dəyişdi düşüncəm,
Əcəb xoş gəldin, xoş gəldin.

Ey sirri pünhan sərvərim,
Varmı yaşımdan xəbərin?
Qonaq gələn dərdü-sərim
Əcəb xoş gəldin, xoş gəldin.

40-ağlın ən coşqun yaşı,
40-zəkaya məhək daşı.

Ətəyindən tök bu daşı,
Əcəb xoş gəldin, xoş gəldin.

Hələ ömür bir tamaşa,
Gəl, dünyayla gir savaşa.
Qəm gətirmə başdan-başa,
Əcəb xoş gəldin, xoş gəldin.

Rəngindən görürəm bunu,
Geyinmisən əcəl donu.
Açma hələ bu oyunu,
Əcəb xoş gəldin, xoş gəldin.

Sən ki, ömür ölçüsüsən,
Sən də Allah elçisisən.
Əzrayıla köməkçisən,
Əcəb xoş gəldin, xoş gəldin,
Əcəl, xoş gəldin, xoş gəldin.

*20.02.1999*

## ÖZ YERİNİ BİLƏNDƏ

İnsan, ağlı dərk edəndə
Yaşayır bu dünyada.
Dözür neçə məşəqqətə,
Atır özün min oda.

Yaşamağın, yaratmağın
Əziyyətmiş mənbəyi.
Bircə qram balçün gəzir
Arılar min çiçəyi.

Bağrı qana dönməyincə
Vurulmaz bülbül gülə.
Sevilməkçün atır bəlkə
Dağdan özün şəlalə?

Təbiətin qəmzəsi çox,
Gah məkrli, gah naşı.
Hansı eşqdən axır görən
Buludların göz yaşı?

Öz-özünü ovsunlayır
Dünya naz-savaşında.
Bu duyğunun, bu heyrətin
İnsan durur başında.

Mələkləri göydən salır
Ərşə qalxan cəh-cəhi.
Yaradanı valeh edir
Yer üzünün əşrəfi.

Gözəllikdən doymur ürək,
Ha dolan, gəz yüz yeri.
Hər ürəkdə söz yeri var,
Hər çöhrədə göz yeri.

Xaliq özü yaratmışdır
İnsanı cah-cəlallı.
Hərə bir cür qiymətlidir,
Hərə bir cür maraqlı.

Nə gərəksiz bir şey vardır,
Nə də ki, tam yararlı.
Gəzir sənin atdığını
Kimsə əli çıraqlı.

Məclislərə yaraşıq ol,
El gözüdür hər biri.
Danışmağın öz yeri var,
Oynamağın öz yeri.

Həmişə xoş qarşılanmaz
Dəyərli söz, xoş əməl.
Köməyinə lüzum yoxsa,
Ağır otur, batman gəl.

Bir arzudur, bir istəkdir
Məqamında hər biri.
Sevinməyin öz yeri var,
Ağlamağın öz yeri.

İmkansızın əlindən tut,
Yara xeyir-şərində.
Ömür enər qürubuna
Dünya durur yerində.

Qoy ağzından gülab axsın
Danışanda, güləndə.
İnsan daha gözəl olur
Öz yerini biləndə!

*28.09.1997*

## QUQU XİSLƏTİ

*Çox qəribə bir həyat tərzi keçirən Ququ quşu yumurtasını ayrı bir quşun yuvasına qoyur və üstündə kürt yatmır. Öz yuvasında, yad yumurtalarını özününkündən seçməyən zavallı ana quş hamısının üstündə kürt yatır. Və qəribə bir təzaddır ki, Ququ yumurtalarında gələcək nəslin inkubasiya dövrü bir neçə gün tez bitdiyindən, həmin ana quş özününkü bildiyi Ququ balalarını yedizdirmək üçün qalan yumurtaların üstündən durur və nəticədə... öz gələcək balaları yumurtada ikən tələf olur. Və ya gözləri hələ yumulu Ququ balası yuvadakı yumurtaları, ya da doğma balaları arxası və ayaqları ilə itələyərək yuvadan bayıra atır.*

Çox qəribə xisləti var Ququ quşunun,
Ömrü boyu yuva qurmaz, bala çıxarmaz.
Yumurtası üzərində bir gün oturmaz,
Balasını ayrı bir quş böyüdər onun.

Nə bircə yol əməlindən usanar, doyar,
Nə düşünməz balasını bircə saat da.
Ayrısının hesabına nəsil artırar,
Bu minvalla ömür sürər Ququ həyatda.

Yaranışdan qoyulursa nütvəsi belə,
Deməkdünya rəvac verir kəmfürsətliyə.
Bu nə sirrdir, yumurtadan çıxmamış hələ
Quş balasın öyrəşdirir parazitliyə?!

Min əzabla yuva quran, yumurta qoyan,
Kürt yatan o ana quşun halına yazıq.
Xəyalında balasını bəslər anbaan,
Yuvasında arzusu puç, istəyi pozuq.

Bu cür murdar xislətiylə öyünən Ququ
Bundan sonra işlədəcək hələ çox günah.
Bu gün özgə yuvasında böyüyən Ququ
Sabah ayrı yuvalara salacaq tamah.

Ey hər işin haqq, ədalət sayan təbiət,
Bu haqqsızlıq qanundurmu, ya mübarizə?
Ey cənnəti, cəhənnəmi uyduran xilqət,
Hansı qüvvə aşılayır bu hissi bizə?

Bəlkə ali diqqətində hamımız birik,
Can alanla can verənlər doğulur əkiz?
Ulu Tanrım, görürsənmi nələr çəkirik,
Bu quldurlar, aldanmışlar dünyasında biz?

*İyun, 1999*

## BİLMƏRİK

*Öz şəxsi mənafeyindən ötrü xalqını*
*aldadan bəzi rəhbərlərə*

Aldadıb caydırma bizi,
Düşərik dilə, bilmərik.
Ürəyindən keçənləri
Qağam, biz hələ bilmərik.

Bir yenilməz dağsan hələ,
Yüz yerdə qurmusan tələ.
Salma bizi bu cəncələ.
Düşərik dilə, bilmərik.

Üzdə hamıya gülürsən,
Sözdə ölənlə ölürsən.
Özün çox yaxşı bilirsən,
Ölənlə ölə bilmərik.

Nə usanır, nə doyursan,
Erkəyi daldan soyursan.
Hər şeyə bir qulp qoyursan,
Biz səncən bilə bilmərik.

Səndən qeyri hamı bədnam,
Sən tədbirli, bizlərsə xam.
Belə getsə, ömrü tamam
Verərik yelə, bilmərik.

Özümüzü verdik günə,
Düşdük lap gülünc gününə.
Qorxuram, qeyrəti yenə
Atarıq çölə, bilmərik.

Yer-yurd tamam köçdü, baba,
Millət heydən düşdü, baba.
Ürəyimiz şişdi, baba,
Biz daha gülə bilmərik!

*14.07.1998*

## BU MİLLƏTİN DƏRDİ NƏ ÇOX

Bu millətin, gör nə qədər dərdi var?
Bu kütlənin ürəyində ah, qubar.
Sallaqxana keçisi tək aparar,
Bu milləti arxasınca iqtidar.

Bu milləti öz içində qanan yox,
Bu kütlənin halına bir yanan yox.
On illərdir yaşayır min vəd ilə,
Başçılarda mərhəmət yox, aman yox.

Bu milləti inandırmaq çox rahat,
Bu kütlənin işi indi hərəkat.
Qabağında “YAP”- çılar at oynadır,
Arxasında “AMİP”, “Cəbhə”, “Müsavat”.

Bu millətin sərvətini satan çox,
Bu kütlənin günahına batan çox.
İstibdada ram olmayan milləti
Dəyənəklə qabağına qatan çox.

Bir oyundur bütün bunlar, qadası,
Çalınarmı bu millətin havası?
Xalqın, yurdun qayğısına qalan yox,
Başçılıqdır başçıların davası,
Çoxlarının qəlbi iblis yuvası.

*10.1998*

## AĞLAYIR

*(və ya zamana ağı)*

*Əksər hissəsi bu gün aclıq və səfalət*
*içində yaşayan xalqıma*

İçimdə tonqal qalanıb,
Odum külümçün ağlayır.
Yaşı üzümdə iz salan
Gözüm dilimçün ağlayır.

Sönmüş arzu, itmiş inam,
Yox bir həmdərd, yox bir həyan.
Nə bağbanam, bağım viran,
Bülbül gülümçün ağlayır.

Gəlmədi cənnət gətirən,
Yetmədi Allah yetirən.
Hər saatı qəm ötürən
Günüm ilimçün ağlayır.

Gün görmədim mən də, anam,
Bezdim tamam, doydum cana.
Tənha qalmış qərib sonam
Ölü gölümçün ağlayır.

Hər iş çətin, hər şey baha,
Ümid hanı xoş sabaha?
Yaşamaqdan bezdim daha,
Qəlbim ölümçün ağlayır.

*Aprel, 1999*

## SƏNƏ ELƏ GƏLİR Kİ...

Sənə elə gəlir ki, düzünü sən deyirsən,
Birini biz deməmiş, yüzünü sən deyirsən.
İstər bir rəsmi məclis, istər ziyafət olsun,
Nə zaman gözləyirsən, nə məkan gözləyirsən,
nə məqam gözləyirsən.
Nə vaxt, harda istəsən, sözünü sən deyirsən,
Sənə elə gəlir ki, düzünü sən deyirsən.
Bu cür təkəbbürünlə əyri dönüb düz olmaz,
Çör-çöp yanan ocaqda kül yığılar, köz olmaz.
Biz uşaq deyilik ki, hər dəfə söylədiyin
Bər-bəzəkli sözlərin boş vədinə inanaq.
Çox natiqlər görmüşük, dildən pərgar, sən sayaq.
Elə ki, işlərinin axarı alınmayır,
Yadına biz düşürük, başlayır artistliyin?
Min cür vədə verirsən, min şirin söz deyirsən,
— Az qalıb çətinliyə, hər şey əlimizdədir,
Bir az da döz deyirsən.
Ona da döz deyirsən, buna da döz deyirsən.
Heyf, boş sözlərinə yetərincə dözmüşük.
Biz səni dinlədikcə özümüzdən bezmişik.
Elimizdən bezmişik, işimizdən bezmişik.
Sənə elə gəlir ki, düzünü sən deyirsən,
Birini biz deməmiş, yüzünü sən deyirsən.
Bir qulaq as, a qardaş, sən də eylə bir səbr,
Bizim də bir balaca axı, ağlımız kəsir.
Ətrafın kef-damaqda, qalanlar yetim-yesir.
Xalq adından danışma, el malından danışma,
Bəsdir qoyduğun bizi anlamazın yerinə,
Çoxu susur, danışmır, nəyinsə xatirinə.
Anlamaq çətin deyil pafoslu sözlərinin
Dolayı eyhamını, sətiraltı mənasını.
Tanrına bir üz çevir, etmə bizdən bu sayaq
Sərvət iddiasını, dövlət iddiasını.

Biz yaxşı bilirik ki, boş vədlər verə-verə
Özünü sən düşünür, sözünü sən deyirsən.
Sənə elə gəlir ki, düzünü sən deyirsən,
Sənə elə gəlir ki, düzünü sən deyirsən!

*1996*

## XUDAVƏNDƏ XİTAB

Tanrım, niyə kin yaratdın
İki qardaş arasında?
Ölümü də saxlayırsan
Göz ilə qaş arasında.

Sən beləmi mehribandın?
Adəmin tövbəsin dandın.
Övladların düşmən sandın,
Saldın savaş arasında.

Tanıtmamış qışı, yazı,
Ömrə yazdın vaxtımızı.
Sınayırsan baxtımızı
Zamanla yaş arasında.

Andıq səni ağır anda,
Əziləndə, yıxılanda.
Kirpiklərim sıxılanda
Sellənir yaş arasında.

Bütün zaman, məkan sənin,
Tamam yaxşı, yaman sənin.
Şübhə sənin, güman sənin,
Ha indi çaş arasında.

Gözün iti, ağlın dərin,
Nütvəmizdən var xəbərin.

Qoyma, iki peyğəmbərin
Qalaq çaş-baş, arasında.

Ey Laməkan, ey Porcəlal,
Yetər göndərdiyin zaval!
Boy atarmı körpə nihal,
İki sal daş arasında?

Xofun daim canımızda.
Məhəbbətin qanımızda.
Mələklərin yanımızda,
Sirrimiz faş arasında.

Dünya tamam pir olsun, qoy
Cənnət bizə yer olsun, qoy
Təriqətlər bir olsun, qoy
Quraq bardaş, arasında.

Eşit məni, Pərvərdigar,
Ürəyimdə min arzum var.
Nurun versin bizə qərar,
Sevinək, kaş arasında.

*Ramazan bayramı günü, saat $00^{45}$*
*29-30 yanvar - 1998*

## MİLLƏTİ BU HALA SALANA YAZIQ

*Azərbaycanın dövlətçilik tarixini öyrənərkən məlum olur ki, əsrlər boyu özümüz özümüzə qənim kəsilibmişik.*

Min ildir durmuşuq qardaş qəsdinə,
Araya nifaqı salana yazıq.
Hiylə yeridikcə düzlük üstünə,
Bizi dərdə salan yalana yazıq.

Dünyaya gələndən baxtsız gəlmişik,
Şahlıq arzusunda, taxtsız gəlmişik.
Bəlkə də əzəldən vaxtsız gəlmişik,
İlkin laylamızı çalana yazıq.

Bu bəla bizləri yeyib, hey gəzər,
Hərdən bişmiş xoşlar, hərdən çiy gəzər.
Keçi can hayında, qəssab piy gəzər,
Canının hayına qalana yazıq.

Bəxtsiz balaların bənizi solmuş,
Millətin yarısı millətə qulmuş.
Xeyirxah işlərə vaxt unudulmuş,
Xalqının halına yanana yazıq.

Azdıq yolumuzu duman içində,
Yaşadıq ümidlə, güman içində.
Bu sonu görünməz zaman içində
Beş günlük ömründən olana yazıq.

Əsirik biz də min əsir içində,
İgidlər hiddətdən əsir içində.
Dişi bağırsağın kəsir içində,
Aslanın qəfəsdə halına yazıq,
Milləti bu hala salana yazıq!

*Aprel – 1998*

## RÜŞVƏT

*Respublikamızda rüşvət indi ən yüksək həddə çatmışdır. Biz hamılıqla ona qarşı mübarizəyə qoşulmalıyıq.*

***Heydər Əliyev***

Hardan qondu dilimizə rüşvət sözü,
Hardan gəldi ağlımıza rüşvət özü?
Neçə-neçə ağlı dayaz, fikri sönük
Rüşvət alıb səhv eyləyir.
Rüşvət səni, rüşvət məni,
Rüşvət bizi məhv eyləyir.
Nə bir xof var içimizdə,
Nə bir qorxu canımızda.
Rüşvət hopub beynimizə,
Rüşvət gəzir qanımızda.
Rüşvət verir bu millətin
Paket satan, saqqız satan
Uşağı da, qocası da.
Rüşvət alır gücü çatan adisi də,
Alisi də, ucası da,
Rüşvət səsi gəlir indi
Müəllimlər otağından,
Rüşvət sözü asılıbdır
Neçə cərrah bıçağından.
Rüşvət alıb hökm eyləyir
Haqq-ədalət carçıları.
Rüşvət ilə taleləri,
Ünvanları dəyişirlər
Dövrümüzün mələk cildli,
Qurd xislətli falçıları.
Rüşvət alır, rüşvət verir,
Neçə başçı, neçə sədr, neçə nazir.
Qovluqlarda, portfellərdə

Hesabatdan, raportdan çox
Rüşvət yatır, rüşvət gəzir.
Gör nə qədər harınlayıb
Rüşvət ilə iş görənlər,
Dövrümüzün qəhrəmanı sayılırlar
İndi bu cür «başbilənlər».
Rüşvət alan hünər sayır
Necə rüşvət almağını,
Rüşvət verən fəxr sanır
Rüşvət verib vəzifədə qalmağını.
Rüşvət yıxıb bu milləti,
Halımıza yananlar az
Məsti-xumar olanlar çox,
Dərdimizi qananlar az.
Çünki hakim kəsiləndən
Bu sahibsiz məmləkətə,
Min təqiblə tutdururlar,
qovdururlar
Öz evindən, eşiyindən
Xalqa pənah olanları,
Nəfəsi də rüşvət olan,
nəfsi doymaz
Bu şərəfsiz vətəndaşlar.
El malını yiyəsiz görüb indi rahat
At oynadır bu boşluqda,
Yurdu talan edən «baş»lar.
Bu məsləksiz yaramazlar
Varlığımın tarixini
Yandırırlar rüşvət ilə.
Mənliyimi, vüqarımı
Sındırırlar rüşvət ilə.
Rüşvət üçün atasını,
Anasını atanlar var.
Rüşvət alıb vətənini,
Torpağını satanlar var.

Rüşvət üçün millətini dananlar çox,
Pullanaraq özün kişi sananlar çox.
Aman, Allah, yenidənmi formalaşır
Bu cəmiyyət, bu insanlar?
Bir tərəfdə yazıq kütlə,
Bir tərəfdə azğın «xanlar».
Özlərindən o tərəfi
Dərk etməyən bu nadanlar
Sürükləyir hamımızı fəlakətə!
Hara gedək şikayətə,
Kimdən kimə şikayətə?!
Dayan, başçım, oyan, xalqım,
Sənin halın məndən betər,
Mənim halım səndən betər.
Bu rüsvayçı halımıza
Dözdüyümüz yetər-yetər,
Bir qapı aç hürriyyətə,
Düz yol göstər bu millətə!
Belə getsə, az bir vaxtda
Başımızı əzər rüşvət.
Əldə deyil, cibdə deyil,
Manqurt kimi hamımızı tapdalayıb
Üstümüzdə gəzər rüşvət!
Ey əlində səlahiyyət olan cənab,
Rüşvət belə ayaq tutub
Yeridikcə dörd tərəfə,
Vicdanınla üzbəsurət dayanaraq
Öz-özündən soruşdunmu heç bir dəfə?
- Niyə susur prokuror,
Hara baxır mühafizə?
Bu ki, Xalqın tələbidir,
Bu Millətin tələbidir,
Bu Dövlətin tələbidir!
- Niyə susur prokuror,
Hara baxır mühafizə?..

Mübarizə gərək bizə, mübarizə.
İşimizdə mübarizə,
İçimizdə mübarizə,
Hamımıza, hamımıza mübarizə!

*1997*

## DOST ZARAFATI

*Dostlarının sevimlisi, xeyirxah insan,*
*Allah adamı İqrar Bədəlov üçün*

Bizim bir qarabağlı
Şirindil qağamız var.
Onu çox istəyirlər
Bütün dostlar, doğmalar.

Azdır hörmət qazanan
Bu cür cavan yaşında.
Görürük daim onu
Məclislərin başında.

Sədaqətdə nümunə,
Səxavətdə tayı yox.
Onun ürək dostları
Beşdi, ondu... sayı yox.

O, bizim qəlbimizdə,
O, bizim canımızda.
İstərəm görək onu
Daima yanımızda.

Bir baməzə dostumuz
Hərdən ona sataşır.
Deyir, hamıdan qabaq
İqrar onun dostudur.

Bər-bəzəkli deyimlər
Çox yerə ünvanlanır.
Qədərsiz, mədhlərdən
Başımız dumanlanır.

Həftəbaşı İqrardan
O bir qonaqlıq udur.
Bu kişi süfrəsində
Adi su da bal dadır.

Uzandıqca ziyafət
Təzələnir sağlıqlar.
Masabəyi İqrarı
Tərifləyir o ki, var.

Odur ki, ona kabab
Bizə pendir-çay düşür.
İqrarın işığından
Hamımıza pay düşür.

*08.03.1999*

## DƏMLƏR O DƏMLƏR İDİ

*Dəmlər o dəmlər idi,*
*Zaman ol zaman idi.*
**S.Ə. Şirvani**

*Ruhun şad olsun, ustad.*

Könlüm qan ağlayırdı, bağ-bağçam viran idi,
Gözlərim qəm dəryası, ürəyim şan-şan idi.
Getmişdi yari-gülrux, qismətim hicran idi,
Yetmişdi axır zaman, dörd tərəf tufan idi.
Məni şəhadət edən o idi, canan idi,
Dəmlər o dəmlər idi, zaman o zaman idi.

Ah, nə xoş günlər imiş, yar ilə ötən günlər,
Sevgi xatirəsində gül kimi bitən günlər.
Hər anı xoş macəra, aya, ilə tən günlər,
Heyf, geri qayıtmaz ömürdən itən günlər,
Vüsalı bal dadırdı, fərağı yaman idi,
Dəmlər o dəmlər idi, zaman o zaman idi.

Kimdir onunla görən, indi həmzəban olan,
Vəslindən kamyab olan, səsinə heyran olan,
Gəzdiyi yola, rizə yüz dəfə qurban olan?
Ay onun nuru ilə evi çıraqban olan,
Bizim qoşa ömrümüz ayrı bir dövran idi,
Dəmlər o dəmlər idi, zaman o zaman idi.

Heç ədalət görmədim, haqq ummaram mən daha,
Qaldım güman içində, dərd ucuz, xoş an baha.
Qırılmışdı inamım, ümid hanı sabaha?
Çünki müsəlman idim, üz tutmuşdum Allaha.
Sınmışdı şah vüqarım, şux qəddim kaman idi,
Dəmlər o dəmlər idi, zaman o zaman idi.

Hər ilhamlı anında, gələndə şerin dəmi,
Bir möcüzə yaratmış o əzimlər əzəmi.
Şamaxıda yaşadı, səsi tutdu aləmi.
Seyyidə rəhmət deyir Fəxrəddinin qələmi.
O ölməz söz sərrafı ayrı bir insan idi,
Dəmlər o dəmlər idi, zaman o zaman idi.

*22.08.1998*

## BACILAR

Yüz yol nazımızı çəkər, yorulmaz,
Yüz yol qayğımıza qalan bacılar.
Qardaşla sevincin bölməkdən doymaz,
Qardaş qadasını alan bacılar.

Ağrıyan görəndə bir yerimizi,
Özünə diləyər dərd-sərimizi.
Canından çox sevər hər birimizi,
Sevgisi tükənməzümman bacılar.

Daim üstümüzdə nəzəri, gözü,
Bizik güvənc yeri, bizik əzizi.
Anasız qardaşa ana əvəzi,
Dərdi ürəyində pünhan bacılar.

Əskilməz qəlbində mehr-məhəbbət,
Arzusu, istəyi, dözümü heyrət.
Qardaşdan umduğu bir quru diqqət,
Görməsə, can evi talan bacılar.

Nəfəsi müşk-ənbər, ürəyi kövrək,
Çiçək tək zərifdir, ceyran tək ürkək.
Naqafil, ürəyi yaz buludu tək
Bir incə məqamdan dolan bacılar.

Biz də yaranmadıq boş şöhrət üçün,
Yarandıq bacıya sədaqət üçün.
Kim desə qardaşlar ölmür sizinçün,
İnanın, yalandı, yalan, bacılar.

*29.01.1999*

## ŞƏKƏR QIZIM, BAL QIZIM

*Qızım Züleyxa üçün*

Arzuların qanadında doğuldun,
İsidirsən hamımızı odunda.
Nə xoş gündə, nə xoş anda doğuldun,
İki sevgi yaşadırsan adında.

Evimizin yaraşığı, sonası,
Başımızın ucalığı, tacısan.
Bir gör neçə ataların anası,
Bir gör neçə qardaşlara bacısan?!

Əmi, bibi sənə «anam» deyirlər,
Həm anamın əvəzisən, həm qızım.
Hərənin bir ulduzu var, deyirlər,
Sənsə mənim qoşa yanan ulduzum.

Harda olsam özümə yer tapmaram,
Eşitməsəm əgər o gün səsini.
Sən, ay mənim şəkər balam, bal balam,
Sevən varmı bu qədər körpəsini?

Hərdən səni çağıranda adınla,
Ürəyimdə xatirələr oyanır.
Qabağıma, gül balam, sən çıxırsan,
Xəyalımda doğma anam dayanır.

İki adı yaşadırsan özündə,
Hər birisi sehrlənmiş bir dünya.
Bu sevgidən bir məstlik var gözümdə,
Heç bilmirəm gerçəkdi bu, ya röya...

Yüz duyğuyla sənə bağlı ürəyim,
Mat qalmışam bu istəyə, arzuya.
Sən ey mənim cənnət quşum, mələyim,
Yuxudursa, qoy uzansın bu röya.

*11.01.1998*

## GÜL HEYRƏTİ

*Kür, sənə bənzəyən nəğməm olaydı.*
**Əli Kərim**
*Gül, sənə bənzəyən şerim olaydı.*
**Paşa Qəlbinur**

Gül, sənə bənzəyən şerim olaydı,
Gəzəydi dünyanı qarışbaqarış.
Hər qəlbdə, hər dildə yeri olaydı...
Sənin yaratdığın sevgiyə alqış!

Gül, sənə bənzəyən şerim olaydı,
İstək bəxş edəydi duyğusuzlara.
Gül, sənin həyatın ilahi paydı,
Müqəddəslik hara, laqeydlik hara?

Gül, sənə bənzəyən şerim olaydı,
Ancaq öz ömrünü yaşayaydı, kaş.
Sənət sorağında, söz meydanında,
Bir misra yükünü daşıyaydı kaş.

Gül, sənə bənzəyən şerim hardadı,
Bu bir arzu idi, xam xəyal idi?
Mən sənin önündə heyrətlənmişdim,
Təbim də qəlbim tək əhli-hal idi.

*13.06.1999*

## TOY GÜNÜ

*Nəriman Məmmədov musiqi bəstələmişdir*

*Çıxmışam bir çətin yola, ay Allah,*
*Şirinmiş hər şeydən bala, ay Allah.*
*Sən mənim ömrümdən kəsib illəri,*
*Balamın baxtına cala, ay Allah.*

Qovuşur taleyi iki cavanın,
Ürəklər fərəhlə döyünür bu gün.
Arzusu gül açır ata-ananın,
Nənələr, babalar öyünür bu gün.

Bəy oğlan qamətli, sağlam, ucaboy,
Gəlin şəhla gözlü, dodağı püstə.
Tanrı bəd nəzərdən hifz eyləsin, qoy
Üzərlik yandırın başları üstə.

Bu xoşbəxt anında, a dostlar, gəlin,
İçək sağlığına bəylə gəlinin.
Bu günkü izdivac təntənəsiylə
Təməli qoyulur bir ailənin.

Sən də bəy qardaşım, min dəfə sevin,
Şükür et taleyin bu qismətinə.
İsməti özündən gözəl sevgilin,
Qoy şərəf gətirsin ləyaqətinə.

Sultanlıq saydığın subaylıq dövrü
Çevrilsin əbədi bir xatirəyə.
Bağlan varlığınla, ülviyyətinlə
Yanında oturan məlaikəyə.

O bir nazəndədir, bir yaraşıqdır,
Oyna hər nazına, hər savaşına.
Onun hər gülüşü yaşıl işıqdır
Səni çatdırmaqçün arzu başına.

O, sənin qurduğun yuvaya gərək,
O, sənin udduğun havaya gərək.
Onsuz boğazından keçməsin çörək,
O, sənə həm arxa, həm dost, həm bəzək.

Gör necə kövrəlir, o, sərt qaynatan,
Sevinir, gözündən yaş axa-axa.
Bu istək hər hissdən güclüymüş, aman,
Qızın aparırsan o, baxa-baxa!

Kaş belə böyüyə bütün övladlar,
Kaş belə evlənə bütün subaylar.
Kaş belə öyünə bütün analar,
Kaş belə sevinə bütün atalar.

Qoy, bu toy hamıya xoş örnək olsun,
Mübarək, mübarək, mübarək olsun!

*Dekabr – 1996*

## MƏNİM DOĞULDUĞUM KƏND

*Dünyaya gəldiyim, uşaqlığımı keçirdiyim el-obama*
*və onun sadə insanlarına ithaf edirəm.*

Mənim doğulduğum uzaq bir kənd var,
Orda hər qarış yer mənə əzizdir.
Kəndin qabağından kiçik çay axar,
Suyu bulaq kimi safdır, təmizdir.

Mənim doğulduğum o kiçik kəndin
Çayının nə qədər bulaqları var.
Bulaqlar üstündə nəhəng ağaclar
Yayda dörd tərəfə kölgə salarlar.

Necə doğma idi o çayın suyu,
Yazın əvvəlindən orda çimərdik.
Tuqay meşələri dərələr boyu
Çaya da, bizə də keşik çəkərdi.

Bu nadir ağaclar yayda sərasər
Örtərdi çətir tək çayın üstünü.
Çimib oynayardıq axşama qədər,
Gündən qorunardıq isti yay günü.

Hərdən yapışıb bir quru kötükdən
Dərin sularına qırmaq atardıq.
Qorxmazdıq sürüşüb suya düşməkdən,
Həvəslə, ləzzətlə balıq tutardıq.

Çıxıb durardıq bir budaq üstündə,
Çayın yatağına qırmaq atardıq.
Elə olurdu ki, bəzən bir gündə
Hərəmiz beş-altı balıq tutardıq.

Bu sıx meşələrdə hərdən azardıq,
Gəlib yığılınca bulaq başında.
Dırmanıb bıçaqla adlar yazardıq
Dəmir ağacının budaqlarında.

Ocaq qalayardıq bulaq başında,
Bayram eyləyərdik həmin axşamı.
Çöldə bişirilən o balıqların
Tamam ayrı idi ləzzəti, tamı.

O qədər qaçardıq ocaq başında,
Yanağı yanardı neçə uşağın.
Bir göz qırpımında gümrahlaşardıq,
İçəndə suyundan «Böyükbulağ»ın.

Quş kimi çıxardıq o ağaclara,
Dələtək gəzərdik o budaqları...
Tamam o yerlərlə bağlıdır mənim
Uşaqlıq dövrümün şıltaq çağları.

Heyf, suyu şirin o gur bulaqlar
İndi ağlayırlar baxımsızlıqdan.
Bir vaxt bizdən bezən o şux budaqlar
Yolçunu səsləyir, sanki uzaqdan.

Heyf, o meşələr qırılır yaman,
Daha nə çimən var, nə də oynayan.
O çayın suyu da azalıb tamam,
Dəyişib təbiət, dəyişib zaman.

II

Deyəsən ayılıb eloğlularım,
Hərə çay boyunca bir çəpər çəkir.
Çəpər arxasından təzə pöhrələr
Yenə bəhsəbəhslə göyə yüksəlir.

Bəsləyin, böyüsün zərif nihallar,
Qoy, Qəni, Nəriman, Həsən... adıyla.
Doğmalıq görməsə tamam qırılar,
Qoruyun onları ürək oduyla.

Gümüşü suların yaşıl qolları —
Bu yamac meşəsi, bu çay meşəsi.
Dolsun həyətlərə, tutsun yolları,
Uzansın kənd boyu Tuqay meşəsi.

III

Mənim böyüdüyüm o kiçik kəndin
Böyüyü, kiçiyi sadə, mehriban.
Bölər dost-tanışla son tikəsini,
Edər qonağına evini qurban.

Nə qədər müəllim, mühəndis, həkim,
İlk öncə o kənddə məktəb bitirmiş.
Neçə söz sərrafı, el ağsaqqalı
O kəndin adına şöhrət gətirmiş.

Mənim fəxr etdiyim o kənd cəbhəyə
Nə qədər say-seçmə əsgər göndərmiş.
Sən demə, cəbhəyə oğul göndərmək,
Vətəni qorumaq qədər çətinmiş.

Mənim çox sevdiyim o doğma kəndin
İgid oğlanları, qəşəng qızları...
Ehey... uşaqlığım, gənclik illərim,
Sizi xatırladım, qəlbim sızladı.

Adı qəlbimdədir olsam da harda,
Yaşar istəyimin ucalığında.
İndi arzum budur: — yaşayam orda,
Ömrün qürubunda, — qocalığımda.

Ora ana yurdu, ata ocağı,
Müqəddəs ruhların uyuduğu yer.
Mənim də Tanrıdan bir umacağım, —
Allahım, hər kəsə öz yurdunu ver!

*Dekabr - 1998*

## DAĞLARIN

*Dindirməsən ağrı tutar başından,*
*Hirsləndirsən şimşək çaxar daşından.*
*Yer titrəyər, daş ayrılar daşından,*
*Deyərsən ki, dişi düşüb dağların.*

**Vahid Əziz**

Yaşıllığı yaraşıqdır yaşından,
Bulud-bulud göy tökülür başından.
Gözəllikdir daş qopubsa daşından,
Mən deməzdim dişi düşüb dağların.

Arzusu nə, istəyi nə, kim bilir?
Bulaqları həzin-həzin dindirir.
Çaylarını elçi kimi göndərir,
Ümmanlara işi düşüb dağların.

Sinəsindən qüvvət alan ağaclar,
Çiçəkləyər, ətirlənər hər bahar.
Zirvəsində mənəm-mənəm deyən qar
Ətəyinə hey sürüşüb dağların.

Mərdliyindən xəbərdardı görənlər,
Tarixə bax, yaradıbdı gör nələr?!
Bir-birini kölgə kimi güdənlər
Kol-kosuna çox ilişib dağların.

Dərdin sordum, ağrımadı cəfadan,
Söhbət açdı gözəllikdən, səfadan.
Daşlarından damcılanan vəfadan
Fəxrəddin də bir az içib dağların.

## XANBULAN

*Lənkəran-Astara yolunun 15-ci km-dən sağa dönüb 4,5 km yolu Xanbulan çayının yatağı boyu, əsrarəngiz mənzərəsi olan Talış sıra dağlarına qalxdıqca, füsunkar ormanların məxsusi yaraşığına tamaşa etməkdən doymamış, qıvrıla-qıvrıla dırmanan dağ yolları ilə irəliləyib Xanbulan dəryaçası ərazisinə yaxınlaşan nabələd seyrçi sanki qədim dini məxəzlərdə təsvir olunmuş cənnət bağına daxil olur. Birdən işıqlı üfüq kimi nəzərə çarpan, bu, meşəli dağların əhatəsində üç iri yataq boyu dərin dərələrə dolub daşmağa çalışan və öz görünüşü ilə, ilk baxışda, uçan quşun nəhəng əksini xatırladan, möhtəşəm, bir az da vahiməli, açıq-maviyə çalan, geniş yataqlı gümüşü sular gözəlliyindən havalanmış müsafirlərə heyrətedici bir sevinc bəxş edir.*

*Bu «ağzına su almış» dərələrin və «suda boğulan» dağların qorxunc sakitliyi, vahiməli görünən suların lal duruşu, ətrafdakı quru ərazidə hər ağacın, kolun, otun sanki yenicə yuyulub təmizlənərək müqəddəs bir paklığa məhkum olunduğu bu yer, təsiri altına saldığı hər bir duyğulu insanı istər-istəməz öz bənzərsiz gözəlliyinin tərənnümçüsü olmaq zorunda saxlayır. O məftunedici zorun qarşısında tab gətirməyənlərdən biri də bu sətirlərin müəllifi oldu.*

*Biz orada olan müddətdə, günün axırı, təbiətinə külək yad olan Xanbulana bir duman axını hücum çəkdi və suyun üstündə, bir metrə qədər hündürlükdə asılıb dayandı. Sakit sularda sanki bir canlanma yarandı. Dumanda sınan solğun Günəş şüalarından cuşa gələn Xanbulan suları yaraşıqlı sinəsində bir rəngarənglik yaratdı. Biz dəryaçanın yatağından addım-addım uzaqlaşıb yuxarı qalxdıqca, bu mavi müstəvi üzərində sayrışan şüalar da Xanbulanın gümüşü sularını rəngdən-rəngə salırdı.*

*Sonradan öyrənəcəyəm ki, sahəsi 280 hektar, dərinliyi 72 metr, su tutumu 52 milyon kub metr olan Xanbulan dəryaçası Lənkəran şəhərindən 100 metr yüksəklikdə yerləşir! Doğrudan da, füsunkarlığı qədər də qorxulu olan, vahimə yaradan görünüşə rəğmən, hədsiz cazibədar bu qənirsiz dağlar gözəlini mən də vəsf etməyə çalışdım.*

Nə füsunkar görkəmi var bu yerin,
Öz hüsnündən xəbərsizdir Xanbulan.
Dolub qorxunc dərələrdə dərinə,
Durğun sulu bir dənizdir Xanbulan.

Bəndə düşüb dağ çayının axarı,
Qərar tutub Lənkərandan yuxarı.
Səma kimi açıq-mavi suları,
Bulud kimi tərtəmizdir Xanbulan.

Gəl, yaxından, qalx, yüksəkdən bax ona,
Sən baxdıqca, o da girsin min dona.
Sığınıbdır yaşıl dağlar qoynuna,
Qənirsizdir, bənzərsizdir Xanbulan.

Göy otları gözü şehli gül kimi,
Örtür duman üzərini tül kimi.
Yağmuru da leysan kimi, sel kimi,
Ay üzlüdür, pakbənizdir Xanbulan.

Burda zəhmət ətirlidir hər qarış,
Yaradana borcludur hər yaranış.
Xanbulanı tikənlərə min alqış,
Silinməyən izimizdir Xanbulan.

Təbiətin bu ecazkar qüdrəti,
Yaradıbdı özü boyda heyrəti.
Qəlbimizə həkk olunub əbədi,
Şirin-şəkər sözümüzdür Xanbulan.

Məftunluqdan donub düşdük dərdə biz,
Bu sehrli, cənnətməkan yerdə biz,
Qismət oldu, qonaq qaldıq burda biz,
Elə bildik evimizdir Xanbulan,
Hamımıza çox əzizdir Xanbulan.

*1-3.02.1999*

## LƏNKƏRAN

Yaşıl dona bürünübdü bu şəhər,
Yaraşıqdır başdan-başa yolları.
Bu şəhərin ətrafını bəzəyər
Ətir saçan narıngi, çay kolları.

Tanrı verib hər nemətin bu yurda,
Torpaq münbit, meşə zəngin, çay gözəl.
Bu diyarın bənzəri yox heç harda,
Qış mülayim, yaz ətirli, yay gözəl.

Arzuları çiçək açan Lənkəran,
Ömrümüzə işıq saçan Lənkəran.
Hüsnü təravətli, gözəl Lənkəran,
Nazlı, səxavətli, gözəl Lənkəran.

Dağ başında zümrüd gözlü Xanbulan
Bir töhfədir bu torpağa Tanrıdan.
İnsanları zəhmətsevər, mehriban,
İgidləri şücaətli, qəhrəman.

Bir tərəfin mavi Xəzər, Lənkəran,
Bir yanını dağlar bəzər, Lənkəran.
Sovqatın daim təzə-tər, Lənkəran,
Sevgin ürəklərdə gəzər, Lənkəran.

Şəhər demə, şəhərlərin gözəli,
Gül çöhrədə qara xaldır Lənkəran.
Kərpic-kərpic ucaldıqca evləri
Sanırsan ki, Tacmahaldır Lənkəran.

*03-08.02.1999*

## TORPAQ EŞQİ

Bu yerlər misallı təbiət hanı?
Ağarır çəməndə şeh qırov kimi.
Dağlar yorğun düşmüş dəvə karvanı,
Şəlalə səslənir zınqırov kimi.

Qayğıyla bəslənib bu torpaq bütün,
Qayğısız yarpaq da solar bu yerdə.
Yaşıl çəmənlərin xatiri üçün,
Daşlığa düşübdür yollar bu yerdə.

Zəhmətdir vüqarı, başının tacı,
Fərhad külüngünü burda vurubdur.
Arılar palıdın, dəmirağacın
Bağrının başında yuva qurubdur.

Vətən — nəyə gərək onsuz ömür-gün?!
Ən böyük şöhrət də odur insana.
Vətəni Vətəntək qorumaq üçün
Bir ovuc torpaq da borcluyuq ona!

*1974*

## MİN ŞÜKÜR

Çiçək açdı xalqın arzu butası,
Bu canlanan şəriətə min şükür!
«Həmd» söyləyir indi millət atası,
Həqdən gələn bu hikmətə min şükür!

Nələr çəkdik, nələr gördük, İlahi,
Zalım yəqin bilir nəydi günahı.
Göydən nazil oldu haqqın dərgahı,
Bu yüksələn fəzilətə min şükür!

İçimizdə həm xof vardı, həm hədə,
Məscid yolu yasaq idi millətə.
İndi Həccə, Kərbəlaya, Məşhədə
Kimlər getmir ziyarətə, min şükür!

Köksümüzdə iman dolu bir dəniz,
Qoy saflaşsın əqidəmiz, əqlimiz.
Hüzuruna xaliqinin pak, təmiz
Gedə bilən bu ümmətə min şükür!

Əzan səsi bir sehrdir içimdə,
Yox qeyri səs bu ölçüdə, biçimdə.
Muğamatın yanğısı var içində,
Səsindəki təravətə min şükür!

Şeyx yaratdı bu bənzərsiz özəyi*,
Hacılardır məclislərin bəzəyi.
Şəkər dadır süfrəsində çörəyi,
Bu işrətsiz ziyafətə min şükür!

Ucaldıqca minarələr baş-başa,
Elim-obam tamaşadır, tamaşa.
Yaşa, xalqım, yaşa, dinim, min yaşa,
Bu əbədi məhəbbətə min şükür!

*1996*

## BU DÖVRAN

Ən böyük arzudur, ən şirin yuxu,
Düşübdür ağıza, dilə bu dövran.
Dadından, ətrindən məst olur çoxu,
Bənzəyir qönçəyə, gülə bu dövran.

---

* Qafqaz müsəlmanları Dini idarəsinin rəisi, Şeyxül-İslam, Hacı Allahşükür Paşazadə nəzərdə tutulur.

Udduğun havadır, yediyin çörək,
Ancaq öz ağlınla qurasan gərək.
Qədrini bilməsən, diləmə kömək,
Verəcək ömrünü yelə bu dövran.

Yolunu tutdunmu, bəxtiyar edir,
Əlində zər də var, zor da var edir.
Hərdən əzizin də elə xar edir,
Oxşayır bir coşqun selə bu dövran.

Gah zülmət gecədir, gah aydın səhər,
Kiminə eyş-işrət, kiminə qəhər.
Xoş keçən hər günü ömrə bərabər,
Sığışmır bir aya, ilə bu dövran.

Neçə təzə bəyə gəlin otağı,
Neçə zavallıya ölüm yatağı.
Yüyənsiz at kimi başı aşağı
Gedir hey, belədən-belə bu dövran.

Gəz Vətən boyunca, dünya boyunca,
Məclis qur dörd yanda, imkan olunca.
Ürəyin çəkəndən ye, iç doynuca,
Bir də düşməyəcək ələ bu dövran.

Bir bağdır, yetirmiş yüz növrağını,
Bülbüllər vəsf edir hər yarpağını.
Əymiş qənşərində şah budağını,
Sənindir, sənindir hələ bu dövran.

Fəxrəddin, bulanmaz çeşmə gözündən,
Öyrən keçmişindən, söylə özündən.
Bir hikmət taparsa, üç-dörd sözündən
Tanıdar səni də elə bu dövran.

*1985*

## OYAN, SƏRKƏRDƏ BABAM

Nə vaxtdır dilimdə əzbərdir adın,
Yurdumun general əsgəri Həzi.
Sən gərək əlli il gec doğulaydın,
Əsrin Azərbaycan hünəri Həzi!

Nə vaxtdır yuxumda, ürəyimdəsən,
Nə vaxtdır səninlə danışıram mən.
Bəlkə mən biləni sən bilməyirsən,
Bəlkə hiddətimdən alışıram mən?

Tapdaq altındadır yenə el-obam,
Dolaşır sərgərdan ruhun narahat.
Sinəsi gülllədən yaralı babam,
Səni məzarda da qoymuruq rahat.

Dözdü təhqirlərə hissim, varlığım,
Gör biz nə sayırdıq, düşmən nə saydı?
Sənin qətiyyətin, əzmkarlığın
Kaş, bu gün bizlərə örnək olaydı!

Dağüstü parka da çıxa bilmirəm,
Dişim dodağımı doğrayır, babam!
Gəlib məzarına baxa bilmirəm,
Başım xəcalətdən ağrıyır, babam!

Oyan, bir anlığa, bircə anlığa,
Sərkərdə dərsi ver bir çoxlarına.
Günü eyş-işrətdə keçən «bəy»lərin
Bəlkə haram qatdın, yuxularına.

Hərbin ilk günündən atıldın oda,
Sən yuxu bilmədin, qazanc bilmədin.
Qəlpədən deşilmiş şinelini də
Üç ildə bir dəfə dəyişdirmədin.

Oyan, dərdli babam, dözdüyün yetər,
Düşmən torpağımı döndərir külə.
Vətən keşiyində duran nazirlər
Bağ tikir, restoran açırlar hələ.

Belə sərkərdədən boluq, maşallah,
Çoxunun cüt ulduz qonub çiyninə.
Qeyrəti düşməndə qalan general
Mundir geyinməsin gərək əyninə.

Oyan, qadir babam, elə bu saat,
Bircə komandana səfərbər olaq.
Böyüklü, kiçikli duraq farağat,
Əmrinlə döyüşkən bir əsgər olaq!

Nə vaxtdır dilimdə əzbərdir adın,
Yurdumun general əsgəri Həzi.
Sən gərək əlli il gec doğulaydın,
Əsrin Azərbaycan hünəri Həzi!

*Dekabr - 1997*

## YURD YERİNİN KÜLÜNDƏN ÖP

Sözü baltək yığanların,
Başına dön, dilindən öp.
Üzündən nur yağanların
Ətəyindən, əlindən öp.

Qızılgülə eylə nəzər,
Məclis bəzər, əldə gəzər.
Tikanından etmə həzər,
Butasından, gülündən öp.

Xəzan vaxtı hər yarpağın
Bağrı çatlar tər budağın.
Yazda dirilən torpağın
Çəmənindən, çölündən öp.

Gənclik bir də düşməz ələ,
Yaşamağa dəyər hələ.
Könül ver bir şirin dilə,
Üzündəki telindən öp.

Gözəlliyə aləm heyran,
Qarşısında donar zaman.
Sonasına ayna tutan
Suları saf gölündən öp.

Bir sonu var hər həvəsin,
Qərib yerdə ömür bəsin.
Yurd dediyin müqəddəsin,
Ocağından, külündən öp.

*15.11.1997*

## ÜNVANLI, ÜNVANSIZ MÜRACİƏT

*Ya Məhəmməd, (insanlara) de ki, Rəbbinizdən gələn həqiqətdir bu! Doğru yolu tutan savab qazanar, yolunu azan günah! (Axirət günündə) Mən sizə zamin deyiləm!*

***Qurani-Kərim, surə 10, ayə 108***

*Aviasiya və raket texnikası istehsalında işlədilən metalların hamısı, mütləq rentgen şüasından keçirilir ki, içərisində kiçicik çat və boşluq aşkar olunan hissələr istifadədən kənarlaşdırılsın. Çünki keyfiyyətsiz, qüsurlu materialdan hazırlanan, istənilən növ detal, dözməli olduğu zora tab gətirməz və nə vaxtsa, fəlakətlə nəticələnə biləcək qəzanın törədilməsinə səbəb olar.*

*İndi məmləkətdə məsul vəzifə təyinatı alanların əksəriyyəti bu sayaq çatlı metalları xatırladadır.*

Hər hansı bir mühüm işdə, vacib əməldə
Hər şey gərək yoxlanıla yerli-yerində.
Çünki süni bəzək-düzək verilir üzə,
Qüsur isə gizlənərək qalır dərində.
Adi vaxtda, sanki hər bir sınağa dözər,
Çıxar üzə gözlənilməz günün birində.
Ciddiliklə səhlənkarlıq – bağışlanmaz səhv,
Bu cür səhvlər zaman-zaman etmiş bizi məhv!

Siz ey başda oturanlar,
Siz ey qərar verənlər.
Zəngin həyat yaşayanlar,
Meşşan ömür sürənlər.
Dərəcəsi, ölçüsü var
Yaxşı-yaman hər şeyin.
Mühüm məqamlarda, barı
Xalqa zülm etməyin.
Arzulara, istəklərə
Ümidsizlik qatmayın,
Bu millətin qürurunu
Var-dövlətə satmayın.
Təyinat imzalarında
Bir azca əl saxlayın.
Məsul işə gedənləri
Yetərincə yoxlayın.
Kadrları seçən zaman
Haqsızlığa getməyin,
Rüşvətxorluq, qohumbazlıq,
Yerlibazlıq etməyin.

Qorxun Tanrı cəzasından,
Sındırmayın milləti.
Bu minvalla heçə enər
Xalqın əzmi, qüdrəti.
Fayda verməz sizlərə də
Bu parazit xisləti.
Belə getsə, süqut edər
Azərbaycan dövləti!

*02.2001*

## TƏNQİDÇİ SOYDAŞIMA

Mən öz şerimi yazdım, sən tənqid etdin,
Mən fikrimi  söyldəim, sən təhlil etdin.
Mən bir əkinçi kimi söz toxumunu
ağ vərəqlərə səpdim.
Sən təmkinlə, səbrlə alağını təmizlədin.
Mən bir bağban kimi çiling vurdum, bağ əkdim,
Sən əyrisini, qüsurunu kəsdin,
Yaxşısını bəslədin, əzizlədin.
Beləcə yanaşı yaşadıq hər sözdə, misrada,
Mən üzdə, zahirdə,
Sən gizli mənada.
Hərəmiz öz işimizi gördük,
Kərpic-kərpic, divar-divar
Bir şer binası hördük.
Bu yolda qoşa çəkdik hər əziyyəti,
Qoşa daşıdıq hər möhnəti.
Ancaq şer yaranandan sonra
Mənim adıma yazıldı, əzəməti, şöhrəti.
Sənin köməyinlə qələmim
Misra-misra, şer-şer bərkidi.

Bəlkə bu da bir təzaddı, bu da bir ömür payı.
Mənim qismətində həm zəhmət payı,
həm sovqat payı.
Səndə isə sadəcə yük payı.

Ancaq qəmin kəm,
Sən bir müqəddəs yaradan,
Hər sözdə, sətirdə bənzərsiz ömür yaşayan.
Adın xatırlanacaq hər zaman,

Sənətlə bağlı hər məclisdə, tədbirdə,
Məqamın həmişə öndədir, şer olan yerdə.
Eşq olsun sənə, ey zəhmətkeş,
təmənnasız və iddiasız insan.
Əslində, sən məndən yüksəkdə durmusan.
Əgər yaşayacaqsa bir şerim, on misram,
Bütün bunlar üçün sənə minnətdaram,
Səmimiyətimə inan!

*13.03.2000*

## QUDURĞAN

Azərbaycan Respublikasının prezidenti cənab H.Əliyev öz ətrafında olan yüksək çinli məmurların bəzilərini qudurğan adlandırdı. Əcaba, onları bu həddə çatdıranlar kimlərdir?

Beş gündür vəzifə görmüsən hələ,
Səsini, üzünü tanımaq olmur.
Adımız yadından çıxır az qala,
Unutqanlığını anlamaq olmur.

Dost idik, doğmaydıq biz ki, keçmişdən,
Bu nə təkəbbürdü, bu nə ədadı?
Sən özün bir ayrı gəda imişsən,

Elə ətrafın da bir cür gədadı.

Nə tez yekələndin, peysərin şişdi,
Gözün ayağının altını seçmir?
Qarnın tuluqlaşıb, başın «yemişi»,
Əvvəlki geyimin əyninə keçmir.

Dolan qəmdən qıraq, ələmdən uzaq,
Qoyma əzə səni qeyrət ağrısı.
Axı, nə vecinə Vətən, kütlə, xalq,
Yaşa özün üçün,- budur doğrusu.

Yeni vəzifəndə təzə dost ara,
Əvvəlki tanışlar, doğmalar kimdi?
Əlbəttə, sən hara, köhnələr hara?
Ətrafın hamıya qulp qoyur indi.

Bu kütlə sadəlövh, sən bir bic təkə,
Ay qoyun kürkünə bürünən tülkü.
Sənin kimilərin əliylə bəlkə,
Düşüb bu zavallı gününə ölkə?

Bircə yol özünə sual versənə,
Sən kimsən, düşüncən, vicüdun nədir?
Quruluğun, əsla toxunmur mənə,
Ancaq nankorluğun ürək göynədir.

Əgər tək olsaydın, nə qəm, dözərdik,
Artır məmləkətin nadanı yenə.
Nə bilim, bəlkə də özümüz verdik
Sənintək  nakəsə imkanı yenə.

Hərdən ürəyimi sıxır bir sorğu:-

Kimdir dəstəkləyən bu manqurtları?
Bizə dəyanətdən dərs deyənlərin
Düşmən tapdağında qalıb yurdları.

Mənim ki, millətim sadədir, əcəb,
Bəs bu qudurğanlar tapılır hardan?
Yəqin gün gələcək, cavab verəcək,
Bu cür gədaları başa çıxardan!

*08.2000*

## DƏRDLƏRİM

Nə tez doldu ağrı-acı canıma,
Yerdən çıxdı, göydən endi dərdlərim?
Həm yaşımla, həm günümlə yarışır,
Neçə yüzdü, neçə mindi dərdlərim.

Baş-başadır burda qüssə, qəm, kədər,
Gah ağrıyar, gah ağrımı dinləyər.
Gizli sızlar, həzin ağlar, inləyər,
İçimdəki sarı simdi dərdlərim.

Yarı xiffət, yarı ahdı, yaşanmaz,
Nə ay bilər, nə il bilər, nə qış-yaz.
Ağırlıqdan, böyüklükdən daşınmaz,
Düzümlənmiş dağdı indi dərdlərim.

Əvvəl bir az ümidliydi, şirindi,
Olan-qalan ümidim də əridi.
Ağlar könlüm mətinləşdi, kiridi,
Daha tamam qəzəb, kindi dərdlərim.

Dözümlü xalq, hər bir dərdə alışan,
Köləliklə, məddahlıqla barışan.
Ey bu xalqı sındırmağa çalışan,
Sənə qarşı nifrətimdi dərdlərim!

*01.09.2000*

## BOŞALDIN ÜRƏYİNİZİ

*1999-cu ilin noyabr ayının 10-da Azərbaycan Prezidenti Respublikanın bir neçə tanınmış yazarını Qarabağ olayları və ölkədə yaranan ağır siyasi-iqtisadi durumla əlaqədar, onların müraciəti əsasında qəbul etdi. Xalq yazarları şair Qabil və yazıçı H. Abbaszadə, əhalinin ağır güzəranı ilə bağlı Prezidentə bəzi açıqlamalar da verdilər.*

*Görüşdən sonra H.Abbaszadə mətbuatda çıxış edərək bildirdi ki, indi əksər yazarlarımız və alimlərimiz iqtisadi böhran vəziyyətində yaşayırlar. Bir çoxları hətta dilənmək məcburiyyətindədirlər. Bəzən elə hal olur ki, dərman pulumun yarısını mən çörəksizlərə paylamalı oluram. Onları görəndə, az qalır, adamın ürəyi partlasın.*

Nə vaxtdır göynədir, bu ağrı bizi,
Bu ki, içimizdə təzə dərd deyil.
Məqamdır, boşaldın ürəyinizi,
İndi söz deyənlər daha sərt deyir.

Qanun axsayırsa bir cəmiyyətdə,
Ürəklər kədərə bələnər, ustad!
Naziri dələduz olan dövlətdə,
Alimlər, şairlər dilənər, ustad!

Gün-gündən pis gəlir, il-ildən çətin,
Millətin taleyin görün kim yazdı?
Olsaydı yiyəsi bu məmləkətin,
Məmurlar bu qədər harınlamazdı.

Bir bəla bürüyür indi ölkəni,
Çoxunun çörəyi, evi, işi yox.
Bəlkə, bağışlasın bu Vətən məni,
Dərdini ürəkdən çəkən kişi yox?

Orduda əsgər ac, bağçada uşaq,

İmkansız xəstələr evdə can verir.

Biz Milli Məclisdə ha coşub-daşaq,
Qərarı kütləni aldadan verir.
Bassa da ölkəni çadır kəndləri,
Qaçqınlar-başçıya biz qurban-deyir.
Allah, bu ölkənin başbilənləri,
Çadırda doğana qəhrəman deyir.

Bir yanda ehtiyac, aclıq, səfalət,
Bir yandan daşınır neft, pambıq, kürü.
Susduqca abrına bürünən millət,
Sürür dövranını hər mindən biri.

Maşallah, tikilən yeni qəsrlər
Təzə pöhrələrtək günbəgün artır.
Qul kimi yaşayan yetim-yesirsə,
Beton döşəmələr üstündə yatır.

Hər zülmün, zülmətin sonu var, yəqin,
Dəyişər bu dövran, yox, belə getməz.
Artıq tükənibdi, səbri millətin,
Daralır həlqələr, çox belə getməz.

Bu qədər iltimas, intizar yetər,
Daha haqqı zorən almaq vaxtıdır.
Qalx, zavallı millət, gücünü göstər,
Zalımı taxtından salmaq vaxtıdır.

*Noyabr - 1999*

## İLK ŞERİM

Ruhum bir gün qanadlandı,
Sandım gənclik yaşıdır.
Elə bildim dilim yanır,

Demə, bağrım başıdır.
İstədim hissimi yazam,
Gördüm qələm naşıdır.
Mən şerimi yazmamışdan
Şer məni yaşadır.

*20.10.1997*

## ƏBƏDİ TƏƏSÜF

Nə qədər ki, atam vardı, şən günlərim çox idi,
Ömrüm ötürdü qayğısız, qəlbim, gözüm tox idi.
Dünya mənə dar gəlirdi, heç bilməzdim dərd nədir,
Bu xoş tale qəfil döndü, acı şərqi söylədi.
Ümidsizlik üzdü məni, ürəyimi qəm yedi.
O günlərin bircəciyi qayıdaydı, kaş indi…..
O Qu quşu son nəğməsin nə yaman tez oxudu?
Mən atamı anlayanda, atam, artıq yox idi.

*03.08.1999*

## ARZUM-TƏSƏLLİM

Sən ey mənim əziz balam,
Gələcəyim, ciyərparam.
Sənə hər gün Yaradandan
Sevinc, uğur arzularam.

Çəkərəm hər möhnətini,
Təki yetiş muradına.
Varmı elə valideyn ki,
Qıymaya can övladına?

Vacib deyil var-dövlətin,
Şöhrətli ad-sanın ola.

Təki aydın təfəkkürün,
Sağlam ruhun, canın ola.

Bir dəyərli həyat yaşa,
Gör dünyanın hər üzünü.
Gözəlliklə keçirə bil
Gecəsini, gündüzünü.

Ömrün şirin çağlarını
Mən pis-yaxşı yaşamışam.
Heç kimə meyl etməmişəm,
Tək özümə oxşamışam.

Qaçmışam hər cür minnətdən,
Yox kimsədən umacağım.
Xəyanətdən, hərislikdən
Uzaq olub od-ocağım.

Səndən də heç nə ummaram,
Bircə qoru soykökünü.
İnsan gərək çəkə bilə
Namus, qeyrət, ar yükünü.

Nəsil də bir estafetdir,
Hələ ki, mən götürürəm.
Bir gün onu bayraq kimi
Mən də sənə ötürərəm.

Çalış, naqis işin üçün
Qapımızı döyməsinlər.
Üz-üzdən utanar, bala,
Arxamızca söyməsinlər.

Canım, budur dediklərim,
Ayrı bir şey diləmərəm.
Yerdə qalan işlərinçün
Umu-küsü eləmərəm.

İnan, vida günümdə də
İstəmərəm göynəyəsən.
Mən atamçün nə etdim ki,
Sən mənimçün neyləyəsən?

*İyun, 2001*

## BADAM AĞACI

*Novaxanı bağlarında Badam ağacı bu il yanvar ayında çiçəkləmişdi.*

Bu nə vaxtın oyanışı, gəlişi,
Bürünmüsən ağ çiçəklər tülünə.
Ətrafında qaysı, gilas büzüşüb,
Sən bəzənib bənzəyirsən gəlinə.

Hələ qışın qar-sazağı  qabaqda,
Hələ səni dolu döyər, don vurar.
Hələ ilin yaz ovqatı uzaqda,
Qəfil soyuq kökünü də yandırar.

Bu yerlərin dəli Şimal küləyi
Hələ səni budaq-budaq yolacaq.
Ay baharın mücdəçisi, mələyi,
Çiçəklərin solub vağam olacaq.

Təbiətin şıltaqlığı, a nazlım,
Əcəb səni tora salıb, aldadıb.
Çox  yuxusu  ağırlarla işi yox,
Ancaq səni vaxtından tez oyadıb.

Gözəlliyin cəzb etsə də adamı,
Yaz qabağı tənə səni üzəcək.
Bir də vaxtsız çiçək açma, badamım,
Bağban səni barsız bilib kəsəcək.

*Mart, 2001*

## BU QULDUR DƏSTƏ

*Millət vəkili, Yeni Azərbaycan partiyası sədrinin müavini Sirus Təbrizli Parlament iclaslarının birində YAP-ı «Simasız quldurlar partiyası» adlandırdı. Doğrudan da orada bir dəstə azğın ətrafında canavar yox, çaqqal yığnağı yaradıb.*

Bu söz ünvanına deyilib, əlbət
Bu söz göz yaşıtək duru, həqiqət.
Sən onun dabbaqda gönünə bələd,
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

Xisləti murdarmış, vədəsi yalan,
Xalq ondan nə gördü, yarıdı haçan?
Qoyub başdan-başa ölkəni viran
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

Həpənd yığnağıdır Milli Məclisi,
Məddahlar mədh üçün verib səs-səsə.
Çəkib ön cərgəyə neçə nakəsi
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

Sağ ol ki, dözməyib dinirsən hərdən,
Hərçənd nala, mıxa vurursan sən də.
Deyən hamınızı salıb kəməndə
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

Bir gəzsin ölkəni, bu möhtəkirlər,
Millətin adına ləkə vəkillər.
Edib ac kütləni «YAP»-a səfərbər
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

Yenə də böhtana şərə gedirlər
Acgöz  müəllimlər, həris həkimlər.
«Simasız quldurlar» və …daha kimlər
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

İşsiz məmləkətdə milyonlar yazıq,
Siz isə mərhəmət hissindən uzaq.
Hər zaman özünü düşünür ancaq,
Bu quldur, bu yaltaq, bu azğın dəstə.

*Oktyabr, 2003*

## NİKBİNLİK

Mən çox nikbin bir insanam, çox mətin insan,
Hələ neçə ər doğacaq mərd Azərbaycan.
Mən aləmə haqq səsimi qaldıracağam,
Sabahımın Xətaisi doğulan zaman.

Bəşər daim inkişafda, yeniləşmədə,
Mən tarixə həm dərs deyib, həm dərs almışam.
Məni heç vaxt qorxutmayıb iğtişaş, hədə,
Uduzduğum anlarda da məğrur olmuşam.

Zaman gələr, ağlar gözüm kiriyər, gülər,
Torpağımın hər qarışı səngərə dönər.
Nə qədər ki, içimizdə yurd yanğısı var,
Xətailər çadırda da doğula bilər.

*30.12.2003*

## ATƏŞKƏS DÖVRÜNÜN BAKISI

Əcəb mülayim keçir Bakımızın qışı,
Hələ ki, nə soyuğu var, nə qarı,
nə də güclü yağışı.
Bu da yanvar ayının iyirmi beşi,
Artıq bəzi ağacların tumurcuqları şişir.
Havalar tamam sakit, dəyişməz, həlim.
Əsl atəşkəs dövrünə uyğun iqlim.
İşləyənlər öz işlərində, güclərində,
Vaxtları planlı, məqsədli ötüşür.
İşsizlər isə küçələrdə məlul-məlul gəzişir.
Heç kimin heç kəslə işi yox,
Çünki güclülər hər şeyi bölüşür.
Hərənin konkret haqqı və qadağası var.
Belə şəraitdə, lap qurdla qoyunu
Birgə buraxmaq olar.
Mən Bakıda heç vaxt bu cür küləksiz,
Şaxtasız qış görməmişdim,
Deyirəm, bəlkə Bakının havası da
Adamları kimi dəyişir?

*25.01.04*

## Məzəmmət

Mən sənə bir söz dedim ki,
Mənasını anlayasan.
Yoxsa, daha demədim ki,
Ağzına bir zurna alıb
Hər yerdə sarsaqlayasan.

*08.07.2000*

## Ünsiyyət incəliyi

Mühüm, incə məqamlarda,
Fərqi yox, harda olsa,
Çalış daim söyləyəsən
Fikrini səlis, qısa.
Ondan daha gözəl olar
İnsan əgər doğmasını
Bir baxışdan anlasa.

*15.07.2000*

## ÜRƏKLİ OLMAQ

İnsan doğulmamışdan xeyli əvvəl
Ürək döyünməyə, duymağa başlayır.
Ən yorğun məqamda da,
Daş kimi yatanda da
Ürək dayanmadan işləyir.
Bu həm bir bitmiş elmdir,
Həm açılamyan ilahi sirr,
30 il, 60 il,90 il,
İçində tükənməz duyğular,
Aramla  döyünər, çırpınar, vurar,
Elə heey, özümü yorar.
Əvəzində sahibini yaşadar,
Ucaldar, qoruyar,
Əgər sahibi də azacıq
Qoruya bilsə onu.
Hər dəqiqə azı 70 dəfə ətrafa paylayar
Dəqiqədə 70 dəfə yığdığı qanı.
İnsanın həyatı boyu
Milyonları, milyardları ötər
Vurğularının sayı.
Ürək başın qəm, kədər,
Sevinc bölüşdürücü,

Sevgi, məhəbbət yoldaşı.
Ürək bütün əzaların qan qardaşı.
Məgər ürəksiz yaşamaqmı olar?
Ürəksiz adam,
Ürəksiz görülən iş,
Ürəyi daş insan,
Yabançı səslənir yaman.
Ürəkli igid, ürəkdən gələn istək
Nə qədər gözəl deyim,
Hamımıza gərək.
Ürəksiz yüz iş görmək olar,
Fayda verməz, izi qalmaz.
Amma ürəkdən bədxahlıq etmək olmaz.
Ən azı adamın əli qalxmaz.
Axı, sevgi, qayğı, istək mənbəyidir ürək.
Ünsiyyətdə də, səxavətdə də
Kişilikdə də, düşmənçilikdə də
Ürəkli olasan gərək!

*02.02.2004*

## PAYIZ BULUDUYAM

Bu hansı hisslərdir çuğlamış məni,
Son illər yamanca kövrək olmuşam.
Qəm başım üstündə, könlüm həmdəmi,
Payız bulududək, əcəb dolmuşam.

Gah aşkar, gah gizli sızlayan neyəm,
Soruşma halımı - nə var, necəyəm?!
Tətiyi dartılmış silah kimiyəm?
Dindirsən, qəfildən hönkürəcəyəm?

Daha dodağımda donub gülüşüm,

Kimsə iç dünyamı duysa, nə varmış.
Neçə dost-doğmamla vida görüşüm
Bu daş yaddaşımda xatirə qalmış.

Gözümün önündə yaş pərdə çəkmiş,
Dolub-boşalıram gündə neçə yol.
Ay məni kədərlə ovunduranım,
Nə olar, bir yol da dərd həmdəmim ol.

Azmışam içində boşluğun, heçin,
Qəlbimdə səngimir xiffət savaşı.
Bu meydan sinəmi soyutmaq üçün
Yağar gözlərimdən  payız yağışı.

Bəlkə tükənibdi səadət payım,
Bəlkə bəxt ulduzum sönübdü daha.
Mənim taleyimin sevinc bayrağı
Deyən, əbədilik enibdi daha.

*01.06. 2003*

## NƏ BİLİM

*Ustad Məmməd Araza*

Görünərmi bəxt ulduzum, görəsən,
Nə vaxt mənə nur saçacaq, nə bilim?
Bəxt bağçamda arzu adlı gül əksəm,
Qanqal bitər, gül açacaq, nə bilim?

Haqq bildiyim bu tərəzi, bu çəki,
Bu meyarı, bu pərsəngi, bu yükü,
Qoyub bizi gözlərinə, hey çəkir,
Hansı gözü tez dolacaq, nə bilim?

Ömür yolum «axtar-tap»dı hələ ki,
Yazılmamış bir kitabdı, hələ ki,
Qazandığım iztirabdı hələ ki,
Bundan sonra nə olacaq, nə bilim?

Ötəriyəm bu əbədi  cahanda,
Dəyişərəm hər ötüşən zamanla.
Bir qonağam dünya boyda məkanda,
Məndən sonra nə qalacaq, nə bilim?

Bilmək olmur doğma kimdi, yad kimdi,
İtirmişəm nizamımı mən indi.
Vətən həm də öz elimdi, evimdi,
Kimə qalar bu od-ocaq, nə bilim?

*02.05. 2000*

## QOCALIQ

Ömrün uğurlu sonudurmu qocalıq,
Pikə qalxmış günəşin qürubudurmu qocalıq?
Bu yaşda adamın bir gözü ağlar,
bir gözü gülər.
Dolar həyatına maraqsız, sıxıntılı,
acı günlər.
İnsan qocalanda,
Bəlkə də əza ağrısından daha çox
Qayğıya ehtiyacdan təntiyər, tövşüyər.
Təbiətin sərtliyindən yox,
Biganəlik soyuğundan titrəyər, üşüyər.
Ancaq əlindən heç nə gəlməz,

Beləcə hamıdan soyuyar,
Heç kimi özünə həmdərd bilməz.
Heyhat, dağ çayı kimi çağladığı illər
Qalar əlçatmazlıqda, arxada
O, indi bir damla qədər zəifdir.
Ümman boyda suda.
Ya da qasırğa vaxtı
Dənizdə boğulan ada.
Bəlkə də buna görə
Hamının ölüm haqqında
Ən çox düşündüyü zamandı qocalıq.
İnsanın axirət dünyasına
«hə» dediyi andı qocalıq.

*28.08.2002*

## GEDƏN YERİM OLAYDI

*Xalq şairi Qabilə ehtiramla.*

«Gedən yerim olaydı»-
Nə qədər gözəl deyim!
Gözləyənin yoxdusa,
Ha sızlayım, göynəyim.

Gedən yerim olaydı,
Gəzəydim düz – dünyanı.
Vallah, ürək yanğımdır
Bu söz, gözüm qurbanı.

Gedən yerim olaydı,
Lap gedər-gəlməz olsun.
Yol gedim gecə-gündüz,
Sonu görünməz olsun.

Bilim, intizarımı
Çəkir bir mərhəm ocaq.
Gəlişim bir ürəkdə
Bir işıq yandıracaq.

Hanı o isti nəfəs,
Xəyal uçur yüz yerə?!
Daha güman yerimiz
Ancaq acı xatirə.

Yaş artdıqca azalır
Bu cür ünvanlar, şair.
Viranə könülləri

De, kim sahmanlar, şair?

Yaman biganələşdik,
Manqurtlaşdı cəmiyyət.
Ancaq hamı özünə
İstəyir qayğı, diqqət.

Yüz sevib-sevilsək də,
Yenə də azdır, canım.
Sən özün gedən yer ol,
Bir ürək qızdır canım,
Bir ocaq qızdır, canım!

*21.11.2003*

## HƏLƏ BAŞLAMADIĞIM SON ŞERİMƏ

Hərdən çox qəribə hisslər keçir ürəyimdən,
Beynim yiyəsiz qalmış yurd yeri kimi
Boşalır hər şeydən.
Yüz cür fikirdən,
Düşüncədən.
Elə bil özüm öz iç dünyamda azmışam.
Gözüm heç nəyi tutmur,
Ağlıma heç nə batmır,
Əlim qələmə yatmır.
Bəzən heç inanmağım gəlmir,
Doğrudanmı indiyə qədər
Yazdıqlarımı mən yazmışam?
Keçir beş gün, on gün, bir ay,
Bircə misra da yaza bilmirəm,
Yazmıram,
Xəyalən qayıdıram ömrün ötən illərinə.
Xatırlayıram ilk şerimi,

Ondan doğan sevincimi,
Sonra beşincini, onuncunu.
Nəhayət…
Sonuncunu.
Hansı duyğudan yaranacaq,
Nəşədənmi, ələmdənmi,
Ya sevincdənmi, qəmdənmi yazılacaq?
Bitmişmi olacaq o,
Ya yarımçıqmı qalacaq?
İnsan yaşa dolduqca
Çoxalır nigarançılıq,
Artır hər şeyə maraq.
Kimlər, kimlər son şerini
Necə, nə vaxt yazmış.
Yoxsa… yarımçıq saxlamış, heyhat!
Sən ey şerdən daha sirrli,
Möcüzəli, müəmmalı
Həm də daha şirin, maraqlı
Və dadlı həyat!

*07.01.2003*

## BOĞAZDAN YUXARI NİTQ SÖYLƏYƏNLƏR

Siz ey, yerli-yersiz mədh deyənlər,
Haqqı sındıranlar, şəri öyənlər.
Əyri sözləriylə düzü əyənlər,
Boğazdan yuxarı nitq söyləyənlər.

Hər gün kürsülərdə, hər gün efirdə,
Fərqi yox, Vətəndə, ya da səfərdə.

Çaşdırın kütləni növ-növ tədbirdə
Boğazdan yuxarı nitq söyləyənlər.

Yalançı nitqlərdə pəhləvan olduq,
Yalançı nitqlərdə qəhrəman olduq.
Yalan dinləməkdən bədgüman olduq
Boğazdan yuxarı nitq söyləyənlər.

Bir yol kişiləşin, bir yol durun da,
Yetsin bəlkə sonu bu azarın da.
Daha söz qalmadı söz bazarında,
Boğazdan yuxarı nitq söyləyənlər.

Tutmasın şan-şöhrət, qoy gözünüzü,
Yetər aldatdınız öz-özünüzü.
Nə vaxt eşidərik düz sözünüzü,
Boğazdan yuxarı nitq söyləyənlər?

Bəsdirin, yığdığınız bizi boğaza,
Bu yolla çox şeyi verdik güdaza.
İndi, ta üz tutun Aya, ulduza
Boğazdan yuxarı nitq söyləyənlər.

*Mart, 2004*

## NAŞILIQ, NADANLIQ

*Xalq artisti, millət vəkili A. Pənahova – müxalifət qəzetlərində çalışan curnalistlər güllələnməlidir - deyir.*
***Azadlıq qəzeti № 207 27.10.2003***

Sən ki, ömür boyu diqqət görmüsən,
Bu xalq öyrəşdirib güzəştə səni.
Həmişə ehtiram, hörmət görmüsən,
İrəli çəkiblər hər işdə səni.

Sən ki, incəsənət adamı idin,
Yerişin, duruşun, deyimin incə.
Layiq olmadığın mandatla, yəqin
Sevincək olmusan, xanım, sevincək.

Barı çoxu kimi danışma, kiri,
Sözündən qəsd damır, qisas tökülür.
Səni dinləyəndə sanırsan, sanki

Səbət deşiyindən gilas tökülür.
Nəciblik, mərhəmlik rəmzidir qadın,
Nədir  bu millətə qara yaxdığın?
Sənin kimilərin məddahlığından
Günbəgün pis gəlir qara baxtımız.

Naşılıq, nadanlıq kəmfürsətlərin
Əlində tutduğu naqis tərəzi.
Onda ya halallıq, ya düzlük çətin,
Əyilər bir gözü, qalxar bir gözü.

Vəkil «ölüm» deyir curnalistlərə,
Bu ki, faciədir, bu ki, fəlakət.
Ağzına gələni danışır hərə,
Əcəb parlamentdi, əcəb məmləkət.

Əgər xalq artisti qanırsa belə,
Bu cür düşünürsə, millət vəkili,
Demək yetkin deyil, ağlımız hələ,
Demək gözümüzə pərdə çəkilib,

Hardandı bizdəki bu dəvə kini
Gələn hədə ilə, söyüşlə gəlir.
Düşmənə atəşkəs elan edənlər
Milləti üstünə döyüşlə gəlir.

Bu yurdun düşməni öz içindəsə,
Tüpürsün gələcək qoy hamımıza,
Millət vəkili də, xalq artisti də
Kütləyə qarşısa, vay halımıza.

Nadanlıq dünyanı bürüyüb, basar
Qanmazı vaxtında qandırmasalar

Düşmən zorumuza tablaşmaz, qaçar
Bizi içimizdən sındırmasalar.

*Fevral, 2004*

## QURBAN SƏNƏ, QARDAŞ

*23 yaşlı oğlu – gənc zabit Səbuhi Əliyev Dövlət sərhədlərimizi qoruyarkən, sərhədd zolağını keçən naməlum silahlı şəxsin üstünə liyalın getmiş və nə yazıq, öz azərbaycanlımız olan həmin mülkü şəxs tərəfindən namərdcəsinə, müəmmalı şəkildə, odlu silahla qətlə yetirilən qardaşım Şəmsəddin Əliyev üçün.*

Tökmə bu qədər göz yaşı, qurban sənə qardaş,
Qismət dediyin paydı bu hicran sənə, qardaş.

Sən ki, bu qədər rəftarı xoş, niyyəti pakdın,
Göstərmədi xoş üz niyə dövran sənə, qardaş?

Ömrün bu ahıl, bu ixtiyar, müdrik yaşında
Nə bəxşiş idi fani dünyadan sənə, qardaş?

İman əhlinə Tanrı hökmü məqbul olsa da,
Zülm etdi, sitəm verdi Yaradan sənə, qardaş.

Topla gücünü, sınma yad – biganə içində,
Ta söyləməsin kimsələr hədyan sənə, qardaş.

Allah, deyirlər, sevdiyini imtahan edir,
İbrət deyilmi bəxti – Süleyman sənə qardaş?

Toxta, ey cəlalım, bu qədər ahu-zar olmaz,
Rəbbin özü versin səbrü-aman sənə, qardaş!

*01. 2003*

## HƏLƏ Kİ, VAY HALIMIZA

Bir imkanlı nadan
Və ya dələduzluqla zənginləşmiş insan
Şəhərin görməli yerlərinin birində
Əzəmətli, gözəl bir qəsr tikdirmişdi.
Bu «xırda şah» sarayının qabağında
Hardansa, köklü-budaqlı çıxartdığı
İri ağaclar əkdirmişdi.
Ancaq bu həmişə yaşıl,
Şux duruşlu ağaclar
Günü-gündən büzüşürdü, solurdu.
Nəfsi ağlından iti olan
Bir «çoxbilmişin» istəyi ucbatından,
Neçə bağbanın illərlə ərsəyə gətirdiyi
Bu qədər ağac
Gözümüz önündə, ayaq üstə ölürdü.
Sanki təbiət ona
Təkəbbür göstərmək istəyənin
Alnından vururdu, ağlına gülürdü.
Hər dəfə bu cür səhnələri görəndə,
Ürəyim ağrıyır, vəhşicəsinə
Doğranılan, dağılan, daşınan
Məmləkətimin halına.
Millətimin əksəriyyəti yazıq-

---

• Рявайятя эюря, мющтяшям гцдрят вя мянсяб сащиби олмуш Сцлейман Пейьямбяря Аллащ-тяала йезаня шикяст ювлад веряряк ону сынаьа чякмиш вя севимли Пейьямбяримиз юмрцнцн ахырына кими бу аьрыны цряйиндя дашымышдыр.

Evsiz, işsiz, imkansız.
Quldurları, azğınları qəddar, acgöz, amansız.
Parazitləri, rüşvətxorları, hazıra nazirləri çox.
Ancaq hər gün payı oğurlanan
Zavallı kütlənin harayına, fəryadına
Ürəyi ağrıyan bir ixtiyar yox.
Bu harınların vicdanları susduğundan
Haqqı görən gözləri kor,
Qulaqları kar, gödənləri tox.
Bu minvalla, özü-özünü aldatmaqla
«İrəliyə gedən cəmiyyəti»
Gələcəkdə nə gözləyir, bilən yox!
Qalmışıq Allah ümidinə.
Gedib məscidlərdə namaz qılıb
Dua edəkmi?
Ya xaricdən göndərilən
Xeyriyyə payını güdəkmi?
Hələ ki, soğan doğrayan çox əhvalımıza,
Hələ ki, vay bizim halımıza!

*İyun, 2002*

## QOŞA QANAD

Yaşat yaddaşında bu iki adı,
Onları el sevdi, sənət sınadı.
Çağdaş şerimizin qoşa qanadı-
Biri Məmməd Araz, biri Bəxtiyar.

İki söz sərrafı, iki ixtiyar,
Məbəd yaratdılar əbədi yaşar.
Bu gün şerimizdə iki qüdrət var-
Biri Məmməd Araz, biri Bəxtiyar.

Kim deyir şairlik adi həvəsdi?
Qələm müqəddəsdi, söz müqəddəsdi.
Qədim Şərq şerində yeni nəfəsdi
Biri Məmməd Araz, biri Bəxtiyar.

Əhsən, sağlığında bəşəriləşən,
Sözə dayaq olan ərlərə əhsən!
Bənzərsizliyiylə oxşar, birləşən,
Şeri şerimizdən uca, möhtəşəm,

Yeri yerimizdən uca, möhtəşəm,
Biri Məmməd Araz, biri Bəxtiyar.

*Oktyabr, 2003*

## DEYƏSƏN QOCALIRAM

Günbəgün tökülürəm,
Günbəgün sökülürəm.
Əriyir, bükülürəm,
Deyəsən qocalıram.

Budaq kimi soluram,
Bulud kimi doluram.
Yaman kövrək olmuşam,
Deyəsən qocalıram.

Fikirlərim dolaşıq,
Nasazlığım qarışıq.
Qaçır gözümdən işıq,
Deyəsən qocalıram.

Kimlər dönür, dəyişir,
Kimlər biganələşir.
Xiffət qəlbimi deşir,
Deyəsən qocalıram.

Gücdən düşsə də belim,
Sağlamdır ağlım, dilim.
Həm ağrım, həm təsəllim,
Deyəsən qocalıram.

*04.11.2003*

## OXŞARLIQ VƏ FƏRQ

Şəhərdə, qaldığım binanın həyətində
Bir qarac tikmişəm.
Yanında da kiçik bağça salmışam.
İçində ağaclar , kollar əkmişəm.
Ətrafına dəmir tordan və
Həmişəyaşıl sarmaşıqdan
Çəpər çəkmişəm.
Yaxından diqqətlə baxmasan
Nə bayırdan içəri görünər,
Nə içəridən bayır.
Bağçamda da qurmuşam
Maraqlı bir çal-çağır.
Çünki içində müxtəlif növ quşlar
Oxuyur, oynayır.
Hamısı da məni lap uzaqdan,
Qiyafəmdən, yerişimdən,
Hətta maşınımdan tanıyır.
Elə ki, yaxınlaşıram bağçaya,
Hərəsi başlayır öz dilində «danışmağa».
Qapını açan kimi qaçırlar qabağıma,
Alırlar məni araya.
Atılıb-düşürlər,
Keçirlər soluma, sağıma,
Öpürlər ayaqqabılarımdan,
Düşürlər ayağıma.
Çünki təcrid etmişəm onları ətrafdan,
Əlləri üzülüb, ümidləri kəsilib hər yandan.
Bir balaca bağçanı tanıyırlar,
Bir də qaracdakı hini.
Bir yolu görə bilirlər,
Bir də yaxınlaşanda, məni.

Həm də, axı, mən verirəm onlara suyu, dəni.
Olur, arada ayrı yemlər də alıram,
Hər bağçaya gəlişim onlar üçün toy-bayram.
Bu cür asılı etmişəm hamısını özümdən.

Bircəciyini də qoymuram yayına gözümdən.
Əsarət, asılılıq, qorxu!
Bu üç amilə qeyd-şərtsiz
Tabe olur çoxu.
Ram olmayanın boğazında
Parlayır bıçaq.
Yoxsa ki, hansı əlimdən hara qaçacaq?
Çünki onlar üçün haqq-ədalət də mənəm,
Divan da.
Yüz haqsızlığıma da heç nə edə bilməz,
Lap hamısı bir olanda.
Eynən cəmiyyətimizin qanunları ilə
İdarə edirəm bu quşları,
Varmasam da heç nəyin fərqinə.
Ancaq bir böyük fərq də var
Qəfəsdə saxladığım bu quşların xeyrinə.
Onların, heç olmasa gəzməyə,
qalmağa şəraiti, yeri,
Həm də gündə, azı iki dəfə
Doyunca yeyir, içir hər biri.

*31.01.2004*

## DÜNƏNİNÇÜN... AĞLAMA

Dünəninçün, bu gününçün ağlama,
Toxta, qardaş, sızlamaqla iş aşmaz.
Ağlamaqla nə verirlər adama?

Güc görməsə od alışmaz, su daşmaz,
İstibdadla barışmaz ol, barışmaz!

Ağlamamış bir ər oğlu çətində,
Od püskürüb nəfəsindən, dinəndə.
Keçmiş olsun əzabların sənin də,
Dözümlünü əzə bilməz dərd, savaş,
İstibdadla barışmaz ol, barışmaz!

Gücsüzlüyün heç gəlməsin dilinə,
Yedək olma naxələfin birinə,
Qoy özünü Xətainin yerinə,
Bu gün bizə yazıqlaşmaq yaraşmaz,
İstibdadla barışmaz ol, barışmaz!

Qarı düşmən yumşalmaz ah-zar ilə,
Dosta dönməz xoş söz ilə, zər ilə.
Rəqib gərək susdurula zor ilə,
Nifrət heç vaxt məhəbbətlə qarışmaz,
İstibdadla barışmaz ol, barışmaz!

Boz qurd kimi yüksəklikdə ula, hey,
Ölək, qalaq, çıxaq bir düz yola, hey,
Qorxmaz olsaq qüvvət gələr qola, hey,
Qüvvət gəlsə baş boş işə qarışmaz,
İstibdadla barışmaz ol, barışmaz!

Mütiliyin, məzlumluğun bəs, daha,
Qalx, yolunda daş olanı əz daha.
Səni kəsmək istəyini kəs daha,
Çünki kəsə bilməyənlər yaşamaz,
İstibdadla barışmaz ol, barışmaz!

*12.04.2001*

# DÜNYA HAQQINDA 4 ŞER

## AH, BU ŞİRİN, ACI DÜNYA

Başımızın tacı dünya,
Min dərdin əlacı dünya.
Kimlər səndən doydu getdi,
Şirin dünya, acı dünya?

Ömrün qışı, yazı dünya,
Alnımızda yazı dünya.
Səndən əziz nəyimiz var,
Şirin dünya, acı dünya?

*İyul, 2003*

II

Arzuma yol açan dünya,
Yoluma nur saçan dünya.
Naşı oldum, heç bilmədim
Ömrüm keçdi haçan, dünya!

Hər istəkdən uca dünya,
Yolu daim haça dünya.
Gah dostumsan, gah düşmənim
Fəndgir dünya, qoca dünya.

*11.10.2003*

## DÜNYA

Yoxdan var olan dünya,
Boşalan, dolan dünya.

Kimsəyə vəfa qılmaz
Sevgisi yalan dünya.

Sərvətim, malım dünya,
Şəkərim, balım dünya.
Verdiyini almasa
Əl çəkməz zalım dünya.

Əzəl dünya, baş dünya,
Dost dünya, qardaş dünya.
Bizi naz-savaşıyla
Salıbdı çaş-baş dünya.

Gələnə yoldaş dünya,
Gedənə sirdaş dünya.
Əcdadımı qocaldan
Balamla həmyaş dünya.

*Yanvar, 2002*

**Dünyanın**

Yüz ildən çox yaşayardıq cahanda,
Görməsəydik kəc üzünü dünyanın.
Düzəltməyə çalışanlar bir az da
Əyri saldı gərdişini dünyanın.

Gah ucaldıq zirvələrə, gah endik,
Zülm etməyi zəfər sandıq, sevindik.
Fironluqla, fatehliklə öyündük,
Dağıtdıqca keçmişini dünyanın.

Hər ömürdə sevinci var, qəmi var,
Ağrısı var, nəşəsi var, dəmi var,
Biz olmasaq, kim duyacaq, kimi var,

Gəlişini, gedişini dünyanın?

Yaddaşında nə sən yoxsan, nə mən yox,
Hansımızı nə gözləyir, bilən yox?
O dünyadan hələ ki, bir gələn yox
Öyrətməyə yerişini dünyanın.

Ancaq nə qəm, məhvərindən sapınmaz,
Zərrə qədər nə əyilməz, nə sınmaz.
Çaldığına oynamayan tapılmaz
Hərdən namərd, hərdən kişi dünyanın.

*Mart, 2002*

## İMANDAN DOĞAN İNAM

*(və ya qəzavat*)*

*Mobil Babayev musiqi bəstələmişdir.*

*Böyük Qafqazın əzəmətli oğlu Şeyx Şamilin ruhuna*

Ey hər kəsdən uca olan
Hər şeyə qadir Allah.
Mürid bizik, mürşid bizik,
Qalib bizik inşəallah.

Hidayətçimiz Qurandır,
Haqq, ədalət gəzirik.
Düşdüyümüz savaşları
Sınaq bilib dözürük.

Ey İslamın düşmənləri,
Yolumuzu kəsməyin.
Zaman özü qaziləri
Qəzavata səsləyir.

---

* Qəzavat – Ş.Şamilin apardığı müqəddəs savaşın adı.

Azadlıq mücahidiyik,
Şeyx Şamil imamımız.
Halaldı, Vətən yolunda
Tökülərsə qanımız.

Qoy oyanmış ehtiraslar
Qızışmasın daha da.
İman deyən insanları
Sövq etməyin cihada.

Qorxun Məhşər sorğunsundan,
Zülm, istibdad yetər.
Hamımız Adəm övladı
Deyək «Allahu Əkbər»!

*16.09.2002*

## HÜNƏR

Görünür,
Hünər də bir alın yazısıdır,
O, bir az insanın özündən,
Bir az da şəraitdən asılıdır.
Ancaq hamı üçün deyil,
Cürətlilər, güclülər
Və istedadlılar üçündür.
Cəsarətin yoxdursa qəhrəman,
Gücün yoxdursa pəhləvan
ola bilməzsən.
İstedadın yoxdursa,
özünü axtarma sənətdə,
Bir sübutsuz hikmət yatır
bu üç həqiqətdə.

Yerdə qalan insanların qisməti-
Ya məmur, ya əsgər,
Ya işsiz, ya fəhlə.
Bəzilərimiz, lap qalxaq yuxarı
bir neçə pillə.
Fərqi yox, onsuz da
Ömür keçir çərçivələr içində,
Fikir isə axtarışda, seçimdə.
İşimiz «dəryada balıq sevdası»,
Qalmışıq Allah ümidinə, qadası…

Bu cür düşüncələr başımda,

Ömrün ixtiyar yaşında-
50 yaşın astanasında
Xəyalən yol gedirəm
(bilmirəm qalxıram deyim, yoxsa enirəm)
Ölməzliyə qovuşmuş
Babəkin, Xətainin, Nəsiminin
Təxminən 40 olmuş yaşına.

Əbədiyyət tacı qonmuş

Hər üçünün başına!

Bu cür ömürlülərdən sonra

Ad günümə mübarək deməyə dilim gəlmir.
Nə yazıq, insan alın yazısını

Öncədən oxuya bilmir!

*04.08.2002*

## CILIZLAŞDIRILAN KÜTLƏYƏ

*Fikir müxtəlifliyi təbii haldır.*
***H.Əliyev***

Qoyun quzusunu öyrəşdirir ota,
Aslan isə əniyini ətə.

Çünki təkcə genlə, qanla deyil,

Yeməklə də yaşanır, artır, qorunur
Həm də nəsildən-nəsilə ötürülür
Xasiyyət, güc-qüvvət, qətiyyət.

Gücsüzlərdə, qətiyyətsizlərdə
Və ya qoyunkimilərdə
Hardan olsun qorxmazlıq,
Məğrurluq, əzəmət?
İndi başda gedənlərimiz
Ətsiz ərzaq yeməyi öyrədir camaata.
Fərq də göz qabağında,
Nə hacət əlavə sitata!

*01.11.2002*

# ANA HAQQINDA ÜÇ ŞER

## MƏNİM ŞAİR ANAM

*Doqquz övlad böyüdüb tərbiyə edən, südüylə, laylasıyla şeri qanımıza, canımıza hopdurub sevdirən, sözdəki hikməti və heyrəti bizə ilk öyrədən, özünün heç bir yazı savadı olmaya-olmaya yüzlərlə şer nümunələri, bayatı, atalar sözü və aforizmləri yaddaşına həkk edib, onları xüsusi məhəbbət və məharətlə yerində işlətməyi bacaran anamız Züleyxanı şair qardaşım Nurəddin bu barədə yazdığı bir şerində «Mənim şair anam, qəhrəman anam» adlandırmışdı.*

*Bu, həqiqətən də belə idi.*

*Beləliklə, mən – ailənin sonuncu övladı da, məmnunluqla etiraf edirəm ki, bütün övladlarına şerə bağlılıq və üç oğluna şairlik, ilk olaraq, anamızın südü və zəkası ilə keçmişdir!*

*Ruhu şad olsun!*

Çəkib ürəyinin şəhd-şirəsini
Südünə qatıbmış mehriban anam.
Bizə laylasında şer öyrədib

Mənim şair anam, qəhrəman anam.

O bir huri idi, nurlu, aybəniz,
Qəlbi qaynar bulaq, nitqi tərtəmiz.
Həyatda ilk şer müəllimimiz
Mənim şair anam, qəhrəman anam.

Keçsə də həyatı qəmli, qayğılı,
Bizi böyüdürdü nikbin, duyğulu.
Daim düşüncəli, daim sayğılı
Mənim şair anam, qəhrəman anam.

Yeri başqa idi hüzrdə, toyda,
Bayatı deyirdi neçə yüz sayda.
Sözdən bal çəkirdi mirvari boyda
Mənim şair anam, qəhrəman anam.

Dastanlar bilirdi, görürdün hərdən
Yığıb ətrafına bizi, sübhəcən
Deyir Xan Əslidən, ya Şahsənəmdən,
Mənim şair anam, qəhrəman anam.

Hopmuşdu dilinə sözün hikməti,
Sevdirdi səbrlə şeri, sənəti.
Anlatdı təmkinlə fikri, heyrəti
Mənim şair anam, qəhrəman anam.

Ömrun hər anıyçın bir söz bilirdi,
Hamısı təbii, qəlbdən gəlirdi.
Neçə yazılmamış misra deyirdi
Mənim şair anam, qəhrəman anam.

Sözə bağlamışdı etiqadını,
Sözdə axtarırdı hər muradını.

Yazmış yaddaşlara böyük adını
Mənim şair anam, qəhrəman anam.

Doqquz övlad doğub başa yetirdi,
Evi ocaq idi, məzarı pirdi.
Dünyaya üç şair oğul gətirdi
Mənim şair anam, qəhrəman anam.

Ömrümün, günümün mənası idi,
Hissimin, duyğumun aynası idi.
İlham ümmanımın sonası idi
Mənim şair anam, qəhrəman anam.

Ah, nələr var imiş canında onun,
Şairlik yatırmış qanında onun.
Əfsus, az yaşadım yanında onun,
Təbi bir çeşməydi, özü bir ozan,

Neçə anaların anası anam,
Neçə ataların anası anam.
Mənim şair anam, qəhrəman anam.
Hamıdan hamıya mehriban anam!

*Avqust, 2000*

## BAĞIŞLA, CAN ANA

*Dünyasını dəyişən anda övladlarından biri də yanında olmayan anam Züleyxanın əziz xatirəsinə.*

*Köçüb bir dünyam, yoxdur,*
*Gölüm var, sonam yoxdur.*
*Virandır atam evi,*
*İçində anam yoxdur.*

Son dəfə üzünü görə bilmədim,

Son dəfə əlindən öpə bilmədim,
Ağladım, sızladım, ölə bilmədim,
Bağışla, can ana, bağışla məni.

Bu qədər yaxınmış ölüm, bilmədim,
Sonam, anlamadım, gülüm, bilmədim.
Ayağın altında ölüm, bilmədim,
Bağışla, can ana, bağışla məni.

Görüb ətrafında yurddaşlarını,
Gözün gəzib məni, qardaşlarımı...
Saxlaya bilmirəm göz yaşlarımı,
Bağışla, can ana, bağışla məni.

Bir ara yanına gələ bilmədim,
Məşğuldum, vaxtımı bölə bilmədim,
Dönsün od-ocağım külə, bilmədim,
Bağışla, can ana, bağışla məni.

Nə səsim çatmayır, nə ünüm sənə,
O dünya vardısa, qoy dönüm sənə.
Nə dua, qurbandır hər günüm sənə,
Bağışla, can ana, bağışla məni.

Yuxuma girirsən — görünüm, gəlim,
Hardasan, can ana, sürünüm, gəlim?!
Hay ver, kəfənimə bürünüm, gəlim,
Bağışla, can ana, bağışla məni.

Gəlib o yerləri gəzirəm sənsiz,
Boğur qəhər məni, dözürəm sənsiz.
O ata yurdundan bezirəm sənsiz,
Bağışla, can ana, bağışla məni.

Ruhunmu bağlayan məni o kəndə,
Xəyalən bu yolu gedirəm gündə?!

Bir ana sevgisi uyuyur məndə,
Bağışla, can ana, bağışla məni.

Hərdən elə bil ki, lap yanımdasan,
Burda, yaşadığım ünvanımdasan,
Sənin varlığınla barışmaq asan,
Bağışla, can ana, bağışla məni.

Daşlaşmış şəklinin soyuq baxışı
Axıdır gözümdən bir yaz yağışı.
Sən ey geri dönməz səadət quşum,
Bağışla, can ana, bağışla məni.

İndi məzarındır müqəddəs yerim,
O soyuq daşları qucar əllərim.
Allahmı Kərimdir, ya sənmi Kərim?!
Bağışla, can ana, bağışla məni.
Bağışla, bağışla, bağışla məni.

*Avqust, 1997*

## UNUDULMAZ XATİRƏ

*Anamın anım gününə ağı*

Bu gün sənin ölümünün ildönümüdür,
Bu gün mənim kədərimin doğulan günü.
Bu  gün sənli günlərimin qətl günüdür,
Gözlərimin yaş içində boğulan günü.

Ruhun ilə dayanmısan yenə üz-üzə,
Heç bilmirəm göynəyim nə, istəyim nədir.
Ürəyimdən keçənləri duymaz bir kimsə,
Gözlərimin qabağından asılar kədər.

Ömrümüzün mənası bu, sonu budursa,
Bu üzüntü səbrimizi kəsir bəs niyə?

Cənnət sənin ayağının altındadırsa,
Demək keçən burdan keçir müqəddəsliyə.

Xatirəndir indi bizə təskinlik, pənah,
Yaxın-uzaq şərik olur bu dərdimizə.
Sən həyatın qəsdinə bax, təzadına bax,
Ayrılığın ölümü də sevdirdi bizə!

*28-29.02.2000*

## AYILIN, AĞALAR...

*Zira, kim haqsızlıq edərsə, işlətdiyi haqsızlığın əvəzini (mütləq) alacaqdır.*
***İncil, Əhdi Cədid, Koloslulara məktub, 3.25.***

Qayğılar çoxalır, güzəran çətin,
Dövran yükümüzü artırır müdam.
Tükənir dözümü, səbri millətin,
Çoxu həyatından bezikir tamam.

Azacıq imkanlı məhrəm ünvan yox,
Kimə nə deyəsən darda, çətində?
Sən bir çəkdiyimiz iztiraba bax,
Qohum da, tanış da, dost da bu gündə.

Vəzifə bir qrup şəxslər üçündü,
Babat iş çıxıbdı ceyran dalına.
Məsullar cibini düşünür indi,
Yanan yox imkansız xalqın halına.

Bir ay yox, heç beş gün dolanmaq olmur
Dövlətin verdiyi məvacib ilə.
Demə, hökumətə bel bağlamaqla
Tamam ömrümüzü vermişik yelə.

Kəsib dörd tərəfdən yollarımızı,
Bizi bu Vətəndən bezdirənlər var.
Bir tikə çörəyi xalqa çox görən,
İçində xəbislik gəzdirənlər var.

Məmləkət bir iyrənc bazardı, sanki
Hara üz tutursan, pul istəyirlər.
Məşğulluq mənəvi azardı, çünki

İşçi yox, hər yerdə qul istəyirlər.

Tələbat qazancdan dəvələrlə çox,
Kütlə ürəyinin yağını yeyir.
Nəsil var, içində bir işləyən yox,
Kimi dindirirsən - dözürük - deyir.

Satılır səhiyyə, təhsil ilbəil,
Yazıq bu millətin imkansızları.
Barama qurdutək şişir müttəsil,
Yurdun haram yığan vicdansızları.

Talanır bir ucdan elin sərvəti,
Quldur oğruların adları bəlli.
Yığılır banklara gizli, xəlvəti
Milyonlar, milyardlar, gör neçə ildir.

Bunlara kar etmir nə Zəbur, Tövrat,
Nə İncil, nə Quran, nə Allah xofu.
Hələ üzlərinə gülür bu həyat,
Hələ ki, özünü şah sanır çoxu.

Ey azğın insanlar, qorxun bir qədər,
Qaçın bəd əməldən, durmayın üzə.
Ayılın, ağalar, usanın, yetər,
Səddamın taleyi görk deyil sizə?!

*27.04.2003*

## DÖRDLÜKLƏR

Bütün əməllərin gözü yaxşılıq,
Bürüsün qoy çölü, düzü yaxşılıq.
Nəcib arzulara körpü salaraq

Çəkir arxasınca bizi yaxşılıq.

***

Çətində Allaha təvəkkül dedin,
Tapar öz həllini hər müşkül dedin.
Ömrü cəhalətdə keçirdiyindən,
Ancaq din əhlinə sən kamil dedin.

***

Çaşıb, nadanları bəzən el bildik,
İstisi azalan közü kül bildik.
Taxıl zəmisində bitən laləni
Hərdən alaq bildik, hərdən gül bildik.

***

Yalandan içilir yüz andlar yenə,
Qalır əl altında quranlar yenə.
Millətin qanını soran kəslərdir
Millətin başında duranlar yenə.

***

Düzlük azdır, əyri çox,
Dolan şəstlə, nəfsi tox.
Duyğusuzun yanında
Ağlamağın xeyri yox!

*1998*

***

Hər insanın sevgi hissi gözlərindən oxunmaz,
Hər butanın ətri olmaz, ləçəkləri qoxunmaz,
Vətən eşqi, el sevdası bir ilahi sehr ki,
Hər tabloya həkk olunmaz, hər xalıda toxunmaz!

***

Bu dağlar cənnətin özüdü bəlkə,
Gül-çiçək sehrli sözüdü, bəlkə.

Adəm bu yerlərdən qovulan gündən
Çeşmələr ağlayan gözüdü bəlkə.

***

Hər bahar sevgiylə oyanır meşə,
Leysan yağışlarla yuyunur meşə.
Qışın qar yorğanı gətirilməmiş,
Payızdan lüt-üryan soyunur meşə.

***

Bu çöllər yenə də aldı, nə yaxşı,
Hər çiçək üstündə xaldı, nə yaxşı.
Özüm bu yerlərdə hərdən oluram,
Ürəyim ömürlük qaldı, nə yaxşı.

***

Bu zümrüd çayların aynası gözəl,
Üstündə sayrışan sonası gözəl.
Yazda coşub-daşar, dağ-daş oynadar,
Qışda yorğun düşüb donası, gözəl!

*Masallı, noyabr, 1999*

Ey yerini, yurdunu qibləgahı bilən dost,
Yaş ötdükcə hamını sıxır bu dərd, bu fikir,
Qürbətdə yaşamaqdan ürəyi qan olan dost,
Gör kimsəsiz can verən, qərib ölən nə çəkir.

*20.10.00*

Hiss ilə, duyğu ilə ürək yanıb-yaxılır,
Dünyanın ən qiymətli sözü "xoşbəxtlik" imiş.
İnsan yaşa dolduqca qayğısı da çoxalır,
Sən demə, qayğısızlıq özü xoşbəxtlik imiş.

*03.03.01*

Bəşərik, Tanrının sevgi payıyıq,
İnsanın pisi yox, xeyirxahı var.
Hamımız peyğəmbər övladlarıyıq,
Sadəcə hərənin öz günahı var.

*03.03.01*

Şer də canlıdır, doğulur, ölür,
Şer də duyğudan qəmlənir, gülür.
Bəzən bir ayda bir misra yaranmır,
Bəzən bulaq kimi süzülüb gəlir.

*05.07.01*

Sənət də bir sirli-sözlü səmadır,
Burda hər yolçunun öz izi vardır.
Ustadlar ən yaxın kəhkəşanlardır,
Qalan hər kəsin öz ulduzu vardır.

*Sentyabr, 2000*

Haçandır qəlbimdə qəm bardaş qurub,
Bir səbəb yoxdur ki, ürək sevinə.
Səhərdən axşama işsiz oturub,
Pəncərə açıram qəbir evinə.

*02.10.2002*

Yaz gələndə yatağına sığışmır,
Yayılır dörd yana səsi, harayı.
Bircə an da yavaşımır, səngimir,
Ömür kimi iti axır dağ çayı.

*Avqust, 2002*

Mən elə həyatı əzablı gördüm
Gözümdən süzülən yaş ilə qaldım.
Ürəyim əridi keşməkeşlərdə,
Köksümdən asılan daş ilə qaldım.

*Oktyabr, 2003*

Çiynimdə ağır yük, çəkdiyim əzab
Yox bir anlayanım, köməyim, Allah.
Mənim hər işimin sonu iztirab,
Sizif zəhmətiymiş əməyim, Allah.

İnsan min möhnətə alışa bilir,
Nadanın dərdini daşımaq olmur.
Qürbətdə birtəhər yaşamaq olur,
Çörəksiz vətəndə yaşamaq olmur.

*18.06.01*

***

Ara, ömrün, boyu gəz gözəlliyi,
Kor olsun, görməsə göz gözəlliyi.
Harda gözəl varsa ora ocaqdı,
Müqəddəs sayırıq biz gözəlliyi.

***

Dolan, kainatı tanı, nə gözəl,
Anla hər məqamı, anı, nə gözəl.
Özün bu dünyada bir əsr yaşa,
Adın bu torpağın şanı, nə gözəl!

***

Bir gözəl boylanıb baxır qıyqacı,
Könlüm o baxışın, üzün möhtacı.
Kaş bir yol o afət olaydı mənim
Yaramın məlhəmi, başımın tacı.

***

Bir nazənin öpüş verdi bir ixtiyar qocaya,
Səksən yaşlı o qocanın dünya döndü gözündə.
Bu sərməstlik nəşədən çox əzab idi, Xudaya,
Nə o gözəl özündəydi, nə o qoca özündə!

***

"Can" söylə, bal olsun sözün, bacarsan,
Çək bu gözəllərin nazın, bacarsan,
Arabir oduna qızın, bacarsan,
Çünki gözəllərlə gözəldi dünya!

*Aprel, 2000*

## GÜL BALAM

*Nəvvab Sadaxov musiqi bəstələmişdir.*

Sən ülvi duyğularımdan doğuldun,
Mənə ömrün sevincini anlatdın.
Ciyərparam, sən şəkərim, noğulum,
Mənə dünyanı yenidən tanıtdın.

Bizimçün adından əziz heç nə yox,
O gül nəfəsindən təmiz heç nə yox.
Qəşəng balam, uşaqlığın nə şirin,
Dəcəlliyin, şıltaqlığın nə şirin.

Hara baxıramsa gözlərimdə əksin,
Harda oluramsa qulağımda səsin.
Həm ilk sevinc, həm mücdəsən, nübarsan,
Canım-gözüm, nə yaxşı ki, sən varsan.

*Aprel, 2002*

## ŞAİRİN ÖLÜM YAŞI

*Ömrü boyu iqtisadi çətinliklər içində boğulan, heç yerdə babət, uyğun iş tapa bilməyən, imkansızlıq və xiffətdən xəstələnən, lakin müalicəsinə vəsaiti olmayan və bu səbəbdən də 49 yaşında dünyasını dəyişən şair Böyükxan Pərvizin ruhuna.*

Dərdi saymaqla qurtarmaz,
Bir acı tale yaşadın.
49 yaş nə çox, nə az,
Şairin ölüm yaşıdı.

Hər duyduğuna yoldaş ölüm,
Saldı səni çaşbaş ölüm.
Sirdaş, qəmdaş, dərddaş ölüm

Oldu qəfildən yaşıdın.

Necə bədbin, qəm avazdın,
“Qəbirdən məktublar” yazdın.
Sözün qalıb yadımızda-
Ölüm hər şeyin başıdı.

Di, gəz qəbirlər arası,
Qoyma pozula sırası,
Şerinin hər bir misrası
Bir məzara başdaşıdı.

Təsəlli gəzirik hərdən
Ümid üzülən yerlərdə.
Ölüm ruhlu şerlərdə
Böyükxan Pərviz yaşadı.

*30.06.01*

## ŞERDƏN MƏNALI

Gündüz ürəyimdə yaranan yeni şeri
Gecə oturub yazmaq istədim.
Həzin, məlahətli bir mahnı səsi
Diqqətimi yayındırdı, huşumu apardı.
İlham köhlənim təntidi, təbim azaldı.
Beynimdə misraların səfi pozuldu,
Yerində musiqi sədaları düzüldü.
Oyanıb sübh tezdən
Keçdim yazı masasının arxasına təzədən.
Heç fikrimi toplamamış,
Başladı çöldəki qumru quşlarının
Ecazkar oxusu, çağırışı.
Bir azdan bu nəğməyə qarışdı
Digər quşların cəh-cəhi.
Tükənmək bilmədən gəlirdi

Növbənöv səslərin ardı.
Quruldu bir təbii musiqi festivalı.
Adi yaz səhərinin bir anında
Nə qədər gözəllik, heyranlıq vardı.
Amma vaxt öz axarıyla axırdı...
Axşam bir nəşə aldım.
Səhər bir nəşə.
İndi isə zaman məni tələsdirirdi
Tamam ayrı işə.
Hazırlaşmalıydım qəbula, görüşə.
Hələ bəlkə çağırılaydım
Neçə gözləmədiyim yerə.
Nə deyirəm, təki ömür o qədər
Duyğulu, mənalı ötüşə,
Vaxt qalmaya şerə.

*24.06.03*

## BİLİRİK, ÇƏTİNDİR...

*Ölkədə hökm sürən özbaşınalıqlara və haqsızlıqlara qarşı barışmaz mövqe tutduqlarına görə təqib edilən və bu səbəbdən də müvəqqəti mühacir ömrü yaşamağa məcbur olan mübariz soydaşlarımıza.*

Demə, baxtabaxtmış ömür büsbütün,
Taleyi, qisməti nə bilmək olur?
Görürsən, əlindən tutduğun bir gün
Səni öz yurdundan, elindən qovur.

Dünyanın, gör neçə eniş-yoxuşu,
Nə qədər gecəsi, gündüzü varmış.
İnsanın çiyninə səadət quşu
Bir anın içində qonub - uçarmış.

Naqisə doğmalıq, qayğı, sədaqət
Başa bəla imiş, daha neyləmək?
Nankorun yolunda çəkilən zəhmət
Bir qara qəpiyə dəyməzmiş, demək!

Heyf, bu hikməti anlaya bilmir
Tərifdən məst olan bədbəxt adamlar.
Burnunun ucundan o yanı görmür
İndi məmləkətdə at oynadanlar.

Yüz adla namərdlik etsə də, nə qəm,
Sizləri məcburi mühacir edən.
Kimsə dayandırmaz mübarizləri
Azadlıq uğrunda mücadilədən.

Siz Vətən yolunda, dövlət naminə
Ömrü xərclədiniz dəyərsizlərə.
Bu boz üzlülərsə yadın birinə
Satırlar vətəni mənsəbə görə.

Elə hiylə gələr, xalqa tor qurar,
Bu işdə bədxahlar, sözdə həyanlar.
Cəfəng nitqi ilə milləti yorar
Sözü əməliylə bir olmayanlar.

Bu xalqın nə qədər dərdi-səri var,
Ancaq itməyibdir etibar hələ.
Nə yaxşı kütlənin pənah yeri var,
Siz varsız, deməli, ümid var hələ.

Bilirik, çətindir bu sayaq həyat,
Yaş ötür şərəfsiz mübarizədə.
Sizin çəkdiyiniz ağrı-acıdan
İnanın, pay düşür burda bizə də.

Daim yanımızda, sıramızdasız,
Səsiniz gəlsə də uzaq ellərdən.
Ayıra bilməzlər bu imansızlar
Düşünən başları vuran əllərdən.

Çox böyük hünərdir, çox şirin uğur,
Kütlənin, ölkənin qeydinə qalmaq.
Nə qədər çətinmiş, nə qədər ağır,
Vətəndən qıraqda vətəndaş olmaq!

*Dekabr, 2000*

## ŞAİRLİK

Ürək bir ümmandır, duyğu bir sona,
Şair şerin qulu, şerin dəlisi.
Ən əziz qadından əzizdir ona
Gözəllər gözəli - İlham pərisi.

Şairlik çox böyük zəhmət meydanı,
Şairlik nə bəylik, nə köləlikdir.
Şairlər dünyanın söz yaradanı,
Şairlik şerə hamiləlikdir.

Şerin də anası şairdir, əlbət,
O ağrı çəkməsə, şer doğulmaz!
Ömrünü şerinə qıysa da, fəqət,
Şerin möhnətindən bir yol yorulmaz!

Könüllər oxşayar, məclislər bəzər,
Söz-söz, misra-misra yığılan şer.
Ana bətnindəki körpəyə bənzər,
Şairin qəlbində doğulan şer.

Şeri hər şairin öz balasıdır,
İstər güclü olsun, təpərli olsun.
Hər misra şairin söz balasıdır,
Təki söz mülkündə hünərli olsun.

Ürəyi dəyirman daşı kimidir,
İçində söz dəni üyütməlidir.
Şair də hamilə qadın kimidir,
Şerini qanıyla böyütməlidir.

Şair vəsf eyləyən, şair yaradan,
Yazdığı hər əsər lələ bərabər.
Ən böyük diqqətə, ən yüksək ada
Onun da haqqı var, bir ana qədər.

*02.10.1999*

## Türküz, türkü oxuyuruz

*Aşıq Veysələ.*
*Ruhu şad olsun.*

Qoy dinləsin aləm bizi,
Türküz, türkü oxuyuruz.
Qorxudamaz ələm bizi,
Türküz, türkü oxuyuruz.

Məskən saldıq dağda, düzdə,
Bir səs gəzdi köçümüzdə.
O səs daim içimizdə,
Türküz, türkü oxuyuruz.

O bizim yol yoldaşımız,
O bizim can sirdaşımız,
O bizim qan yaddaşımız,
Türküz, türkü oxuyuruz.

Türkmən, tatar, qazax, qırğız,
Başqırd, kərkük, qıpçaq, oğuz.
Bir rəngdədir bayrağımız,
Türküz, türkü oxuyuruz.

O səs Boz Qurdun səsidi,
O səs həyat nəfəsidi,
O səs millət şərqisidi,
Türküz, türkü oxuyuruz.

İzn ver, ey Allahımız,
Xoş açılsın sabahımız,
Sən duamız, pənahımız,
Türküz, türkü oxuyuruz.

*Dekabr, 2002*

## Səni zəmanə öldürdü

*Həyatdan vaxtsız köçmüş həkim dostum*
*Məmmədov Məmmədin əziz xatirəsinə*

İşsizliyindən xiffət edirdin, darıxırdın yaman.
Hətta əsəbindən öz-özünlə danışırdın çox zaman.
Bu cür anlarında havan çatmırdı hərdən.
Belə vəziyyətində bəzən
söyürdün ölkəni özəlləşdirmək istəyən
simasız quldurları.
Deyirdin, başlarından aşır, sərvətləri, varları.
Bu yazıq xalqa da bir tikə çörəyi
rahat qazanmağa qoysunlar, barı.
Bu cür fikirlərlə, streslərlə
Yaşaya-yaşaya xəstələndin.
Günü-gündən ağırlaşdı vəziyyətin.
Amma mükəmməl müayinə olunmağa,
Xəstəxanada müalicə almağa
İmkanın, pulun yox idi.

Və bu imkansızlıq səni sındırdı, əydi,
Cavan canını vaxtsız əritdi.
Ürəyinin ağrılarını hamıdan gizlətdin,
Nəticədə infarktı ayaq üstə keçirtdin.
Ağrın şiddətlənəndə, sinən yananda-
O müdhiş, kritik anında
Dostları köməyə çağırdın.
Kimisi tez yüyürüb gəldi,
Kimisi eşitmədi, inanmadı, gəlmədi...
Gələnlər də kömək edə bilmədi.
Qaldın namərd ölümlə üz-üzə, tənha,
Başlandı qaydasız döyüş, oldunuz əlbəyaxa.
Sən təcrübəsiz, naşı, xəstə, yorğun,
O isə quldur, qansız, azğın.
Bir andaca çıxarıb canını boğazından
Qaçırtdı əbədiliyə,
    cismini də apardılar uzağa -
Bakıdan xeyli aralı yerə -
Doğulduğun Kürdəmirə - Yenikəndə.
Bu qəfil ölümünlə, gedişinlə
Öz ömür yolunu bitirdin.
Qoydun ailəni darda, çətində.
Bakıda səni istəyənlər, dostlar, tanışlar,
İş yoldaşların tamam çaşbaş qaldılar.
Yığışıb ikibir, üçbir səni xatırladılar.
Kövrəldilər, ağladılar.
Bu minvalla yas saxladılar.
Çılğınlıq da etdi bir çoxu,
Özünü saxlaya bilmədi,
Dövlətin, hökumətin ünvanına hədyan söylədi.
Zəmanənin üzü qara olsun...
Özün yaxşı bilirdin...
Həkimin aylıq məvacibi,
Gəlib məzarını ziyarət etməyin
                xərcini ödəmir, axı!

*02.07.2003*

## KAMİL OLMAQ İMANDANDIR

Sən ey əqidə qardaşım, dəyişməyim zamandandır,
Biz əzəldən bir olmuşuq, bu can elə o candandır.
Hardan gəlir ibtidamız - bir nütvə var, bir gen vardır,
Bir də ana bətni vardır, əlbət, gələn qan qandandır.
Harda nurlu bir üz görsən, tamaşa qıl camalına,
O nur Tanrı sevgisidir, zinət verən Yaradandır.
Yer üzündə təriqət çox, dinlər bir-birindən gözəl,
Kim Allahı tanıyırsa, o şəxs elə islamdandır.
İbadətdən savab ummaq abidlərin şakəridir,
Xəyal ilə yaşamağın bünövrəsi gümandandır.
Əməl saleh deyildirsə, əqidənin faydası yox,
Cəhənnəmin dayaqları naqislikdən, yamandandır,
İndi zəka əyyamıdır, bəşər daim tərəqqidə,
Bilik, ədəb kamillikdə, kamil olmaq imandandır.
Aqillərdən hidayət et, anla sözün məqamını,
Fəxrəddin, axirət varsa, ömrün sonu imtahandır.

*Aprel, 2002*

## DÖVLƏT XALQI ALDADIRSA...

*Həqiqət səni azad edəcəkdir.*
***İsa peyğəmbər***

Dövlət xalqı aldadanda Tanrı bəla göndərər,
Ölkə ağır bir dərd tapar hər kiçik yarasında.

Bir az iti addımladıq, düşdük yenə zillətə,
Heç bilmirik tərəqqinin qalmışıq harasında.

Çox öyünüb baş apardıq, hay-küy saldıq haqq-nahaq,
Adımız bəyan olanda ölkələr sırasında.

Dizimizdə güc yoxdursa, beynimizdə qətiyyət,
Söz deməklə iş aşarmı Avropa Şurasında?

Nicat ancaq özümüzük bu torpağa, bu yurda.
Başçı adil olacaqsa, dərman çox çarəsində.

Sərvət dedik, qızıl dedik pambığa da, neftə də,
Daim milyonlar axtardıq ağında, qarasında.

Bəs etməzmi yığdığınız, ey cənablar qayıdın
Bu millətə vurduğunuz ziyanın yarısından?

Sözümü yersiz saymayın, vallah, mən fərq görmürəm
Bazarda kartof satanla, neft satan arasında.

*02.07.2002*

## Yaxşı kişilərə

*Yaxşı kişilərlə dostluq edin.*
***Məhəmməd peyğəmbər***

Bütün ölçülərin başında durar,
Haqqı əzəmətlə ölçülən kişi.
Gözündən od yağar, çöhrəsindən nur,
Yüz kişi içində seçilən kişi.

Yox bir əməlində naqislik, eyib,
Hamıya dost deyib, qardaş söyləyib.
Nə mənsəb, nə dövlət onu əyməyib,
Kişilik boyuna biçilən kişi.

Bir halal insandır, zatı pak, nəcib,

Daim məclis qurub, süfrə bəzəyib.

Hələ dodağına içki dəyməyib,
Gündə sağlığına içilən kişi.

Bir “dağ aşırsa” da, bir “sağ ol” bəsi,
Bəşərin səxavət mücəssəməsi,
Çətində hamının ərki, kimsəsi,
Yolunda canından keçilən kişi.

Yaxşılıq bənzərsiz sınaq, imtahan,
Tanrı hamımıza yetirsin məqam.
Yaxşılar ucalsın, artsın hər zaman
Nə çox aramızda kiçilən kişi.

Ən şirin arzunun özü xoş savaş,
Bu da bir istəkdi söylədim, qardaş.
Bu sayaq müqəddəs yol seçəydi kaş,
Özünü ər sayan, nər bilən kişi!

*01.03.2000*

## Məzarıstan evimiz

Bütün tikililərin əzəlisi, əzəmi,
Bu cür müqəddəs olmaz yaratsan da yüzünü.
Əbədi qoyduğunçün bu torpağa üzünü,
Son ümid, son təsəlli - məzarıstan evimiz,
Adı, ünvanı bəlli, məzarıstan evimiz.

Nə əvvəli bilinməz, nə görünməz son ucu,
Burda sevinc dilucu, burda qəhər boğucu.
Kim gəlmişdir birinci, kim olacaq sonuncu?
Bir məchul yolayrıcı - məzarıstan evimiz,
Anlamı ağır, acı, məzarıstan evimiz.

Bura sirli bir ünvan, bura ovsunlu məkan,
Burda uyusa, sanki haqqa qovuşur insan.
Bəni-adəm binadan möcüzələr yaradan,
Fəqət, sındığı meydan - məzarıstan evimiz,
Cismi candan ayıran, məzarıstan evimiz.

Siz ey dərdli insanlar, gəlin, burda yas qurun,
İçində güllər əkin, yolunda sərv basdırın.
Amandı, qəribləri öz yurdunda basdırın,
Qürbətdə güvənc yeri, məzarıstan evimiz,
Soykökə söykənc yeri - məzarıstan evimiz.

May, 2000

## Dilənçi uşaq

*Son illər küçə və parkalarına dilənçilər dolmuş şəhərimizdə maşın yolunun üstündə, işıqforun yanında bir dilənən uşağa min manat pul verdim, sevincindən elə atılıb düşdü ki, az qaldı maşın altında qalsın.*

Ay özü-özünü aldadan uşaq,
Bu pul bir çörəyə yetər, ya yetməz.
Dilənçi ömrünü uzadan uşaq,
Bununla bir günün ötər, ya ötməz.

Düşdüyün halından xəbərdardımı
Hökumət üzvləri, xalqa elçilər?
İndi də dahilik eşqinə düşüb
"Xalqı xoşbəxt edən siyasətçilər".

Bunların nəfəsi, vədəsi yalan,
Nəhayət, tanıya bilin, kim kimdi?

Tükənməz təbii sərvəti olan
Yurdda körpələr də dilənir indi.

Pənah aparmağa yox güvənc yerin,
Yaxınlar, doğmalar hamısı müflis.
Çörəyə möhtackən valideynlərin,
Pul-sərvət toplayır, gör neçə iblis.

Ümid qapısı da bağlanır daha,
Millətdə kimsəyə inam qalmayıb.
Elə bil bu yurdda yaxşı kişilər
Heç vaxt yaşamayıb, heç vaxt olmayıb.

Bir qrup yerini, yurdunu satır,
Bir qrup evini, varidatını.
Kimisi öz bədən üzvlərini,
Kimisi fiziki ehtiyatını.

Göydə Allah görür bu müsibəti,
Ancaq görmür sizi bu gözüaclar.
Xərcləyə bilməzlər bu var-dövləti,
Vaxtı var, haçansa qan qusacaqlar.

Nə çoxdur zamanın ibrət dərsləri,
Bu da bir dövrdür, mütləq keçəcək.
Zalımın tarixdə bəllidir yeri,
Millət qalibini özü seçəcək.

Sınmayın, səbrli olun bir qədər,
Gözləyin bir az da, dözün bir təhər.
Görürük, xalqına zülüm edənlər
Cəzanı ömrünün sonunda çəkər.

*İyul, 2001*

## Səni xatırlarkən

*Kamil qələmi, özünəməxsus şer dili və deyim tərzi olan dəyərli şair, mübariz insan, ləyaqətli, səxavətli kişi, cənub bölgəsində yaşayıb-yaradan, dövrünün seçilən və tanınmış cırnalisti, redaktoru, fəqət bürokrat rayon rəhbərlərinin məqsədli diqqətsizliyi, laqeydliyi, qərəzi ucbatından uzun illər işsizliklə imtahana çəkilən... və bütün bunlara əsəbləri dözməyən, ürəyi partlayan, əbədiyaşar Vaqif İbrahimə (Hüseynova).*

Səni yaşamağa qoymadılar,
verdilər dövranın güdazına, heyhat.
Sənə əzab verməkdən doymadılar,
atdılar fələyin ağzına, ustad!
Çırpındın, çabaladın hay-küysüz,
birinə hiss etdirmədən ağrını, nigarançılığını.
Doğmaların da bilmədi ürəyinin sancdığını…
Uzun müddət işçizliklə,
hətta aclıqla imtahana çəkdilər səni.
Ancaq qıra bilmədilər
mətinliyini, iradəni.
Sözünü deyirdin məqamı gələndə,
qorxmadan, çəkinmədən,
simasız quldurların sırtıq üzünə.
Heç saya da salmırdın
özünü xırda şah kimi aparanları -
o vaxtın birinci katiblərini -
mütləq ixtiyarları.
Yüz dəfə özlərini sənə "tanıtmağa"
çalışsalar da,
tanımadın heç birini.
Çünki sən onlardan fərqli olaraq,
Çox yaxşı bilirdin öz yerini.
O yer ki, hər misrandan,
hər sözündən gül açar,

şerini dinləyənlər vəcdə gələr,
dil açar.
Bir sözlə, üzüağ keçə bildin
bu dünyanın nahamar yollarından.
Amma adlaya bilmədin
ömrün yarım əsrindən.
Ürəyin dözmədi haqsızlıqlara,
sözün təsir etmədi
bu siyasi korlara.
Əlli yaşın zirvəsində
bağladılar dörd yandan yollarını.
Ölməzliyə qovuşmaq üçün
ana torpağa açdın qollarını.
Bu da təbiətin bir sınağı idi, - olsun.
Verən verdiyini bir gün almalı idi - alsın.
Fəqət nə qəm, dilimizdən düşmür adın,
çünki sən heç zaman fəxriyyə, mədhiyyə
yazmadın.
Söz məbədinə söz hördün,
əsl şer yazdın, yaratdın.
Başını həmişə dik tutdun,
kişi kimi yaşadın.
Ruhumuzla, xəyalımızla
hər gün gəlirik güzarına.
Salam olsun bizlərdən
sənin əziz ruhuna,
müqəddəs məzarına!

*Oktyabr, 2002*

## Söz karvanım

Gör haçandır ürəyimdə cığır salıb açdığın iz,
Gör haçandır bir səs üstdə köklənmişik hər ikimiz.
Gör haçandır təhtəlşüur dayanmışam qulluğunda,
Hara çəkir ilham məni, görən bu söz bolluğunda?
Gec açılan bağçam-bağım, tanınmayan adım, sanım,

Söz karvanım.

Daim səni arzu kimi, istək kimi səsləmişəm,
Kəlmə-kəlmə toplamışam, misra-misra bəsləmişəm.
Hər gəlişin titrədibdi ürəyimi yarpaq kimi.
Hər ruhumu oxşadıqca, sevinmişəm uşaq kimi,
Nəvazişim, iftixarım, ağrım, acım, mehribanım,
Söz karvanım.

Sən ki, hələ gerçəkdən çox şirin ümid, xoş vədəsən.
Xəyalımda, düşüncəmdə ucaltdığım abidəsən.
Ey hamıdan gizlətdiyim zərif duyğum, məhrəm hissim,
Söykənc yerim, səcdəgahım, qibləgahım, müqəddəsim,
Canımdan çox istədiyim yaratdığım, yaşatdığım,
Söz karvanım.

Nə yaxşı ki, onun-bunun kölgəsində dolanmadın,
Mədhiyyələr, yalmanmalar girdabında bulanmadın,
Meyl etmədin ucuz, çürük təbliğata, siyasətə,
Cəsarətlə qahmar çıxdın ədalətə, həqiqətə.
Hər təsirdən uzaq olan öz söhbətim, öz dastanım,
Söz karvanım.

Fərqi yoxdur bundan sonra əlli, yetmiş, yüz yaşayım,
Təki sənsiz ötüşməsin bircə günüm, bircə ayım,
Bir zamanlar mən olsam da, ərsəyə gətirənin,
Tamam-kamal ixtiyarım əlindədir indi sənin,
Yazılarmı bu nahamar yollarında son ünvanım,
Söz karvanım,
Söz karvanım?!

*İyun, 2003*

## Soyuq təndirlərə çörək yapılmaz

*Nəfsin istəyinə uymayın.*
***Məhəmməd peyğəmbər***

Çılğınlıq cahillik əlamətidir,
Ağlı yetkin olan hissə qapılmaz.
Fərhadın dastanı bir əfsanədir,
Külüng zərbəsiylə qaya çapılmaz.

Qəribə bir xislət var canımızda,
Gücü axtarırıq ad-sanımızda.
Rəqib baş kəssə də dörd yanımızda,
Bizə toxunmasa, düşmən sayılmaz.

Yaman öyrəşmişik alqı-satqıya,
Əhsən bu hərraca, bu soyhasoya.
Ola, bu ağalar dayana, doya,
Anlaya ləyaqət, Vətən satılmaz.

Torpağı verdik ya satdıq, nə fərqi,
Yadlara qoyduq, ya atdıq, nə fərqi,
Biganə qaldıq ya yatdıq, nə fərqi,
Qəflət yuxusuna gedən ayılmaz.

Bu xalqın nəyi var, dağıdın, sökün,
Bakı özünüzün, yenidən tikin.
Yola, dənizə də bir çəpər çəkin,
Hələ ki, sizə “yox” deyən tapılmaz.

Ayrılın, ayrılsın bazarınız da,
Eviniz, işiniz, məzarınız da.
Ayrıdır ağrınız, azarınız da,
Onsuz qanınıza bir qan qatılmaz.

Dərd ki, ovunmadı əhli-hal ilə,
Keçər gün-güzəran qeylü-qal ilə.
Qayıtmaz Qarabağ bu minval ilə,
Soyuq təndirlərə çörək yapılmaz.

*18.03.2002*

## Qulaq as, bala

Dünya duyğu yeri, nəşə yeridir,
Gəncliyi qəflətdə yatmazlar, bala.
İnsanda çox şey var zinətdən baha,
Hər pula gedəni satmazlar, bala.

Həyatda hər şeyin əks üzü var,
Yaxşının pisi var, kəcin düzü var,
Əməl tarazlanır, geci-tezi var,
Nahaqdan günaha batmazlar, bala.

Qocalar evinə ayaq bas bir gün,
Bənizlər kədərli, baxışlar küskün.
Can qurban edərlər valideyn üçün,
Atanı, ananı atmazlar, bala.

Baxma ki, özündən razıdır hər kəs,
Hamıya sağlam ruh, bədən verilməz.
Milyon nataraza bir ağıllı bəs,
Səni qorxutmasın, qoy azlar, bala.

Axdıqca ciblərə bu xalqın varı,
Unutduq vədləri, əhdi, ilqarı.
Söz vermək ayrıdır, iş görmək ayrı,
Yenə fənd axtarır işbazlar, bala.

Biz kimdən öyrənək mədəniyyəti,
Böyüklər nəfsi ac, mədə niyyətli.
Hələ azdır bizdə kişi qeyrəti,
Hələ ürəyimiz sızıldar, bala!

*20.03.2002*

## Dahilərə biGanəlik etməyin

*Moskvanın "Veçe" nəşriyyatı "100 böyük..." seriyası ilə, müxtəlif sahələr üzrə, dünyanın yüz böyük insanı, hadisələri, tikililəri və s. haqqında yüz adda toplular buraxır. Onlardan biri də "100 böyük kitab"dır.*
*Həmin kitaba təkcə rus ədəbiyyatından 20-dən çox müəllifin əsərləri daxil edildiyi halda, Şərq klassiklərindən, hətta Firdovsinin, Nizaminin, Sədinin və Füzulinin yaradıcılığından nümunələr salınması "unudulmuşdur". Bu boyda biganəlik heç insafdandırmı?*

Sağ ol səni, yazıçı dost, publisist qardaş,
Yüz yazara sərf etdiyin bu zəhmət üçün.
Bu kitablar kitabını yazmamışdan, kaş
Yüz həyəcan keçirəydin hər qiymət üçün.

Yüz bağçanın çiçəyindən çələng bağlayan,
Doğrudan da çox çaşdırıb bu şöhrət səni.
Kimə laqeyd, kimə isti münasibətin
Qorx ki, edə, bu minvalla, bihörmət səni.

Görən, ürək ağrısıyla heç anırsanmı
Alkmeonu, Hippokratı, İbn Sinanı?
Varaqla bir, onların da yazdıqlarını,
Tapacaqsan cismindəki min bir mənanı.

Necə oldu imam Əli, o böyük düha,
Rəvadırmı unudula "Nəhc əl bəlağə?"

O Həzrətdən bu dünyaya gəlməz bir daha,
Təbərrükdür yetsə nuru hansı ocağa.

Firdovsinin “Şahnamə”si şah əsər kimi
Min ildir ki, qərar tutur şahlıq taxtında.
Yoxsa bu dürr dəryasında hansısa qəvvas
Nəhayət, bir qüsur tapdı sənin vaxtında?

Kəhkəşantək işıq saçır yüz ömür orda,
Hərəsinin qabağında söz xəzinəsi.
Əcəba, bəs nə səbəbdən görünmür orda
Mənim böyük Nizamimin ölməz “Xəmsə”si?

“Gülüstani-büstan” ilə Sədi Şirazi
Milyonlara səxavətlə göndərmiş hikmət.
Ömər Xəyyam inci düzdü - rübai yazdı,
Hər birində həyat eşqi, acı həqiqət!

Oneginə sevgisində qüdrətli Puşkin
Göstərsə də Tatyananın diliylə hünər.
Ancaq heç kim bu heyrəti verə bilməmiş
Füzulinin yaratdığı Leylisi qədər.

Yüz kitabı min kitabdan seçən, min əhsən,
Bu seçimin meyarı nə, sərrafı kimdir?
Lev Tohlstoy, Dostoyevski uca, möhtəşəm,
Ay insafsız, bəs onların ətrafı kimdir?

Haqqa asi ilkin özü sınır, əslində
Beləsinə heç olmasa cahil deyilir.
Zaman-zaman sənin kimi nadan əlində
Haqq nazilir, tərəzimin gözü əyilir.

Mümkündürmü görməyəsən, anlamayasan
Bəşər üçün örnək olmuş bu insanları?
Blok, Bunin... Yesenini göyə qaldıran,
Dahilərə biganəlik etməyin, barı.

*Avqust, 2002*

## TALESİZ QIZLAR

*İndi şəhər və kəndlərimizdə cavanlıq yaşı çoxdan ötmüş on minlərlə ismətli qız səadətini ləyaqətinə qurban verərək, ata evində, taleyini elçi daşına bağlamışdır. Onların böyük əksəriyyəti kasıb balalarıdır!*

Hansı güc qarğıyır onları belə,
Bağlanır baxtları baxtsız qızların?
Qəlbində ümidi qalsa da hələ,
Ağarır saçları vaxtsız qızların.

Yaşı yaşdan keçər, baxtı açılmaz,
İstisi duyulmaz bu ulduzların.
Gəlinlik boxçası, taxtı açılmaz,
Gəlinlik üzünə həsrət qızların.

Dönər göz yaşına səyi, gileyi,
Keçər ömrü-günü güman içində.
Taleyi bir azmış gəmi taleyi,
Yol gedər hələ ki, duman içində.

Oyatmaz bir qəlbdə sevgi-məhəbbət,
Nəzərdən, diqqətdən silinər daha.
Elçi sevdasında aldığı qiymət
Acı həqiqəttək bilinər daha.

Bu dönük taleyin səbəbi aydın,
Yarı arxasızlıq, yarı ehtiyac.
Dünyaya sevilmək öyrədən qadın

Qalıbdı bir zərrə qayğıya möhtac!
Subaylar imkanlı qız seçir indi,
Bu cür qohumluğu hünər sayan çox.
Duydum, qəlbinizdən nə keçir indi,
Qoymuşuq qeyrəti şöhrətə girov!

Şöhrət gəziriksə hər şeydən öncə,
Bədbəxt tükəzbanlar azalmaz, bacım!
Xəstə düşüncəmiz dəyişməyincə
Sizə sağlam tale yazılmaz, bacım!

Gör kimə qıyırsan, ay adil Allah,
Budurmu yazdığın alın yazısı?
Kasıb daxmasında ömür çürüdür
Bir yazıq atanın qarımış qızı.

Ya Rəbbim, bir anlıq zülmünü unut,
Onsuz da çətin vaxt, ağır dövrandı.
Uçurt asimanı başıma, uçurt,
Ancaq bu qızlara qıyma, amandı!

Nə qədər dərd-səri vardı bu elin,
Ah, nələr çəkirlər qız anaları.
Ay subay oğlanlar, yığışın, gəlin,
Sevin, gəlin edin bu sonaları.

*Dekabr, 1999 (Ramazan ayı)*

## Yas saxlayıram

Nə vaxtdır ürəyimdə ağır bir kədər,
Yas saxlayıram,

Qolunda böyük təpər,
Ürəyində bir ömürlük səbr,
Qəlbində köləlik ruhu
Və bir qarın çörək qazanmaq ümidi,

Boynu bükük duranlar üçün.
Yas saxlayıram,
Gündə azı bir yol,
Bu cür acı talelilər görüb
Halını pozmayan,
Xalqın qanını zəli kimi
Soranlar üçün.
Yas sazlayıram,
Millətin pənahını,
Ümidini kəsib
Başında duranlar üçün.
Bir layiq ixtiyar tapmıram
Qəlbimi açmağa.
Bir halal süfrəli,
İşığı gur yanan tapmıram,
Arabir başımı götürüb qaçmağa.
Yas saxlayıram,
Ya könüllü, ya məcburi,
Vətəndən didərgin düşənlər üçün.
Yas saxlayıram,
Torpağı düşmən tapdağında yoğrulub,
Özü çadırlarda yaşamaqdan yorulub,
Səhv hərəkətdənmi,
Ya xəcalətdənmi,
Qızdırmadan yananlar üçün.
Yas saxlayıram,
Nəfsi imanından böyük,
Başı peysərindən kiçik,
Harınlayıb şişənlər üçün.
Yas saxlayıram,
Özünü siyasətçi və ya
Xalqına elçi sayıb
Burnunun ucundan o yanı
Görməyənlər üçün.

Yas saxlayıram,
Məramını, məqamını
Ağasının ağzında axtaran,
Ömrü boyu öz istəyi ilə
Gülməyənlər üçün.
Yas saxlayıram,
Bu minvalla
Yüksək vəzifələrdə qərar tutan
Yalaqlar üçün.
Yas saxlayıram,
Məqsədi naminə
Hər şeyə göz yumub,
Alçalmaqla, əzilməklə,
Özündən imkanlılara
Calaqlar üçün.
Yas saxlayıram,
Əli-qolu sağlam,
Əqidəsi, düşüncəsi
Çolaqlar üçün.
Ancaq yas saxlamıram,
Diz çöküb, baş əyirəm
Məsləki uğrunda,
Vətəni yolunlda
Sağlamlığını itirənlər,
Baş qoyub ölənlər üçün.
Yas saxlayıram,
Vətəni hərraca qoyanlar,
Ruhları əsarətdə qalanlar üçün.
Yas saxlayıram,
Yas saxlayıram
Hələ neçə illər, bilmirəm.
Təki, Allah kömək ola,
Bu hüznün müddəti azala!

## Mən saray şairi ola bilmərəm

Məni dost-doğmalar qınamasın, qoy,
Tanımır çoxları, tanımasın, qoy.
Tutduğum yolumu aza bilmirəm,
Fəxriyyə, mədhiyyə yaza bilmirəm.
İstərəm görünəm olduğum kimi.
Yazam hər misramı duyduğum kimi.
Süni şan-şöhrətə çəkməyir meylim,
Mənim xarakterim bu cürdü, neynim?
Öyrəşə bilmərəm yalaq olmağa,
Təhqir uda-uda calaq olmağa.
Yarınıb pay ummaq-şərəfsiz hünər,
O hörmət gətirər yaltaqlıq qədər.
Mənə cah-cəlalsız bir ömür yetər,
Könlüm dostluğu da minnətsiz istər.
Çox gördüm vaxt-bivaxt mədh deyənləri,
Axır xəcalətdə keçdi günləri.
Ortaya çıxmağa üzü olmadı,
Özü xəcil oldu, sözü qalmadı.
Şair öz-özünü dərk edən anda
Minnət götürməsin Allahından da.
Hamıya bir baxsa şairin gözü,
Onda heç bir qüvvə sındırmaz bizi.
Şairlər dünyanın söz sərkərdəsi,
Dinsin avazında, qoy xalqın səsi.
Mədh deyən şairin özü fəlakət,
Boğazdan yuxarı sözü fəlakət.
Şeri söykənmirsə səmimiyyətə,
Demək satılıbdır şair şöhrətə.
Başını dik tutmur, əyirsə, əlbət,
Keçir ürəyindən mənsəb, var-dövlət.
Gərək silkələsin haray şairi,

Mən ola bilmərəm saray şairi!
Mədh üçün sarayda qalsam, öləröm,
Harınlardan «ilham alsam», ölərəm.
Yalandan xəyala dalmaq nə çətin,
Hiyləgər mehriban olmaq, nə çətin!
Məqsədli ağlaya-gülə bilmərəm,
Mən saray şairi ola bilmərəm.
Heç yerdə, heç zaman ola bilmərəm,
Əlaman, əlaman, ola bilmərəm!

*Sentyabr, 1999*

## Ayrılığın sonu olmur…

*Acı ruzgarın vaxtsız dost-doğma, bacı-qardaş…
və övlad itkisi ilə sınağa çəkdiyi insanlara*

Hardan gəlir çağrılmamış bu qonaq,
Nə yalvarış anlamayır, nə qınaq?
Qabağında ha sızlayaq, ha yanaq,
Ayrılığın sonu olmur, əzizim.

Qurban olum əzabna, ağrına,
Ürəyini tutub da çox ağrıma.
Bundan belə bir daş bağla bağrına,
Ayrılığın sonu olmur, əzizim.

Hərəmizin başında yüz hekayət,
Zəhər imiş dərd gətirən həqiqət.
Kim görür ki, sabahını, ya qismət,
Ayrılığın sonu olmur, əzizim.

Həyat elə yaranışdan sınaqdı,
Hər insanın öz taleyi, öz baxtı.
Ayrılığın var zamanı, var vaxtı,
Ayrılığın sonu olmur, əzizim.

Nə yaşadıq, ömür keçdi bu yaşda,

Əcəl gəlib bardaş qurub da başda.
Bu ovqatla ha tutul da, ha çaş da,
Ayrılığın sonu olmur, əzizim.

Ötüşsə də ömrümüzün yüz ili,
Silə bilməz urəkdəki niskili.
Əlimizdən gələn ancaq təsəlli,
Ayrılığın sonu olmur, əzizim.

Beynimizdə axirətin marağı,
Kim düşünüb cənnət adlı o bağı?
Bütün bəşər Yer üzünün qonağı,
Ayrılığın sonu olmur, əzizim.

*Sentyabr, 2003*

## İslam dinimiz

*İlham Abdullayev musiqi bəstələmişdir.*

Ey böyük, möhtəşəm dinimiz,
Sən bizim hidayət yolumuzsan.
Vəsfinlə açılır dilimiz,
Əbədi səadət yolumuzsan.

Ucalsın göylərə «əzan» sədası,
Yayılsın qəlblərə «İslam» nidası.
Ən əzəl sözümüz «Allahu Əkbər»,
Ən gözəl sözümüz «Allahu Əkbər».

Sən dostluq, qardaşlıq dinisən,
Əmniyyət, hürriyyət məramın.
Nə qədər bəşər var, yenisən,
Quranla bağlı hər qərarın.

Sevginlə Məhəmməd Mustafa
Yetişdi Məqami-Mahmuda.
Səndədir hər hikmət, hər səfa,
Sənindir həm hünər, həm vəfa.

*Yanvar, 2003*

## Şən baCılar

*Mobil Babayev musiqi bəstələmişdir.*
*İstedadlı məğənnilər Gülyanaq və Gülyaz bacılarına*

Bir cənnət diyarda dünyaya gəldik,
Səsimiz bulaqtək çağlayar, daşar,
Hərdən səsimizin titrəyişindən
Dağ-daş dilə gələr, qayalar coşar.

Biz Vətən bağının bülbülləriyik,
Cahana sığmırıq fərəhimizdən.
Hər toyda, şənlikdə dil-dil ötürük,
Salonlar titrəyir cəh-cəhimizdən.

Biz ana laylası, əsgər andıyıq,
Mahnı soraqlıyıq, söz qanadlıyıq.
Şaqraq səsimizdə zil də, bəm də var,
Şirin vüsal da var, acı qəm də var.

Yayılsın aləmə nəğmələrimiz,
O sehrin ovsunlu avazı bizik,
Bu günün musiqi kəhkəşanının
Gülyanağı bizik, Gülyazı bizik.

*Dekabr, 2002*

## Oğlumla söhbət

İki şey minnətsiz verilir, oğul,
Bir ana südüdür, bir ata malı.
Qalan yaxşılıqlar edilir, oğul,
Ya borc əvəzitək, ya təmənnalı.

Odur ki, aqillər halallıq istər
Bəşər övladının hər işi üçün.

Daim diqqətli ol, sədaqət göstər,
Sədaqət şərəfdir ər kşi üçün.

İnsan əməliylə seçilir ancaq,
Kamillər yaxşılıq itirməz, oğul.
Hiylə, yalan üstə qalanan ocaq
Heç kimə ucalıq gətirməz, oğul.

Ehtiram, etibar gördüyün yerdə
Həm aydan arı ol, həm sudan duru.
Kimsədən səxavət görəndə, birdən
Acgözlük eyləmə, nəfsini qoru.

Çünki hər almağın qaytarmağı var,
Bu təlaş qəlbindən çıxmasın bir an.
Verən verdiyini min yerə yozar,
Alan aldığını unudan zaman.

Ot kökü üstündə bitər, ay oğul,
Söykən uluların şərafətinə.
Hörmətin tükənər, itər, ay oğul,
Tamah kölgə salsa ləyaqətinə.

Sınma minnətindən, çalış heç kəsin,
Qoyma qaxınc ola başına nəfsin.
Biri salamını alsa dilucu,
Biri həqarətlə baxarsa, bəsin.

Heç kimi aldatma, boş vədə vermə,
Boğazdan yuxarı danışma heç vaxt.
Çətinə düşənin halına gülmə,
Pisliyə, qisasa çalışma heç vaxt.

Yer üzü ən böyük şeytan yuvası,
Durnatək ayıq ol, qurd kimi cəld ol.
Həm təmkin ustası, həm fənd ustası,
Həm cəza verəndə kişi ol, mərd ol.

İdrakın itiykən, ağlın saf ikən
Heç kimdən heç nəyi umma dünyada.
Gəlib doğanaqdan keçirkən örkən
Aldanma rütbəyə, şöhrətə, ada.

Ali amallardır ən böyük seçim,
Cılız fikirlərlə yorma beynini.
Bir də, ətrafına nümunə üçün
Adından uca tut valideynini.

Merac məqamında görüşür hər an
Valideyn anlamı, Vətən anlamı.
Mən sənə bunları deməzdim, inan,
Bu cür sevməsəydim ata-anamı.

İki şey minnətsiz verilir, oğul,
Bir ana südüdür, bir ata malı.

Qalan yaxşılıqlar edilir, oğul,
Ya borc əvəzitək, ya təmənnalı.

*Aprel, 2000*

## Nə yaman qoCalıram mən

Haçandır qarışıb gecəm, gündüzüm,
Ay Allah, nə yaman qocalıram mən.
Əsir xəzan yelim, solur bənizim,
Ay Allah, nə yaman qocalıram mən.

Ömrün xoş anları bitmiş, sən demə,
Yaşımdan qərinə ötmüş, sən demə,
Uçub şahlıq quşum, getmiş, sən demə,
Ay Allah, nə yaman qocalıram mən.

Dönüb xatirəyə dəliqanlığım,
Qayğısız gəncliyim, şən cavanlığım.
Hanı subaylığım, o sultanlığım,
Ay Allah, nə yaman qocalıram mən?

Vay, ötən günlərim, o ünvanım vay,
Şux qəddim, şad könlüm, o ad-sanım vay.
Vay, neçə gözələ qurban canım vay,
Ay Allah, nə yaman qocalıram mən.

Hərdən qulağıma doğma səs gəlir,
Yorğun ürəyimə güc, həvəs gəlir…
Sabahım bu gündən daha pis gəlir,

Ay Allah, nə yaman qocalıram mən.

Xəstəyəm, sakitlik gəzirəm daha,
Xiffətdən canımı üzürəm daha.
Qəfil ağrılardan bezirəm daha,
Ay Allah, nə yaman qocalıram mən.

Nə bir anlayanım, nə duyanım yox,
Sızlayan yaramı bağlayanım yox.
Özümdən başqa bir ağlayanım yox,
Ay Allah, nə yaman qocalıram mən.

*May, 2002*

## İç ağrım

Axır məni bezdirərsən sən bu həyatdan,
Sonra gəzib axtararsan əli çıraqlı.
Olur, hərdən günlər ilə yadına düşmur
Harda qaldı bu cibi boş, əyni yamaqlı?

Daha məni bəyənmirsən, saya salmırsan,
Söz söyləyib dinləməyə bir marağın yox.
Əhvalımı soruşmursan, salam almırsan,
Yoxsa məni kasıb görüb umacağın yox?

İndiyəcən aldıqlarım, gətirdiklərim
Nə yaman tez unuduldu, gözündən düşdüm?
Öz-özümə borc bilərək ay etdiklərim,
Ötən günlər yada düşdü, yandım, üşüdüm!

Olur, hərdən heç bilmirsən nə istəyirsən,
Deyinirsən, dinləyirəm qınaqlarını.

Taleyini, qismətini lənətləyirsən,
Qarşılaya bilməyəndə qonaqlarını.

Sən ki heç vaxt görməmişdin çətinlik, yoxluq,
İndi isə kasıblığa öyrəş də, yaşa.
Birgə neçə məclislərə bəzək olardıq,
Daha səni əzizləyib çəkən yox başa.

Hələ səni xatirələr çəkmir keçmişə,
Hələ sənin yanındadır bezdiyin insan.
Nə tez doydun, az qalır ki, gözünü deşə
Bir vaxt qara kölgəsiyçün gəzdiyin insan.

Axır məni bezdirərsən sən bu həyatdan,
Belə getsə ömrüm bitər intihar ilə.
Səndən sonra nə umaram doğmadan, yaddan,
Kimə urək qızdıraram mən bundan belə?

Demək, ancaq imkanlarım lazımmış sənə,
Nə yaxşı ki, qocaltmamış ayıltdın məni.
Mən ömrümü xidmətində görürdüm hələ,
Sağ ol, qəflət yuxusundan oyatdın məni.

*Noyabr, 2001*

## Dəniz etirafı

Tufanlı bir havada
dalğalar təpə-təpə qalxanda
bir gəmi dənizdə qərq oldu,
bu itki çoxlarına dərd oldu.
Kimi dənizi günahlandırdı,
kimi lənətlədi,
kimi qarğıdı.

Dəniz isə tufandan çıxmışdı,
sakit idi, yorğun idi, ağrıyırdı.
Bütün bu deyilənlərə də
sanki heç nə olmayıbmış kimi baxırdı.
Bu sakitliyi ilə də
hamını yandırıb-yaxırdı.
Quzu kimi mehriban, sevilməli olmuşdu,
zəif, zərif ləpələri ilə
sahilə sürünürdü,
daşları, qumları doğma balası kimi
yalayırdı dəniz.
Həzin, hüznlü səsi ilə
sanki ağlayırdı dəniz.

Mən həmişə belə sakitəm,
mehribanam, qərəzsizəm-deyirdi.
Gözəllikdə, insanlara yarınmaqda
əvəzsizəm-deyirdi.
Sinəm üfüq qədər geniş,
ürəyinizcə seyr edin, gəzin, üzün.
İçim tükənməz xəzinə,
balığım, yosunum, neftim,
hamısı da sizin.
Tufan, qasırğa olmasa,
külək suyumu göyə sovurmasa,
dalğalarım şahə qalxmaz,
məndən bir kimsə qorxmaz,
əlimdən bir pislik gəlməz,
məndən olsa, suyumda bir balıq da ölməz.
Məni yerimdən oyadan qüvvə var – təbiət,
ondandır hər bəla, ondadır hər hikmət.

*Aprel, 2002*

### Bu bədbinlik deyil, nigarançılıqdır

Yaş ötdükcə yaddaşımda illər iz salır,
İtirirəm doğmaları, dostları bir-bir.
Xatirimdə hərədən bir xatirə qalır,
«Üzü dönük» əzizlərim qayıdıb gəlmir.

Gözlərimin nuru itir doğmam öləndə,
Ürəyimin tabı gedir dost itirəndə.
Xoş günlərim şüşə kimi düşür əlimdən,
Hər dərindən ah çəkəndə, köks ötürəndə.

Ah, nə çətin imtahandı, sınaq anıdır
Ata-ana, bacı-qardaş, övlad itkisi.
Bu aləmdən gizli-gizli bədənin yanır,
Fəqət heç kimə, heç yerə çatmayır səsin.

İtirdikcə neçə-neçə dostu, qohumu,
Doğma, mərhəm insanlar da yadlaşır daha.
Dünənimi, bu günümü dərd edən fələk
Qoymur, barı ümid ilə baxım sabaha.

Hüzn dolu məclislərdə qalır dincliyim,
Xəyalımda qüssə, kədər yuva bağlayır.
Gedən yerim seyrəldicə, sancır ürəyim,
Arabir şən görünsəm də, içim ağlayır.

Ah, nə çətin imtahandır, nə ağır gündür,
«Gedər-gəlməz» səfər vaxtı, vida görüşü.
Ah, bu gedən cənazənin sahibi kimdir,
Arxasınca karvan-karvan insan yürüşü?

Bəlkə elə həyat budur, anlamamışıq,
İnsan yaşa dola-dola anlam da artır.
Hər ürəyin öz nisgili, dünya qarışıq,
İrəlidə hələ neçə sınaqlar vardır.

*Oktyabr, 2002*

**Xan çinar**

Pəncərəm önündə şux dayanan,
budaq-budaq qanadlanan,
neçə illər su verib bəslədiyim,
baxıb zövq aldığım, əzizlədiyim xan çinar.
Sənə söyləməyə
    ürəyimdə ağrı ilə yaşatdığım
        sözüm var.
Son illər taleyinçün narahatam.
Gözəlim, əl üzməli olacaqsan bu həyatdan.
Sözümdən həyəcanlanıb qorxdun deyəsən,
  boşla təşvişini,
    kəsiləndə möhkəm dayanasan,
      göz yaşı tökməyəsən.
Məğrurlar heç zaman yiyə axtarmaz,
ölüm ayağında da sarsılmaz, qorxmaz.
Hələ ki, bu günümüz dumanlı
  sabahımız qaranlıq.
Ölkə quldurlar əlində,
  çoxumuz qurbanlıq.
Ürəyində bəşəri duyğular yaşadanlar
    yaman azalıb.
İnsanlarda mərhəmət hissimi qalıb?
Hər kəs öz xeyrini güdür.
Kim harada nə bacarırsa, edir.
Biri zavod satır, biri fabrik,

biri kolxoz.
Satanların üzü padoş,
alanların üzü boz.
Kimsə meşə satın alır,
kimsə də çay, göl.
Abırlını, kasıbı düşünən yox,
lap acından yıxıl, öl.
Qəribə bir ehtiras bürüyüb məmləkəti,
elə bil ancaq alverlə,
şəxsi tikintilər aparmaqla
məşğuldur Azərbaycan hökuməti.
Başda gedənlərimiz talamaqda, dağıtmaqda
və özləri üçün yığmaqda usta.
Maşallah, son illərdə
«ağalaşırlar» asta-asta.
Neftdən, balıqdan, pambıqdan
gözləri doymayanlar,
İndi də kəsirlər meşələrimizi.
Viran qoyurlar özəlləşdirə bilmədikləri
digər guşələrimizi.
Qoymurlar qalsın
nə Masallı-Lerik meşələrində
şümşad Qızılağac, Palıd,
nə Zaqatala-Şəki istiqamətində
gövdəli Qoz, Şabalıd.
Hamısını daşıyıb aparırlar
«ağlı başından daşanlar»,
vəzifə səlahiyyətini aşanlar,
iqtidarda oturub «çaşanlar».
Gözləri doymadan paytaxtda,
bağlarda, rayonlarda,
özləri, övladları, nəvələri üçün
elə hey tikirlər
ilin on bir ayı bağlı qalan

vilalaları, (viranələri).
Fəqət zaman gələr, başlarına bəla olar
bu tikililərin hər biri.
Bu qədər dəbdəbəli saraylarda, otaqlarda
kim yaşayar, kim yatar?
Bu qədər mülkə, malikanəyə ağacmı çatar?
Parklardakı, yol kənarlarındakı
ağaclardan da kəsirlər indi.
Deyəsən, axı, növbə yavaş-yavaş sənindi?
Möhkəm ol, mərd dayan Çinarım!
Yaşılım, gözəlim, vüqarım!
Bəlkə də artıqdı bu sözü deməyim,
neyləyim, çatmırsa sənə bir köməyim?
Bu bədxahlara qismət olmayasan deyə,
quru, ayaq üstə çürü də, quru.
Bu yolla özünü
manqurt insanlardan qoru.
Yoxsa ki, qırırlar
gözədəyimlilərin əzmini.
Günbəgün artırırlar
gövdəli ağacların kəsimini.

*Sentyabr, 2003*

## Atəşkəs dövrünün generalları

*Torpaqlarımızın böyük bir hissəsinin işğal altında qalmasına baxmayaraq, atəşkəs recimi dövründə 100 nəfərə qədər paqonluya general rütbəsi verilmişdir.*

Siz ey çiyinləri zərli paqonlu,
Atəşkəs dövrünün generalları.
Siz ey vəzifəli, ixtiyar, şanlı,

Yurdun aldadıcı cah-calalları.

On ildir torpaqlar işğal altında,
On ildir sayınız ilbəil artır.
Rütbələr verilir vaxtlı-vaxtında,
Maşallah, nə gözəl baxtınız vardır.

Orduya güvənir el çətin anda,
Nə qədər əsir var gözləri yolda.
Sizin içdiyiniz sədaqət andı
Bəs niyə bu qədər dəyərsiz oldu?

Qaçqınlıq, köçkünlük, daralan sərhəd
Hələ ki, gözləyir xilaskarını.
Vətən tullantıtək atacaq, əlbət
Kimsə qazanmasa etibarını.

General çox uca vətəndaş, əsgər,
Bu adın şöhrəti ölçüyə gəlməz.
Vətən torpağına laqeyd general
Onu əsgərə də sevdirə bilməz.

Heyf, bu torpağı sevənimiz az,
Əfsus, hərislikdən gözümüz doymaz.
Başçılar rüşvətxor, quldur, tayfabaz,
Bu cür mürşidlərlə Vətən qorunmaz.

Bu ögey-doğmalıq, ayrı-seçkilik,
Laqeydlik sındırdı vüqarımızı.
Daha söyləməyə ünvan tapmırıq
Ürək ağrımızı, qubarımızı.

Siz isə bir ucdan rutbə gözləyin,

Boğazdan yuxarı vəd verə-verə.
Biriniz istəmir döyüşə getsin
Ad almaq uğrunda çalışır hərə.

On ildir əsarət, on ildir işğal,
Ölkə bir sərkərdə sözünə möhtac.
Sayınız yüz oldu, cənab general,
Bəs haçan bu dərdə tapılar əlac?

Bu qədər orduyla, silahla, gücla
İmdad diləyirik məsciddə, pirdə.
Qoyün xəritəni qabağınıza,
Bəlkə ürəyiniz ağrıya hərdən!

Demirəm, cənablar, qanınız ilə
Suvarıb qaytarın bu torpaqları.
Ancaq bu sayaq da yaşamaq olmaz,
Həzinin ruhundan utanın, barı.

*Sentyabr, 2003*

## FİLLƏRİN MƏHKƏMƏSİ VƏ YA İBRƏT DƏRSİ

*Qəzetlər yazırlar ki, Botsvanada fil dəstəsi onlardan birini ovlayan ovçunu pusaraq dövrəyə almış və qırıq səslər çıxarmaqla sanki həmin qatilə məhkəmə qurmuşlar. Sonra fillərdən biri irəli çıxaraq «məhbusu» ayağı altında əzməklə ölüm hökmünü icra etmişdir.*

*Bu dəhşətli mənzərinin təsadüfən şahidi olmuş yerli sakinlər qatil ovçunun ölən filin balası tərəfindən qətlə yetirildiyini söyləmişlər.*

*Faciə olsa da əhsən!*

*Hamımıza görk olası ibrət!*
*Həsəd aparılası qətiyyət!!!*

*Yoxsa, bizim kimi, gözləyək ki, nə vaxt, kim isə gəlib torpaqlarımızı azad edəcək və ya qaytaracaq?!*

Çox olub dünyanın ibrət dərsləri,
Caniyə, quldura divan çox olub.
Cəsarət, şücaət, qeyrət dərsləri
Bizə görk olası zaman çox olub.

Heyvan insan üçün məhkəmə qurur,
Bu bir faciədir, bu bir möcüzə.
Köksündə fil boyda əzəmət,qürur,
Fillər barışmazlıq öyrədir bizə.

Qatilə öz heyvan düşüncəsiylə,
Onlar divan qurub, hökm oxumuş.
Bu işdə zərrəcə təskinlik, hiylə,
Nə də tələskənlik, ya səhv yox imiş.

Fillər qırıq səslər çıxaran anda
Şahid dinləyirmiş, sübut deyirmiş.
Fəqət ölən filin balası sonda
O qatil ovçunu qətlə yetirmiş.

Bir baxın, bu ağır hökmün icrası
Tapşırılmış ancaq zərər çəkənə.
Bəlkə həyat özü qeyrət yükünün
Qoyur ağırını övlad çiyninə?

Bu dəmir məntiqlə, bu qətiyyətlə
Mümkünmü daxilən öyünməyəsən?
Fərqi yox, qəzəb, ya sağlam niyyətlə
Heyvanın gəldiyi qərara əhsən….

Oxudum qəzeti…əllərim əsdi,
Yox, bu hiss şüursuz hiss ola bilməz!
Bu nə ehtirasdı, nə də həvəsdi,
Bu həyat dərsidi, pis ola bilməz!

Əcəb xəcil oldum, bənizin soldu,
Bu aşkar ağrımın yaarası dərin.
Bir anlıq göz yaşı gözümə doldu
Əsirlikdə qalan qız-gəlinlərin.

Miskinlik ruhuma qənim kəsildi,
Hayladım daşlaşmış babalarımı.

Dedilər-bu nə xalq, bu nə nəsildi,
«Unudur» qədim el-obalarını?!

Tanrım, alıb bu səy dözümü məndən,
Səbrimi bilmərrə kəssən yaxşıdır.
Bir də imdad üçün qalxsa, əlimdən
Vurub, ətəyini üzsən yaxşıdır.

Döyülə-döyülə qaçırıq müdam,
Daha torpaq yarı, indi xalq yarı.
Qorxuram Vətəni unudaq tamam,
Qovula-qovula Xəzərə sarı.

Siz ey tapdaq yurdun ər oğulları,
Bu sayaq bizləri kimsə anlamaz.
Çeçentək vuruşa bilmirik, barı
Filtək yaşamağa öyrəşək bir az!

*May, 2000*

## BAYATILAR

## VƏTƏN QƏRİBSƏMƏLƏRİ

Dərdim sənsən, davam sən,
Suyum sənsən, havam sən.
Özün yurd, adın Vətən,
Əvvəl-axır yuvam sən.

Üzülən candan həzər,
Qeyrətsiz qandan həzər.
Yad nadan bir dərd deyil,
Doğman nadandan həzər.

Ruhunla köç, babam, sən,
Sön, buza dön, sobam, sən.
Düşmənə yurd olunca
Dağılaydın, obam, sən!

Qərib yan baxmaq ilə,
Dönməzsən, qorxma, külə.
Vətən adlı gözəldən
Doymazsan baxmaq ilə.

Hər gülü dərmək olmaz,
Hər daşı hörmək olmaz.
Qəlbdəki qəm yükünü
Duymasan, görmək olmaz.

Yad yerdə gəzmək olmur,
Ümidi üzmək olmur.
Köçgünəm, didərginəm,
Vətənsiz dözmək olmur.

## QARABAĞ BAYATILARI

Mən aşiq nərdivanə,

Nər deyil hər divanə.
İmkan düşüb namərdə,
Qalıb yüz nər divanə.

Əzizim qara bağlar,
Ağ dağlar, qara bağlar.
Qarabağ qan içində,
Dörd yanı qara bağlar

Ağlayır söz ağrıdan,
Tutulur göz ağrıdan.
Qarabağın ağrısı
Ağırdır yüz ağrıdan

Dağlar, daşlar qan ağlar,
Üfüq yanar, dan ağlar.
Qarabağın dərdinə
Gör neçə ünvan ağlar.

Dərddən saç yolan Vətən,
Sinəsi talan Vətən.
Fərsiz övladlarıyla
Köməksiz qalan Vətən.

Vətən gəldi,
Arzu, xəyal tən gəldi.
Yuxumda qüdrətə bax,
İçində Vətən gəldi.

***

Bir yaralı quşam, hey,
Yad yerdə qonmuşam, hey,
Qərib könlüm qan ağlar
Ağdamım hey, Şuşam hey!

Arzum puç oldu, neynim,
Ömrüm heç oldu neynim?

Yurdum düşmənə qaldı,
İşim köç oldu, neynim?

## QƏM QANADLI BAYATILAR

Qüssə yedim, qəm çəkdim,
Gör necə sitəm çəkdim.
İçin-için ağladım
Gözüm altı nəm çəkdi.

Qara il yaman gəldi,
Vermədi aman, gəldi.
Söndü ümid çırağım,
Nə ağır zaman gəldi!

Susma, a könlüm, dillən,
Sellən, göz yaşım, sellən.
Yurd tapdaq, mən didərgin,
Bilmirəm, necə ölləm.

Açılmaz könlüm sənsiz,
Alışar dilim sənsiz.
Getmisən, can üstəyəm,
Deyirsən, ölüm sənsiz?

Öləcəyəm deyəsən,
Ölsəm qara geyəsən.
Oğlu şəhid anaya
Nə söz tapıb deyəsən?

Nə çoxmuş yolun azan,
Nə çoxmuş qəbir qazan.
Nə yaxşı ki, ən böyük
Hökmü zamandı yazan!

## SEVGİ, İSTƏK BAYATILARI

Əzizim incidi yar,
Yetirir inci diyar.
Yaman küsəyən olub
Öpürdüm, incidi yar.

Mən aşiq baxmaq ilə,
Könülsüz baxma gülə.
Gözəllik dediyindən
Doymazsan baxmaq ilə.

Əzizim ata yeri,
Sinəm yol, ata, yeri.
Yığılsa küllü-aləm,
Verməz bir ata yeri.

Var yüz dərdə əlacın,
Şəkərdən şirin bacım,
Qardaş gözüm işığı,
Atadır təxtü-tacım.

Qardaşın adı yaxşı,
Adının dadı yaxşı.
Yüz dost-düşmən içində
Yenə də odur yaxşı.

Torpağın yarı Günəş,
Yarı Ay, yarı Günəş.
Yarın başına dönür,
Barı sən yarı, Günəş!

Köçüb bir dünyam, yoxdur,
Gölüm var, sonam yoxdur.
Virandır atam evi
İçində anam yoxdur.

Əzizim sinə dəftər,

Qəlbimə sinə dəftər.
Mən dilinin əsiri,
Yarım da sinədəftər.

Gün keçdi, ay dolandı,
Sel gəldi, çay bulandı.
Gözün gözümə baxdı
Başıma Yer dolandı.

Canım ay Baxşı ata,
Yaxşı bax yaxşı ata.
Hansı insafsız vurar
Qamçını yaxşı ata?
Ay qalxar, batar, keçər,
Durnalar qatar keçər.
Yarım məni görəndə
Qaşların çatar, keçər.

Mən aşiq iki əlli,
Dua et iki əlli.
Sevgilim yüz yaşaya,
Aşiqi iki əlli.

Sevil, gəl xoşa, mənsiz,
Gəz, dolan qoşa, mənsiz.
Mən sənsiz gün görmədim,
Barı sən yaşa mənsiz.

Dolmuşam yaşa sənsiz,
Olmadım, haşa, sənsiz.
Mən ömrü yaşamadım,
Yetirdim başa sənsiz.

## İMPİÇMENT

*Ey insanlar! Rəbbinizdən qorxun.*

*Şübhəsiz sizə vəd edilən qiyamət qopacaqdır.*
*O gün vay halına Haqqı danan kimsələrin.*
***Qurani Kərim, s. 22, ayə 1; s. 77, ayə 7, 15***

Soyuq qış günlərinin birində
səhər duranda yerimdən
həyəti ağappaq qar gördüm.
Göyləri bəmbəyaz,
dünyanı bomboz gördüm.
təbiət dəyişmişdi elə bil,
azad, qayğısız quşlar
yazıqlaşmışdı sanki.
Nə qədər sərçələr
sığırçınlar
göyərçinlər
soyuqdan və aclıqdan düşmüşdülər təşvişə.
Əlimdə bir parça çörək
tez çıxdım eşiyə.
Bu zavallı, zəif canlılar
insan vəhşiliyini anlasalar da
bir tikə yemin eşqinə
gəldilər mənim görüşümə.
Düşdülər ayaqlarıma,
yığıldılar atdığım tikələrin başına.
(Lənət bu cür yaşayışa,
lənət bu sayaq işə).
Bu anda nədənsə düşündüm
məmələkətin küçələrə,
ölkələrə səpələnmiş
kasıb övladlarını.
Evsiz-eşiksiz soydaşlarımı
və… şəhərlərimizi bürüyən qul bazarlarını.
Bu milyonlarla insanların
yarısı sərgərdandı burada,
yarısı Türkiyədə, Rusiyada
və daha harada, harada….

Unudublar vətəndaşlığı,
unudublar insan kimi yaşamağı.
Bir qarın çörək üçündür indi
çoxunun səyi, çalışmağı.
Siz ey haram pullarla
özlərinə dəbdəbəli saraylar quran,
sərvətini, dövlətini artıran,
övladlarını ərköyün, qudurğan böyüdən
müftəxor, rüşvətxor və quldur məmurlar!
Vətənin bu əzabkeş övladları
hər gün sizə lənət oxuyurlar.
Evlərdə illərlə yol gözləyən
xəstə anaları, ataları və nigaran zövcələri də
bu lənətdə onlara qoşulurlar.
Eşidirsinizmi, ağrıyırısınızmı, görürsünüzmü?
bu duyğuları yaşayırsınızmı,
bu möhnəti daşıyırsınızmı,
vətəndaş nazirlər,
vətəndaş Prezident?!…
İndi daha dilimizdə
ruhumuza yad olan
bir söz də dolaşar, gəzər: -
İmpiçment,
İmpiçment!

*09.02.2001*

## BİZ KİMİK

*Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.*
***H.Əliyev***

Çox düşünüb öz-özümə etdim sual-biz kimik?
Müxtəsər, bir söz önündə qalmışam lal-biz kimik?

Dövrəmizdə nə qədər dil pəhləvanı var imiş,
Hər birinin öz imkanı, öz ad-sanı var imiş.
Sən demə, bu millətin min qəhrəmanı var imiş,
Xalq da bu bolluq içində olur paymal - biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Düşəndən alver dalınca azalır torpağımız,
Veririk nefti dünyaya, yanmır öz çırağımız,
Gəlir Lodondan, Dubaydan sərmayə sorağımız,
Amma yurdda həmvətənlər nökər, hambal - biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Öndərimiz tacir imiş, sərvət yığmaq azarı,
Odur hər kənddə, şəhərdə yaranır qul bazarı,
İndi də, lap yeni biznes - satılır el qızları,
Heç çəkinmə yad sahibkar, sən də gəl, al, biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Neynirik dini, Quranı, qəlbdə iman yoxdusa,
Neynirik namusu-arı əhdi-peyman yoxdusa,
Təkcə mitinq edə billik, ayrı imkan yoxdusa,
Kütlə min qovğa içində aciz, bihal, biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Ay maşallah, yenidən qurulduqca  səhiyyəmiz,
Pullu xidmət adı ilə baş tutur çox hiyləmiz.
Demə rəhbərlər üçünmüş fitrəmiz, xeyriyyəmiz,
Kasıb xəstə, sən hələ öz dərdinlə qal - biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Çox sevindik ki, nəhayət yarandı öz ordumuz,
Daha düşmən tapdağında qalmaz heç vaxt yurdumuz.
Siz isə cənab iqtidar, tayfa dövlət qurdunuz,

Tayfaya vəkil olanlar yalaq, dəllal-biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Bu günkü şit çal-çağırla getməz ürək dağımız,
Şuşa, Laçın, Ağdam ilə bitdi hər növrağımız.
Hanı Qərbi Azərbaycan, hanı Qarabağımız?
Bağlasın, qoy başına hərə bir yun şal - biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Özümüzdən razılıqla dönüb şöhrət olmarıq,
Sevməsək öz xalqımızı heç vaxt millət olmarıq.
Bu qədər partiya ilə, vallah, qüdrət olmarıq,
Olarıq ətraf üçün hay-küy, qeylü-qal biz kimik,
Müxtəsər, bir söz önündə qalmışam lal - biz kimik?

Biz kimik, ey gözləri kor, qulağı kar - biz kimik,
Bəlkə bir ayrı yerdə bizdən yenə var - biz kimik?

*İyun, 2002*

## RƏŞİDİN SƏSİ

*Rəşid Behbudov adına Mahnı Teatrı üçün*
*İlham Abdullayev musiqi bəstələmişdir.*

Eşidin insanlar, eşidin bizi,
Gəzir ürəklərdə Rəşidin səsi.
Dolaşır evbəev, diraybədiyar,
Tərənnüm eyləyir Azərbaycanı,
Bir sönməz ulduzdur əbədi yaşar,
Mahnıdır nəğmədir onun ünvanı.

Necə də şirindir, necə də həzin,
Nə çoxmuş ovsunu bu şaqraq səsin.

Rəhmət bu torpağa iz qoyanlara,
Yaşa böyük xalqım, ixtiyar ölkəm.
Səni zaman-zaman vəsf edənlərin
Anılır adları adınla birgə.

Nə qədər Bəşər var, var Yer kürəsi,
Sevilər, qorunar Rəşidin səsi.

Bura örnək yeri, məbədgahımız,
Burda yetkinləşir yeni nəslimiz,
Mahnı Teatrı Qibləgahımız,
Yayılsın aləmə burdan səsimiz.

Tələsin, insanlar, tələsin yenə,
Rəşid Behbudovun təntənəsinə.

*Yanvar, 2003*

## ANA FƏRYADI

Bir ana oğlu üçün ağı deyir,
Getməz ürəyimin bu dağı - deyir,
Baxtımın sınan çırağı – deyir,
Evimin sönən ocağı – deyir,
Ömrümün dağılan mövrağı – deyir,
Ruhumun enən bayrağı - deyir.
Baxmaq olmur özünü unudan bu qadına,
Yer-göy ağlayır yalvarışına, fəryadına: -
Ayağın altında ölüm, bala,
Qoy mən də səninlə gəlim, bala.
Kaş gözlərim kor olaydı, aman,
Tabutuna qurban olsun anan.
Belimi sındıran oğul, oyan,
Dilimi yandıran oğul, oyan!
Cənazə yavaş-yavaş qaldırıldıqca yerdən,
Üsyan edir idarə olunmayan bu bədən.
Ana tamam hövsələdən çıxır,
Tanrı üçün əli göyə qalxır: -
Söylə, sənə nə etmişdim, axı,
Dönsün görüm gərdişinin çarxı?!
Yağdır daha, başıma daş yağdır,
Küfr deyən dili topuq çalır.
Dərdli gözlər çuxurundan çıxır,
Qanlı yaşı sifətinə axır…
Huşu itir, heysizləiş tamam,
Çöhrəsində donur acı zaman.
Sözümüz yox, neyləsin bu fağır,
Doğrudanmı Allah göydən baxır?!
Al qırmızı tabut göyə qalxır,
Arxasınca insan seli axır.

*Fevral, 2002*

## ATA

*Xumar Qədimova musiqi bəsləmişdir.*

Dəyişib gözümdə aləm büsbütün,
Vaxt-vədə nə yaman daralır, ata?
Nə tez yaxınlaşdı qürubu ömrün,
Ömrünün Günəşi saralır, ata?

Ölüm sinəsini üstünə gərdi,
Gözündə yaş oldu ayrılıq dərdi.
Sən ki, yeriyəndə yer titrəyərdi,
Düşdüyün bu halın nə haldır, ata?

Görən, bəşərdə bu acizlik nədir,
Ən ağır bir itki ona sirrdir?
Əsrimiz Ay əsri, kosmos əsridir,
Təbiət amansız can alır, ata.

Həsrət bir dağ oldu, taylandı gözdə,
Qaldı ayrılığın möhnəti bizdə.
Sənsizlik səslənir həyətimizdə,
Bağrıma köz basır, iz salır, ata.

Amansız hökmünə bax yerin, göyün,
Alır ömrümüzü neçə toy, düyün.
Bir vaxt ocağında uşaq gördüyün
Oğlunun özü də qocalır,ata.

Unutmaq olmazdı bu dərdi, qəmi,
Əgər tərk etsəydi ruhun qəlbimi.
Bəşərin ən böyük övladı kimi
Adın varlığımda ucalır ata.

*1976*

## QUMRU

*Bakının park və bağlarında bir zamanlar rahat yaşayıb çoxalan Qumru quşları indi bir neçə təhlükə ilə üz-üzə qalıblar.*

*Əvvəlcə, şəhərdə sayı günbəgün artan avara pişiklər qumru ətinin ləzzətini daddılar. Və hər yerdə – həyət-bacada, parklarda, ağacların iri budaqlarında, kol-kosda onları pusub, təqib etməyə başladılar.*

*Bundan düşüncəli surətdə ehtiyatlanaraq, sonralar ağacların hündür, nazik budaqlarında yuva quran qumrular və onların balaları bu dəfə qarğaların hücumuna məruz qaldılar.*

*Bu zavallı, lakin ağıllı Qumru quşları onlara qarşı hücumları həssaslıqla dərk etdilər, Bakının dəli küləklərindən qorxmayıb, hündür şam və küknar ağaclarının pişiklər dırmaşa bilməyən, yuxarıdan isə qarğa görməyən və girə bilməyən nazik və sıx budaqları arasında, çox əzablı bir yolla, yuva qurdular.*

*İndi isə Bakı parklarına buraxılan dələlər, rahatca, həmin yuvalara qalxa bilir və bu başıbəlalı qumruların həm özlərini, həm də körpə balalarını çox asanlıqla tutub yeyirlər.*

*Beləliklə, Bakıda Qumru quşlarının əsil fəlakətli günləri başlanmışdır…*

*Budur yaşamaq uğrunda mübarizənin ən dəhşətli və iyrənc formalarından biri!*

*Bu yaxınlarda, həyətdə pişik həmləsindən canını zorla qurtarmış, lakin qanadı sınmış bir Qumrunu uşaqlar koldan tutub evə gətirərək, yardım göstərməyimi istədilər. Ancaq onun sınmış qanadını heç cürə bağlamaq mümkün deyildi…*

Səni yaşamağa qoymurlar daha,
Bu yol yiyəsizlər yoludu, Qumru.
İndi bir tikə yem hər şeydən baha,

Ürəyim dərd ilə doludu, Qumru.

Barı, qoy başına bir sığal çəkim,
Əlsiz-ayaqsızlar yaman çox, Qumru.
Qanadı sınmış quş ölümə məhkum,
Sınmış qanadına ümid yox, Qumru.

Yerdə aramın yox, göydə qərarın,
Ömrünün hər anı təşviş, səksəkə.
Elə bağlanır ki, hərdən yolların
Qalır boğazında tapdığın tikə.

Parklarda dalan çox, bağlarda kol çox,
Avara pişiklər pusarlar səni.
Daha budaqda da yuvana yer yox,
Qarğalar, dələlər tutarlar səni.

Bu dönük baxtına nə deyim, Qumru,
Ürəyim sıxılır indi, yerinə?
Sənin taleyinlə mənim taleyim
Yaman bənzəyirlər biri-birinə.

Çox saylı düşmənlər qəsdinə durmuş,
Bu qədər  düşməndən qorunmaq çətin.
Sənə yer də, göy də, ağac da gormuş,
Kəsmiş yollarını məğlubiyyətin.

Bu bəla göydənmi, yerdənmi gəldi,
Bu bəla Tanrının öz bəlasımı?
Bu haqsız bölgüdə görürəm mən də
Öz tale payımı, alın yazımı.

Ah, yazıq quşcuğaz, zavallı Qumru,
Səni də saldılar köçkün, sərgərdan.
Sən ey azad Qumru, qanadlı Qumru,

Yığış, bir dəfəlik, köç bu diyardan.

Bizi yaşamağa qoymurlar daha,
Bu yol kimsəsizlər yoludu, Qumru.
İndi baş girləmək hər şeydən baha,
Ürəyim dərd ilə doludu, Qumru.

*Oktyabr, 1999*

## QIZ QALASI

*İlham Abdullayev musiqi bəstələmişdir.*

Yüz fikir söylənir adınla bağlı,
Neçə yüz illəri yaşayan qala.
Ey başı qovğalı, sinəsi dağlı,
Hər daşı bir hikmət daşıyan qala.

Ey qeyrət qalası, ey Qız qalası,
Ey şöhrət qalası, ey Qız qalası.

Məğrursan, gözəlsən, əzəmətlisən,
Başında ulduzlar sayrışan qala.
İgid qeyrətlisən, qız ismətlisən,
Namus tariximə nam-nişan qala.

Sədaqət qalası, ey Qız  qalası,
Ləyaqət qalası, ey Qız qalası.

Günəşli şəhərə həm yaraşıqsan,
Həm ərlik, comərdlik mücəssəməsi.
Sən həm bir mayaksan, həm bir işıqsan,
Həm xalqın soykökdən yol gələn səsi.

Ey qüdrət qalası, ey Qız qalası,
Ey sənət qalası, ey Qız qalası.

Səni quran memar, qoruyan ərən
Niyə bəs qız adı qoymuş adını?
Bəlkə namusuna and içdiyindən,
Özündən yüksəkdə tutmuş andını?

Məhəbbət qalası, ey Qız qalası,
Şeriyyət qalası, ey Qız qalası.

Müqəddəs duyğulu sevgi rəmzisən
Səni zaman-zaman qoruyanlara.
Dönməzlik, sınmazlıq abidəsisən
Yolunda hünərlə baş qoyanlara.

Şücaət qalası, ey Qız qalası,

Cəsarət qalası, ey Qız qalası.

*May, 2000*

## BAKI

*Sərdar Fərəcov musiqi bəstələmişdir.*

Sən ey taleyimin şəhəri Bakı,
Hər yerdə dilimin əzbəri Bakı.
Sən mənim müqəddəs məbədgahımsan,
Odumsan, yanğımsan, atəşgahımsan.

Sən ey şəhərlərin gözəli Bakı,
Sən ey gözəlliklər şəhəri Bakı.
Qoynunda böyüyüb kama yetişdik,
Kövrək arzuların səhəri Bakı.

Sən ey cəsurların məskəni Bakı,
Sən ey «qara qızıl» mədəni Bakı.
Tükənməz təbii sərvətlərinlə
Tanıtdın dünyaya ölkəni Bakı.

Sən ey tarixlərə şahid şəhərim,
Qədim azər yurdu, qəhrəman Bakı.
Sənə nəğmə qoşur Mavi Xəzərim,
Dənizin içində boy atan Bakı.

Sən şöhrət meydanım, şanlı şəhərim,

Hikmət var, qüdrət var hər qarışında.
Təkcə Yanar dağmı möcüzə yerin?
Gözlərim qamaşır Neft daşlarında.

Şərəfdir adına İçəri şəhər,
Məğrur Qız qalası, qədim Qobustan.
Açdıqca sirrini daş kitabələr,
Yazılsın haqqında yüz yeni dastan,
Bakı, Bakı!

*Sentyabr, 2001*

## GÖZƏLLİK QADINDIR, QADIN GÖZƏLLİK

Hər kəsin dünyadan bir umacağı,
Hər ömrün taledən öz istəyi var.
Körpənin sevdiyi ana qucağı,
Şairin qəlbində söz istəyi var.

Doğulduq, bir evə sevinc gətirdik,
Böyüdük anaya məhəbbət ilə.
Biz nəyi qazandıq, nəyi itirdik,
Qadına vurğunluq, sədaqət ilə?

Hərə öz əksini tapır həyatda,
Niyyətin harasa, mənzilin orda.
Mənim ürəyimdən bir arzu keçər,
Gözəllik toxumu səpək bu yurda.

Pərəstiş yaradar gözəllik sözü,
Gözəllik sədd çəkər kin-küdurətə.
Şer peyğəmbəri Füzuli özü

Bir gözəl önündə gəlmiş heyrətə!

Gözəllik yaranmış hər şeydən öncə,
Gözəllik güc-qüvvət, gözəllik işıq.
Hər bir gözəllikdən birinci, məncə
Bir gözəl qadındır ömrə yaraşıq.
Həmişə əmniyyət gətirmiş bizə,
Nə qədər qəddarı ovsunlamışlar.
Bir gözəl qadına, bir gözəl qıza
Xaqanlar ölkələr bağışlamışlar.

Gözəllik qadındır, qadın gözəllik,
Bu ülvi varlığın adına qurban.
Bir ömür borcluyuq ona ömürlük,
Kimlər getməmişdir qadına qurban?!

Nə yaxşı, qorunub yaşar yaddaşım,
Qadınçün Fərhadtək ölənə əhsən!
Bir gözəl çöhrəyə, mömin qardaaşım,
Cənnəti əlindən verənə əhsən!

Odur səcdəgahı duyan qəblərin,
Müqəddəs Məkkədir, Nurlu Mədinə.
Gözəllik önündə baş əyməyənlər,
Gəlməz heç bir zaman imana, dinə.

Daim başımızın tacıdır qadın,
Baxışı, işvəsi, sözü gözəldir.
Anadır, övladdır, bacıdır qadın,
Qadının biri yox, yüzü gözəldir.

Özü İlahidir, ətri Müşk-ənbər,

Deyilməz qeyri söz adından öncə.
Məni bağışlasın Adəm peyğəmbər,
Yarana bilməzdi qadından öncə!

Gözəllik, qəlbimin sevgi hədəfi,
Önündə yay kimi gərilirəm mən.
Bir gözəl sevəndə yüz yol ölürəm,
Bir gözəl görəndə diirilirəm mən!

*Mart, 1997*

## HƏLƏ Kİ, YOX PƏNAHIMIZ

*Bakının küçə, meydan və bazarlarında heç vaxt bu qədər dilənən və hamballıq edən azyaşlı olmamışdır!*

*Bu, bizim fəlakətimizdir.*

Ay əmilər, ay dayılar,
Yurdda yurdsuz qalan bizik.
Ay ürəyi daş olanlar,
Ürəkləri talan bizik.

Gün uzunu dilənirik,
Qazancımız qara qəpik.
Bir sahibsiz it kimiyik,
Bənizləri solan bizik.

Bir açılsın kor gözünüz,
Bir utansın boz üzünüz,
Tükənibdir dözümümüz,
Gözü yaşla dolan bizik.

Yalvarsaq da çoxunuza,
Şəfqət hissi sizdən uzaq.
İlan girsin yuxunuza,

Yuxuları haram bizik.

Dinləyən yox sözümüzü,
Qoy ahımız tutsun sizi.
Allah kəssin ruzinizi,
Ac-yalavac ölən bizik.

Axı, siz də atasınız,
Necə rahat yatırsınız?!
Boşa çıxsın ad-sanınız,
İndi sizə ad-san bizik.

Daşıyın hər sərvətini,
Talayın var-dövlətini.
Onsuz da yox qeyrətiniz.
Bu millətə qalan bizik.

Xaricdədir yalan, doğru
Neçə böyük həpənd oğlu.
Biri quldur, biri oğru,
Amma əsgər olan bizik.

Bu bəlanın kökü hardan,
Xiffət bizi əzir hər an?
Küçələrdə axşamacan
Maşınları silən bizik.

Yox bir yerdən pənahımız,
Nədir görən günahımız?
Görünmür xoş sabahımız,
Dərdi satın alan bizik.

Siz ey qəlbi daş hərislər,
Qudurğanlar, şərəfsizlər.

Hara getsin bu işsizlər,
Addımbaşı sınan bizik?

Barı, verin qiymətini,
Bir saxlayın hörmətini,
Vətənin də möhnətini
Çəkən bizik, qulam bizik.

Yox, bu üzü dönüklərdən
İncimirik, qəmləri kəm,
Vətən, bizim arxamız sən,
Vətən, sənin balan bizik!

*Fevral, 2001*

## YAMAN YERDƏ GECƏLƏDİK

*Neçə ildir işsiz və ev-eşiksiz qalan, adıq və məşəqqətlə üzləşən milyonlarla zavallı soydaşlarıma.*

Yaman yerdə gecələdik,
Əcəb günlər keçiririk.
Daha ömür yaşamırıq,
Ömrü hədər keçiririk.

Bu dələduz əyyamında
Zəhər içdik mey camında.
Toyu küskün, bayramı da
Üzdə kədər keçiririk.

Aldanırıq, adlayırıq,
Çör-çöplə od qalayırıq.
Ayı ilə calayırıq,
Ya birtəhər keçiririk.

İçimizdə xiffət, giley,
Dərd azalmır, yalvar ya söy.
Başımızın üstündə, hey
Qəza-qədər keçiririk.

Usanmırlar bir yol, barı
Tükənmir çal-çağırları.
Bu urvatsız uğurları
Qəlbdə qəhər keçiririk.

Könül, toxta, ötər zaman,
Üzümüzə gülər dövran.
Hələ ki, bu torpaqlardan,
Qara kəmər keçiririk*.

## BİZ ELƏ BİLİRDİK

*Bütün bölgələrində işsizlik kabusu dolaşan zavallı məmləkətimizdə əhalinin dövlət strukturunda işləyən hissəsini zorla Yeni Azərbaycan Partiyasına üzv qəbul etdirib siyasiləşdirməyə səy göstərən bu, olduqca haqsız və ədalətsiz quruluşun rəhbərləri onları zorla öz hakimiyətinin ideoloci müdafiəsində saxlamağa çalışırlar, halbuki, bu insanların da mütləq əksəriyyətinin çağdaş quruluşdan narazı olduğunu bilməmiş deyillər.*

Nə ağır dövrdə yaşayırıq biz,
Kütlənin belini bükürlər indi.
Elin sərvətini mənimsəyənlər
Fikri, əqidəni sökürlər indi.

Daha addım güdür, ağız güdürlər,
Böhtana, hədəyə, şərə gedirlər.
Mərdi qova-qova namərd edirlər,

---

* *Азярбайжан нефтини харижи юлкяляря нягл едян нефт кямярляри нязярдя тутулур.*

Xalqı imtahana çəkirlər indi.

Bu necə xislətdi içində bəslər,
Dostluğa şeytanı, iblisi səslər?
Quldurluq, azğınlıq eyləyən kəslər
Görənin gözünü tökürlər indi.

Yer-yurd inləyirsə ah-zarımızda,
Çətin rahat yataq məzarımızda.
Heyf, Vətən boyda gülzarımızda
Tikanlar, qanqallar əkirlər indi.

Biz birlik naminə qurban gedirik,
Elə bilirdik ki, bir yurd, bir elik.
Sən demə, bunlara lazım deyilik,
Leytək köksümüzə çökürlər indi.

*Aprel, 2002*

## CAN ATA

*Ağır, lakin şərəfli ömür yolu keçmiş,*
*beş övlad böyüdüb layiqincə tərbiyə etmiş,*
*onlara mükəmməl ali təhsil vermiş Abuzər atanın*
*məzarı önündə düşüncələr.*
*Qəbri nurla dolsun!*

Ah, necə tez ötdü illər, keçdi dövran, can ata,
Gəldi ayrılıq məqamı, yetdi hicran, can ata.
Qarışmış fikrim, xəyalım, xiffət üzür qəlbimi,
Neylərəm sənsiz dünyada mən natəvan, can ata?
Sən yorulmaq bilmədən ömrü yolumda xərclədin,
Baş qoyum ayağına, ey sahi-mərdan, can ata.
Nə böyük ağrı imiş sənsizlik, indi anladım,
Yoxluğuyla göydən bizi yerə vuran, can ata.
Ey, heyf yüz «canına» bircə yol can söyləmədim,
Olsun soyuq məzarına canım qurban, can ata.
Yoxdur heç yerdə qərarım, sönmüş hər şeyə həvəs,
Sənsiz zindanmış ev-eşik, boşmuş hər yan, can ata.
Durmuşam gözləri yaşlı, hüzurunda müntəzir,
Ey mənim sınmış vüqarım, mülkü viran, can ata.
Nə qədər cismimdə can var, səcdagahımdır bu yer,
Mütləqa, keçməz könlümdən ayrı ünvan, can ata!

*Mart, 2003*

## AYRILIQ

*Ustad Şəhriyara, ruhu şad olsun!*
*Xumar Qədimova musiqi bəstələmişdir.*

Dad, sənin əlindən, aman, ayrılıq,
Məndən can cövhəri uman ayrılıq.
Qəlbimi zülmünlə ram eylədikcə,
İçimdə inləyən kaman ayrılıq,
Aman, ay ayrılıq, aman, ayrılıq!

Gör mən nə sayırdım, fələk nə saydı,
Bəlkə bu baxtıma kəsilən paydı?
Sən mənim yaramı sızlatmasaydın,
Məni sındırmazdı zaman, ayrılıq,
Aman, ay ayrılıq, aman, ayrılıq.

O getdi, dərdimin dərmanı getdi,
Gələn xoş günümün fərmanı getdi,
Olum yollarının qurbanı, getdi,
Doldu gözlərimə duman, ayrılıq,
Aman, ay ayrılıq, aman, ayrılıq.

Mən son nəfəsdəyəm, sən can həvəsdə,
Mən qan ağlayıram, sən kam həvəsdə.
Qəlbim səksəkədə, qulağım səsdə,
Sın, ey çərxi fələk, dayan, ayrılıq,
Dayan bircə anlıq, bir an ayrılıq,
Aman, ay ayrılıq, aman, ayrılıq,
Aman, ay ayrılıq, aman, ayrılıq!

*27.09.1999*

## AĞLAYIR

Can evimdən, can ayrılır, odur könlüm qan ağlayır,
Bu şahi-mərdandan ötrü, gör neçə ünvan ağlayır.

Yaş axıdıb yana-yana, ağlayır, arif, divanə,
Ağlayır həm yad, biganə, həm dost – mehriban ağlayır.

Viran olmuş laləzarım, qayıtmaz bir də baharım,
Eşitdikcə ərzi-halım, bülbülü-nalan ağlayır.

Deyiləm, dostlar, özümdə, dözümüm yox bu dözümdə,
Qaralır dünya gözümdə, bulud, asiman ağlayır.

Ümid, arzu, xəyal heçmiş, taqətim tamam tükənmiş,
Elimin sarbanı köçmüş, sərgərdan karvan ağlayır.

Müsibət günümdür, əlbət, cəm olub cümlə-camaat,
Ağlaram aşikar, xəlvət, çün hər yer, hər yan ağlayır.

Bu nə nalə, nə sədadır, huşumu alıb aparır,
Fəxrəddin, vəxti-vidadır, odur ki, dünyan ağlayır.

Tökdüm qan-yaş yolunda,
Öləydim, kaş yolunda.
Əcəl, sən ona qıyma,
Mən qoyum baş, yolunda.

Gecə-gündüz ağlaram,
Bağrıma daş bağlaram.
Getdin, xoş günüm getdi,
Ömürlük yas saxlaram.

*25.09.1999*

## AĞLARAM

Gecə-gündüz, ney kimi nalə çəkib, yar, ağlaram,
Duymaz ətraf halımı, özgə dərdim var, ağlaram.

Yoxdur bir iman əhli yandıra ümid şamımı,
İtmiş inam büsbütün, qalmışam naçar, ağlaram.

Kim aləmi anlayır, çəkir cəhənnəm əzabı,
Əlbət, ariflər üçün olmaz bir zinhar, ağlaram.

Tanrının min müşkülə səbri qırx ildir dedilər,
Ömrü vurdum başa, leyk, görməz ixtiyar, ağlaram.

Dövrümüz oxşar bizim Mənsuri-həllac dövrünə,
Odur tutmaz ürəyim köksümdə qərar, ağlaram.

Fəxrəddin, faş eyləmək dərdi rüsvalıq gətirər,
Çünki bəni-adəmə yoxdur etibar, ağlaram.

*20.01.2000*

## AYRILIR

Ruhumu cismimdən almış, o ruhi-rəvan ayrılır,
Məni min əzaba salmış, o qəlbə sultan ayrılır.

Sızlar qəlbim, yanar içim, baxar gözüm, köçər köçüm,
Məni xəmqədd edib, neyçün qalmayır mehman, ayrılır.

Versəydi zaman möhlətin, götürərdim min minnətin,
Ha çəkim indi möhnətin, etməyib peyman, ayrılır.

Qalmayıb güman sabaha, bu dünyadan doydum daha,
Mən onsuz qərib və tənha, o dərdi pünhan ayrılır.

Göylərdən enən nidadır, fələkdən gələn ədadır,
Bu da bir sirri-xudadır ki, canımdan can ayrılır.

Yoxdur qərarın heç yerdə, Fəxrəddin, toxta, döz dərdə,
Bu yolla gedənlər bir də, dönməz heç zaman, ayrılır.

*26.09.1999*

## AXUND QARDAŞ

*Mükəddər məclislərimizin müşərrəfləndiricisi, elimizin «cavan ağsaqqalı», qəmli, həzin və məlahətli səsi, kamil dini, yaxşı ədəbi savada və möhkəm hafizəyə söykənən moizələri ilə dinləyicilərini ovsunlayıb kövrəltməyi bacaran axund Şadullaya məhəbbət və ehtiramla!*

Dəlir yenə də qəlbimi hicran, axund qardaş,
Hər nalən ilə bağrım olur qan, axund qardaş.

Hansı yerdə ki, qəmli bir qəzəl oxuyursan,
O məclis olur sənəti-ürfan, axund qardaş.

«Segah» üstündə yanğıyla zəngulə vurduqca,
Odunla edirsən bizi büryan, axund qardaş.

Sən oxşadıqca mərhumu göz yaşı içində,
Hıçqırtına, hönkürtünə qurban, axund qardaş.

Oxu, indi də, bir qəsidə «Mahur» üstündə,
Səsindəki qəmdə tapım dərman, axund qardaş.

Heç bir mükəddər məclisimiz olmasın sənsiz,
Min-min ürəkdə salmısan məkan, axund qardaş.

Bu sirli səsin Fəxrəddin də sehrinə düşmüş,
Olmuş şirin avazına heyran, axund qardaş.

*27.10.1999*

## İKİ ULDUZ

*Şamaxıda hər biri ayrı-ayrı təpələrdə yerləşən iki böyük qəbiristanlıq var – Şahi Xəndan və Yeddi gümbəz. 1-cisi şiələrə, 2-ci sünnilərə məxsusdur. Böyük Sabir öləndə vəsiyyət edir ki, onu müəllimi S.Ə.Şirvaninin yanında – şiə qəbiristanlığında dəfn etsinlər. Tələbələri şairin vəsiyyətinə əməl edirlər. Lakin bir sıra üzdəniraq ruhanilərin hiddət və təkidi ilə, onun torpağa tapşırılmış cismi, axşamın alatoranlığında, qəbrdən çıxardılıb Yeddi Gümbəzə apartdırılır.*

Şamaxının bir kafiri azaldı deyə,
Dinpərəstlər ölümünü bayram elədi.
Şahi-Xəndan tabutundan gəldi lərzəyə,
Ruhanilər Seyidə də lənət söylədi.

Bu həpəndlər fəryad çəkib ağlamalıykən
Sevindilər, - kafir axır gorbagor oldu.
Şahi-Xəndan nalə çəkdi, qopartdı şivən,
Yeddi Günbəz bu gəlişlə nur ilə doldu.

İstibdadla qabaq – qənşər qalmışdı yenə,
Ruhu xalqın içindəydi, sağ idi Sabir.
Cismi dözdü cahillərin rəzil hökmünə,
Şamaxıda bir bənzərsiz dağ idi Sabir*.

Hər kəlməsi, hər misrası ilahi hikmət,
Neçə qəsdin qabağını saxlamışdı o.
Keçirdiyi günlərinə dözürdü, fəqət,
Millətinin sabahına ağlamışdı o.

Hansı xalqa çəkilibdir bu boyda sitəm?
Bir təpədə, bir dahiyə yer tapılmadı.
Şirvaninin göynərtisin eşitdi aləm,
Bir imkanlı nadan gəlib tədbir qılmadı*.

---

* M.Ə.Sabirin: - Bənzərəm bir qocaman dağa ki, dəryadə durar. – məşhur misrasına işarədir.

* S.Ə.Şirvaninin: - Seyyida, ölmərəm, aləmdə səsim var mənim, - məşhur misrasına işarədir.

Ey dinimdə rəhbər Müfti, ey Şeyx ixtiyar,
Azalmasın, qoy İslamın nur qayəsində.
Gəl, Quranın hər surəsin eyləyək təkrar,
Sünnü, şiə yazılıbmı bir ayəsində?!

Ah, nə böyük xəta etdin, Xətai babam,
Öldü qardaş qırğınında neçə minimiz.
Sultan Səlim tapdağında qaldı el-obam,
Parçalandı, yasaq oldu İslam dinimiz.

Sultan Səlim, nə düşündün, bu cür nifrətlə
Qılıncını qardaş üstə qaldıranda sən?
Bu tarixi qələbə yox, məğlubiyyətlə
Tarixim lə ləkə vurdun Çaldıranda sən…

Bu millətin ən qorxulu düşməni özü,
Perik düşdük, qaçaq düşdük bir-birimizdən.
Qanımıza boyandıqca Çaldıran düzü,
Oba-oba qovulmuşuq yurd yerimizdən…

…Fikrim uçdu ulum yatan yerinə təkinə,
Bu günahı heç göy yumaz yağışla, ustad.
Bundan sonra bəlkə susmuş vicdanlar dinə,
Bu zavallı millətini bağışla, ustad.

Gör nə qədər cərəyan var kiçik ölkədə,
Hərə gücün bir tərəfdə sınayır yenə.
Tərəfbazlıq bu milləti yıxıb bəlkə də,
Düşmən özü indi bizi qınayır yenə!

Yüz illərdir sən mənə yad, mən sənə ögey,
Yüz illərdir səhvimizi anlamırıq biz.
Qəlbimizdə dostdan giley, qardaşdan giley,
Fəqət bir yol özümüzü danlamırıq biz.

Hüzurunda indi gəlib ağlayımmı, yox,
Qorxuram ki, göz yaşlarım kiçildər səni!
Sən əbədi bir örnəksən, bərabərin yox,
Ölməzliyə qovuşdurmuş o illər səni…

İndi iki ulduz yanır, iki təpədə,
Bütün sənət dünyasının gözü var orda.
Ey səyyahlar, o torpağı ziyarət edin,
Deyilməmiş neçə şair sözü var orda!

*1976 -1997*

## BU MİLLƏTİN AĞRISINI DUYMAZ HARINLAR

Əzir yenə əsəbimi əzgin fikirlər,
Yox ətrafda xoş əhvaldan əsər, əlamət.
Qəlbimizə şübhə adlı toxum səpərək,
Bu ağalar ümidi də kəsirlər əlbət.

Çoxumuzun sinəsində sadəlövh ürək,
Bu kütləni, bu milləti aldatmaq asan.
Ey məkriylə, hiyləsiylə öyünən, gərək,
Öz xalqınla davrananda kişi olasan!

Qulaq batır işsizlərin imdad səsindən,
Bu ağrını, iniltini duymaz harınlar.
Qalmaz bir an işrətindən, ziyafətindən,
Peysərini yoğunladar yekəqarınlar.
Ər oğullar küçələrdə qul timsalında,
Çəkilərmi çöhrələrdən bu çiskin, bu çən?
Bu qanunlar, bu fərmanlar cah-cəlalında
Vətən oğlu, sən kimsəsiz, mən kimsəsizəm.

Nə qədər ki, baş qarışıb eyşə, alverə,
Bu millətin ağrısını duyan tapılmaz.
Nə qədər ki, yalmanırıq nəyəsə görə,

Bağlı ümid qapıları, atam, açılmaz.

Ruhumuzdan asılmışıq dar ağacından,
Qəlbimizdən bu millətin nisgili getməz.
Yarı dərddən azarlıyıq, yarı acından,
Qarğıınmışıq, bir günümüz kədərsiz ötməz.

Heyf, yenə çəpik çalıb alqışlayırıq,
Öz elini, öz yurdunu aldadanları.
Ey məkrli hiyləsiylə öyünən, dayan,
Doğmalarla davrananda kişi ol, barı!

*Yanvar, 1999*

## MƏN DUYĞUMU YAZIRAM

Mən dünyanı anlayandan gördüm yüz yasaq,
Gördüm əcəl amansızdır, ömür çox qısa.
Mehr saldım, könül verdim qələm-kağıza,
Açıb-tökdüm ürəyimdə nəyim vardısa.
Sirr sandığım sözlərimi, sayğımı yazdım,
Sevgilimə açmadığım sevgimi yazdım,
Taleyimi, istəyimi, duyğumu yazdım,
Ürəyimdən qopub gələn yanğımı yazdım.
Bu yanğını duyan kəslər başımın tacı,
Görən məni duyursanmı, Əziz Oxucu?!

*08.08.1999*

## XƏNDAN OLMUŞAM

*Ustad sənətkarımız Alim Qasımov qızının toyunda bir qəmli qəzəl oxuyub ağladı və bütün məclisi kövrəltdi.*

Sən ey pərişan olanım, mən də pərişan olmuşam,
Canı canımdan olanım, sənsiz canımdan olmuşam.

Bilməm nə hissdir sinəmdə, salmış ruhumu kəməndə,
Sən bu dünyaya gələndə, sanırdım Sultan olmuşam.

Şəkərim, balım, noğulum, elə bil dünən doğuldun,
Sən mənə qız yox, oğuldun, xanəsi talan olmuşam.

Nə yaman tez ötdü zaman, oldun bir növrəstə cavan,
Allahım, bu nə imtahan, bəlkə peşiman olmuşam?

Köçəri quştək uçursan, başında duvaq, köçürsən,
Sən vəfa andı içirsən, mən ruhu viran olmuşam.

Qarışmış qışıma yazım, odur qəmlidir avazım,
Bu xoşbəxt günündə, qızım, əcəb şad-heyran olmuşam.

Mən durduqca qəmli-qəmli, doğmalar verir təsəlli,
Valideyn olana bəlli, necə qəlbi qan olmuşam.

İndi bildim, ey Yaradan, nələr çəkmiş atam, anam,
Bu imiş arzu, istək, kam, ürəyi şam-şam olmuşam.

Ey mənim ruhi-rəvanım, sərvü-nazım, pasibanım,
Ey bu gün gəlin olanım, yolunda qurban olmuşam.

Olma var-dövlət həvəsdə, baxtını Tanrıdan istə,
Sən indi təzə yol üstə, mən heydən – candan olmuşam.

Kim deyil övlad əsiri, gəlsin açsın, qoy bu sirri,
Anlayandan bu dərd-səri, Fəxrəddin, xəndan olmuşam.

*13.09.1999*

## LAZIMDIRMI BU DƏBDƏBƏ

*Son zamanlar məmləkətdə,*
*xüsusən də Bakıda süni bayram*
*əhvalı – ruhiyyəsi yaradılmışdır.*

Əcəb atəşfəşanlıqdır,
Əcəb hay-küy, çal-çağır.
Siyasilər adiləri
Təntənəyə çağırır.
Unudulub məğlubiyyət,
Adiləşib səfalət.
Hələ ki, bir ağ atlı yox
Göstərə güc, şücaət.
Ancaq «uzaqgörən» olduq,
Qaçqınlığa alışdıq.
Unutqanıq, zaman ötdü,
İtkilərlə barışıq.
Onsuz da çox fərq eyləmir
Atəşkəslə barışdıq.
Üzür məni bu sarsıntı,
Fikirlərim dolaşıq.
Qanımızda fədailik,
Pərvanətək alışdıq.
Bu günçünmü qurban getdik,
Bu günçünmü çalışdıq?
Müftəxorlar öz keyfində,
Saya salmır milləti.
Kasıbımın imkanı yox,
İmkanlımın qeyrəti.
Bu quldurlar hərislikdə,
Eyş-işrətdə yarışır.
Xalq adından danışmaqla
Özləriyçün çalışır.
Hər gün də növ-növ konsertlər
Verdirirlər efirdə,

Bu da bir cür siyasətdir,
Bu da bir cür keyfdir də.
Şükr, sənin yaratdığın
Xilqətinə, İlahi.
Nə imiş mənim bu sitəmkeş
Millətimin günahı?
Düşünürəm öz-özümə,
Gör nə günə qalmışıq?
Yarpaq kimi saralmışıq,
Bulud kimi dolmuuşuq.
Bu cah-cəlal bolluğunda
Zatən xəciil olmuşuq.
Nadanlıqda, cahillikdə
Aləmə səs salmışıq.
Axı, nə düşmən susdurub
Nə də xərac almışıq.
Nə bir uğur qazanmışıq,
Nə bir zəfər çalmışıq.
Kimə lazım bu dəbdəbə,
Bu süni yar-yaraşıq?
Gendən baxan deyir yəqin
İrəvanı almışıq.

*01-03 mart, 2004*

## SƏN ALLAH, BAĞIŞLA…

*Bir əziz dostum cibindəki Quranını qarşıma qoyaraq, and verib kimsəyə deməyəcəyimə təminat alandan sonra, mənə bir sirr açdı. Dedi ki, bir ərli qadına vurulub və əlavə etdi ki, həmin qadın çəkdiyi bütün iztirablara baxmayaraq, eşqində dostumdan daha çox cürətli, təmkinli və sədaqətlidir.*

Sən Allah, bağışla, ay ərli qadın,
Deyəsən mən səni sevirəm, axı.
Ovsunlu, işvəli, sehrli qadın,
Hər gün xiffətindən ölürəm, axı.

Sən Allah, bağışla, ay ərli qadın,
Bəlkə də mən sənə dərd gətirirəm.
Vədəsiz telefon zənglərim ilə
Sevinc əvəzinə qəm yetirirəm.

Sən Allah, bağışla, ay ərli qadın,
Bağışla ər ola bilmirəm sənə.
Arabir özümü lənətləsəm də,
Ancaq görüşünə gəlirəm yenə.

Sən Allah, bağışla, ay ərli qadın,
Mən ölmüş, deyən çox xatalıyam, çox.
Sən ey mələk qadın, təmkinli qadın,
Axı, səndən qeyri məhrəm kimsəm yox.

Bağışla, ən azı ona görə ki,
Mən səni ərindən çox istəyirəm.
Bu gizli, üzücü məcaralarda
Bir Allah bilir ki, nələr çəkirəm.

Sən Allah, bağışla, ay ərli qadın,
Günahlı, günahsız görüşlərimçün.
Dodağım çatlayır, dilim quruyur,
Hər dəfə bal dadan öpüşlərinçün.

Gözümdə bütləşən, ay ərli qadın,
Çağır, gündə gəlim ziyarətinə.
Ay çox kişilərdən hünərli qadın,
Mərhəba, mərhəba bu cürətinə!

Sən Allah, bağışla, ay ərli qadın,
Bağışla, mən sənə nə deyim daha?
Sənintək gözəlin yolunda, canım,
Razıyam ömürlük batam günaha.

Sən Allah, bağışla, ay ərli qadın,
Neyləyim, mən səni sevirəm, axı?
Sən ey mələk xanım, sehrli qadın,
Mən sənin dərdindən ölürəm, axı!

*18.06.2001*

## YUXUMA GİRƏN QADIN

Nə vaxtdır hissimə, duyğuma hakim,
Nə vaxtdır ruhumun qonağısan sən.
Bağrımın başında olsa da yerin,
Hələ ki, bir ümid çırağısan sən.
Neynim, çatsın mənə hənirin, odun,
Yuxuma girən qadın?

Bəlkə mən fikrində adi insanam,
Bəlkə də yadında qalmamışam heç.
Haqqın var, deyəsən hələ səninlə
Doyunca həmsöhbət olmamışam heç,
Bəs niyə dilimdən düşməyir adın,
Yuxuma girən qadın?

Heç bilə bilmirəm bu sevgi hardan,
Hopub idrakıma əzir beynimi?
Əcəb yarımışam sevda sarıdan,
Xiffətdən inləyir qəlbim ney kimi,
Həsrətin mənimdir, vüsalın yadın,
Yuxuma girən qadın?

Gündüz üfüq qədər uzaq olursan,
Gecə görünürsən bir mələk kimi,
Gəl, deyib arxanca qovursan məni
Çiçəklikdə uçan kəəpənək kimi,
Nə olar, bir anlıq donub qalaydın,
Yuxuma girən qadın?

Verdiyin əzabmı, nəşəmi, yavaş,
Saysız sınaqlara çəkmə könlümü.
Bu ürək odumu, peşəmi, yavaş,
Gəlib boxça-boxça tökmə könlümü?
Sənin də ailən, evin, övladın,
Yuxuma girən qadın?

Bilməm, yuxulu, ya sərxoşam indi,
Məstanə ətrindən bihuşam indi,
Ürəyi atlanmış bir quşam indi,
Haça yol üstündə durmuşam indi,
Axı, öz-özümü necə aldadım,
Yuxuma girən qadın?!

*May, 2001*

## ÜRƏK AĞRILARIM

Məsləkimi mövqeyimə satmadım,
Dedim yolum Tanrı yolu, haqq yolu.
Heç arzumun mənzilinə çatmadım,
Qopdu tufan, yağdı yağış, qar, dolu.

Min nalə var indi ürək dağımda,
Qocalıram sanki cavan çağımda.
Vaxtsız solan neçə bağça-bağımda
Zərif, körpə nihallarım saç yolur.

Dağıdırlar sərvətimi, varımı,
Daşıyırlar bağımdakı barımı.
Sinəmdəki Araz boyda şırımın
Həkəri də döndü oldu bir qolu.

Yurd yerini atan gördün, görmədin?
Torpağını satan gördün, görmədin?
Başçısını qaçan gördün, görmədin?
Ha öyünək torpaq ulu, xalq ulu.

Bu hiyləgər, «uzaqgörən» ağalar,
Acı aca kömək bilən ağalar.
Guya bizə yemək verən ağalar
Deyir qalsın çörək bütöv, küp dolu.

Heç görmədik xoş gününü bir qulun,
Kimdir, görən başyığanı bu pulun?
Nə əvvəli, nə sonu var bu yolun,
Fəlakətdi, nəhayətdi sağ-solu.

Bu ocağın külü bizik, qoru kim?
Bu zirvənin ətəyi biz, qarı kim?
Allah, bizi nahaq şərdən qoru ki,
Çırpa bilək başlarına bu pulu!

*25.10.1997*

## QATIR CİNSİ

Vay o gündən, insan zatən qatır ola,
Əqidəcə naqis ola, qotur ola.
Qürur bilməz bu köksüzlər, əsilsizlər,
Bu arsızlar, bu barsıızlar, nəsilsizlər.
Vay o gündən, adın düşə dillərinə,
Vay o gündən, imkan düşə əllərinə.
Yükləyərlər onlar səni at yerinə,
Qovacaqlar dörd tərəfə it yerinə.
Belə alıb çünki onlar tərbiyəni,
Sındırırlar tələbinə yox deyəni.
Mərifətdən, nəzakətdəən bu uzaqlar,
Harınlayıb, azğınlaşmış yalquzaqlar.
Qulaq asmaz nə böyüyə, nə aqilə,
Qan uddurar ətrafına, gülə-gülə.
Nütvəsində qüsur olan bu mələzlər

Ona, buna şər atmağa məqam gözlər.
Bu sifətlə onlar bizə dərs deyirlər,
Yaxşıları təhrif edib tərs deyirlər.
Yox qəlbində bir xoş hissi, xoş niyyəti,
Başdan-başa hiylə, riya-ünsiyyəti.
Quyuya su tökmək ilə deyil, bala,
Hər quyunun öz çeşməsi gərək ola.
Bu xisləti murdarların min üzü var,
Odur bu kəmfürsətlərə yox etibar.
Üzdəniraq əməlləri saya gəlməz,
Çünki qatır doğulanlar əsilzadə ola bilməz!

*29.05.1999*

## XOŞ GÜNÜN DOSTUNA

İmkanlı vaxtlarımda
bir günün ötmürdü mənsiz.
Daim mən keçirdim könlündən,
adım düşmürdü dilindən,
sakitliyim yox idi əlindən.
Gündə beş yol görüşək də
hər dəfə qucaqlayıb öpürdün
o üzümdən, bu üzümdən.
Sifətim islanırdı
urvatsız öpüşlərindən.
Doymaq bilmirdin
bu vədəli – vədəsiz görüşlərindən.
Nə qədər tədbirlər, məclislər
və orada qaldırılan badələr
bezikirdi uzun-uzadı söylədiyin
mədhlərdən, vədlərdən.
Bu – söz xətrinə dediyin sözlərlə
sədaqətinə, məhəbbətinə
və guya dost yolunda
həmişə hazır olduğun xidmətinə

inandırmağa çalışırdın hamını.
Bizlərə xoş gəlmək xatirinə
hər cür canfəşanlıiq edirdin,
yer tapmırdın qoymağa canını.
Hətta bu dostluqla bağlayırdın ad-sanını.
Nə yaxşı ki, o günlər tez ötüşdü,
səni tanımaq məqamı yetişdi.
Tanrı sınaq meydanı yetirdi,
nə qədər ağır olsa da,
dostların bir-bir vəzifələrini itirdi.
Dostlar müvəqqəti mövqelərini və səni,
sən isə sədaqətli vədlərini
və onları itirərkən,
yəqin düşünürdün ki, qəmin kəm…
Əsl zəmanə adamısan,
heç vaxt ağrımaz ürəyin.
Əlsizə, ayaqsıza kömək üçün
tapılmaz tabağında çörəyin,
cibində əlavə qəpiyin!
Nəyinə lazımdır imkansız dost,
                                        kasıb qohum?
(Sən bizi beləsindən qoru, Allahım!)
İndi də axtarırsan ayrısını,
özü də sadəlövhünü, imkanlısını
çalışırsan salasan toruna.
Sənin üçün fərqi yox,
tanıyandan sonra sakitcə üz döndərəcək,
yoxsa lənət yağdıracaq sənə.
Ya da söyəcək ölənlərinin goruna!
Təki nail olasan
ondan bir şey qoparmağa.
İmkan yarana, yanında tez-tez
qarnını otarmağa.
Gecə-gündüz axtarışda, seçimdəsən,
yeni tanışlarının içindəsən.
Leşə qonan quzğun kimi

məqam gözləyirsən.
Sənin nütvən belə yoğrulub,
yarınmağa öyrəşməmisən,
yarımadığın yerdə dözməyirsən.
Nəfsinə qul olmağı hünər sayırsan.
Bir parazit ömrü yaşayırsan,
bir nakəs ürəyi daşıyırsan.
Nə oğru deyilsən, nə quldur deyilsən,
nə adi insan.
İçində nə etiraf yaşar,
nə təlatüm, nə üsyan.
Bu murdar xislətinlə
heç kimin yanında
hörmət qazanammazsan,
səmimiyyətimə inan!
Ömrü hələ tam itirməmişkən, dayan,
kişiliyə, ləyaqətə qayıt,
insan ol, adi insan!

*05.06.1999*

## KİM İDİN, KİM OLDUN

Sən əvvəllər bir səmimi insan idin,
Ara-sıra ətrafını anlayırdın,
Doğmaların möhnətini çəkərdin.

Böyüdükcə manqurtlaşdın, xəbisləşdin,
Pullandıqca harınladın, xəsisləşdin,
Anlaşılmaz bir varlığa çevrildin.

Sən gözümdə bar-bəhərli,
Sıx kölgəli ağac idin,
Quruluqdan, təkəbbürdən
Xəzəl olub töküldün.

Sən könlümdə bir möhtəşəm
Məbəd idin, inanc idin.
Nadanlığa qurşanandan
Kərpic-kərpic söküldün!

*28.03. 2001*

## XƏBƏRİN YOX

Mənə dinsiz deyən zahid, sənin dindən xəbərin yox,
Məmləkətin dinli-dinsiz sakinindən xəbərin yox.

Hardan gəldi Tövrat, Zəbur, necə nazil oldu İncil,
Sənin, əqlin bu sehrli aləmindən xəbərin yox.

Neçə dinlər, təriqətlər yaranıbdı zaman-zaman,
Bu dinlərin nə kökündən, nə yerindən xəbərin yox.

Hansı məzhəb sahibidir, çinlii, hindli, yapon, yunan,
Heç birinə marağın yox, heç birindən xəbərin yox?

Bütün dinlər bir ümmandır, hər dəryanın öz qəvvası,
Nə dayazda qərarın var, nə dərindən xəbərin yox.

Quran isə hamımızın ən müqəddəs kitabıdır,
Nə elmini anlayırsan, nə şərindən xəbərin yox.

Salavatla abidləriin gözlərinə kül üfürmə,
Mərhum üçün fatihənin qədərindən xəbərin yox.

Yer öküzün buynuzunda qərar tutub – söyləmə çox,
Məgər uçan ərzimizin məvhərindən xəbərin yox?

Müxtəsər, bu dediklərin cavab üçün yetər, yəqin,
İnandınmı, indi sənin Fəxrəddindən xəbərin yox?

*Avqust, 2001*

## ZAMAN, SƏNDƏN HARA QAÇIM

Kəsmə ömür yollarımı,
Duman, səndən hara qaçım?
Məndən bu heysiz canımı
Uman, səndən hara qaçım?

Yox munisim, yox həmdəmim,
Yay gəlməmiş yanır zəmim.
Son səfərdən dönməz gəmim,
Aman, səndən hara qaçım?

İçimdə yüz qorxu, hədə,
Yox aramıım bu ölkədə.
Ürək yenə səksəkədə,
Güman, səndən hara qaçım?

Qəm qəəlbimdə pərən-pərən,
Qınayanım çoxmu, görən?
Düz işimi yoxsa görən,
Yaman, səndən hara qaçım?

İtirdim yar-yoldaşımı,
Vaxtsız ağartdım başımı.
Nə tez artırdın yaşımı,
Zaman, səndən hara qaçım?
Aman, səndən hara qaçım?

*28.08.1999*

## QADINLAR

İstək yaranandın deyirik göz-gözə vurğun,
Yer – göy Günəşə, çay dənizə, dağ düzə vurğun.
Hər bir kişinin sevdiyi ilk qadını olmuş,
Hər kəs qəlbində köz salan bu ilk izə vurğun.
Adəm də sevinci, nicatı Həvvada tapdı,
Dörd yan dəyişib cənnət ola, biz sizə vurğun.
Dünya malına heç bir igid meylini salmaz,
Olmasa əgər ovsunlu bir xoş üzə vurğun.
Vüsal dəmi aşiqliyin süqutudu, əlbət,
Divanə gərək dərdinə daim gəzə vurğun.
Şair olanın, Fəxrəddin, məşuqəsi ilham,
İlham dediyin sirri – Xuda da sözə vurğun.

*11.09.2002*

## NƏ GÖZƏL

Ömrü məftunluqla yaşa dünyada,
Hər ağlı çaşdıran rəna nə gözəl.
Min istək yaradar lal baxışında,
Hilal qaşındakı məna nə gözəl.

Yoxdur bu səltənət meydə, məzədə,
Göz yum içindəki o xoş həsədə.
Ürəyin çoxuna meyl eyləsə də,
Baxtını biriylə sına, nə gözəl.

Qəmzəsi qədərsiz, qəmi az ola,
Şirin ruhlu ola, xoşavaz ola.
Gözəldə gərəkdir işvə, naz ola,
Girə gündə on cür dona, nə gözəl.

Davrana, danışa utancaq kimi,
Yığıla boynunda tər muncuq kimi.

Dodağı çırtlaya tumurcuq kimi,
Üzü lalə kimi yana, nə gözəl.

Sürə dövranını bəxtəvər kimi,
Ona vurğunluqdan bixəbər kimi.
Gedəsən yanına müzəffər kimi,
Şux qəddin önündə sına, nə gözəl.

Deyə bilmirsənsə ürək sözünü,
Ha gözlə gözünə görünən günü.
Elə məhrəm et ki, ona özünü
Gəlsin dərd-bəlası sənə, nə gözəl.

Fəxrəddin, eşqində kərəm deyilsən,
Şadlan qurban getsən, sevin, əyilsən.
Ona ürəyini ver, verə bilsən,
Yetsin intizarın sona, nə gözəl.

*26. 10. 1998*

## MASALLI

*Dəyərli tənqidçi Vaqif Yusifliyə*

Sən mənim dünyaya göz açdığım yer,
Sən mənə torpağı sevdirən məkan.
Sən mənim ilhamla söz açdığım yer,
Sən mənə Vətəndə Vətənsən, inan.

Qoynunda hər fəslin öz gözəlliyi,
Yazın yüz ətri var, qışın qarı var.
Sinəndə Xəzərin rəngarəngliyi,
Yaşıl ormanların şux vüqarı var.

Tuqay meşələri tamam tamaşa,
Hər pöhrə, hər çiçək ruha dad verir.

Yüzillik palıdlar verib baş-başa,
On arşın qırağa qol-qanad verir.

Viləş dəryaçası bir sü pərisi,
Ayna sularında sonalar çimir.
Bu dağlar gözəllik mücəssəməsi,
Baxır gözəlliyin heyranı kimi.

Ey doğma diyarım, cənnətməkanım,
Hər ovuc torpağın bir ovuc zərdi.
Sən qəlbimdə sevgim, cismimdə canım,
Sinən başdan-başa müqəddəs yerdi.

Sakit baxmaq olmur burda heç nəyə,
«İsti su» qaynayır qışın qarında.
Mişarçay dağları bölüb ikiyə,
Sis, duman saxlayır aralarında.

Qərarım, qüdrətim, qəlbim bu yerdə,
Bura idrakımın güvənc yeridir.
İlk duyğum, sevincim, sevgim bu yerdə,
Bura xəyalımın söykənc yeridir.

Səndən uzaqlarda olsam da, nə qəm,
Daim təmsilçinəm, nümayəndənəm.
Mən ki, özüm boyda biir qəribinəm,
Gəlib qızınıram oduna hərdən.

Hələ yol gedirəm, sevgin canımda,
Hələ arzuların qanadındayam.
Bəlkə də bu dünya okeanında
Mənbəyi sən olan bir sısqa çayam.

Mən sənsiz nəçiyəm, mən sənsiz nəyəm,
Birdən darıxarsan, oğlun hardadır?
Bir nəhəng ağacda budaq kimiyəm,
Nə qədər artsam da, kökүm burdadır.

Sən mənim hər yerdə şöhrət çələngim,
Sən mənim başımda tacım, Masallı.
Sən mənə qoynunu açırsan – gəlim,
Mən də qollarımı açım, masallı.

*Oktyabr, 1999*

## QƏM BƏXTƏVƏRİ

*Mən qəmin, kədərin bəxtəvəriyəm.*
***Qəni Bəxtəvər***

Şairin sevinci, kədəri onun
Dilinin əzbəri olur, ay Qəni.
Şair sevgisində divanə olur,
Qəmin bəxtəvəri olmur, ay Qəni.

Ömrü söz ovunda, çapdın, əritdin,
Qoy ilham köhlənin sədləri aşsın.
Sözün cilovundan yapışmaq çətin,
Coşsun qaynar təbin, bulaqtək daşsın.

Qəm yükü bassa da çiyinlərindən,
Bu yolun yolçusu olmaq nə şirin.
Burda yollar gözəl biri-birindən,
Ucal zirvəsinə sonsuz kədərin.

Nə tapdın biryolluq dərd həmdəmini,
Nə də bir xoş dövran qismət olmadı.
Ancaq bu torpağın, yurdun qəmini
Çəkdin, bir kimsəyə minnət qoymadan.

Çatır hərdən mənə bahar nəfəsin,
İçində duyğular tumurcuq kimi.
Qəvvası olduğun dəryalar dərin,
Sapla söz incini, düz muncuq kimi.

Hər şamın öz odu, öz işığı var,
Sən də öz boyunda yanırsan, sağ ol.
Bu qədər qüssənin, ahın içində
Özünü bəxtəvər sanırsan, sağ ol.

Qəlbində misralar göyərsin hələ,
İlhamı nəşədən alasan, Qəni.
Elə bu ad ilə, bu ləqəb ilə
Taleyin bəxtəvər olasan, Qəni…

*04.09.2002*

## BİR İŞSİZİN MONOLOQU

*Sıxıntılara qarşı səbrli olun.*
***Məhəmməd peyğəmbər***

Bilmirəm bədbiinəm ya baxtım dönüb,
Son illər hər şeyə həvəsim sönüb.
İmkansızlaşmışam, pulsuzlaşmışam,
Bütün doğmalardan uzaqlaşmışam.
Heç zəng etməyə də əlim gəlməyir,
Hal-əhval tutmağa dilim gəlməyir.
Getmirəm bir qohum, bir dost evinə,
Bir səbəb tapmıram ürək sevinə.
Mənim də gələnim, gedənim seyrək,
Zəng edib bir yol yad edənim seyrək.
Hərə çəkilibdir öz hücrəsinə,
Ümidlər baş-ayaq, ömür tərsinə.
Bütün dost – tanışlar, doğmalar müflis,

Maraqlı heç nə yox, dolanışıq pis.
Bir qrup didişir sərvət üstündə,
Bir para yer tapmır torpaq üstündə.
Sən demə bu qədər zəhmətimiz puç,
İllərlə yığılan hörmətimiz puç.
Biz ki, bu Vətəni çox istəyirdik,
Gözümüz üstündə əzizləyirdik.
Bu yolda nə qədər qurbanlar verdik,
Ələmlə üzləşdik, məşəqqət gördük.
Axırda azad yox, lap xəcil olduq,
Məgər bu gün üçün müstəqil olduq?
Müstəqil olduq ki, gücümüz artsın,
Daha demədik ki, səsimiz batsın.
Əzir indi xalqı qəddar ehtiyac,
Kütlə əyni cırıq, qarnı – gözü ac.
Ölkədə at çapır arxalı, pullu,
Yiyəsiz məmur da, fəhlə də quldu.
Pulsuz insanlarçün hər xidmət pullu,
Səhiyyə, təhsil və məişət pullu.
Sıxdıqca, boğduqca bizi vəziyyət,
Düşür gözümüzdən dünya, naz-nemət.
Toydan da, yasdan da qalmışıq, fəqət,
Getməmək əzabdı, getmək əziyyət.
Dərd olub qəlblərin sevgi – sayğısı,
Valideynlik borcu, övlad qayğısı.
Əlimiz hər yerdən üzülüb tamam,
Xalqına bu qədər zülm etməz insan.
Məcburam bu sözü gətirəm dilə,
Bu ki, dövlət deyil, tələdir, tələ.
Biz kimə inanaq bəs indən belə,
Biz nəyə lazımıq bu gündən belə?!

*22.10.2002*

## MİLLƏT VƏKİLLƏRİ…

*Əhalisinin təxminən 70 faizi işsiz olan, işləyənlərindən çoxunun aylıq məvacibi bir həftəlik azuqəsinə çatmayan məmləkətimizdə Millət vəkilləri və bir sıra məmurlarımız ayda 2-3 milyon manat, yəni digərlərindən 30-40 dəfə çox maaş alırlar. Təəccüb doğursa da, deyək ki, bu insanların əksəriyyətinə öz əsas iş yerlərindən və ya digər mənbələrdən də böyük miqdarda vəsaiti verilir. Gözləmək olardı ki, Milli Məclisin iclaslarında hörmətli Millət vəkillərimiz seçicisi olduqları xalqın ümumilikdə maddi durumunu müzakirə edəcəklər. Amma nə yazıq ki, onlar parlament iclasında ölkənin işçiz vətəndaşlarına müavinət verilməsini, minimum əmək haqqının artırılıb normal həddə çatdırmasını deyil, Milli Məclis üzvlərinin təqaüdünün onların vəzifə maaşının 80 faizi qədərində təyin olunmasını müzakirəyə qoyub bu barədə qanun qəbul etdilər.*

*Əhsən, belə Vəkillərimizə!…*

***Qəzetlərdən***

Siz ey bu kütləni ələ salanlar,
Millət vəkilləri, Xalq elçiləri.
Bizdən 30 qat çox maaş alanlar,
Millət vəkilləri, Xalq elçiləri.

Siz ki, keyf içində, xan bağındasız,
Ömrün yaz ovqatlı xoş çağındasız.
İndi də təqaüd marağındasız,
Millət vəkilləri, Xalq elçiləri.

Hələ arzunuzun gül açan vaxtı,
Hələ çox sözünüz qanundu, haqdı.
Məqamdı, düşünün özünüz haqda
Millət vəkilləri, Xalq elçiləri.

Maşallah, 10 yerdə 100 cür malınız,
Eviniz, işiniz, cahcəlalınız.
Bir az da bu xalqa gün ağlayınız
Millət vəkilləri, Xalq elçiləri.

Bəs kimdən nə umsun bu bəlalı xalq,
Köməksiz, pənahsız, dərdli-hallı xalq?
Sizdən də əl üzdü bu zavallı xalq,
Millət vəkilləri, Xalq elçiləri.

Onsuz da bəllidir hər niyyətiniz,
Bu da vəkil kimi keyfiyyətiniz.
Yetər tapdalandı heysiyyətimiz,
Millət vəkilləri, Xalq elçiləri.

Sizi ağrıtmırmı min cür kəm-kəsir,
İşsiz valideynlər, ac, yetim – yesir.
Kimdir bəs günahkar, kimdir müqəssir
Millət vəkilləri, Xalq elçiləri?

Bir baxın, nə yeyir sizi seçənlər,
Bir görün, nə geyir sizi seçənlər.
Bir qanın nə deyir sizi seçənlər
Millət vəkilləri, Xalq elçiləri.

Yox, siz seçkili yox, təyinatlısız,
Möhkəm arxalısız, qol-qanadlısız,
Hələ xalq piyada, sizsə atlısız
Millət vəkilləri, Xalq elçiləri.

Vəkil var oturub 10-15 ilə,
Kimsə eşitməyib səsini hələ.
Biz hara gedirik bu Məclis ilə
Millət vəkilləri, Xalq elçiləri?

Dönüb dünəninə bu yurdun baxın,
Keçdi meydanlardan el axın-axın.
Qorxun nifrətindən kütlənin, qorxun,
Millət vəkilləri, Xalq elçiləri.

Lazımmı bu sayaq vəkil bizlərə,
Ancaq öz-özünü düşünür hərə?!
Dilimiz dönməyir deyək sizlərə
Millət vəkilləri, Xalq elçiləri.

*Dekabr, 2002*

## ZƏLZƏLƏ

Rəhm etməyib yaşıma,
Fələk çıxıb qarşıma.
Mən yazıq hara gedim,
Evim uçur başıma.

Cana yığılan mənəm,
Qəlbi sıxılan mənəm.
Yurdsuzluq yasdan betər
Yurdu dağılan mənəm.

Dünyanın bu düz vaxtı
Fələk min-min ev yıxdı.
Tanrıdan zülüm görüb
El ona asi çıxdı.

*Mart, 2001*

## SƏHƏR XOŞ ÜZ GÖRƏNLƏRƏ

Bir gözəllə qabaq – qənşər
gəldim bu səhər,
Özü bir Ay parçasıydı,
ətri müşk-ənbər.
Eşitmişdim, səhər xoş üz
görən sevinər,

Mən bu başdan sevinmişdim
bir günlük qədər,
Bu xoş duyğu hələ mənə
günlərlə yetər!

*27.02.2000*

## PAPAQ

*İnsan öz böyüklüyünü anlayandan papağını qeyrəti, namusu və ləyaqəti hesab etmiş, onu əldən-ələ keçməkdən qorumuşdur.*

*«Papağı yerə düşmək», «papağını yerə vurmaq», «papağını itirmək» ifadələri daima şəxsiyyətə təhqir kimi işlədilmişdir. Özü öz papağını ayrı kişinin ayaqları altına atan erkəklər isə şərəf və ləyaqətdən uzaq adamlar kimi həmişə həqarətlə qarşılanmışlar. İndi məddahlıq və yaltaqlığın elə bir dövrü gəlib çatmışdır ki, bəzi vəzifəli məmurlar papaqlarını özündən yüksək rütbələrinin ayağı altına atmaqdan həzz alır və şərəf duyurlar.*

Hərəyə öz başına uyğun olan maldı papaq,
Müdrikə bir əzəmət, nakəsə yun şaldı papaq.

Şərəfi kamil olanlar onu qoysun başına,
Saxlaya bilməyənə şərdi, qeylü-qaldı papaq.

Hələ bayraq tanımazdan ona qeyrətdi, dedik,
Dar ayaqda mərdliyi yadımıza saldı papaq.

Kişilik rəmzidir başdan-ayağa, amma heyf,
Arada nadan əlində, görürsən, qaldı papaq.

Çoxları atdı onu hərdən ayaqlar altına,
Yerə vurmaqla belə, karımıza gəldi papaq.

Yerə çırpan da bilir ki, gətirərlər təzəsin,
Yurd-yuva getsə də əldən, qəmi kəm, boldu papaq.

Məsləksizlər verə bilməzlər onun qiymətini,
Toxunulmaz ləyaqət, çox uca amaldı papaq.

Fəxrəddin, müqəddəs hisslər insana genlə keçir,
Qürursuzlar nə qanır qeyrətə simvoldu papaq.

*13.05.1998*

## PİS ADAM

Nə miskin xislətin var imiş sənin,
Həyatda pis nə var, əlindən gəlir.
Ot kökü üstündə bitirsə, yəqin
Gəda da gədanın belindən gəlir.

Sən dost qənimisən, yoldaş qənimi,
Nifrət hədəfisən, aldanmışların.
Sən, ay kişilərin sözgəzdirəni,
Sənə qənim olsun dost – tanışların.

Yetər satqınlığın, yalaqlanmağın,
Bir az da kişitək gəzməyə öyrəş.
Dinlə tənəsini yadın, doğmanın,
Vicdan əzabına dözməyə öyrəş.

Hərdən öz-özündən hesabat istə,
İnsanda bir azca qürur da gərək.
Nəfsin yad süfrədə, gözün yad cibdə,
Azardır, zəhərdir yediyin çörək.

Adın, adımızla bir çəkiləndə
Mənən ağrıyıram, utanıram mən.
Yayılsın qoy səsim şəhərə, kəndə,
Sənintək bir kişi tanımıram mən.

*May, 2002*

## VAXT ÖLDÜRÜRük

*Vaxtı da öldürmək cinayətdir.*
***Aforizm***

Mənim dostlarım var gümrah, işgüzar,
Mükəmməl savadı, peşəkarlığı.
Əvvəl yaşayırdıq rahat, bəxtiyar,
Çoxunun əzabdı indi varlığı.

Kimi vəzifədən kənar edilib,
Kimi təqaüdə göndərilibdi.
Kimi minnətlərdən təngə gələrək
Bu cür işləməyi təhqir bilibdi.

Hər səhər açılır yeksənək, oxşar,
Maraqlı heç nə yox, ruhumuz ölmüş.
İnsan işləyəndə qədrini bilmir,
Məşğulluq nə böyük xoşbəxtlik imiş.

Nə adi bir iş var baş girləməyə,
Nə də təqaüdlə yaşamaq olmur.
Belə hökumətə, belə dövlətə
Güvənib, inamla yanaşmaq olmur.

Beləcə çoxalır işsiz insanlar,
Yaranır müxtəlif adda oyunlar.
Bu yolla minlərlə dəyərli insan
Tüfeyliyə dönər, bekar dayanar.

Neçə növ loto, kart, zər… oyunları
Yoluxucu azartək artır müttəsil.
Görəsən iqtidar görmür bunları,
Cahillik dövrüdür yurdda elə bil?!

Nə bir cavabdeh var, nə bir soruşan,
Ömrümüz, günümüz əriyir belə.
Ay başçı, bəs başın ayılar haçan,
Xalqa qan uddurur ətrafın hələ?!

Bu işsiz insanlar nə yesin, canıım
Daha ürəyimiz qübar bitirir?
Quşu da qəfəsdə saxlayan onun
Axı, yeməyini vaxt-bivaxt verir.

İşsizlik büürüyüb bu məmləkəti,
Əzabı kasıbın payına düşür.
Siz hər gün yığmaqda pulu, sərvəti,
Bizimsə ömrümüz hədər ötüşür.

Amma gündə neçə vədlər verilir,
Kimə qulaq asaq, inanaq nəyə?
Hələ ki, fakt budur, kişilər hər gün
Yığışır yüz yerdə vaxt öldürməyə.

Bir qrup adamlar müftəxor, zəngin,
Kütlə ac, nə sayaq cəmiyyətdi bu?
Qanun işləməyən ölkədə bu gün
Bəlkə də dövləti cinayətdi bu.

Ölkə başdan-başa oyun yerləri,
Zavodda, fabrikdə, dükanda oyun.
Vallah, biz müstəqil olandan bəri
Siyasətdə oyun, meydanda oyun.

Bəlli bu oyunun şahı, vəziri,
Bəlli bu oyunun piyadası da.
Oyundan kənarın yox burda yeri,
Gedir bu oyunlar «öz qaydasında».

Bezmişik bu adi, boş oyunlardan,
Gözümüz qaralır, çöhrəmiz solur.
Bezmişik məkrli, baş oyunlardan,
Bu xalqı nə qədər sıındırmaq olar?!

Hər gün bu domino, nərd yarışında
Ömür xərcləyirik, bəxt öldürürük.
Ayrı bir işimiz olmadığından
Səhərdən-axşama vaxt öldürürük.

*Oktyabr, 2002*

## TƏKLİYİ SEVİRƏM

Təkliyi, tənhalığı sevirəm,
ömrün bəzi anlarında
ən çox ehtiyacım onadır.
Çünki tənha olanda
iç dünyyama qapılıram,
xəyala dalıram,
öz-özümlə danışıram.
Təfəkkürüm və savadım çərçivəsində
aləmi anlamağa,
dünyanı duymağa çalışıram.
Dağdan enib dərədən çıxıram.
Sonsuz səmaya,
ucu görünməyən torpağa,
axıb qurtarmayan sulara baxıram.
Bütün gözəllikləri ürəyimə sıxıram.
Duyğumun, istəyimin zirvəsinə qalxıram.

Təkliyi, tənhalığı sevirəm,
tənha olduğum zaman
külək kimi əsirəm,
yağış kimi yağıram.
Günəşi şəfəq-şəfəq

gözlərimə sıxıram.
Ən uzaq ulduzlara yaxından baxıram.
Meracdan da yüksəkliyə qalxıram.

Təkliyi, tənhalığı sevirəm,
Çünki tənha olmuram,
İlhamla üz-üzə qalıram.
Bir gözəl misramı yazarkən
Ruhumun ekstazında oluram.
Mən tənha qalanda
fikir fəzasında dolaşıram,
söz alovunda alışıram,
aramsız axtarıram, çalışıram.
Tənhayamsa, demək güclüyəm,
dözümlüyəm, bahadıram.
Mən özümə qapılanda
vaxtı öldürmürəm,
yaşadıram,
yaşayıram!

*18.10.2002*

## İZAHSIZ İSTƏK

Əksər insanlar kimi
mən də çox istəyirəm
bacımı, qardaşımı.
Amma onlardan daha çox
zövcəmi – ömür-gün yoldaşımı,
övladlarımı – bu günümü,
sabahımı, davamımı.
Varlığım onların arasında
bölünsəydi əgər,
deyərdim ki,
biri ürəyimdir, biri canım.
Biri məni yaşadan nəfəsim,
digəri damarlarımdakı qanım.

Həyat budur,
qınamasın məni digər doğmalarım,
nə hacət, bu sözlərim üçün utanım.

*31.07.2002*

## DOĞMA HİSS

Atam, dünyasını dəyişmiş atasını
hər dəfə yuxuda görəndə ağlayırdı.
Həmin günü axşama qədər sızlayırdı,
atasına yas saxlayırdı.
O vaxtlar uşaq idim,
qayğısız idim.
Bu cür zərif hissləri anlamırdım.
Fiukirləşirdim, burada
nə böyük faciə var ki,
babam yaşlı insan olub,
qocalıb, ölüb.
Atam niyə belə edir?
Nə arvad, nə uşaq bilir,
elə hey, gün uzunu kövrəliir.
İllər ötdü, mən böyüdüm.
Atam da yaşa doldu,
qocaldı və öldü.
Yaxın – uzaq qohumlar, dostlar
mərasimə gəlməyi özlərinə borc bildilər.
Gəlib hüzür götürdülər,
təsəlli verdilər və getdilər.
Qaldım tənha, kədərlə üz-üzə,
atasızlıqla qoşa, ölümlə göz-gözə…
Gördüm ağrını, acını,
daddım ayrılığın dadını…
İndi özüm hər dəfə
atamı yuxuda görəndə
həmin hissləri keçirirəm.
Ancaq düşünürəm, nə yaxşı ki, övladlarım

hələ balacadırlar,
məni duymurlar, anlamırlar.
Qoy hələ qayğısız yaşasınlar!
Eh, ömrə vəfamı var,
həyatı nə bilmək olar?
Zaman gələr,
qəm bir gün onların da qəlblərini dələr,
gözlərini oyar.

*Aprel, 2003*

## HƏMİŞƏ BELƏ QAL

*Dəyərli insan, həkim dostum*
*Sahib Ramazanovun 50 illik yubileyinə*

Səhiyyə işçisi, sağlamlıq elçisi,
sadə, səmimi, mehriban insan.
Öz şəfqət yardımını, həkim köməyini
kimsədən əsirgəməmisən heç zaman.
Bəlkə ona görə də
öz əvəzsiz nemətlərini –
sağlam gövdəni, soyuq ağlını,
kamil savadını, aydın təfəkkürünü
səndən əsirgəməyib böyük Yaradan.
Mətinliyin, sınmazlığın,
dönməzliyinlə çoxlarını gətirirsən heyrətə.
Qorxaqlar, yaltaqlar, ikiüzlülər
Sənə baxıb bəlkə gələlər qeyrətə!
Həmişə belə qal,
göründüyün kimi ol,
düşündüyün kimi danış,
mənən yetkin olanlara alqış.
50 yaşın təntənəsinə
qoy dostlar, doğmalar səni
sözü bütöv, qəlbi pak,

alnıaçıq insantək
ziyarətə gəlsinlər.
Hələ ki, bu kişi qıtlığında,
naxələf bolluğunda
çətinə düşənlər səni bir-birinə
təsəlli üçün göstərə bilsinlər.

*May, 2003*

## ZƏKA TƏCƏSSÜMÜ

*Dəyərli ilahiyyatçı və dilçi alim,*
*akademik V.Məmmədəliyevin 60 illik yubileyinə*

Nə şeyxdir, nə müctəhid,
amma kamil imanı.
Mübariz mürşididir
Peyğəmbərin, İslamın.
Odur aydınlaşdıran
azəri türkcəsində
incə məqamlarını
həm dinin, həm Quranın.

O öz idrakı ilə
ərəb, fars, azərbaycan
dillərində toxuyur
möhtəşəm söz çələngi.
O alimin qələmi,
səlis, saf nitqi ilə
hələ çox rəvanlaşar
dilimizin ahəngi.

Zəka təcəssümüdür
dövrümüzün seçilən
bu dəyərli insanı –
Vasim Məmmədəliyev.

Hamının qəlbindəki
ən qiymətli kitabın
ən gözəl tərcüməni –
Vasim Məmmədəliyev!

*31.07.2002*

## İGİD ƏSGƏR

Sən ey soyuq səngərlərdə keşik çəkən igid əsgər,
Gecə-gündüz düşmən ilə dayanmısan qabaq-qənşər.
Qov gördüyün təhlükəni, uzaq olsun üfüq qədər,
Səngər Vətən namusudur, əzimli ol, hünər göstər.

Ey qəlbimin qürur hissi, ey ruhumun söykəənc yeri,
Yoxdur böyük bir xilaskar bu diyarda səəndən qeyri.
Səni bəslər ürəyində elimizin gözəlləri,
Sən yurd adlı bir gözələ kişik çəkən gündən bəri.

Güclü olsan neylər sənə çovğun, sazaq, boran olsun,
Əsgər gərək mətin, dönməz, sərrast zərbə vuran olsun.
Yurdumdakı düşmən izi köksündəki yaran olsun.
Rəqibindən qorxsan əgər, əmdiyin süd haram olsun.

Düşmən bizə qan uddurub səbr kasan daşsın, yetər,
Ayıq dayan, ətrafında gör hər şeyi birər-birər,
Ürəkli ol boz qurd kimi, qüdrətli ol pələng qədər,
Amansız ol quzğun kimi, cəsarətin getməz hədər.

Fürsət axtar hücum üçün, məqamında keç irəli.
Təntimədən, yorulmadan qır bəndləri, aç sədləri.
Sən öz qalib addımınla tapdalasan hansıı yeri
O torpaqdan keçəcəkdir məmləkətin sərhədləri.

*Mart, 2002*

## QAYIDIN BU YOLDAN

*Son zamanlar televiziya və radio ilə «Mərhəmət işığında» verilişlər seriyası təşkil olunur. Məqsəd ciddi tibbi müayinə və müalicəyə ehtiyacı olan imkansız insanlar üçün (əslində əhalinin əksəriyyəti bu vəziyyətdədir) bank hesabı açıb vəsait toplamaqdır.*

*Bu qədər sərvətə malik, əmlakı rüşvətxor məmurlar tərəfindən bir ucdan mənimsənilən, yüzlərlə gizli – aşkar milyonerləri və milyonlarla imkansızı, işsizi olan bu, səhiyyəsi pullu məmləkətdə ekran və efir vasitəsi ilə indi də dilənçilik estafeti nümayiş etdirmək kimin dəyirmanına su tökməkdir?*

*Axı, bir neçə il öncə də zəifliyimizi, xəyanətimizi, satğınlığımızı bu cür nümayiş etdirməklə başımıza hansı müsibətlərin gətirildiyini yaxşı bilirik. Bu ağır və acı sınaqlar bizə dərs olmadımı?*

Kimə yalvarırsan, ay Vətən oğlu,
Niyə ağlayırsan, ay anam – bacım?
Hələ ki, qapılar üzünə bağlı,
Hələ ki, Allaha qalıb əlacın.

Əbəs bu göz yaşı, yalvarış, çünki
O kəslər qəlbi daş, gönləri qalın.
Quduz canavarla döyüşdə, sanki
Qalmısız taqətsiz və əliyalın.

İşsiz məmləkətdə səhiyyə pullu,
Dönüb probleme müayinə də.
İmkansız xəstələr həkimsiz qalır,
Ağır azarıyla mübarizədə.

Haqsız cəmiyyətdə yaşamaq çətin,
Günümüz əzablı, yaşımız yarı.
Sərvəti başından aşan dövlətin
Dərmana pul tapmır vətəndaşları.

Pənah bildiklərin talançı, cani,
Xalqın əmlakını oğurlayırlar.

Oğruda, canidə mərhəmət hanı,
Bu cür ağrıları duyarmı onlar?

Əlhəzər, elini mənən alçaldan
Şərəfsiz, nəfsi ac min üzlülərdən.
Yurdun sinəsinə çökən, sancılan
Yalan sözlülərdən, boş sözlülərdən.

Bir vaxt xalqa xain, satqın dedilər,
Qəzetdə, ekranda bunu el bilir.
Bizi təqib edən rəqib indi də
Dilənməyimizə diqqət kəsilir.

İrəvan, Zəngəzur, Göyçə ağrımız,
İndi də Qarabağ göydən asılı.
Burda gül açmasın bağça-bağınız,
Orda rayon – rayon Vətən satılır.

Nəyiniz çatışmır, ağalar, görən,
Niyə susamışıq millət qanına?
Yəqin, bu işlərin başında duran
Su tökür düşmənin dəyirmanına!

Pis – yaxşı bazamız, həkimlərimiz,
Niyə pullu olsun təbabətimiz?
Daha nə pul qalıb, nə səhhətimiz,
Düşünsün bu haqda hökumətimiz.

Yenə də ölkədə kabus dolaşır,
Yenə də qorxulu oyunlar gedir.
Yoxsa məmurların qəsdi kütləni
Qul kimi bazarda satmaqdır, nədir?

Onlarda ədalət, mərhəmət hanı,
Fayda yox millətin ağlaşmasından?

Tarix göstərir ki, qul öz haqqını
Zorla almalıdır öz ağasından.

*Aprel, 2004*

## SƏNİN VARLIĞINA ŞÜBHƏM VAR, ALLAH

Sən ey Yerə, Göyə göz ola bilən,
Sən ey əqlimizdə iz ola bilən,
Sən ey dilimizdə söz ola bilən,
Sən ey ürəklərdə Şəhriyar Allah,
Sənin varlığına şübhəm var, Allah.

Səndən ucalığa bir varlıq yetməz,
Nəzər-diqqətindən bir zərrə itməz.
Sənsiz bir ot bitməz, bircə an ötməz,
Özünü göstərsən nə olar, Allah,
Sənin varlığına şübhəm var, Allah.

Xaliqim, bircə yol özünü göstər,
Səsini, hökmünü, sözünü göstər,
Bu boz üzlülərə üzünü göstər,
Yoxsa bu quldurlar qul satar, Allah,
Sənin varlığına şübhəm var, Allah.

İttiham etdikcə insan insanı,
Min-min günahsızın tökülür qanı,
İsanı çarmıxa çəkənlər hanı?
Bu boyda günahı kim yuyar, Allah,
Sənin varlığına şübhəm var, Allah.

Çoxunun qəlbindən böyükmüş kini,
Göyə həcv yazır Yerin sakini.
Nadanlar yandırdı Naqasakini,
Bu yolla yer üzü dağılar, Allah,
Sənin varlığına şübhəm var, Allah.

Tutmuş düz-dünyanı bu bədəsillər,
Bu vara, dövlətə, pula əsirlər.
Bu harın insanlar, azğın nəsillər
Nə vaxt haqqa dönər, tanınar, Allah,
Sənin varlığına şübhəm var, Allah.

Kimi uşaqlıqdan qüsurlu, miskin,
Kimi cavanlıqdan dərdə tuş, bədbin.
Milyonlar zavallı, ac-susuz, neyçün?
Sən, ey adil Allah, ixtiyar Allah,
Sənin varlığına şübhəm var, Allah.

Bir adın Əkbərdir, bir adın Həmid,
Bir adın Səbrdir, bir adın Ümid,
Ya üz səbrimizi, ya eylə Səid,
Sən ey Kərim Allah, ümidvar Allah,
Şübhəni qəlbimdən qır, qopar, Allah!
Sənin varlığına şübhəm var, Allah!

*Yanvar, 2001*

## SƏRHƏDÇİ DÜŞÜNCƏLƏRİ

Vətən, sənin göylərinin aydın olsun səması,
Vətən sənin sərhədlərin üfüq qədər uzansın.
Sərhəd boyu dirəklərdə quşlar yuva bağlasın,
Siz biləkli oğulların keşiyində dayansın.

Çiçəklənsin, qüvvətlənsin Azərbaycan dövləti,
Sərhəddindən bəlli olur hər ölkənin qüdrəti.
Dövlət güclü ola bilməz qorunmasa sərhədi,
Sərhəd ilə qoşa durur vətəndaşlıq qeyrəti.

Biz rəqibə bac verməri k, biz bu yurda sipərik,
Qarı düşmən qapımızın kandarında qarımış.

Biz igidik, biz qorxmazıq, biz zəfərə qadirik,
Zaman-zaman bu torpağı XƏTAİLƏR qorumuş.

Biz əsgəri and içəndə əl basmışıq Qurana,
Bu torpağın hər qarışı candan əziz, müqəddəs.
Yol verərik zəif, gücsüz sıramızda dayana,
Türk əsgəri şəhid olar, türk əsgəri yenilməz.

*İyun, 2004*



## BİR TÜRKÜ OXUYAQ

Könüldən bir şərqi oxuyaq,
Dinləsin, qoy bütün türk eli.
Əsrimiz böyük türk əsridir,
Ötən hər ilimiz türk ili.

Yayılsın aləmə səsimiz,
Hamımız doğmatək görüşək.
Bu birlik, bu dostluq bəsimiz,
Bir bayraq altında birləşək.

Doğrudan haqqadır yolumuz,
Doğudan Batıya biz varıq.
Yüz dəfə çətinə düşsək də,
Heç zaman yedəkdə olmarıq.

Bir kimsə qoymasın şərt bizə,
İstinad yerimiz Atatürk.
Bənd olan deyilik hər sözə,
Türk igid, türk müdrik, türk böyük!

Bir türkü oxuyaq, səsimiz
Bozqurdun səsinə qarışsın.
Bu arzu, bu istək qədərsiz
Qəlbimiz fərəhdən alışsın.

*İyul, 2003*

## QƏŞƏNGİM

*Əli Baxış musiqi bəstələmişdir.*

Hər dəfə qəlbimi yandırıb-yaxar,
Dilindən hər qopan sözün, qəşəngim.
Özümü özümə ögey sanıram,
Dəyməsə gözümə gözün, qəşəngim.

Zərif bir çiçəksən güllər içində,
Gözəlsən, mələksən ellər içində,
Bir azmış qayığam sellər içində,
Məndə qalmayıbdı dözüm, qəşəngim.

Mənə havadan da, çörəkdən də çox,
Arzudan, istəkdən, diləkdən də çox,
Eşqinlə döyünən ürəkdən də çox
Sən özün gərəksən, özün, qəşəngim.

Bilirəm, başqadır təbiətin də,
Fikrin də, hökmün də, qətiyyətin də,
Durub gözlərimin səltənətində,
Kəsir ümidimi zülmün, qəşəngim.

*1974*

## **KÖNÜL**

Heç yetdinmi vüsalına,
Əzabından yanan könül?
Yar adlayan yerlərə də
Baxdın heyran-heyran, könül.

Ayrılıq əydi qəddini,
Kimsə bilmədi dərdini.

Çəkdin bir gül həsrətini,
Qismətinmiş hicran, könül.

Bilir dərdə həyan aşiq,
Ölməz qəlbən duyan aşiq.
Varsa eşqdən doyan aşiq,
Qoy oxunsun meydan, könül.

Soldu hər yan, ötdü bahar,
Soraqladın diyar-diyar,
Dedilər axtaran tapar,
Xeyr, itmişdi sonan, könül.

Onsuz yandın sən oduna,
Düşürsənmi heç yadına?
Günəş gəlsin imdadına
İntizardan donan könül.

*1974*

## MƏN SƏNİNLƏYƏM

*Xumar Qədimova musiqi bəstələmişdir.*

Mənə təkliyindən söhbət açma gəl,
Dərdimi dərdinlə heç artırma gəl.
Azmı taleyindən narazı olan,
Həyatdan qəlbini belə qırma gəl.

Gülümsər baxışın misraya gəlməz,
Ağlasan, gözündə yaş da gözəldir.
Bu hikmət nədədir, hər naşı bilməz,
Duyan ürəklərə daş da gözəldir.

Demirəm qəm, kədər qalıb uzaqda,

Dağın da dağ boyda bir qəmi vardır.
Ancaq çöldə bitən tək ağaca da,
Tək demə, onun da həmdəmi vardır.

Heçdən gəlib ötmür heç bircə an da,
Hər anın özünün hikməti vardır.
Zərrə də əksini tapır həyatda,
Dünyanın əbədi vəhdəti vardır.

Kədərli anında xəyala dal ki,
Gəlib xəyalında səni dinləyəm.
Gülüm, birdəfəlik arxayın ol ki,
Hər yerdə, hər zaman mən səninləyəm.

*1975*

## İSTƏRƏM

*Əli Baxış və Xumar Qədimova musiqi bəstələmişlər.*

Yığıb sözlərinin şirinliyindən
Suyuma, havama qatmaq istərəm.
O qara gözlərin dərinliyində
Ucalmaq istərəm, batmaq istərəm.

Baxışın iz qoyub gözlərim üstə,
Dilimin ahəngi sözlərin üstə.
Bir dəfə baş qoysam dizlərin üstə,
Bütün gəncliyimi yatmaq istərəm.

Bəzəksən ömrümə gülə şeh kimi,
Ay ürək həmdəmim, ay qəlb hakimi.
Sənsiz bir günahsız körpə sevgimi

İsti qucağına atmaq istərəm.

Çatılmış qaşların nə deyir yenə,
Qoymur dodaq qaça, qoymur dil dönə.
Arzusan, xəyalsan, zirvəsən mənə,
Xəyala, arzuya çatmaq istərəm.

Sənsiz ürəyimin yox halı, gülüm,
Günlərim əzablı, qadalı, gülüm.
Əllərim yoluna uzalı, gülüm,
Əl ver, əllərindən tutmaq istərəm.

Mən sənə qovuşmaq, çatmaq istərəm.
O şəhla gözlərdə batmaq istərəm.

*Avqust, 1997*

## HƏSRƏT

Yük olub asılıb kirpiklərimdən
Sənsizlik adlanan bir dəli həsrət.
Gözlərim ağrıyır gördüklərimdən,
Çəkibdir altından sürməni həsrət.

Sən onun çaldığı havasına bax,
Verdiyi dərdinə, dəvasına bax.
Qəlbimdə qurduğu yuvasına bax,
Fikir-xəyalımın həmdəmi həsrət.

Səndən ayrılalı könül həmdəmim,
Dolur gözlərimə dünyanın qəmi.
Xəyal ümmanında azdırır məni
Bu tufan ayrılıq, bu gəmi həsrət.

Necə doymamışam bal söhbətindən,
«Yox,getmə, yanımda qal»  - söhbətindən.

Çəkil gözlərimin səltənətindən,
Gəlib ürəyimə yar dəmi, həsrət!

Kərəmi yandıran o Qara keşiş
Neçə ümidimi puç edib yemiş.
Nə böyük qüdrətin sahibi imiş
Bizim ayrılığın dərd-qəmi həsrət.

Qalmayıb əvvəlki o şıltaq həvəs,
Nə eynim açılmaz, nə üzüm gülməz.
Sevgilim, bu sirri ayrısı bilməz,
Mənə dost edibdi aləmi həsrət.

*1984*

## SƏNİ SEVMƏMƏK OLMAZ

*Zamiq Əliyev musiqi bəstələmişdir*.

İlahi varlığımsan,
Əbədi səadətim.
Ay mənim şan-şöhrətim,
Ay mənim ülviyyətim,
Səni sevməmək olmaz.

Səsim sənsən, ünüm sən,
Gecəm sənsən, günüm sən.
Yazda zərif bənövşəm,
Qışda qızılgülümsən.
Səni sevməmək olmaz.

Həm ümidsən, həm güman,
Həm bəxş edən, həm uman,
Bir gülüşlə məst edən,
Bir baxışla can alan,
Səni sevməmək olmaz.

Sənsiz bu dövran ağır,
Sən şahzadə, mən fağır.
Gözləyirəm müntəzir,
Təki məni sən çağır,
Səni sevməmək olmaz.

Sən ey müqəddəs insan,
Bir təbəssüm et ehsan.
Sənə ürəyim möhtac,
Sənə gözlərim heyran,
Səni sevməmək olmaz.

Tək sən məni duyarsan,
Tək sən məni anarsan,
Dünya sənsiz yeknəsək,
Nə yaxşı ki, sən varsan,
Səni sevməmək olmaz.

Səninlədir hər uğur,
Səninçündür çal-çağır.
Hər qıyğacı baxanda
Qaşın altdan Ay doğur,
Səni sevməmək olmaz.

Sənsiz heçəm gülüm, mən,
Bir iş gəlmir əlimdən.
Heç çıxmırsan başımdan,
Heç düşmürsən dilimdən,
Səni sevməmək olmaz.

Ay başına dönüm mən,
Kaş eşqinlə ölüm mən.
Sevgim səcdəgahımdır,

Sərgəşdəyəm gülüm, mən.

Səni sevməmək olmaz -
Sevib ölməmək olmaz!
Səni Tanrım bilim mən,
Qoy yolunda ölüm mən!

*1997*

## O ŞƏHLA GÖZLƏR

O şəhla gözlərin sehrinə düşdüm,
Saldılar bir şirin tilsimə məni.
Ram olub məhkumluq yolunu seçdim,
Qoymurlar baxmağa heç kimə məni.

Bir süzgün baxışla qəlbə od salar,
O gözlər yaranmış oxunmaq üçün.
Uzalı əllərim asılı qalar
Şəlalə saçlara toxunmaq üçün.

Xəyalı göylərdə, işvəsi yerdə,
Qəmzəsi bir dünya, özü lal baxış.
Tanrı o gözlərdən yaratmaz bir də,
Bal dildən şirinmiş, bu cür bal baxış.

Necə ovsunludur, aman, o gözlər,
Sanki addım-addım izləyər məni.
Getdiyim yerləri yanımda gəzər,
Qayıdıb gələndə gözləyər məni.

Hər görüş bir şirin nəğmədir mənə,
Səninlə rastlaşan günümə qurban.
Gözlərin bir mahnı bəstələr yenə,
Olmuşam səsinə, sözünə heyran.

Sən qəmli olanda açılmaz könlüm,
Qıyma gözlərinə yol tapsın kədər.
Əlini ovcumda, qoy sıxım, gülüm,
Yaxın ol sən mənə baxışın qədər,
Həmdəm ol sən mənə gözlərin qədər.

*Avqust, 1997*

## QAYIT MƏNİ QINAMAĞA

Nə biləydim bir gün sənsiz qalaram,
Gedəcəksən əlçatmaza, əzizim.
Sənsiz mənə çörək haram, su haram,
Qabağımda yüz qadağa, əzizim.

Ətrin hələ divarlardan getməyib,
Nə səliqən, nə səhmanın itməyib.
Ayaq səsin dəhlizlərdən ötməyib,
Dözmək olmur bu sınağa, əzizim.

Nə şirinmiş o şıltaqlıq, o küsü,
Kaş qayıda o günlərin ən pisi.
Qapısını açacaqsa özgəsi,
Necə girim o otağa, əzizim.

Daha sənə əl yetişməz, ün yetməz,
Gözlərimdən yaş tükənməz, qəm itməz.
Nə gözlərin, nə yaddaşın bəs etməz
İndi məni tanımağa, əzizim.

Səndən sonra bir gözəldə gözüm yox,
Quruyubdur dilim-ağzım, sözüm yox.

Nə cismimdə, nə ruhumda dözüm yox,
Qayıt məni qınamağa, əzizim.
Dözmək olmur bu sınağa, əzizim.

*01.11.1997*

## GÖZLƏRİNƏ QURBAN OLUM

*Zamiq Əliyev musiqi bəstələmişdir*.

Gözlərinə baxıb azdım,
Gözlərinə qurban olum.
Onlara bir şer yazdım,
Sözlərinə qurban olum.

Ağ buxağı, şəkər dili,
Yanağından öpür teli.
Tək gözümü sevilməli?
Yüz yerinə qurban olum.

Neçə qəlbi üzüb gəlmiş,
Neçə məsti süzüb gəlmiş,
Ürəyimi gəzib gəlmiş,
İzlərinə qurban olum.

O dərya göz, o qövsü-qaş
Bəd nəzərə gəlməyə kaş.
İnciməsin, qoy yar-yoldaş,
Dərd-sərinə qurban olum.

Dövran onun indən belə,
Qurbanlığı çoxdur hələ.
Allah, mən də o gözələ
Öz yerimə qurban olum.

Üzü düzün tər çiçəyi,
Dodaqları gül ləçəyi.
Kim olacaq seçəcəyi?
Düz rəyinə qurban olum.

O xülyada, mən qəmində,
Bir damlayam əzəmində.
Dünya onun gözlərində —
Gözlərinə qurban olum

*02.11.1997*

## BƏSİMDİR

Bu dünyadan yox bir qeyri təmənnam,
Bahar vaxtı gül töhfəsi bəsimdir.
Şəlalənin istəyinə heyranam,
Bulaqların zümzüməsi bəsimdir.

Ömür keçir, ay dəyişkən, il qısa,
Nə gözəldir, göz danışa, dil susa.
Əgər sənin ürəyində varamsa,
Köynəyinin titrəməsi bəsimdir.

Səni deyib yaşamışam hər zaman,
Bu sevdada mən bir damla, sən ümman.
Bu ümmanda səbrim ilə oynayan
Dalğaların kükrəməsi bəsimdir.

Məhəbbətsiz keçən ömür boş, hədər,
Min illərdir oda yanır Səməndər.
Sevgi yolu şəhadətmiş, sərasər,
Məni şəhid eyləməsi bəsimdir.

Yoxluğumu eşidəndə bir səhər,

Hücum çəkər üzərinə qəm, kədər.
Gülüm, səni incitməsin bu qəhər,
Göz yaşının bir damlası bəsimdir.

*18.12.1997*

## YUXUMA GİR

*Mobil Babyev və Xumar Qədimova musiqi bəstələmişdir*.

Fikrim yenə tamam sənin yanında,
Uça-uça gələcəyəm, gəl - desən.
Səndən ayrı bir həsrət var canımda,
Yuxuma gir, öləcəyəm, öl - desən.

Bundan sonra görüşümüz bir güman,
Bizi üzüb yetişəcək dərd kama.
Mənim kimi sən də orda ağlama,
Göz yaşımı siləcəyəm, sil - desən.

Baxtı mənə sən yazırsan, neyləyim?
Nə ömürdən, nə yaşdandır gileyim.
Qismətiylə barışarmı taleyim,
Sənsiz keçən günlərimə il - desən?

Sən gedəli artan ancaq göynəyim,
Ruhdan qeyri qalmayıbdı heç nəyim.
Görsəm səni çox incidir ölməyim,
Öləndə də güləcəyəm, gül - desən,
Yuxuma gir, öləcəyəm, öl - desən!

*Fevral, 1998*

## RUHUNLA YAŞAYIRAM

*Xumar Qədimova musiqi bəstələmişdir.*

Elə bilmə unudulub o günlər,
Hər xatirən bir sehrdir, tilsimdir.
Mizrabından ayrı düşmüş siməm mən,
Köklənmərəm, çalınmaram, ha dindir.

Kaş, görəydim sən yaşayan yeri mən,
Bəxtəvərmiş kölgə kimi sürünən.
Bu sənsənmi gözlərimə görünən?
Qulağıma gəlir doğma səs indi.

Ruhundurmu yenə çıxan qarşıma?
Ürəyimdə başlar həzin oxşama.
Səba kimi saçlarımı oxşama,
Gözlərimdən ürəyimə əs indi.

Daha məndən xəyal qədər uzaqsan,
Yolu bağlı mahal qədər uzaqsan,
Bir müqəddəs vüsal qədər uzaqsan,
Əzab dolu ümidimi kəs indi.

Bəlkə ömrün yox mənası kədərsiz,
Mən arvadsız indi heçəm, sən ərsiz.
Hərdən qəlbin bir kimsədən xəbərsiz
Məni deyib döyünürsə, bəsimdir.

*27.02.1998*

## BU SEVDA YALANMIŞ

Sən mənim eşqimdə bir məbəd yaratdın,
Sən idin həmişə ümidim, pənahım.
Bir dünya sevgini, istəyi unutdun,

Qəlbi daş, bilmədim nə idi günahım.

Mənim üçün ölməyin yalanmış, demə,
Məni Tanrın bilməyin yalanmış, demə.
Məni deyib gəlməyin yalanmış, demə,
Yalanmış bu sevda, yalanmış, demə.

Aldanıb bu şirin yalana inandım,
İsti göz yaşlarım peşiman sirdaşım.
Hər gecə yastığım sübhəcən islandı,
Ayrılıq qismətim, tənhalıq yoldaşım.

Nəfəsin, pıçıltın... yalanın ah, nə çox,
Mən indi anladım iç dünyam talanmış.
Bizim bu sevgidə müqəddəs heç nə yox,
Məhəbbət yalanmış, sədaqət yalanmış.
Yalanmış bu sevda, yalanmış, demə.

*07.03.1998*

## İNANMAYIR, NEYLƏYİM

Boylanıram hər gün yollar boyunca,
Yarım keçə, baxam ona doyunca,
Göz yaşımdan su atıram dalınca,
İnanmayır, inanmayır, neyləyim?

Arzularım düyüm düşüb telində,
Yalvarışdı, titrəyişdi dilimdə,
Qurbanlığa çevrilmişəm əlində,
İnanmayır, inanmayır, neyləyim?

Kirpikləri hər qalxanda, enəndə,
Ürəyimdən salır məni kəməndə,
Özü görür, odu yanır sinəmdə,
İnanmayır, inanmayır, neyləyim?

Mən eşqimin yollarında bir qulam,
Rəvadırmı qan ağlayam, saç yolam?
Bu sevdadan çətin bir də kam alam,
İnanmayır, inanmayır, neyləyim?

Mənə dostmu, ya düşmənmi bu dövran?
Könlüm evi gah gülüstan, gah viran,
Həmd söyləyib, söz deyirəm bir Quran,
İnanmayır, inanmayır, neyləyim,
İnanmayır, inanmayır, neyləyim?

*06-08-03.1998*

## BAĞIŞLA

*Mobil Babayev musiqi bəstələmişdir.*

Bəlkə də çox sevdiyinçün məni sən,
Gördün eşqin min hicranın, bağışla.
Sən bu yolda qəza vuran gəmisən,
Bu gəminin kapitanın bağışla.

Hərdən çılğın aparmışam özümü,
Ürəyini sındırmışam, bağışla.
Hərdən soyuq, daşüşüdən baxışla
Ümidini dondurmuşam, bağışla.

Hərdən mənə güc gələndə xoş həvəs,
Olub, səni duymamışam, bağışla.
Hərdən sənin qəlbindəki müqəddəs
Hisslərinlə oynamışam, bağışla.

Olub, hərdən bir işvəsi gözəlin
Gülüşündən keçməmişəm, bağışla.
Hərdən səni, ayağının tozuna
Dəyməyəndən seçməmişəm, bağışla.

Hüzurunda dayanmışam, müqəssir,
Etirafım günahımdan aşağı.
O hisslərin qarşısında mən əsir,
Ay eşqimin müqəddəs göy qurşağı,
Bu günahkar aşiqini, bağışla!

*Mart, 1998*

## KAŞ QAYIDAQ O İLLƏRƏ

*Mobil Babayev musiqi bəstələmişdir.*

Ömrün çoxu nə tez qaldı arxada,
Nə sən məndən, nə mən səndən doymadıq.
Qoşa atdıq özümüzü hər oda,
Bu dünyanın çaldığına oynadıq.

Cavanlığın odu hələ içimdə,
Elə bil ki, dünən oldu toyumuz.
İllər ötür köçərilər köçündə,
Gedir üzü qocalığa yolumuz.

Bizimləymiş dünyanın dərd alveri,
Evlənəndən qüssə çəkdik, qəm yedik.
Özümüzçün yaşamadıq bu ömrü,
Doğmaların qayğısında xərclədik.

Deyirdik ki, ömür hələ qabaqda,
Arzuların qanadında uçurduq.
Günlərimiz ötüşdükcə qatarla,
Ömrün gənclik sarayını uçurtduq.

Ürəyimdə həm sevinc var, həm qubar,
Xəyal çapır köhlənini yüz yerə.
İmkanları qaytarmağa ümid var,
Ötən günü kim qaytarar bizlərə?

Bir ömürmüş, ömrün ötən qırx ili,
Bu illərdə nə itirdik, nə tapdıq?

Qırx yaş deyil, qırx həyəcan təbili,
Verməz bizə bundan sonra rahatlıq.

Kövrəlirik bəzən toyda, büsatda,
Kaş qayıdaq o illərə bir də biz.
İstəyimiz bir olsa da həyatda,
Heç doyunca yaşamadıq birgə biz.

*Aprel, 1998*

## QURBANIN OLARAM

Mən daha özümdə deyiləm,
Qalmışam taleyin əlində.
Bir şirin yuxutək yaşarsan
Günümdə, ayımda, ilimdə.

Ay mənim qəlbimin hakimi,
Görün bir Gün kimi, Ay kimi.
Əlacsız xəstənin həkimi
Nə olar, yanına gələndə?

Heyf o günlərə, qayıtmaz,
Ürəyim onları unutmaz.
Hıçqırtım baxtımı ayıltmaz
Dərdimi içimdə böləndə.

Nə olar, bircə yol çaşasan,
Büsbütün sədləri aşasan.
Bir kərə çıx məni başa sən,
Onsuz da gələrsən öləndə.

Mən sənsiz bir aham, qubaram,

Qəlbinə, gözünə dolaram.
Yenidən qurbanın olaram
Sən mənim dərdimi biləndə.

*29.06.1998*

## BU SEVDADA

Sənin ətrin qızılgülün qoxusu,
Səni görcək bihuş olur çoxusu.
Sənin sevgin «Min bir gecə» yuxusu,
Doymaq olmur bu sehrli uyğudan,
Bu sevdada mən bir damla, sən ümman.

Baxışınla çəkmə məni dara, gəl,
Ürəyimdən keçənləri ara, gəl,
Qoy baxışın şübhələri qıra, gəl,
Gülüm, sənsən bu sevdanı yaradan,
Bu sevdada mən bir damla, sən ümman.

Verdiklərin işgəncəmi, nazdımı,
Qüssə yeyib, qəm çəkdiyim azdımı,
Qara zülfün qara baxtı yazdımı?
Bir dəfə də sevinc eylə ərməğan,
Bu sevdada mən bir damla, sən ümman.

Bir ulduzsan, mən nurunun zərrəsi,
Bir atəşsən, mən qorunun zərrəsi,
Sənsiz mənə zindandır Yer kürəsi.
Gəlişinlə gözəlləşir bu cahan,
Bu sevdada mən bir damla, sən ümman.

Göydən enən sənəm sənsən, huri sən,
Gözlərimin tabı sənsən, nuru sən,
Səni Tanrı, öz-özünü qoru sən,
Əvəzini verməz heç kəs, heç zaman,
Bu sevdada mən bir damla, sən ümman.

*İyul, 1998*

## SƏNİN ÜRƏYİNDƏN NƏ KEÇİR GÖRƏN

Yenə fikrim dalğın, xəyalımda sən,
Sıxır ürəyimi səssiz səksəkən.
Ayrıla bilmirəm xatirələrdən,
Sevgim həmənkidir, istəyim həmən,
Sənin ürəyindən nə keçir, görən?

Unuda bilmirəm bircə an səni,
Çıxara bilmirəm yuxumdan səni.
Mənə dərdmi verib Yaradan səni?
Kaş bir yol gələsən, üzünü görəm,
Sənin ürəyindən nə keçir, görən?

Həsrətin yolları əlçatmaz, uzaq,
Həsrətin qucağı çovğunlu, sazaq,
Cismim can versə də, ruhum uçacaq,
Ay mənim ruhuma qol-qanad verən,
Sənin ürəyindən nə keçir, görən?

Mənsiz necə keçir günün, nə bilim,
Bu yolu, gedim ya dönüm, nə bilim?
Yaşayım, nə bilim, ölüm, nə bilim?
Ağlımı başımdan alırsan hərdən,
Sənin ürəyindən nə keçir, görən?

Deyirdin, özünə bağla könlümü,
Deyirdin, əmanət saxla könlümü.
...İndi ha əzizlə, ağla könlümü,
Bu sınıq qəlbimdə söz pərən-pərən,
Sənin ürəyindən nə keçir, görən?

Bu solmuş bağçamın gülünü neynim,

Bu sönmüş ocağın külünü neynim?

Sevgilim, çəkməyim zülmünü, neynim?
Sənli günlərimdir sənsiz xatirən,
Sənin ürəyindən nə keçir, görən,
Sənin ürəyindən nə keçir, görən?

*04.11.1998*

## SABAH AD GÜNÜNDÜR

Sabah ad günündür sənin, əzizim,
Gəlib əllərindən öpəcəyəm mən.
Dünyanın ən zərif çiçəklərini
Ayağın altına səpəcəyəm mən.

Sabah özün üçün yaşa dünyada,
Vurma əllərini ağdan-qaraya.
Keçir bir gününü kefdə, xülyada,
Bütün qayğıların qalsın sonraya.

Sabah ad günündür, şadlan, gül, oyna,
Sabah hər işini görərəm həmən.
Bəzən, qoy doyunca baxım boyuna,
Yaşayım qəlb dolu sevincinlə mən.

Səsim çatmasa da sənə bir sabah.
Xəyalən yanında olacağam mən.
Şirin nəğmə kimi, xoş xatirətək,
Qəlbinə, gözünə dolacağam mən.

Sabahlar uzansın qoy ömrümüzdə,

Yenə ad günündür - deyək bir sabah.
Yaşadaq bu hissi ürəyimizdə,
Təki, xoş sabahlar bəxş etsin Allah!

*06.12.1998*

## KEÇ GÜNAHIMDAN

*Nəriman Məmmdov musiqi bəstələmişdir*.

Bilirəm, yanında qəbahətim çox,
Sənə yalvarıram, keç günahımdan.
Məni məndən artıq qınayanım yox,
Bilsən, nə çəkirəm gizli ahımdan,
Sənə yalvarıram, keç günahımdan.

O qönçə ömrünə qıydım, bağışla,
Dərib qoxlamamış doydum, bağışla,
Naşı gəncliyimə uydum, bağışla,
Ayrı bir təmənnam yox Allahımdan,
Sənə yalvarıram, keç günahımdan.

Nə vaxt ki, arxamca bir cüt göz baxır,
Taqətim tükənir, ürəyim axır.
Elə bil ciyərim köksümdən çıxır
Könlüm ayrılanda qibləgahımdan,
Sənə yalvarıram, keç günahımdan.

Duymaram ilimi, ayımı sənsiz,
Bilmərəm toyumu, vayımı sənsiz.
Unudub yaşımın sayını sənsiz,
Səbr diləyərəm Səbrullahımdan,
Sənə yalvarıram, keç günahımdan.

Bu əzab günbəgün içimə hopur,
Dərddən sinəm qabar, sifətim çopur.
Qiyamətmi gəlir, tufanmı qopur
Üzməyə əlimi son pənahımdan?
Sənə yalvarıram, keç günahımdan,
Sənə yalvarıram, keç günahımdan!

*24.12.1998*

## QAYIT, SEVGİ DÜNYAM

*Aydın Ağasıyev musiqi bəstəlmişdir.*

Sən mənim ömrümün yarıdan çoxu,
Sən mənim könlümün cənnət payısan.
Qayıt, istəyimi gözümdən oxu,
Qayıt, ürəyimi verrəm, qayıtsan.

Qayıt, sevgi dünyam, mən sənsiz kiməm?
Yarımçıq nəğməyəm, qırılmış siməm.
Səninlə bütövəm, səninlə xoşam,
Sənsiz qanadları qırılmış quşam.

Sən yoxsan, özümü itirmişəm mən,
Səsimi, sözümü itirmişəm mən,
Bir ruhsuz bədənəm, bədənsiz ruham,
Gedib mənzilinə yetməyən aham.

Qayıt, sevgi dünyam, mən sənsiz yetim,
Harda qərar tutum, haraya gedim.
Ümidim, pənahım, sevincim sənsən,
Eşq adlı əvəzsiz bir incim sənsən.

Qayıt sevgi dünyam, qayıt, əzizim,
Qayıt, müqəddəsim, qayıt, təmizim.

Qayıt, qəlbimdəki haraya qayıt.
Qayıt, ucaltdığın saraya qayıt.

Sənsiz gözlərimdən silinməz kədər,
Sənsiz ruhum ölər, ümidim sönər.
Qayıt, bu qayıdış məğrurluq, hünər,
Qayıt, müqəddəslər qayıda bilər.

*Dekabr, 1998*

## BİLMİRƏM

*Xumar Qədimova musiqi bəstələmişdir*.

Sənsiz bu xəzan dünyama
Gözümü aça bilmirəm.
Qanadı qırılmış quşam,
Arxanca uça bilmirəm.

Getməz karvanım, saxlanıb,
Dərddən ürəyim dağlanıb.
Sən yoxsan, baxtım bağlanıb,
Gəlmirsən, aça bilmirəm.

Səsimə qəm, saçıma dən
Ərməğandı həmdəmimdən.
Xoşam, bu tale hökmündən
Qurtulub qaça bilmirəm.

Ay insafsız, bu sənsənmi,
Sən mən olsan, dözərsənmi?
Gəlib bir də dönərsənmi
Başımda taca, bilmirəm?

Nəfəsimdə, canımdasan,
Ürəyimdə, qanımdasan,
Sən ki, mənim yanımdasan,
Bəs niyə quca bilmirəm?!

*19.01.1999*

## NƏ BİLƏYDİM
## (*etiraf*)

*Gəlmədin, göz bəbəyim,*
*Can yoldaşım, gəlmədin...*
*Bir türk şərqisindən*

Sənsiz keçən bir günümə dözmürdüm,
Sənsiz keçən günüm indi il olmuş.
Xoşbəxtliyim yanımdaymış, görmürdüm,
İndi kiməm, mən başına kül olmuş?

Heyf, dərdsiz anlarımı, sən demə,
Görməmişəm, mən gözləri kor olmuş,
Sən gedəndən baxtım düşüb tilsimə,
Sən gedəndən dünya mənə gor olmuş.

İndi məndən uzaqsansa üfüqcən,
Bilməmişəm qiymətini demək, mən.
Səhvimi gec anlasam da, qəmin kəm,
Adın düşməz, sözün düşməz dilimdən.

Taleyimçün qınamıram heç kəsi,
Bu həsrətin günahkarı mən özüm.
Qulağımdan əskilməyən o səsin
Acı dadan ağısına qoy dözüm.

Mən çiynimdən öz səadət quşumu
Öz əlimlə uçurtmuşam əbədi.
Bəlkə də bir kəmtaleyəm, nə bilim,
Bəlkə dünya yaranandan belədi?

*14-17.02.1999*

## SƏNİN AD GÜNÜNDƏ

Tənha keçirirəm ad gününü,
hamıdan xəbərsiz,
qəfil düşdüyüm xəstəxanada.
Sənsizlikdən xiffətə bələnmiş ürəyim
qasırğalı dənizdə boğulan kiçicik ada.
Tufan səngiməyincə
harayına kimsə yetməz bu dünyada.
Beləcə qarşılayıram ad gününü,
reanimasiya otağında.
Başımın üstündə,
çarpayımın yanında
dərmanlarla «bəzədilmiş süfrə».

Şəfqət bacıları əllərində piyalə,
Saqi kimi dolanırlar başıma.
Qaldırılan «qədəh»ləri sənin sağlığına
bir-bir çəkirəm başıma.
Üstündən də atıram
neçə növ sakitləşdirici həbləri.
Reanimasiya otağının
bu «delikates yeməkləri»
qalır boğazımda.
Bəziləri zəhər dadır ağzımda.
Bir azdan, bu göyərçin geyimli
şəfqət bacılarının və həkimlərin
gələcək təbləri.
Əlləri qonacaq çiyinlərimə.

Başlayacaq inkir-minkir sorğusu:
— İlk dəfə nə vaxt xəstələnmişəm,
Hansı şəraitdə, neçə yaşımda...
Yarı dumanlı, yarı aydın surətin
xəyalən gəlib duracaq qarşımda.

cavab verə bilməyəcəyəm
bu naməhrəm məlaikələrə.
Taqətim olmayacaq
sualları bir-birindən seçməyə.
Yenidən pozular əhvalım.
yenidən axar ürəyim.
Sənin əzablarına bir az da dözüm-deyə
yenə başlayacağam
sağlığına dərman qədəhləri içməyə.
Haradasan, barı bu günümdə
yuxuna girirəmmi, mələyim!?

*27.02.1999*

## DƏLİ KÖNLÜM

Bir quş kimi qanadlısan,
Asimanlar dolaşırsan.
Mən piyada, sən atlısan,
Ha çapırsan, yarışırsan,
Dəli könlüm, dəli könlüm.

Bir xoş gündə, bir xoş anda
Yar xəbərsiz can alanda.
Bir baxışdan odlananda
Gizli-gizli alışırsan,
Dəli könlüm, dəli könlüm.

Öz nəşən, öz ələmin var,
Yüz dərdin var, yüz qəmin var.
Yardan ayrı de, kimin var,
Mənə ondan danışırsan,
Dəli könlüm, dəli könlüm.

Gah qışımsan, gah yazımsan,
Ovsun dolu avazımsan.

Sən mənim bəxt ulduzumsan,
Əlçatmazda sayrışırsan,
Dəli könlüm, dəli könlüm.

Hər vüsalda bir hicran var,
Hər ürəkdə bir viran var.
Səni yardan ayıran var,
Nə coşursan, nə daşırsan,
Dəli könlüm, dəli könlüm?

*Aprel, 1999*

## SƏNSİZLİK

Oturmuşam sakit bir otaqda,
tək-tənha.
Dörd yanım
sənsizlikdən doğan xiffətlə dolu.
Bu sayaq yaşamaqdan bezikmişəm,
dözə bilmirəm daha.
Durub, sənsizlikdən qaçmaq istəyirəm,
Qapımla, pəncərəmlə birgə
məni sənli hisslərimə qısqananlar

xəyalən kəsirlər yolu.
Yaman darıxıram,
çatışmır havam.
Təngiyir nəfəsim,
boğulur səsim.
Açıram pəncərəni taybatay.
Çölün içəriyə axan
soyuq havasından,
fərqinə varmadan,
ciyər dolusu uduram.
Aldatmaq istəyirəm özümü,
Ancaq bir az da
toxtamıram, rahatlanmıram.
Zərrəcə azalmır
ürəyimdəki qəm, kədər.
Deyəsən bu narahat ömrümü
hədər yaşayıram, hədər.
Heç nədən qorxmuram,
heç nəyi danmıram.
Bu bir etirafdır.
Sən demə, məni ağrıdan
havasızlıq yox, sənsizliyinmiş.
Nə deyim, yəqin
duyğusu olmayan
sevgi ilə yaşamayan
insanlar
çətin məni anlayar,
çətin!

*31.05.1999*

## SƏNSƏN

Mən səni görəndən hüsnünə heyran,
Sən mənim əzizim, mehriabınmsan.

Sən mənə duyğumu bəxş edən insan,
Sən mənim ikinci yaradanımsan.

Sən mənim qəlbimdə ilahi istək,
Fikir-xəyalımda gəzdirdiyim tac,
Ay məni eşqində sınayan mələk,
Mən sənin bir adi sözünə möhtac.

Bu sevgi qəlbimdən əskilməz bir dəm,
Gündə yüz yol alan canımı sənsən.
Dövrümün ən  bədbəxt kişisi mənəm,
Dünyanın ən gözəl xanımı sənsən.

*17.07.1999*

## QƏNİRSİZ GÖZƏL

Səni nə xoş anında
Xəlq edibdi yaradan.
Qənirsiz gözəl kimi
Doğulmusan anadan.

Bu nə mənalı tale,
Bu nə ədalı ömür?
Sən hamıya biganə,
Ətraf səninçün ölür.

Gözəl, həm lal baxışın,
Həm nəvazişin gözəl,
Sakit durun gözəl,
Adi yerişin gözəl.

Bu bir sirri-xudamı,
Gəlirsən, dünya gülür?
Bu nə dərdi – bəladı,

Sənsiz qəlblərə dolur?

Hər ürəyə məlhəmsən,
Hər məclisə yaraşıq,
Üzündən nur saçılır,
Gözlərindən gur işıq.

Nə böyük hikmət yaşar
O gözlərin gölündə,
O sehrli məkanda
Ölüm mən də öləndə?

Qız, bu hüsnü-camalla,
Gözəlliyin tacısan.
Görən, hansı xoşbəxtin
Dərdinin əlacısan?

Bu sərməst aşiqinin
Dərman ol nicatına.
Bir təbəssüm ehsan et,
Durum salavatına.

Deyim, şükür, Xudaya,
Bu mələkdir, ya xilqət?
Allahumməsəlli
 əla Muhəmməd
Və ali Muhəmməd!

*07.05.2001*

## GÖZLƏRİN

Məni ovsunlayır
Nazəndə gözlərin.

Piyalə içində
Gəzəndə gözlərin.

Aman, bir sehrdir,
Ədadır, əmrdir.
Cansızı dirildir
Süzəndə gözlərin.

Atdığı kəməndlə
Düşəndən bu bəndə,
Hal qoymaz nə səndə,
Nə məndə gözlərin.

Qalaram çətində,
Ölərəm o gündə,
Göz yaşı gölündə
Üzəndə gözlərin.

*03.01.2000*

## SARI GƏLİN

*Bu sevda nə sevdadır,*
*Səni mənə verməzlər,*
*Sarı gəlin?…*
***Xalq mahnısı***

Hardan qondun yaddaşıma,
Sevdan tac oldu başıma.
Mənə bu cür doğmalaşdın,
Dilimdən düşməyir adın,
Sarı gəlin, sarı gəlin?

Bu nə sehrli sevgidir,
Bu nə ilahi musiqi?
Ovsunlayır neçə qəlbi,

Odlayır neçə aşiqi,
Sarı gəlin, sarı gəlin?

Bir həzin duyğu kimisən,
Bir şirin uyğu kimisən.
Salmısan kəməndə məni,
Azdırmısan məndə məni,
Sarı gəlin, sarı gəlin?

Qoy oxusun aləm səni,
Dərdə məlhəm biləm səni.
Bu nə arzu, bu nə həvəs,
Hansı eşqdən doğur bu səs,
Sarı gəlin, sarı gəlin?

Unut, unut müvəqqəti,
Sən bu qəmli hekayəti.
Dayansın o qəm karvanı,
Olum gözlərin qurbanı,
Sarı gəlin, sarı gəlin?

*02.01.2000*

## UMU-KÜSÜ VAXTIMI

Mən bir eşqi girov qoydum yolunda,
Sən bağladın qara gəlmiş baxtımı.
Heç bilmədim harda, nə vaxt xərclədim
Sənsiz keçən ömür adlı vaxtımı.

İndi qəlbim odu sönmüş bir ocaq,
İndi ruhum səmt itirmiş bir uçaq.
Gəl qızınım nəfəsinlə bir azca,
Gəl, ölürəm, heç insafın yoxdumu?

Sənə xoşsa bu üzüntü, bu qubar,
İçimdəki duyğumu da qır, qopar.
Küsməyin də ölçüsü var, həddi var,
Canım-gözüm, umu-küsü vaxtımı?

*Fevral, 2002*

## AZALT BİR AZ ƏZABIMI

Kədər çökür gözlərimə duman kimi,
Səadətin rənglərini unuduram.
Həyatımda dünən olmuş zaman kimi,
Köçüb getmiş sevincimi axtarıram.

Axtarıram addım-addım, küçə-küçə,
Arayıram göz yaşımı içə-içə,
Gözləyirəm saatları saya-saya,
Boylanıram gözlərimi oya-oya.

İçimdə bir boşluq vardır səndən sonra,
O hiss mənim gecə-gündüz yol yoldaşım.
Sən ki, yoxsan, demək viran qalmış odam,
Kimsə gəlib, olmaz daha, can sirdaşım.

Tənhalıqda varaqlaram ötənləri,
Ürəyimi qanadacaq xatirələr.
Bu cür qəmli çağlarımda görüşümə
Səndən gizli əksin gələr, ətrin gələr.

Bilsən necə əzir məni sənsizliyin,
Gedər-gəlməz yollarınla dönəcəksən.
Ruhən uçub mələklərə qovuşsan da,
Xəyal olub asimandan enəcəksən.

Gəl, ömrümün bir anına qayıt bir yol,
Sənsiz ölən duyğuları ayılt bir yol.
Bir az hicran, bir az kədər ovudan ol,
Ya da məni öz arxanca apar bir yol.

Bəlkə elə günahkaram, müqəssirəm,
Odur, ömür yaşamıram, dərd çəkirəm.
Bacarırsan, azalt bir az əzabımı,
Sənsiz keçən bu həyatı istəmirəm.

*İyun, 2002*

## GÜLÜM, HEY

Ürəyimdə neçə arzum, həvəsim,
Çatacaqmı ətəyinə əlim, hey.
Sən ruhuma zərrə qədər ümid ver,
Mən sürünüb dizin-dizin gəlim, hey.

İçimdə bir üzüntü var, ağrı var,
Tayalanıb gözlərimdə qəm, qübar.
Ya bir söz de,  ya bir görün, nə olar.
Xəyalından nələr keçir, bilim hey.

Öz  başıma bəlaymış öz əməlim,
Daha sinəm üstündədi bir əlim.
Naşılıqmı, acizlikmi, nə bilim,
Yalvarmaqdan qabar olub, dilim, hey?

Artırdıqca ürəyimin dağını,
Unutmuşam ömrün coşqun çağını,
Qəfil tufan tutmuş könül bağımı,
Açılmayan çiçəyim, hey, gülüm, hey.

Bu dərd məni döndərəndən hədəfə,
Gizli-aşkar alışıram hər dəfə,
Qoy başını köksüm üstə bir dəfə,
Bu istəkdən bihuş olub ölüm hey.

*İyul, 2002*

## TƏKİ, DÖN HƏYATIMA

Baxtıma tənhalıq yazılıb mənim,
Gözümdə qəm yükü, kədər yağışı.
Sən yoxsan, demək yox gəlib-gedənim,
Bilmirəm günlərim necə ötüşür.

Mən duyğu dustağı, həsrət xəstəsi,
Bu əzab içimdə tükənməz, bitməz.
Ay mənim könlümün eşq əfsanəsi,
Sənə nə harayım, nə səsim yetməz.

Bu ki, həyat deyil yaşayıram mən,
Daha bu dünyada vaxt itirirəm,
Mənim qara çuxam yatıb elə bil,
Payıma yazılan baxt itirirəm.

Mənə vüsal dəmi harammış, haram,
Cismin əlçatmazlıqda, ruhun yanımda,
Beləcə bir ömrü başa vururam,
Sevgin ürəyimdə, ağrın canımda.

Sən ey nağıllaşan sevda mələyim,
Barı xəyal kimi dön həyatıma.
Lap, çıx bəşərlikdən, dön, əzrayıl ol,
Bir kirpik yuxu tək en həyatıma.

*08.09.2002*

## SİZİN KÜÇƏ

Duyğularım dinən yerdi sizin küçə,
Könlüm quşu istər daim burda süzə.
Bir şəhərə bərabərdi sizin küçə,
Bu küçədən yol ayrılır evinizə.

Başdan-başa yaraşıqdı sizin küçə,
Hər ağacı ətir saçır çiçək-çiçək.
Bu küçədən gündə yüz yol yolum keçər,
Axı, burda bir qız yaşar gözəl-göyçək.

Hər küçədən işıqlıdır sizin küçə,
Pəncərəniz qəlbilənmiş ay kimidir.
Vurulmuşam bu küçəyə bilsən necə,
Burda hər şey sanki ürək məlhəmidir.

Əcəb şirin hisslər keçir ürəyimdən,
Vaxtlı-vaxtsız  hər keçəndə bü küçədən.
Gözüm gəzər aynanızda gecəyəcən,
Arada bir boylansana pəncərədən.

Yaddaşlara düşüb indi sizin küçə,
Çoxmu düşür bu küçədən yolun, gözəl?
Gəl bir gəziş asta-asta, incə-incə,

Yerişinə baxıb bihuş olum, gözəl.

Ah, necə də «bəxtəvərdi» sizin küçə,
İndiyəcən sezməmişəm bunu, düzü.
Kaş məni, də sinəm üstən gözəl keçə,
Qalsın ondan xatirətək ayaq izi.

*Avqust, 2003*

## BARI BİR ZƏNG ELƏ

Nə olar, arabir görün gözümə,
Nə olar, səsini eşidim hərdən.
Bu yolla təskinlik verim özümə,
Bu cür uzaq olum sənli qəhərdən.

Sənə yalvarımmı bunun üçün də,
Deyimmi yadından çıxarma məni?
Hərdən biz tərəfdən ötüb keçməyə,
Hərdən bir zəngə də dəymirəm yəni?

Doğrudanmı daha yox səndə həvəs
Soruşam halını, görəm üzünü.
Bir vaxt güvəndiyim, arxam, hanı bəs
Qurban eyləyirdin mənə özünü?

O qədər vədlərin, şirin sözlərin
Puç imiş, olsun bir telinə qurban.
Axı, ürəyimdən silinmir yerin,
Barı bir zəng elə, əlinə qurban.

Mən ki, öz eşqimdə təmənnasızam,
Səndən də bir zərrə ummaram, qəti.
Bu mənim bəxtimə yazılan yazı,

Bu mənim sevdamın məğlubiyyəti!

*Fevral, 2004*

## QOŞA GƏZƏK DÜNYANI

Ömrümün ən əziz, ən şirin günü
Səni gözlədiyim gün imiş, gülüm.
Gəl ki, əllərindən tutaraq yenə
Doyunca dörd yanı dolana bilim.

Gəl-gəl, ürəyimdə tap öz yerini,
Coşğun qəlblərimiz fərəhlə dolsun.
Gəzək bu şəhərin küçələrini,
Şəhər başdan-başa evimiz olsun.

Səninlə yer üzü tamam tamaşa,
Günəş nur göndərir, Ay bəyaz gecə.
Dolaşaq dünyanı bəxtəvər, qoşa,
Ömür yarı nağıl, yarı əyləncə.

Qır, qopar içimdə nə ki, qubar var,
Eşqimiz bulaqtək qaynayıb daşsın.
Mənim xəyalımdan keçən arzular
Sənin ürəyində gül-çiçək açsın.

Ah, nə xoş anlardır yaşayırıq biz,
Xoşbəxtlik göz ilə qaş arasında.
İslansın istəkdən kirpiklərimiz,
Görünsün sevincdən yaş arasında.

12.09.2002

## NEYLƏYİM

*Mobil Babayev musiqi bəstələmişdir.*

Ha deyirəm daha səni unudam,
Ürəyimlə bacarmıram, neyləyim?
Öz içimdə gizli yanan bir odam,
Kimsə bilməz nədir yanğım, göynəyim,
Ürəyimlə bacarmıram neyləyim?

Bir nalə var indi bağrım başında,
Bir kölgə var üzüyümün qaşında.
Dərddir axan gözlərimin yaşında,
Bu göz yaşlı dərdi kimə söyləyim?
Ürəyimlə bacarmıram neyləyim?

Əldən düşmüş bir xəstəyəm, heyim sən,
Qəlbim qəmdən qubarlıdır, neyim sən,
Soruşan yox dərmanımı – deyim-sən,
Qan-yaşımala islansa da köynəyim,
Ürəyimlə bacarmıram, neyləyim?

Ay eşqimin əlçatmazı, Meracı,
Həyat kimi gah şirinsən, gah acı.
Həm ağrımsan, həm ağrımın əlacı,
Bu taleyə, bu qismətə nə deyim,
Ürəyimlə bacarmıram, neyləyim?

*15.08.1999*

## UNUT BU SEVDANI

*Nadir Əzimov musiqi bəstələmişdir.*

Sənsiz nə çəkirəm, soruşma daha,
Unut bu sevdanı, qurbanın olum.
Səni and verirəm Pirə, Allaha,
Unut bu sevdanı, qurbanın olum.

Sən ki, ağıllısan, ağlına qurban,
Verdiyin vədənə, nağlına qurban.
Neçə yol yanılar, yaxılar insan?
Unut bu sevdanı, qurbanın olum.

Yetməzmi, dərdindən doğranır sinəm?
Daha dərələrdə sürünən çənəm,
Harda aldanan var, sanıram mənəm,
Unut bu sevdanı, qurbanın olum.

Nə deyim, dünyanın qulağı karsa,
Neyləyim, baxtımın gözləri korsa?
Yanında zərrəcə qiymətim varsa,
Unut bu sevdanı, qurbanın olum.

Sən Allah, zəng edib qəhər yetirmə,
Olub-öətənləri dilə gətirmə.
Günümü, gecəmi ahla bitirmə,
Unut bu sevdanı, qurbanın olum.

Daha ləçəkləri soluxmuş güləm,
Soyumuş ocağam, sovrulmuş küləm.
Qoymadın yaşayam, izn ver, öləm,
Unut bu sevdanı, qurbanın olum.
Unut bu sevdanı, qurbanın olum.

## ŞİRİN XATİRƏMSƏN

Gözlərimin önündə
Əksin canlanır yenə.
Dünyanın xoş günündə
Əzab verirsən mənə.

Əlim-əlindən uzaq,
Səsim səsinə yetmir.
Dərd çəkilib qurtarmır,
Qəm yeyilməklə bitmir.
Sən hardasan, mən harda,
Xəyal qanadlı quşdu?
Ruhuma dönməyin də,
Mənim üçün uduşdu.

İndi öz dünyamdayam,
Ürəyimdə xatirən.
O sənli günlərimdən
Hansı qayıdar, görən?

Bəlkə də ürəyində
Unudulmuşam, yoxam,
Yox, hələ ölməmişəm,
Gülüm hələ ki, sağam.

Hədəfə tuşlanmayan,
Yayından çıxmış oxam.
Mən səni tanıyandan
Yatıbdı qara çuxam.

Sən öz qayğılarında
Mən öz təlaşımdayam,
Ömrün qaynar yaşında,

Sevgimin qışındayam.

*24.10.1999*

## GÖRMƏYƏCƏKSƏN

*Eyni adlı mahnı mətninin məlahətli ifaçısı*
*N.Dostəliyevaya*

Bəlkə aradığın təskinlik budur,
Mənim göz yaşımı görməyəcəksən?
Bəlkə, ümid dolu nikbinlik budur,
Mənim göz yaşımı görməyəcəksən?

Bəlkə heç ürəkdən gülməzsən daha,
Özünü qayğısız bilməzsən daha?
Nə yaxşı, görüşə gəlməzsən daha,
Mənim göz yaşımı görməyəcəksən.

Keçdiyin yerləri gəzib ağlaram,
Bu tənha həyatdan bezib ağlaram.
Hər gün sənsizliyə dözüb ağlaram,
Mənim göz yaşımı görməyəcəksən.

Nə yaman sınağa çəkirsən məni,
Boğur  qəhər məni, üzür qəm məni.
İndi göz yaşımdır isidən məni,
Mənim göz yaşımı görməyəcəksən.

Mən bir cür yazığam, sən bir cür yazıq,
Bizik bəxti dönük, taleyi pozuq.
Bu gizli sevdanı aşkar uduzduq,

Mənim göz yaşımı görməyəcəksən.

## Bir az ovsunlu ol

Başında bir eşqin ayrılıq dəmi,
Gedirdin, bilmirdim neyləyəcəyəm.
Mən artıq duymuşdum bir daha səni
Heç yerdə, heç zaman görməyəcəyəm.

Bu ki, son görüşdü, vida deyildi,
Bəs niyə xiffətdən boğulurdum mən?
Sənin gözlərinə dolan o yaşdan
Mənim gizli-gizli yanırdı sinəm.

Ay keçib, il ötüb o vaxtdan bəri,
Çəkir hər günümü sınağa zaman.
Əgər yaşasam da qərinələri,
Mən səni unuda bilmərəm, aman!

Xatirən qəlbimdən çıxmır bircə an,
Məni darıxmağa qoymursan, nədir?
İndi də yuxuma girirsən müdam,
Dərdli ovqatımdan doymursan, nədir?

Yetər iztirabın, əzabın yetər,
Bir az ovsunlu ol, qoy ölüm rahat.
Əgər mələksənsə, möcüzə göstər,
Ruhumu cismimdən, gəl, özün çıxart!

*15.10.2000*

## SƏNDƏN SAVAYI

Bir payız yağışı yağır nə vaxtdan,
Gecikir beləcə, yar, görüşümüz.
Mənim ürəyimə yağan yağışdan
Kimsə xəbər tutmaz, kimsə üşüməz,
Yar, səndən savayı, səndən savayı.

Bu yağmur selində, buludlu gündə
Gözlərim yol çəkər, ürəyim yanar.
Qalmışam nigaran, xiffət içində,
Bu tənha anımda məni kim anar,
Ah, səndən savayı, səndən savayı.

Ruhum uçub gələr yanına gülüm,
«Ucal» de, ucalım, «en» söylə, enim.
Özümlə bacara bilmirəm, neynim,
Axı, bu dünyada kimim var mənim,
De, səndən savayı, səndən savayı?

Bəlkə bu xiffətlə yoruram səni,
Bəlkə incidirəm, məni bağışla?
Kaş sənin ömrünə Günəş doğaydı
Mənim taleyimə yağan yağışla.
Ay qəlbim arzusu, dilim harayı,
Nəyim var, kimim var, səndən savayı,
Tək səndən savayı, səndən savayı?!

*21.10.2000*

## ÜRƏYİMin OVSUNU

Sən ruhumun söykənc yeri,
Gözlərimin işığı.
Məni sərməst eyləyənim,

Ömrümün yaraşığı.

Sən duyğumun sahibisən,
Ürəyimin ovsunu.
Mümkünmü könlüm olmasın
O surətin vurğunu.

Sən ey sonsuz məhəbbətim,
Vəsf etdiyim qüdrətim.
Cismimdəki can qədərdir
Önündəki heyrətim.

Gözümdən əksin əskilsə
Kor olaram hər şeyə.
Neyləyirəm o ömrü ki,
Məhkumsa sənsizliyə?

Mən də bir cür divanənəm,
Mən də bir cür heyranın.
Ölsəm, Tanrıya dua et,
Qəbul olsun qurbanın.

*May, 2003*

**BELƏ OLMAZ ƏZİZİM**

Gör haçandır yollar əzir gözümü,
Gör nə vaxtdan nəfəsinə həsrətəm.
Sən ki, yoxsan, itirmişəm özümü,
Nə üçündüür bu iztirab, bu sitəm?

Nə müddətdir eşitmirəm səsini,
Barı bir yol nömrəmi yığ, zəng elə.
Günüm qara, səbrim tamam kəsilib,
Kim incidir sevdiyini bir belə?

Əcəb məndən gizlədirsən özünü,
Soraq üçün heç ünvan da qoymursan.
Dönük bilib döndərirsən üzünü,
Məni bu cür öldürməkdən doymursan.

Bir şəhərdə yaşayırıq, axı, biz,
Yəqin, hərdən çarpazlaşır izimiz.
Bəlkə elə təsadüfən görüşdük,
Ovsunlandıq, qucaqlaşdıq, öpüşdük.

Nə zamansa doğma idik, axı, biz,
Çoxmu çəkər bu küskünlük, bu dözüm?
Günahkarı həm mənəm, həm ikimiz,
Belə olmaz, belə olmaz, əzizim.

*11.11.2003*

## GİZLİ – GİZLİ

Gizli-gizli duyğulandıq,
Gizli-gizli sevişdik.
Gizli-gizli pıçıldaşdıq,
Gizli-gizli görüşdük.

Gizli-gizli məktublaşdıq,
Telefonlaşdıq, danışdıq.
Milyon-milyon sevənlərin
Ümmanına qarışdıq.

Gizli-gizli məhrəmləşdik,
Qucaqlaşdıq, öpüşdük.
Gizli necə hissimizi

Sirr saxladıq, ötüşdük.

Ah, nə gözəl günlər imiş,
Görmüşük bir zamanlar.
Yuxu kimi, xəyal kimi
Yada düşür o anlar.

İndi daha üzür məni
Gizli-gizli xatirən.
Sən hardasan, ürəyindən
Nələr keçir, bilmirəm?

*14.11.2003*

## ƏTRAF DOLU GÖZƏLLƏRLƏ

Dövrəmizdə, gör nə qədər
Gözəl qızlar, gəlinlər var.
Dərdlərindən gizli – aşkar
Üzülənlər, ölənlər var.

Ürəklərə od salıbdır
Şux duruşlu o alyanaq.
Gülüşüylə canlar alır
Bu gülərüz, püstə dodaq.

O xurmayı saçlı xanım
Necə baxır xumar-xumar.
Könlünə yol tapmaq üçün
Düş dalınca, yalvar, yaxar.

Nə yeyir, nə içir, görən
Bu incə bel, sivri sinə.
Əcəb füsunkar yaradıb,
Şükür olsun Tanrısına.

Mavi gözlü o nazlının
Baxışında Xəzər yatar.
Bu qızların səf düzümü
Xəyallarda qatarlanar.

Ətraf dolu gözəllərlə,
Şəhər dolu gözəllərlə,
Küçə, meydan həm axşam, həm
Səhər dolu gözəllərlə.

Allah, Allah göz dəyməsin
Bu qızların camalına.
Kaş onların hər birindən
Ürək dolu kam alına!

*Aprel, 2004*

## BU QƏDƏR ÖYRƏTMƏ ÖZÜNə MƏNi

Bu alın yazısı, yoxsa təsadüf,
Çıxdın qabağıma yanar şam kimi.
Şirin təbəssümlə, süzgün baxışla
Girdin ürəyimə ən doğmam kimi.

Yaman alışdırdın özünə məni,
Qayğılı səsinə, sözünə məni.
Allahım, bu nədir, hörmət ya diqqət,
Beləmi yaranır mehr – məhəbbət?

Ötəri hissdirsə, qayıt bu yoldan,
Qoyma əyilməyə önündə məni.
Çaşıb şən anınçün, xoş ovqatınçün
Sındırma bir adi günündə məni.

Sən mənim duyğumda bir müqəddəslik,
Sən mənim qəlbimdə sədaqət rəmzi.
Bəlkə bir pərdəyə köklənmiş səsik,
Bəlkə qovuşdurur Yaradan bizi?

Bəzən az qalır ki, söyləyim – «getmə»,
Güzgü tək qəlbinə, gözünə məni.
Sən Allah, bu qədər doğmalıq etmə,
Sən Allah, öyrətmə özünə məni.

Ruhən izləyirəm səni hər zaman,
Hərdən yanımdasan, hərdən uzaqsan.
İndi öz-özümdən xofluyam, inan,
Qorxuram qəlbimi ovlayacaqsan.

Ovsunsan, sehrsən, şirin röyamsan,
Yox, əsl adını deyə bilmirəm.
Bu yaz gəlişinlə ayrı dünyamsan
Sənli günlərimdən doya bilmirəm.

Bu qədər bağlılıq, bu qədər istək,
Heç bilə bilmirəm hardan yarandı.
Bir uzaq işıq ol, aytək, ulduztək,
Yandırma istinlə məni, amandı.

Könlümdə xatirin həmişə əziz,
Sənə sayğım sonsuz, hisslərim təmiz.
Nə olar, bir qədər soyuq ol, yad ol,
Məndən uzaqlarda rahat ol, şad ol.

Onsuz da bir qəmli ney kimiyəm mən,
Dünyanın kədəri yaşar səsimdə.
Yanğım içimdədir, mey kimiyəm mən,
Hərdən ürəyimi duysan bəsimdi.

Öyrətmə bu qədər özünə məni,
Mehriban səsinə, sözünə məni.
Səni itirəcək andan qorxuram,
Bir də… ayrılıq var, ondan qorxuram!

*Noyabr, 1999*

## ÜZÜNDƏ AY İŞIĞI VAR

Üzündə ay işığı var,
Dilində bülbül nəğməsi.
Bu gözəlin ədasına
Allah, Allah göz dəyməsin.

Nə füsunkar qönçədi bu?
Min çiçəkdən incədi bu,
Hər istəkdən öncədi bu,
Qapısını qəm döyməsin.

Qoy nurundan əfsunlanım,
Qoy səsindən ovsunlanım.
Yansın bağrım, çıxsın canım,
Odundan qəlbim göynəsin.

Xiffətindən vərəm olum,
Yolunda can verən olum,
Bu Əsliyə Kərəm olum,
El məndən dastan söyləsin.

Baxıb məst olanda hərdən,
Ayağım üzülür yerdən.

Bir gözəl naz satan yerdə,
Bir aciz oğlan neyləsin?

*Yanvar, 2004*



## QAYITMIR

Bilməm nə olub yar daha  bu yana qayıtmır,
Görmürmü yanan şəmini, pərvanə qayıtmır?

Könlüm alışır, yox daha cismimdə qərarım,
Can söylədiyim od vurub bu cana, qayıtmır.

Dəmlər var idi, dəmbədəm dövrəmdə gəzərdi,
Dərdimdən ölən o dəli-divanə qayıtmır.

Hanı saçımı oxşayan o şanəli əllər,
Neyçün daha bəs zülfü-pərişanə qayıtmır?

Allah, nə xəta eyləmişəm, xətrinə dəymiş,
Qurban olaram yüz yol o mehmana, qayıtmır?

Ömrüm keçir göz yaşı ilə, səksəkələrdə,
Dönmüş gəlişi arzuya, gümana, qayıtmır.

Mən naçarın, aləm bilir, nuşdarusu onda,
Etməzmi əsər, ölsəm, o loğmana, qayıtmır?

Fəxrəddin, şükür, Leyli-misal qızlar var hələ,
Olmuş bu könül sidq ilə viranə, qayıtmır.

*06.07.2003*

## SEVGİSİN CAR EYLƏMƏZ...

Sevgisin car eyləməz haqq aşiq ad-san eşqinə,
Canını qurban dilər, aləmdən pünhan eşqinə.

Ötəri hiss eşq deyil, istək təlatümündən gələr,
Ümmanlar alt-üst olur, bir dəli tufan eşqinə.

Məhəbbət dünyasının Şirini çox, Leylası çox,
Hələ çox Bisütunlar əriyər canan eşqinə.

İstək bir öylə məstlik ki, yoxdur qeyri-bənzəri,
VerməRəm bir ləhzəsin Təxti-Süleyman eşiqinə.

Bir ruhe-sərgəşdəyəm yolunda səcdəgahımın,
Bir qulam, ta qəbrəcən, könlümdə Sultan eşqimə.

O mənim həm and yerimdir, o mənim həm qibləgahım,
Məsləki-abid olan can verər Quran eşqinə.

Puç olub arzu-xəyalım, xəzandı fəsli-baharım,
Necə qan ağlamayım bağçası viran eşqimə.

Hissinə hakim odursa, Fəxrəddin, Xaliq odur,
Üz tutub Xaliqinə, sən də get qurban eşqinə.

*1993*

## TOYA GƏL

Məclislər məclisidir, ey gözəl insan, toya gəl.
Yığılar ətrafına, gör neçə mehman, toya gəl.

Ənbiyalar özü bu xoş günə həsədlə baxıb,
Evlənib Bilqeyislə burda Süleyman, toya gəl.

Neçə istəkli cavana gizli görüş yeridir,
Çata muradına hər sevgisi pünhan, toya gəl.

Aşiqin fəryadını çaldıqca tar ilə kaman,
Oxusun segahı yanğıyla qəzəlxan, toya gəl.

Bu gözəl şənliyə, qoy biz də mübarək deyəyin,
Təzə bəylə gəlinə söyləyək şükran, toya gəl.

Fəxrəddin, hər qəzəlin öz ruhu, öz rövnəqi var,
Oxunanda bu qəzəl, sevinsin dünyan, toya gəl.

*18.04.1998*

## TƏZƏLƏNDİ

Yaz gəldi, yenə qar əridi, dağ təzələndi.
Bülbül oxudu, gül açıldı, bağ təzələndi.

Hər laləzarın içində bir nazlı sənəm var,
Cənnət bağının bağbanı vallah, təzələndi.

Cismim burada şəhadətdə, ruhum uzaqda,
Göz yaşıma bax, gah qurudu, gah təzələndi.

Öz eşqim üçün öldüyüm günlər yada düşdü,
İllərlə qubar eylədiyim «ah» təzələndi.

Məcnun kimi mən də yaşadım yar xəyalıyla,
Min qəm gətirən yanğılı segah təzələndi.

Bu macəra Fəxrəddini, hey zillətə saldı,

İlk sevgisinin xatiri hərgah, təzələndi.

*07.05.1998*

## BİLMİR

Nə çəkdiyimi, yəqin o dildar, hələ bilmir,
Salmış məni çoxdandır ki, dildən-dilə, bilmir.

Hərdən qaşının ayparasın açsa, nə yaxşı,
Hər gün çıxıram ovuna min fənd ilə, bilmir.

Həm istəyim, həm taleyim, həm varlığım onda,
Bülbül vurulub ahü-fəğanla gülə, bilmir.

Ağ pərdə gəlib gözlərimə ağlamağımdan,
Göz yaşımı, kaş Loğman əliylə silə, bilmir.

Sevmək o yarı, sevgi yolunda şəhadətmiş,
Öldürməyə candır o sənəm, heyf, ölə bilmir.

Dildarına qurban gedən Fərhad özüməm mən,
O sevgili canan, əfsus, Şirin ola bilmir.

Fəxrəddin, bu sevda səni haldan-hala salmış,
Sevsən də yüz yol, bir kərə qəlbin dola bilmir.

*07.06.1998*

## NƏ YAXŞI

Qoymaz məhəl heç vaxt, o xumar, yada, nə yaxşı,
Verməz canımı xiffət ilə bada, nə yaxşı.

Al qönçə dodaqlar açılıb bal şirəsiylə,
Ağzım gələ, kaş bircə dəfə dada, nə yaxşı.

Şükr eyləyirəm Tanrıma ki, əhd eyləmişdim,
Gəlsin mənə o yara dəyən qada, nə yaxşı.

Fəxr eyləyirəm canana pərvanəliyimdən,
Atsın məni, qoy şəm dediyi oda, nə yaxşı.

Hər baxmaq ilə surətinə, qan qoyar gözüm,
Geymiş yenə də zər-xarasın sadə, nə yaxşı.

Min qurbanla gəlmiş neçə huri qanadında,
İsmətlə doğa, ta mənə bir zadə, nə yaxşı.

Yar gəldi, yenə Fəxrəddin, cənnət unuduldu,
Bir dünya verə sən ürəyi şada, nə yaxşı.

*08.06.1998*

## CANIMI GÜNDƏ YÜZ YOL...

Canımı gündə yüz yol yara qurban etmək peşəm,
Bülbülü-zarəm, daim o gülşəndə ötmək peşəm.

Ondan ayrı yoxdur bir qeyri-ziyarətgah mənə,
Pirimin səcdəsinə gəlmək peşəm, getmək peşəm.

Qalmamış bədəndə canım, cismimdir rüsvayi-eşq,
Odur ki, əşya kimi yollarında bitmək peşəm.

Çarmıxa çəkilsəm də ruhum çatar yarə, nə qəm,
Çünki İsaye-Məsihtək qeyb olub itmək peşəm.

Fəxrəddin, hər aşiqin öz məqsədi, məramı var,
Dildarı vəsf eyləyib, vüsalına yetmək peşəm.

*01.10.1998*

## NEYNİM

Min razıma o sevgili yar gəlmədi, neynim?
Ağlar gözümün yaşını bir silmədi, neynim?

Mən Tanrıdan dildara qovuşmaq diləmişdim,
Bəxtim üzümə bircə dəfə gülmədi, neynim?

Hər nazına yüz yol canımı qurban edirdim,
Min qurbanımın qiymətini bilmədi, neynim?

Pünhan eylədim dərdimi ki, el gülər mənə,
Qəlbim nə qədər qüssə çəkib, qəm yedi, neynim?

Daim yolunu gözləmişəm intizar ilə,
Bir şirin yalanmış gözəlin hər vədi, neynim?

Duymaz, Fəxrəddin, sevməyənlər yar fərağını,
Bu aşiqi-naçar xiffətdən ölmədi, neynim?

*18.10.1998*

## YAR GƏLƏ MEHMANIM OLA...

Gözlərəm həsrət ilə, yar gələ, mehmanım ola.
Yatmaram sübhə qədər, ta yuxu dərmanım ola.

Ona qurban edərəm hər günümü, hər ayımı,
Baxmaram hansı məqamım, necə ad-sanım ola.

Sinəm üstündə məkanı, gözüm üstündə yeri,
O mənim ahu baxışlı, ürkək ceyranım ola.

İzlərəm kölgə kimi, şövq ilə hər addımını,
Mən onun cangüdəni, o mənim Sultanım ola.

Dünyanın nə şöhrəti, nə nemətində yox gözüm,
Təki şan ləblərinin şirəsi ehsanım ola.

Fəxrəddin, ayrı məqam istəmərəm Allahımdan,
Dildarın dövrəsində qurduğum dövranım ola.

*23.10.1998*

## GƏL

Yenə də könlüm evi qaranlıq zindan oldu, gəl,
Hardasan, ay sevgilim, halım pərişan oldu, gəl?

Aşiqə qəlb məlhəmi mütləq məşuqədən gərək,
Ay mənim can mərhəmim, can evim viran oldu, gəl.

Kim doymuş yar vəslindən bir gün ilə, bir ay ilə?
Yetməmiş vüsalına, qismətim hicran oldu, gəl.

Qıyma təkrar olmağa Əsli-Kərəm dastanını,
Kim bilir, Qara Keşiş bəlkə peşman oldu, gəl?

Dilim qabar, göz yaşım seylab oldu yalvarmaqdan,
Tutuldu titrək nitqim, bağrım başı qan oldu, gəl.

İndi bildim, nə çətinmiş yara dərd ərz eyləmək,
Müxtəsər, Fəxrəddinin ürəyi şan-şan oldu, gəl.

*25.10.1998*

## ŞƏHRİYARIN SEVGİSİ

Hər könül mülkün bəzər bir ixtiyarın sevgisi,
Hər duyan qəlbdə yaşar bir nazlı yarın sevgisi.

Fırlanır pərvanətək hər pöhrəsinin başına,
Bağbanı cəfakeş eylər bağda barın sevgisi.

Dağ çayı vəcdə gəlib atmaz özün qayalardan,
Olmasa ümmanlara axar suların sevgisi.

Qorxmayıb qışın qarından, gül açar novruz gülü,
Çünki nütvəsində vardır novbaharın sevgisi.

Yaratmaq arzusu çağlar hər sənətkar qəlbində,
Füzulilərdən qalıbdır yoxdan varın sevgisi.

Bu günkü şerimizdə, Fəxrəddin, örnək çox, fəqət,
İstəkdən yüksəkdə durmuş Şəhriyarın sevgisi.

*04.11.1998*

## KÖNLÜMÜ ALSIN

Qəlbim sıxılır, gəlsin o yar, könlümü alsın,
Etsin mənə naz nazlı nigar, könlümü alsın.

Mən möhnət əsiri, o mələk ruhuma məlhəm,
Hər dərdimə min dərmanı var, könlümü alsın.

Onsuz da dönük taleliyəm, gözüm qan ağlar,
El içrə məni etməsin xar, könlümü alsın.

Bağbansız qalan bağlarım vaxtsız xəzan oldu,
Ötsün bu payız, gəlsin bahar, könlümü alsın.

Öz duyğumu dərk etdiyim andan havalandım,
Sərməstliyimi bilməsin ar, könlümü alsın.

Çox müşkülə əncam çəkilib musiqi ilə,
Ərzi-halıma köklənsin tar, könlümü alsın.

Söz əhli bilir, hər muğamın öz ustadı var,
Sabir oxusun «Bəstənigar», könlümü alsın.

Fəxrəddin, sevgi dərdi, duyan qəlbdə azalmaz,
Yetsin dadıma Pərvərdigar, könlümü alsın.

*16-18.11.1998*

## Əhsən

Ey sözlə xəzinə yaradan, adına əhsən,
Eşq dağına dağlar çəkən Fərhadına əhsən.

Göz görməsə, qəlb duymasa heyrət də yaranmaz,
Dünyaya məhəbbət gətirən qadına əhsən.

Min hikmət ilə min gözəlin dadına çatmış,
«Min bir gecə»nin sirli Şəhrizadına əhsən.

Uğrunda fəda getmədiyin qiymətə minməz,
Hər qönçə üçün bülbülün fəryadına əhsən.

Nakəslərə yüz yaxşılıq et, faydası olmaz,
Əxlaqı müqəddəs olanın zatına əhsən.

Bir məclisimiz olmasın, Fəxrəddin, qəzəlsiz,
Hər sirli sözün, söyləyək ustadına, əhsən.

*28.12.1998*

## İndi

Yox bir munisim, çatsın mənim dadıma indi,
Fələkdən gəlir kimsələr fəryadıma indi.

O kəslər ki, doğma kimi dövrəmdə gəzərdi,
Biganətək rişxənd eyləyir adıma indi.

Sönmüş çırağım, dörd tərəfim zülmətə məhkum,
Yanmaz gəlib pərvanələrim oduma indi.

Yurd yandı, Vətən getdi, könül mülkü dağıldı,
Qan ağlayıram bir belə bərbadıma indi.

Öz qanım ilə az sula dağ-daşımı, zalım,
Həsəd çəkirəm qəmxanə Bağdadıma indi.

Əcdadımın nə çəkdiyini, heyf, gec anladım,
Fəxrəddin, onu, qoy deyim övladıma indi.

*29.12.1998*

## Xumar olan könlüm

Mənə dünyanı tanıtmış, bu ixtiyar olan könlüm,
Səsimi aləmə yaymış, bu bəxtiyar olan könlüm.

Tükənməz istəyi heç vaxt, uçar arzu qanadında,
Min qəlbə qonar köksümdə meydanı dar olan könlüm.

Gəzər gözəllər içində, vəsf eyləyər huriləri,
Ruhu mələklər yanında ey xoş qərar olan könlüm.

Axtarar tarda muradın, sızlar kaman inləyəndə,
Uyar sehrli bir səsdən, daim huşyar olan könlüm.

Duyar ariflər, Fəxrəddin, məni təbim tutulanda,
Bir muğam içrə əsirdir demək, xumar olan könlüm.

*28.02.1999*

## Sehrin yenə məst eylədikCə...

Bənzərsiz səsli xanəndə
Alim Qasımova

Sehrin yenə məst eyləməkdə hər kəsi, Alim,
Tanrı qorusun səndəki şaqraq səsi, Alim.

Söz mülkünün sultanları dinsin avazında,
Səs mülkünün qeybdən gələn şahzadəsi Alim.

Mürşidi özünsən indi ölməz muğamımın,
Cabbarın ruhundan qopan zənguləsi, Alim.

Seyyid səsinçün gəzmiş xərabatları bəlkə,
Olmuş, gör neçə saqinin avarəsi, Alim?[1]

Sən şam kimi yandıqca, səsin sehri açılsın,
Şaman səsinin çoxdur hələ xəstəsi, Alim.

Hürufilik hopub qanına başdan-ayağa,
Hürufilərin ərşə qalxan qüssəsi Alim.

Doğru söz imiş, sevgiyə hökm eyləmək olmaz,
İnsan vurulanda dönürmüş qibləsi, Alim.

Fəxrəddinə səndən nə böyük yadigar olar,

---

[1] Ustad S. Ə. Şirvaninin məşhur:
— Sizi Tanrı, yetirin piri-Xərabətə məni,
Ki, hələ saqi əlindən gileyim var mənim - beytinə işarədir.

Köklənsə səsinlə əgər bir kəlməsi, Alim.

*Mart -1999*

## Ömrümüzün

Öz odunda əriyir yanar şamı ömrümüzün,
İndidir bəlkə, ey dost, xoş əyyamı ömrümüzün.

Hurilər dövrəsində keçsin qəmsiz çağlarımız,
Gözəllər qəlbindədir ehtişamı ömrümüzün.

Dinlə xanəndələri müsiqi məclislərində,
Axsın muğam üstündə hər kəlamı ömrümüzün.

Yatma xabi-qəflətdə, gəzmə bihudə aləmi,
Bilinməz nə vaxt bitər sərəncamı ömrümüzün.

Bizdən sonra xatirə bir söz, bir sənət qalacaq,
Bir də torpaq üstündə qəbir damı ömrümüzün.

Uyma zahidlərə çox, ay Fəxrəddin, qiymətlidir,
Cənnətin min ilindən bir məqamı ömrümüzün.

*04.04.1999*

## Peymanədən ötrü

Saqi, süz içək badəni peymanədən ötrü,
Qoyma ürəyim qəm çəkə meyxanədən ötrü.

Min zövq alıram, can verəndə nurcamallara,
Öldüm yenə bir gözləri məstanədən ötrü.

Fərhad kimi eşq dağını hey başıma çapdım,
Kim ağlayacaq eşq evi viranədən ötrü?

Kəs əllərimi, ver yara ki, vəslinə yetsin,
O zülfü pərişan görüncə şanədan ötrü.

Xoş halına Məcnunun, əcəb bəxtiyar imiş,
Yox Leyli indi, can verə divanədən ötrü.

Fəxrəddin, sevəndə elə sev söyləməsinlər,
Əfsus, xərclədi ömrünü biganədən ötrü.

*06.04.1999*

## Musiqidir

Yenə də ruhumda eyləyən cövlan musiqidir,
Çünki hər məclisi-ürfanda hökmran musiqidir.

Oxu «Rast»ı təmkinlə, «Segah» odunda yan, alış,
İnsanı gah anladan, gah ağladan musiqidir.

Dinlə şövq ilə «Şur»u, «Şahnaz»ı, «Mahur-hindi»ni,
«Heyratı»yla edən könlümü heyran musiqidir.

«Mənsuriyyə» zilində çatsın ahım fələklərə,
«Çahargah» dəstgahı cəm olan dastan musiqidir.

Ağrımaz «Kəsmə şiksətə»ylə kəsilsə əllərim,
Məni o dəmdə bihuş edən dərman musiqidir.

Söz sərrafları qoy inciməsin, söyləsəm hərgah,
Sənətdə bəlkə də ən böyük divan musiqidir.

Fəxrəddin, bəni-adəm yaradan möcüzə çoxdur,
Bu sehrlər içində ən sirri pünhan musiqidir.

*03.05.1999*

## Könlüm yenə qəm çəkmədə...

Könlüm yenə qəm çəkmədə o xoş avaz üçün,
Gözüm yenə yaş tökmədə o sərvi-naz üçün.

Yollar boyunca boylanmaqdan boynum bükülmüş,
Bir boynu bükük bənövşəyəm indi yaz üçün.

Sail saya, kaş hərdən məni sevda sərvərim,
Sevgi sorağıyla gəzəm nəzir-niyaz üçün.

Ruhum ki, ümid carçısıdır istəyi bitməz.
Peşəm daim dua etməkdir bir muraz üçün.

Fəxrəddin, uyma, aşiq olan vəslə yetişməz,
Çünki bir ömür bəs eyləmir imtiyaz üçün.

*24.05.1999*

## Tələsmə

Ey dil, qəlbimi açmaq üçün yada, tələsmə,
Bir adi sözün verər səni bada, tələsmə.

Sirdaş bilib dost-aşnanın vəfasına uyma,

Sanma hamını özün kimi sadə, tələsmə.

Məcnun kimi divanəliyin tənəsi çoxdur,
Bənzət özünü əzmdə Fərhadə, tələsmə.

Bax Yusifə, eyş-işrəti zindana dəyişdi,
İnsana şərəfdir dözüm, iradə, tələsmə.

Kol-kosda ürkək kəkliyi gör, qorxusun anla,
Çünki tez uçan quş ovdu səyyadə, tələsmə.

Səbr eylə ki, səbrin özü Tanrı kəlamıdır,
Təmkinlə yetişmiş çoxu murada, tələsmə.

Fəxrəddin, qəzəlxanlıq bizdən can girov istər,
Şagirdliyə, Vahid kimi ustadə tələsmə.

*25.05.1999*

## Qəzəl ilə

Ey qəzəlxan, oxu, cana, nəfəs alım qəzəl ilə,
Qəlbim sıxılır, düzəldi bəlkə halım qəzəl ilə.

Sən yanğıyla gəzişdikcə bəm ilə zil arasında,
Düşsün səsinin sehrinə, qoy xəyalım qəzəl ilə.

Bir ovsunlu məkandır ki, onun hər guşəsi nəşə,
Yəqin fərq eyləməz, enim, ya ucalım qəzəl ilə.

Avazla aç mənasını məclisə türkün şerinin,
Qalxsın sözün Meracına, kaş kamalım qəzəl ilə.

Cabbarların, Seyyidlərin diləyək ruhuna rəhmət,
Əhli-sənət olmuşları yada salım qəzəl ilə.

Gündə yüz yol dinləsəm də, Fəxrəddin, doymaram, əsla,
Köçəndə dünyadan, nola, ruhən qalım qəzəl ilə.

*27 iyun - 2000*

## Ola bilməz

Qəzəl oxunan məclisdə könül naşad ola bilməz,
Əhli-sənət olanlara musiqi yad ola bilməz.

Uymuşlara həsədlə bax məclisi-ürfanlar içrə,
Səsin sehrindən məstlərə əsla irad ola bilməz.

Çox bisütunlar yarsa da sənətdə söz sərrafları,
Fəqət Şirinin eşqində kimsə Fərhad ola bilməz.

Məcnun kimi, gör nə qədər Kəbəsi viran qalan var,
Eşq xərabəsi, əzizim, əfsus, abad ola bilməz.

Qoru qanınla, canınla soydan miras qalanları,
Övlad nankorluq etməsə, naqis əcdad ola bilməz.

Fəxrəddin, şərqin şerinin əzəl meyarı qəzəldir,
Əruzu bilməyən şair, əlbət, ustad ola bilməz!

*12.07.2000*

## Könlümü

Ey təbibim, təşxis eylə dərdi pünhan könlümü,
Gör hansı mahvəşlər idi, etdi viran könlümü.

Qəlbim eşq avarəsidir, cismim vüsal həsrətli,
Əridib xəmqədd eyləmiş qəmli hicran könlümü.

Görməsə bir gün gözəllik, gözlərim nurdan qalar,
Ovundurmaz heç bir zaman qeyri-dərman könlümü.

Kövrək qəlbim bir şüşədir, sınsa, bitişməz daha,
Sağaltmaz ondan sonra bir əhdü-peyman könlümü.

Əqldən, zəkadan öncə duyğumdur can sirdaşım,
Sehriylə lal eylər hər dəm, tutsa seyran könlümü.

Fəxrəddin, məftunluq imiş dünyanın xoş çağları,
Ömrü heyrətdə keçənlər etmiş heyran könlümü.

*05.07.1999*

## Yetişsin

Yetmədi Tanrım, barı fələk dada yetişsin,
Yansın bu ahu-zarıma, fəryada yetişsin.

Ötdü günümüz dərd ilə, biganələr içrə,
Getdi ömrümüz xiffət ilə bada, yetişsin.

Çapmış başına tişəsini, vay, qan içində,
Şirinə deyin, tez gəlib Fərhada yetişsin.

Söhrablar doğan hürilərdən kama yetmədik,

Nola, arabir səsim Şəhrizada yetişsin.

Dəvət gözləməz dost-doğmalar vəxti-vidada,
Gəlsin, qoy hamı, can evi bərbada yetişsin.

İnsaf yoxdursa, zərrə qədər, əhli-zülümdə,
Edam günün növbəsi cəllada yetişsin.

Fəxrəddin, həzər, gördüyümüz minüzlülərdən,
Bizdən sonra, kaş nəslimiz saf, sadə yetişsin.

*15.10.1999*

## Qəzəlxan olmuşam

O gülü-rüxsarımın hüsnünə heyran olmuşam,
Yanmışam gizli-gizli, zahirdə pünhan olmuşam.

Əsiri-dərdi-qəməm, yoxdur bir qeyri-həmdəmim,
Bu ahu – zarım ilə bülbülü-nalan olmuşam.

Xəyali-məşuq ilə düşüb sərgərdan, çöllərə,
Eşqdə divanəlikçün Məcnuna mehman olmuşam.

Çəkdi Yusif yüz cəfa, yetdi Züleyxaya, fəqət,
Mən bu nakam sevgimlə dillərdə dastan olmuşam.

Qıymadı Tanrım mənə yar ilə həmraz olmağı,
O şamın şöləsində həmişə şükran olmuşam.

Vəslinə yetməsəm də, Fəxrəddin, təsəllim budur,
O şuxu vəsf etmək üçün, şükür, qəzəlxan olmuşam!

*19.10.1999*

## Gəlmədi

Əfsus, ötüşdü gəncliyim, yar-mehriban gəlmədi,
Gələn yollarına gündə oldum qurban, gəlmədi.

Heç vüsala yetməmişdim, fələk məndən kam aldı,
Göz yaşlarım seylab oldu, səsim nalan, gəlmədi.

Mənə min cür nida gəldi eşqimin Meracından,
Fəqət cismimə ruh verən o gizli can gəlmədi.

Yuxum ərşə çəkilərək sirrimi faş eylədi,
Mələklərim yerə endi, o laməkan gəlmədi.

Göndərsə də qasidlərin Rüstəm nuşdaru üçün
Əfsus, o dəm ki, Söhrabı apardı qan, gəlmədi.

Fəxrəddin, ağ atlı oğlan əfsanəymiş, nağılmış
Ömür çatdı qürubuna, Sahib-zaman gəlmədi.

*08.11.1999*

## Gəlməz

Neyçün o qəlbə sultanım bircə yol peymanə gəlməz,
Edib məni sevdasında rüsvayi-divanə, gəlməz?

Qalmışam naçar, pəcmürdə, görərəmmi yarı bir də,
Ürəyim dözmür bu dərdə, can evim viranə, gəlməz?

Odur hissimin hakimi, odur ruhumun həkimi,
Yandım yolunda şam kimi, görməz o pərvanə, gəlməz.

Şirindir hər bir ədası, daim beynimdə sədası,
Barı bircə yol qadası, dərd-bəlası cana gəlməz.

Gözüm ağlar, qəlbim talan, yoxdur bir halıma yanan,
Hanı bəs bu canı alan, gəlmişəm əfqanə, gəlməz?

Fəxrəddin, dad eşq əlindən, ayrı düşdüm sevgilimdən,
O gözəllər gözəlindən bir də bu cahanə gəlməz!

*17.10.1999*

**Bu geCə**

Qalxdı əflakə yenə yüz ahu-zarım bu gecə,
Köçür şahım, sərvərim, sınmış vüqarım bu gecə.

Sönür ümid çırağım, yandıqca biçarə könlüm,
Qopmuş qəlbimdə tufan, yoxdu qərarım bu gecə.

Əkdiyim çiçəklərin vağam olmuş ləçəkləri,
Viran qalmış gülşənim, solmuş baharım bu gecə.

İndi naləmdən hər yan töksə də, göz yaşı, fəqət,
Sözümü saya salmır o ixtiyarım, bu gecə.

Bu həzin avazımı bir kimsə nöqsan sanmasın,
Fəxrəddin, ayrılığa köklənmiş tarım bu gecə.

*11.12.1999*

**Yoxdu, yox**

Əsiri-dərd  olandan səbrü-qərarım yoxdu, yox,
Qəm əlindən bezaram, bir qəmküsarım yoxdu, yox.

Yüz yol qurban getdiyim bir yol mürüvvət eyləməz,
Daha bəni-adəmə heç etibarım yoxdu, yox.

Bir zərif bənövşəyəm, ətrim bəlaymış başıma,
Neyləyim mən bəxti kəm, üstümdə xarım yoxdu, yox.

Şerə könül verəndən ruhu laməkan olmuşam,
Kimsəyə can verməyə heç ixtiyarım yoxdu, yox.

Meylini var-dövlətə, Fəxrəddin, zahidlər salar,
Dünyada sözdən qeyri qiymətli  varım yoxdu, yox.

*16.12.1999*

**Mərhəba**

Məclisə nur gətirən bu hüsnü – cəmala mərhəba,
Bizi feyziyab edən bu sahib – kamala, mərhəba.

Gözləyir intizarla əhli - ziyafət gəlişini,
Bəzənib min zövq ilə, hər biri bir lalə, mərhəba.

Bəyin baxışlarında vardır bir qartal ötkəmliyi,
Gəlinin, göz dəyməsin, gözləri piyalə, mərhəba.

Valideynlər, doğmalar basdıqca bağrına onları,
Baxır min şövq ilə, el bu xəttü-xalə, mərhəba.

Fəxrəddin, nə xoş gündür, cuşa gəlir qəlb fərəhindən,
Yetsin bütün cavanlar, toy ilə vüsala, mərhəba.

*20.12.1999*

## Görək

Göstər ey gül, üzünü, o gülü-rüxsarı görək,
Baxaq Firdovs bağına, biz də bir nübarı görək.

Varmı bir eşq əhli ki, vəslinçün can əsirgəyə?
Qeysi Məcnun eyləyən Leyli ixtiayarı görək.

Zaman-zaman vəsfinə kim etmədi ömrü fəda?
Bülbülü al qan edən güldəki o xarı görək.

Fizuli, Seyyid, Vahid qoydular bir məktəb bizə,
Bu sənət məbədində indiki memarı görək.

Yazdı göz yaşı ilə hər beytini, qəlbdə ümid,
Heyf, qismət olmadı bir yol Şəhriyarı görək.

Şer, sənət mülkünün bu günkü ustadı odur,
Fəxrəddin, səcdə ilə gedək, Bəxtiyarı görək.

*23.01.2000*

## Qibləgahım mənim

Yandırır dörd yanımı ərşə qalxan ahım mənim,
Son səfər üstündədir o sərvərim, şahım mənim.

Ürək kam ümidində, tale tamam üz döndərmiş,
Bilmədim, ey bəxt yazan, nədir bəs günahım mənim?

Varsa hər zülmün sonu, hər gecənin bir gündüzü,
Niyə bəs keçməz gecəm, açılmaz sabahım mənim?

Köklənsin qəm üstündə, qoy yenə tar ilə kaman,
Ruhuma ağı desin «Mahur»um, «Segah»ım mənim.

Onu müqəddəs sanıb, «həmd» söyləsəm dərgahına,
Yəqin bu kafərini əfv edər Allahım mənim.

Fəxrəddin, aləm bilir, ibadət imandan gələr,
Yoxdur o bütdən başqa qeyri-qibləgahım mənim!

*28.01.2001*

## Qəm yemə

Ey könül, eşq dağını dərdə dərman bil, qəm yemə,
Sən bu məhzun sirrini öz-özünlə böl, qəm yemə.

Əlbət, aşiqlik bəladır tərki-dünyalıq qədər,
Dəxi ondan umma nəf göz yaşını sil, qəm yemə.

Eşqdə divanəlikdən bir kimsə vəslə yetməmiş,
Xəyali - məşuq ilə sərməst olub öl, qəm yemə.

Aşiqə rüsvalıqdır dillərdə dastan omağı,
Ki, bu rüsvalıq üçün tənə qılsa el, qəm yemə.

Neçə Əsli Kərəmlər boğmuş qəlbində hissini,
Sevgini faş eyləyən bir bəladır dil, qəm yemə.

Fəxrəddin, müştaq olan gizli alışsa,çox əcəb,
Bu cür ömrün üstünə gəlsə də yüz il, qəm yemə.

*08.05.2000*

## Olmasa

Heyrət etməz bir ürək, göz görüb heyran olmasa,
Sevgi qəlbdə bütləşməz, sevməyə canan olmasa.

Ən zərif məxluqun da öz daxili dünyası var,
Ömrün mənası itər, sürməyə dövran olmasa.

Kökdən ayrılmış gülün büllur güldanda nəfi yox,
Ləçəyi vağam olar, canında bir can olmasa.

Bəni-adəmdir, fəqət, duyğudan dad dada bilən,
Nəyə lazım bu aləm, seyrinə insan olmasa?

Xəyali-məşuq ilə uçmaz fəzayi-eşqdə,
Aşiqin rüsvalığı dilində şükran olmasa.

Alışmazdı Əslinin hicrindən Kərəm odlara,
Yaranmazdı dastanı, ortada hicran olmasa.

Fəxrəddin, qəm yemə ki, halın pərişandır yenə,
Yaza bilməz bir qəzəl, şair pərişan olmasa.

*16.02.2000*

## İstəmə

Könül, dövran sürməyə kimsədən imkan istəmə,

Öz azad ruhunla uç, qal sirri pünhan, istəmə.

Ayrı bir xisləti var, çünki xilqəti-adəmin,
Nə ondan bir zərrə um, nə ol bədgüman, istəmə.

Keçdi həyatı çətin Firdovsinin, Füzulinin,
Düşmə taxt-tac eşqinə, sərvəti-sultan istəmə.

Söz məqamından baxıb seyr et Nəsimi mülkünü,
Cismani şöhrət üçün şerdən ad-san istəmə.

Zahirən möminlərin tacirdir zatən əksəri,
Arif ol, hər həcc deyən zahiddən iman istəmə.

Fələyin şakəridir Loğmanı xəcil eyləmək,
Fəxrəddin, gəlsə haçan, əcəldən aman istəmə.

*08.09.2000*

## Yalvarım

And içib əhd eyləmişəm, ömrüm boyu yara yalvarım,
Çəksin məni min naz ilə, qoy dəmbədəm dara, yalvarım.

Fəqət iltimasdan özgə, olmaz ondan ayrı təmənnam,
Öpüb əlindən ahəstə, baxım o dildara, yalvarım.

Könlüm dilər gecə-gündüz seyr edə hüsnü-camalını,
Əhli-haldır, rəhmi gəldi bəlkə mən naçara, yalvarım.

Mən dərdi pünhan mərizin yox qeyri həkimi-mütləqi,
Ya alsın heysiz canımı, ya eyləsin çarə, yalvarım.

Bir şirinin xatirinə yüz acını dadan nə xoşbəxt,
Yarla keçən hər an üçün, razıyam, əğyara yalvarım.

Qorunmayan gözəlliyin, əlbət, olmaz qədri-qiyməti,
O qönçənin xatirinə, xoşdur, yüz yol xara yalvarım.

Fəxrəddin, mən divanəyəm, o dilbər ruhumun Sultanı,
Odur imkansız fəqirtək, gərək iqtidara yalvarım.

*07.08.2000*

## Yar sorağı yalan olmaz

Mənim kimi gündə yüz yol gözü yaşla dolan olmaz,
Gəz könlümün xərabəsin, bundan böyük viran olmaz.

Bu dönüklər dünyasında dərdi dağa dönən yazıq,
Dövran dərdə biganəsə, bir misqalın alan olmaz.

Qan ağlama, ey gözlərim, hansı aşiq kama yetib,
Bax yazılan dastanlara, rüsvayi – eşq sultan olmaz?

Ey qəzəlxan, oxu, cana, bir məhəbbət əfsanəsi,
Söz mülkünün xəzinəsi söz deməklə talan olmaz.

Seyr et hərdən, ay Fəxrəddin, gözəllərin oylağını,
Bəlkə yardan bir xəbər var, yar sorağı yalan olmaz.

*25.06.2001*

## Yetsin

Ya Rəbb, nola səsim bircə yol o gülzarıma yetsin,
Donmuş nəfəsim açılsın, ümid baharıma yetsin.

Dünyam fani imiş, ömrüm keçir xəyali-yar ilə,
Uçub qeybdən gəlsin Simurğ quşum, ah-zarıma yetsin.

Mən burda göz yaşı içində naçar, dilbərim orda,
Barı dualarımın təsiri dildarıma yetsin.

Bu nə sitəmdir, ulu Tanrı, verirsən sevənlərə,
Ərzin nizamı pozulmaz ki, əlim yarıma yetsin.

Fəxrəddin, ölsəm, məni o şuxun yolunda basdırın,
Bəlkə baxışının nuru hərdən məzarıma yetsin.

*13.08.2001*

## Muğam oxu

Gəl, ey xoş avaz, məclisi şad et, muğam oxu,
Söz əhli olan yerdə bir ad et, muğam oxu.

Tanrı dərgahında nə xoş duadı musiqi,
Ruhu burda olanları yad et, muğam oxu.

Sal Məcnunu səhralara, Fərhadı dağlara,
Çək nalə, bəlayi-eşqdən dad et, muğam oxu.

Öldür Leylini şaqraq səsin zəngulәsində,
Fərhad üçün Şirintək fəryad et, muğam oxu.

Hər hıçqırtından qan-yaşlı bir nəşə boylansın,
Könülləri yandırıb abad et, muğam oxu.

Bir incə sənətdir ki, anlayar onu hər kəs,
Bu sirri-Xudaya etiqad et, muğam oxu.

Fəxrəddintək nə çoxdur musiqi cəfakeşi,
Bu əhli-ürfanlara imdad et, muğam oxu.

*16.08.2001*

## Sarı gəlin

Tutub ahın, gör haçandı aləmi, ay Sarı gəlin,
Cismimin ruhu, yaramın məlhəmi, ay Sarı gəlin.

Nə vaxt səni dinləyirəm, nakam qəlbim qan ağlayır,
Gəlir sınıq ürəyimə yar dəmi, ay Sarı gəlin.

Hansı sellər, sular idi ağuşuna aldı səni,
Qan-qadalı xatirələr həmdəmi, ay Sarı gəlin?

Görmədik bir məşuqə ki, aşiqi rüsva olmasın,
Hardaydı bəs sən Əslinin, Kərəmi, ay Sarı gəlin?

Təsadüfdən, ya məqsədli qəsd eylədin şirin cana,

Üsyan etdin yad oğluna görəmi, ay Sarı gəlin?

Bu dönüklər dünyasında Fəxrəddintək küskün nə çox,
Üzü dönük gördün yarı səndəmi, ay Sarı gəlin?

*22.08.2001*

## Gözlərimi yuman yoxdur

Ya Rəbb, məgər əzabımın əlacıyçün güman yoxdur?
Kimə ki, ərz eyləyirəm deyir ona dərman yoxdur.

Ruhum eşqiq fəzasında sərgərdandır, aramı yox,
Deməmişkən, bu fəzada heç əzəldən məkan yoxdur.

Hərdən əğyar tənə ilə məcnun dövrü keçdi, deyir,
Sevməyənlər hardan bilsin sevgi üçün zaman yoxdur?

Üzü dönsün ayrılığın bu cür sitəm verən yerdə,
Nə zərrəcə rəhmi varmış, nə gözündə aman yoxdur.

Heç bilmədim illər haçan ötdü, ömür xəzan oldu,
Zaman adlı o zalımda insaf yoxdur, iman yoxdur.

Nə həyatdan bir kam aldım, nə ətrafım duydu məni,
Ay Fəxrəddin, can üstəyəm, gözlərimi yuman yoxdur!

*27.12.2001*

## Yar qadası yara gəlir

Tale məndən üz döndərmiş, günüm-gündən qara gəlir,
Tükənmiş səbrim, vücudum dərd əlindən zara gəlir.

Cəfa daim canımdadır, bir dəm aramım yox, fəqət,
Söhraba nuşdarı kimi mənim üçün çarə gəlir.

Nə ağlatmaqdan doydurar, nə ağrıtmaqdan bezdirər,
Gündə yüz yol ürəyimi edir para-para gəlir.

İntəhasız sutək daşar, görünməz, əvvəli, sonu,
Heç bilmirəm hardan gəlir, heç bilmirəm hara gəlir.

Mən hissimin əsiriyəm, dərd ruhumun şahzadəsi,
Bir ovçunun ovu kimi çəkir məni dara, gəlir.

Xəyali-vüsalə düşdüm, qismətim iztirab oldu,
Fəxrəddin, bu həqiqətdir, yar qadası yara gəlir.

*Aprel - 2002*

## Eyləməz

Əsil aşiq eşqini qəlbində bir dərd eyləməz,
Bivəfadır o kəs ki, fəryad edər, mərd eyləməz.

Vəslinə yetmək üçün dəmbədəm can qurban dilər,
Yansa hicran oduna gündə yüz yol, fərq eyləməz.

Fəzayi-eşqi görənlər tərki-dünyadır, fəqət,
Binəsib pərvanələr heç birini görk eyləməz.

Qaldı qovğalar içində Məcnun, Fərhad və Kərəm,
Min şükür, aşiqləri eşq ümmanı qərq eyləməz.

Ən böyük ziyarətgah, ya Rəbbim yar otağıdır,
Ora qədəm basmağa hansı kafər ərk eyləməz?

Fəxrəddin, məsləhətin divanəyə faydası yox,
Bəlayi-eşqə düşən nəsihəti dərk eyləməz.

*Noyabr, 2002*

## GÖZƏLLƏRİN

Qoydum yolunda ömrümü ahu gözlərin,
Əsir edib məni yenə şahı gözəllərin.

Yüz yol yüzünə can verməkdən nəşələnmişəm,
Düşdüm niyə bəlasına, Yahu, gözəllərin?

Min huri ilə vəsl etməkdən gözlərim doymaz,
Odur ki, tutubdur məni ahı gözəllərin.

Zaman – zaman ustadlarımı heyrətə salmış,
Bitməz, nə yaxşı, sehri ilahi gözəllərin.

Adəm də bir ay üzlü üçün cənnəti vermiş,
Gəlsin boynuma cümlə günahı gözəllərin.

Zahid məni müşrik sanar vurğunluğum üçün,
Qurban boyuna boyu sürahi gözəllərin.

Bu ülvi peşənlə, Fəxrəddin, aləmə car çək,
Bilsinlər sənsən hər dəm pənahı gözəllərin.

*25.05.2004*



# YAŞAMAQ UĞRUNDA MÜBARİZƏ

## YAŞAYA BİLMƏK ƏN BÖYÜK MÜBARİZƏDİR

İndi zəmanəmizin elə bir anomalik dövrü gəlib çatmışdır ki, fiziki və əqli cəhətdən kifayət qədər sağlam insanlar sırf iqtisadi çətinlik üzündən və heç kimə lazım olmamaq həqiqətini duyduqlarından, intihar etməklə ömürlərini yarımçıq kəsmək məcburiyyətində qalırlar. Barı, ruhları şad olsun - söyləyək!

### I

Sakini olandan, bu dünya
nələri öyrətməmiş bizə?
Gah açıb qollarını,
«Gəl-gəl», - deyə sevdirib
özümüzü-özümüzə.
Gah bağlayıb yollarını,
döydürüb başımıza, dizimizə.
Cənnətinmi, cəhənnəminmi qapılarıdır
taybatay açıb-örtdüyü üzümüzə?
Yoxsa, bir aldadıcı röyadır
ara-sıra görünür gözümüzə?
Budurmu yaşamaq uğrunda mübarizə?

### II

Baxıram, kainatın, yazın gəlişiylə,
təbiəti oyatdığına.
Vururam gözəlliyinə, qüdrətinə,
sərtliyinə, əzəmətinə.
Sual dolu baxışlarım dikilir
zərrədən möcüzə yaratdığına,
öldürdüyünə, diriltdiyinə,

yaşatdığına!
Hər ovuc torpaqdan
yaşamaq eşqiylə
minlərlə cücərti qalxır.
Bu zərifliyin mübarizəsində
yüzü ölür, biri qalır.
Anbaan, günbəgün böyüyür.
Pöhrələnib ya ot-ələf olur,
ya kol-kos, ya da ağac.
Hamısının da ürəyində yeyilmək,
        məhv olmaq xofu.
Ehtiyac içində boğulur çoxu.
Biri  susuzluqdan korluq çəkir,
digəri qida sarıdan ac.
O biri güclülərin
yaşıl çətiri altında ölür,
bir zərrə Günəş işığına möhtac.
Budurmu təbiətin ədalət fərmanı,
budurmu onun verdiyi rəvac?
Çətinə düşənlərə
ölümlə edilir əlac!
Bu minvalla hər pöhrədən
şahə qalxıb palıdlaşır,
küknarlaşır mində biri.
Yüz illərə sinə gərib
yaşayır milyonda biri.
Bu cür yaşayış nəyi öyrədir bizə?
Belə yaşayış uğrunda dəyərmi
çalışmağımıza, vuruşmağımıza,
çarpışmağımıza, ölməyimizə?
Budurmu yaşamaq uğrunda mübarizə?

### III

Əziz dost,
heç baxmısanmı,
alça ağacının yazı qabaqlayan
ağappaq, pambıq kimi pərqu çiçəklərinə?
Ürəyin ağrıyıbmı,
hələ qışın ötüb keçməmiş soyuğundan
tez-tez büzüşüb donan
zərif, gözü yaşlı ləçəklərinə!
Bu zəriflərin zəif duruşuna
tab gətirmir çoxusu.
İzsiz-tozsuz məhv olub gedir,
başında gəlinlik duvağı,
qəlbində bar vermək arzusu.
Bu zavallı çiçəklərin
bir azdan meyvəyə dönəcək
nə az, nə çox, təxminən yarısı.
O meyvələrin də, yetişənəcən
hər birinin bağrını sökəcək
kal tökülmək qorxusu.
Təxminən yarısını izləyəcək
yağışla, boranla, küləklə,
ya da susuzluqla gələn ölüm qoxusu.
Beləcə yenə də uzanar
bu olum, ya ölüm yarışı.
Yenə də tökülər yarısı.
Hələ bu harası,
qabaqda, yetişən meyvənin
növbəti yazacan qorunmaq davası.
Toxumu-içində istəkli balası.
Tərk etmir bircə an, o meyvə ağlını
nəslini qoruyub saxlamaq havası,
əsrdən-əsrə ötürmək bəlası.

Dözümlü, mətin, əzabkeş olmağımı
öyrədir bu həyat bizə?
Budurmu yaşamaq uğrunda mübarizə?

## VI

Qəribə bir ömür yaşayır arılar,
Yarısı, gəzərək çiçəkli çölləri,
bal yığar,
Yarısı, qapıda onların yükünü alaraq,
yuvada sahmanlar.
Qapıda duranlar boş gələn arını
buraxmaz içəri.
Soruşmaz səbəbin: - əhvalı necədir,
Bəlkə o xəstədir, nasazdır,
ya da ki, əzilib bir yeri?
Fərqi yox, gündüzdür, gecədir,
birdən o yem olar qurd-quşa?
— Yükün yox, düz, geri!
Maraqsız olanlar gələrmi heç xoşa?..
Beləcə kiməsə bal yığar
bu işçi arılar.
Beləcə yaşayır talesiz arılar
ömrünə yazılmış bu kölə günləri.

Hər biri min güldən bal çəkən
bu işlək, əzabkeş arılar
elə ki, qış gələr,
ətrafda gül-çiçək tükənər,
hər yerdən əl-ayaq kəsilər,
ac-susuz qalaraq
dönərlər lazımsız əşyaya!
Müftəxor arılar
onlara güc gələr.
Bu işsiz arılar
anaya yük olar,

yuvaya yük olar.
Odur ki, hökmdar ananın əmriylə,
xidmətçi arılar
baxmazlar ağına, bozuna,
öldürüb onları,
atarlar yuvanın ağzına!

### QƏZƏL

Bu vəhşilərin bəd əməlindən həzər, Allah,
Zəhmət çəkəni zülm, məşəqqət üzər, Allah.

Daim çalışıb bir tikə ruzi tapmayanda,
Can əhli ona verdiyin candan bezər, Allah.

Bir çoxlarında qalmayıb nə xof, nə mərhəmət,
Bu xisləti murdarlara bir et nəzər, Allah.

Xəlq etdiyinin kimsəyə gümanı yoxdusa,
Göndərdiyin hər cövrü-cəfaya dözər, Allah.

Qanun, ədalət, Fəxrəddin, zəiflər üçünmüş,
Güclü həmişə qorxusuz, azad gəzər, Allah.

### V

Ay səni, təbiət!
Nədir bu haqsızlıq,
nədir bu məşəqqət?
Bircə yol dinlə, gör
nə deyir bu hikmət?
Budurmu səndəki
İlahi məhəbbət, əbədi ədalət?
Bəlkə də bununçün, yaranan günündən
xoflandı canlılar, pozuldu cəmiyyət?
Babamız Adəm də gördü ki,

qalmayıb heç kimə etibar,
etmədi heç nəyə etiqad.
İtəndə sabaha inamı,
Həvvaya qaldı bir gümanı.
Unutdu cənnəti, tutdu bu dünyanı.
Hamıdan, hər şeydən çox sevdi Həvvanı.
Bir dünya sevgidən

gözünü xoşhallıq tutanda
    bu canlı mələyin,
İkisi də alışıb yandılar
                    oduna fələyin.
Hamilə qalanda dünyada ilk gəlin
                        ilkin övladına,
Yəqin ki, könlündən keçibdir,
  baxa bir,
     cənnətdə yetişən buğdanın dadına.
Bir sünbül qoparıb verməklə
   dünyada hələ ki, yeganə qadına,
Gör nələr gətirdin Adəmin başına?
Gör nələr yazdırdın peyğəmbər adına?

Bir sünbül buğda üçün
cənnətdən qovulan peyğəmbər
inana bilərmi müqəddəs varlığa?
İnana bilərmi ilahi paklığa,
                    ilahi saflığa?
Ey bizi yaradan Əzəmət,
hanı bəs dediyin səxavət?
Hanı bəs dediyin sədaqət?
Budurmu qadına məhəbbət?
Budurmu kişilik, ləyaqət?
Ey ana təbiət!
əgər icazəsiz
zəmindən bir sünbül
qıymırsansa bizə,

demək sədd çəkirsən verən əlimizə,
xor baxırsan
səxavətimizə, sədaqətimizə,
və hər hansı sərbəstliyimizə.
Demək son qoyursan
nə vaxtsa azad yaşamaq
istəyimizə.
Budurmu qanunlar qanunu,
Budurmu yaşamaq uğrunda mübarizə?

## QƏZƏL

Allah, nə düşündün, bizi baxtsız yaradanda,
Peyğəmbəri tənha, bağı vaxtsız yaradanda?

Yox bir kişi ram olmaya qadın qabağında,
Öz rəhmini bəyan eylə bir qız yaradanda.

Hər insanın bir ulduzu var göydə, deyirlər,
Sən taleyin xoşbəxt yarat, ulduz yaradanda.

Heç bir ilahi qüvvəyə qəlbdə inam qalmaz,
Öz bəndəsini Allahı yalqız yaradanda.

Küfr eylədi Xəyyam ulu dərgahına, Tanrım,
Bir tənəli misrasını haqsız yaradanda*.

Hədyan danışıb, Fəxrəddin, çox həddini aşma,
Xaliq biz əfv eyləyər, yalnız yaradanda.

* Rəvayətə görə Xəyyam öz məşhur rübailərinin birində Allaha küfr söyləyərkən ağzı əyilir. Səhvini anlayan şair ikinci şahanə beytini deyib, Xudavənddən iltimas diləyir. Bu qüdrətli və cəsarətli misralarına görə Tanrı onu dərhal əfv edir.

## VI

Sən demə, həyatda nə ki, var, qanundur.
Zəif üçün gücsüzlük,
güclüyə ixtiyar qanundur.
Dünyanın məhvəri dəyişməz-qanundur.
Fəsillər bir gün tez ötüşməz-qanundur.
Günəşin çıxması, batması qanundur.
Otların qalxması,
çayların axması - qanundur.
Anladıq, çox gözəl,
anladıq hər ali qanunun
qüdrətin, istəyin.
Anladıq cücünün, böcəyin
ot-ələf yeməyin.
Anladıq ağacın ağaca,
heyvanın heyvana,
insanın insana
dayağın, köməyin.
Ancaq ha düşündük,
anlaya bilmədik
qəddarlıq həddinin zirvəsin.
Heç yerdə görmədik,
hər hansı yırtıcı
ovunu tutarkən,
o bədbəxt heyvana
işgəncə verməsin!

## VII

## HİYLƏ

*Təbiətdəki bütün canlılar özünəməxsus qorunma xüsusiyyətlərinə malikdir. Ən sadə, təbii qorunma vasitələri çox uzaq keçmişdən məlumdur. Məsələn, bəzi heyvanların rəngi yaşadığı ərazinin rənginə uyğunlaşmışdır, bəzilərinin rəngi fəsillərin mövsümi rənginə mütənasib olaraq dəyişir.*

*Əksər heyvanlar isə onlara instinklə nəsildən-nəsilə ötürülən konkret hərəkətlərdən, daha hiyləgərləri isə özləri qazandıqları təcrübədən də istifadə edirlər və s. Bunların hamısı bu və ya digər formada, bəlkə də təbiət tərəfindən "düşünülmüş" hiylələrdir.*

Həyat yaranandan
hiylə də yarandı.
Həm tamam səbziyyat,
həm bütün canlılar
hiyləyə qurşandı.
Hiyləgər hörümçək
ovunu tutmaqçün
gələcək nəslinə
tor qurmaq öyrətdi.
Ağıllı böcəklər dəstəni
tələdən qıraqda uçurtdu.
Onlara düşməndən
qorunmaq öyrətdi.
Bu yolla qan ilə, can ilə,
nəsildən-nəsilə yayıldı hiylələr.
hər yerdə, hər zaman ətrafdan seçildi,
hamıdan baş oldu hiyləgər.
Elə ki, düzlükdən, saflıqdan
qalmadı bir əsər-əlamət,
hiyləyə qurşandı
büsbütün təbiət.
Pələngin dəstədən
bir heyvan ayırıb qovması

hiylədir,
Aslanın ov üçün
pusquda durması
hiylədir.
Canavar sürüyə cumanda,
məhv edir bir anda
gör necə qoyunu -
hiylədir.
Ayının ağacda armudçün
min cürə oyunu, - hiylədir.
Harınlar, quldurlar, nakəslər
hər yerdə, hər zaman
hiylə ilə başını girlədir,
hiylə ilə qarnını piylədir.
Elə ki, anladıq,
dörd tərəf hiylədir,
barışıb bu haqsız, rəftarla
söylədik:
Həyatın qanunu belədir,
ədalət hiylədir,
xəyanət hiylədir.
Rəqabət hiylədir,
siyasət hiylədir.
Sədaqət hiylədir,
itaət hiylədir.
Müxtəsər, büsbütün
hər nə var hiylədir!

***

Kirpinin də vardır
özünün hiyləsi.
İstər ov zamanı,
istər qorunanda.
Ən böyük köməyi, yarağı -
belində tikanı.
Onunla ilanı, cücəni,

Siçanı, cücünü
rahatca ovlayır.
Axtarır gecələr kol-kosu,
heç nədən qorxmayır.
Özündən güclüsü
kəsəndə yolunu.
Yumağa dönərək
tikanı içində gizlədir
başını, qıçını, qolunu.
Elə ki, təhlükə sovuşur,
deməli, kirpinin hiyləsi baş tutur.
Yadına yenidən ov düşür.
Beləcə günləri, ayları ötüşür.

***

Ancaq kirpinin də
vardır öz qənimi.
Nə vaxt ki, rastlaşır tülkü ilə
hərəsi işlədir bir hiylə.
Kirpinin hiyləsi tikanda,
büzüşüb rahatca oturur.
Tülkü isə düşünür bu anda,
Nə yolla kirpini ram etsin?
Yox, o, tülkü olmaz,
ovundan yan keçsin.
Ehmalca toxunub
bu səfeh sandığı heyvana,
çevirir o yana, bu yana.
Düşünür; - nə yolla
ovunu çıxarsın bir yana.
Bu dəmdə tülkünün
düşür xatirinə dayaz su hövzəsi.
Fırlada-fırlada
aparır kirpini suyacan.
Saxlayır, lap dayaz bir yerdə,
su altda.

Ta naçar başını çıxarda.
Kirpinin nəfəsi təngiyir qorxudan.
Özündən xəbərsiz,
qol-qıçı açılır bu zaman.
unudur yanında dayanıb düşməni.
Elə ki, başını çıxarır üzməyə,
gözündə qarışır yer göyə.
Ayrılır başından bədəni,
tülkünün hiyləsi-kirpinin qənimi!

**QƏZƏL**

Bir qorxulu düşmən kimi durmuş üzə hiylə,
Hərdən rəqibə güc gələr, hərdən bizə hiylə.

Dünya yaranandan şeytan, iblis sifətində
Dolmuş nə qədər nütvəyə, hopmuş gözə hiylə.

Təmkinli olanlar gizli saxlar onu hər an,
Qoymaz rəqibə bir əməlindən sezə hiylə.

Yüz dosta sədaqət, səmimiyyət adı ilə
Nakəslər dilində çevrilir xoş sözə hiylə.

Bəd niyyətini duyduğun kəsdən həzər eylə,
O xisləti murdar gəzəcək bir təzə hiylə.

Fəxrəddin, həyatda gedir haqsız mübarizə,
Xaliqmi deyir, güclü gələ gücsüzə hiylə?

***

İstəkli oxucu, qəlbimin həmdəmi,
pərişan etdimi
bu kiçik hekayət heç səni?
Anlaya bildinmi açdığım mətləbi?
İnana bildinmi, hiylə ilə,

məkrlə ötüşən həyatın
özülü zülm üstə,
qan üstdə qoyulmuş.
Həm ana təbiət,
həm bütün insanlar
əzabdan yoğrulmuş,
qorxuya ram olmuş.
Babəkin qolları zülmlə kəsilmiş,
Nəsimi əzabla soyulmuş.
Kərbəla çölündə Hüseynin taleyi
qəm üsdə yazılmış.
Ədalət yolunda, haqsızlıq üstündə
nə qədər talelər dəyişmiş,
nə qədər qəbirlər qazılmış?!
Nə qədər ordular əzilmiş,
nə qədər məbədlər sökülmüş,
nə qədər ölkələr dağılmış?!

## QƏZƏL

Ey alilərin alisi, müdrik, ulu insan,
Göylər də sənin səcdənə gəlmiş yaranışdan.

Peyğəmbərliyə Tanrım bilərəkdən səni seçmiş,
Ta verməyəsən haqsıza bir haqlını qurban.

Əfsus ki, ədalət sarayında təpərin az,
Bir məsxərə olmuş verdiyin hər yeni fərman.

Güclü yaranandan zəifin qəsdinə durmuş,
Hər vəchlə edir öz ovunu qanına qəltan.

Yerdə bu qədər vəhşiliyə dözməmiş Tanrı,
Nuhun əliylə qərq eləmiş dünyanı tufan.

İndi yenə də Kürreyi-ərz səndən asılı,

Kaş düz əməlinlə qoyasan aləmi heyran.

Fəxrəddin, həzər eyləmədik bəd işimizdən,
Ötdükcə zaman, çıxdı qiyamət yadımızdan.

***

Amansız təbiət,
gör bizi neçə yol
əzabla, zülümlə,
hiylə ilə, ölümlə
saxlamış üz-üzə.
Xaliqim, budurmu
qanunlar qanunu,
və ya anlamı çətin,
mənası dərin olan
Yaşamaq uğrunda mübarizə?
Tanrım, yetərsənmi köməyimizə?

## VIII

Həyatın mənasını anlayandan
gördük ki, hər şey, hamı belədir.
Çalışmalısan, vuruşmalısan,
dözməlisən.
Zəif ot da belədir,
zərif çiçək də.
Gücsüz kəpənək də belədir,
ümidsiz böcək də.
Köməksiz, yazıq
ov olan da belədir,
yırtıcı canavar da, aslan da.
Sısqa bulaq,
təlatümlü ümman da belədir.
Buludlu səma,
ulduzlu kəhkəşan da.
Dinsiz yaşayan da belədir,

abid insan da.
Cahil də, nadan da belədir,
aqil insan da.

Nədir bu hikmətin adı?
nəyi öyrədir o bizə?
Təmənnasız xeyirxahlığı,
yoxsa qəddarlığı?
Yüz illərdir versək də
bu sualı özümüzə,
dünənimizə, bu günümüzə,
                gələcəyimizə,
cavabını tapmaqda
kimsə gəlməz köməyimizə.
Kimi valeh olur gedişinə,
Kimi lənət deyir gərdişinə,
                              ey dünya!?
Bu cürmü yol tapırsan
                         ürəyimizə,
Bu cürmü gəlirsən köməyimizə,
                              ey dünya!
Nədir bu qorxunc, qəddar,
amansız vəhşiliyin adı?
Yaşamaq uğrunda mübarizə?
Bəlkə də çoxları üçün
Ölməmək uğrunda mübarizə?
Güclülərə, yırtıcılara
yaşamaq uğrunda,
pənahsızlara, həyatı acılara
qorunmaq, ölməmək uğrunda mübarizə!

***

Haqsızlıq içində boğulur bu dünya,
ancaq nə yaxşı ki, ölənin dalınca
büsbütün ölməyir, batmayır,
yaşayıb-yaradır yenisin.

Təzədən doğulur bu dünya.
Qoymayır ümidi itməyə,
qoymayır arzunu bitməyə,
qoymayır istəyi ölməyə.
Ən çətin məqamda,
ən ağır zamanda,
qaçan da, qovan da
Allahı çağırır köməyə.
Hardasan, Allahım, hardasan?

## QƏZƏL

İlk sevincim, xoş gümanım, son pənahım hardasan?
Səcdəsindən doymadığım qibləgahım, hardasan?

Mən özümü tanıyandan varlığına tapındım,
Ümidiylə yaşadığım hər sabahım, hardasan?

Puç gördüm çox təriqəti, bütpərəstlikdən həzər,
Nurundan kamyab olduğum tək Allahım, hardasan?

Tərk eyləmiş ulu Adəm bir kəlmənlə cənnəti,
Hökmü ədalət sayılan şahənşahım, hardasan?

Harınların qarşısında bəndələrin qul oldu,
Səbri hər əzəba yetən Səbrullahım, hardasan?

"La İlahə" söyləyəndə silkələnər vücüdum,
Təkrarından doymadığım "İlləllahım" hardasan?

Üzün dönsə Fəxrəddindən, ummaz nicat kimsədən,
Yüz tövbəyə bağışlanmaz bir günahım, hardasan?

## XI

Ən güclü istəkdir
həyatda yaşamaq.
Fərqi yox, ya sadə taleli
bir ömür yaşamaq,
Ya da ki, əzablı,
nəşəli bir ömrün
möhnətin daşımaq.
İlahi, həyatda nə ki, var
yaşamaq istəyir.
Ən kiçik zərrəcik,
ən böyük ixtiyar
yaşamaq istəyir.
Qoca da, körpə də,
kötük də, pöhrə də
yaşamaq istəyir.
Virus da, mikrob da
Hər vəchlə  çalışır, vuruşur
yaşamaq eşqinə.
Görünür, təbiət bənzərsiz
bir ovsun veribdir
hər ana, hər günə.
Ən aciz, ən güclü məxluq da
həyatdan bezməyir heç zaman.
Yaşamaq istəyir
ölümün gözünə
dik baxan qəhrəman!
Ümidmi, inammı
yaşadan bizləri?
Bəlkə də yaşatmaq eşqiylə,
sabaha ümidlə
imtahan eyləyir Yaradan bizləri?

**ÜMİD**

Sən mənim səsimi içimdə boğma,
Sən mənə arxa ol, dayaq ol, ümid.
Sən mənə ən yaxın, sən mənə doğma,
Daim keşikçim ol, oyaq ol, ümid.

Sən mənim ən şirin arzum, diləyim,
Sən mənim mücdəmsən, xoş xəbərimsən.
Sən mənim çiynimdə gəzən mələyim,
Sən mənim sonuncu güvənc yerimsən.

Sən mənim canımdan çox istədiyim
Bircə övladımsan, ciyərparamsan.
Sən mənim uğursuz sevgim, sevdiyim,
Qəlbimi ağrıdan şirin yaramsan.

Sənsiz bir günüm yox, bircə anım yox,
Sənsiz qəlbim dolu nisgil, qəm, qübar,
Sənsiz mərhəmim yox, mehribanım yox,
Sənsiz qəlbim yanar, ruhum odlanar.

Ovsunsan, sehrsən, istəksən, səndən
Bir addım uzağa qaça bilmirəm.
Məni bezdirsən də, üzsən də hərdən,
Dərdimi kimsəyə aça bilmirəm.

Sən mənim canımsan, can sirdaşımsan,
Düşmürsən heç zaman dilimdən, ümid.
Sən mənim ömürlük yol yoldaşımsan,
Dardayam, gəl, yapış əlimdən, ümid.

Mənə dözüm gətir, mətanət gətir,
Qoy səni qəlbimdə qoruyum, ümid,
Mənə qüvvət gətir, qətiyyət gətir,
Çatsın dörd tərəfə harayım, ümid.

Qəlbimdə, gözümdə tutsan da qərar,
Yenə xəyal qədər uzaqlardasan.
Gəl, yetiş, səbrimi kəsdi intizar,
Hardasan, hardasan, ümid, hardasan?

*Avqust - Sentyabr –1998*

## YENİLMƏZLİK SİMFONİYASI

*Öz xalqının müstəqilliyi uğrunda azadlıq mücadiləsinə qoşulmuş bütün insanlara ithaf edirəm.*

*Əlhəmdü-lillahil-Rəbbül aləmin - Aləmlərin rəbbinə həmd (şükürlər) olsun və yaxud kainatın bir mütləq sahibi var ki, o da Allahdır.*

Siz ey allahsızlar, ey allahlılar,
Siz ey imansızlar, ey imanlılar,
Siz ey imkansızlar, ey imkanlılar,
Siz ey vicdansızlar, ey vicdanlılar,
Siz ey xudpəsəndlər, soyuqqanlılar,
Siz ey fövqəlruslar, amerikalılar,
Öz sahibi vardır bu yerin, göyün,
Əlhəmdü-lillahil-Rəbbül aləmin!
Yüz yol yer üzünə şahlar gəldilər,
Zevslər özlərin Allah bildilər*.
Azğınlar dünyanı yüz yol böldülər,
Bölüb qurtarmamış bir-bir öldülər.
Ariflər, abidlər baxıb güldülər,
Vallah, bu hərislik, acgözlük yetər,
Ağa doğulmayır heç kimə heç kim,
Əlhəmdü - lillahil-Rəbbül aləmin!

Ey mənə hökmünü oxuyan hakim,
Rəvamı, ömürlük zülmünü çəkim?
Ey mənim dərdimi duymayan həkim,
Məslək ağrısından necə əl çəkim?
Bu yer, göy həmindir, insanlar həmin,
Olmasın qəlblərdə nə qisas, nə kin,
Biz bir övladıyıq ulu Adəmin,

---

* Zevs - Qədim yunan mifologiyasında özünü Allah elan etmiş hökmdar. Eramızdan əvvəl yaşamışdır.

Əlhəmdü - lillahil-Rəbbül aləmin!

Siz ey haqq yolunu azan insanlar,
Siz ey düzü əyri yozan insanlar,
Siz ey tarixləri «pozan» insanlar,
Siz ey inadımdan bezən insanlar,
Siz ey varlığıma dözən insanlar,
Siz ey bizə tale yazan insanlar,

Bir ortaq məxrəcə, düz rəyə gəlin,

Əlhəmdü - lillahil-Rəbbül aləmin!

**II**

Yüz il çalınmırsa istiqlal marşı,
Demək haqq, ədalət nazilib tamam.
Yüz nəfər durursa birinə qarşı,
Demək ümidimiz üzülüb tamam.

Ancaq bu üzülən ümidlə yenə
Heç nə inadını qıra bilməyir.
Bu ər oğulların sıralarını
Çoxsaylı ordular yara bilməyir.

Nəhəng dövlətləri sındırmaq olar,
«Ənəlhəqq» deyəni sındırmaq olmur.
İnsanı tonqalda yandırmaq olar,
Ruhu, qətiyyəti yandırmaq olmur.

Nə qədər dahilər dünyaya gəlir,
Hər xalqın, aulun öz sərkərdəsi.
Kiçik bir ordudan döyüş öyrənir,
Bir fövqəldövlətin yüz sərkərdəsi.

Zabitlər tədbirli, əsgərlər igid,
Sədaqət göstərir hamı andına.
İki söz bilirlər - qalib ya şəhid,

Alqış bu ordunun komandanına.

### III

Sən ey çeçen torpağının hünərvər oğlu,
Sən ey azadlıq carçısı - Cövhər Dudayev!
Sən ey düşmən ürəyində dözülməz ağrı,
Xalqın gül açan arzusu – Cövhər Dudayev!

Seçdiyin yol başdan-başa əzablı, çətin,
Keçdiyin yol cəhənnəmin qıl körpüsüydü.
Sən bir məğrur, əfsanəvi sərkərdə idin,
İstibdadın, şər qüvvənin qolunu əydin.

Bu yollarla bağlı həm də müsibətlərin,
Övladların, doğmaların şəhid oldular.
Ancaq nə qəm, əsrimizin «böyük» xalqları
Yenilməyən qüdrətinə şahid oldular.

Sən iynənin saplağından keçən kiçicik
İşartını çevirdin gur işıq selinə.
Sən yüzlərlə generalın içindən keçib
Hakimiyyət bayrağını aldın əlinə.

Sən qorxmadın nə ölümdən, nə işgəncədən,
Beyinlərə hakim olan mifi dağıtdın.
Ordusuyla dörd tərəfə meydan oxuyan
Bir dövlətin öz içində dövlət yaratdın.

Qoy diz çöküb bayrağımdan öpüm bir daha,
Qoy baş əyim bu sərhədsiz dövlət önündə.

Sevincimdən ağlayaram, Cövhərqalada
Bu bayrağın sancıldığı bayram günündə.

Bu canavar yuvasına dönmüş ölkədə
Güclü yalnız zor gücünə hakimliyində.
Əgər buna imkanları çatsa, bəlkə də,
Onlar sizə çox görərlər kişiliyi də.

Rusun vardır bir qitədən böyük sahəsi,
Ermənin in ola bilər iki dövləti.
Çeçeninsə – muxtariyyət - deyirlər bəsi,
Yox-yox, buna dözə bilməz Cövhər qeyrəti!..

Çeçen xalqı, İçkeriya, müstəqil ölkə,
Sən bu yurda istiqlalı gətirən öndər.
İndi bütün şərq xalqları Qafqazla birgə
Ehtirama təzim edir ruhun önündə.

Sən indi bir laməkansan, yerin bilinməz,
Qoyduğun yol əbədidi, geriyə dönməz.

Qoy, daima dalğalansın zəfər bayrağın,
Bir kərə yüksələn bayraq bir daha enməz![*]

## IV

Hər gün «Günün xəbərləri» başlanır bu bölgədən,
Bir-birini təkzib edən məlumatlar yayılır.
Gözümüzün qabağında bu dağılan ölkədən
İçkeriya bayrağıyla bir məmləkət ayrılır.

---

[*] Азярбайжанда чох йайылмыш вя афоризм кими ишлядилян бу ифадя АДР-ин йарадыжысы вя илк рящбяри, бюйцк сийаси юндяр М.Я.Рясулзадяйя мяхсусдур.

Bu torpağın hər qarışı suvarılır qan ilə,
Bu diyarın oğulları qorxmazlıqla yarışır.
Yox, basılmaz Vətən heç vaxt  bu cür insanlar ilə,
Cövhərləri, şamilləri  ulduz kimi sayrışır[**].

«Cihad» - deyə əksəriyyət qatılıbdı döyüşə,
Bir müqəddəs ad daşıyır bu sınmazlar – mücahid.
Mən bilmirəm, bu ağalar niyə düşür təşvişə,
Vətən, torpaq, din yolunda can verirsə bir igid!?

Bu ərənlər quldur kimi tanıdılır ölkəyə,
Guya bunlar özləridir millətinin düşməni.
Diktoru hər dinlədikcə mat qalıram bir şeyə,
Demək, mənim evimdə də döyməlisən sən məni?

Yaranandan haqq-ədalət axtarsa da cəmiyyət,
Biz ki, bir yol ədalətin təntənəsin görmədik.
Güclülərin rizasıyla tapdandıqca həqiqət,
Əzilənə iradtutduq, əzənlərə düz dedik.

Haqsızlığa barışmazlıq – budur Çeçen istəyi,
Poza bilməz, qıra bilməz bu istəyi bir ləvənd!
Bu qurd millət əyilməkdən üstün tutur ölməyi,
Odur ona yenilməzlik bəxş edibdi Xudavənd!

Nə ətrafdan bir kömək yox, nə rəqibdə  bir aman,
Yox zərrəcə qorxu onda, bu təklənmiş günündə.
«Mücahidəm» - deyənləri sınağa çəkir zaman,

---

[**] Жовщяр Дудайев вя Шамил басайев нязярдя тутулур.

Baş əyməli, diz çökməli bu millətin önündə!

**V**

Çoxdur kiçik xalqlar Böyük Qafqazda
Hər xalqın öz dili, öz təriqəti.
Bu kiçik xalqların böyük xalqlardan
Heç də az deiyldir əzmi, qüdrəti.

Həm də çox sadədir burda hər insan,
Kiçiklik edərlər əziz qonağa.
Gündə on dəfə də qapısın açsan,
Ağsaqqal səninçün durar ayağa.

Səni əziz tutar öz övladından,
Olarsan doğması, könül həmdəmi.
Hətta izn verər onun adından
Durub danışasan ixtiyar kimi.

Ancaq bu ürəyi saf insanların
İçində gizli bir sərtlik də yaşar.
Elə ki, onlara kəc gözlə baxdın,
Səbr kasaları qaynayıb daşar.

Dağlının çox ağır xasiyyəti var,
Dağda yaşayanlar bilirlər bunu.

Dağlı hər möhnətə tablaşar, ancaq
Qoymaz əyilməyə öz qürurunu.

Sən ey dünənəcən, böyük qardaşım,
Böyüksən deyibən, həddini aşma.
Sən ey sabiq dostum və silahdaşım,

Sədaqət görəndə yolunu azma.

Dağlılar qartaltək gözünü oyar,
Bir kimsə itirsə haqq-sayını.
Hələ çoxlarını qumara qoyar
Bu Qafqaz savaşı, Çeçen oyunu.

Qarabağ düyünü, Çeçen davası,
İndi də Dağıstan, İnquş narahat.
Rus öz sümüyünə düşən havanı,
Yenə də Qafqazda çaldırır rahat.

Bu kiçik xalqların əzmi dağ qədər,
Ancaq təmkini yox, siyasəti yox.
Azacıq bir qıcıq kifayət edər,
Qoysunlar ömrünü səngərdə girov.
Nə qədər babəklər, şamillər bu cür*
Düşmüş zaman-zaman rəqib toruna.
Hərdən də vətəni hərraca qoyub
Vermişik düşmənin ixtiyarına.

Sonra başlamışıq peşmançılığa,
Sonra başlamışıq tədbir tökməyə.
Sonra da … olmuşuq yurdda qaçağan,
Sonra da… gəlməmiş kimsə köməyə.

Biri həyətini vətəni bilib,
Biri çəpərini sərhədi bilib.
Biri qeyrətini evində görüb,
Vuruşub bu amal uğrunda… ölüb.

---
* Шейх Шамил нязярдя тутулур.

Bu cür ağrılardan dərs alsaq, nə qəm,
Dönərik basılmaz mübarizlərə.
Bəs, bu biganəlik, yetər bu sitəm,
Hamımız zərbəni vuraq bir yerə.

Daha dirənibdir bıçaq sümüyə,
Daha səhv etməyə yoxdur haqqımız.
Ay Qafqaz xalqları, gəlin birliyə,
Əgər öləriksə, ölək hamımız!

Bu cür düşünməsək, Cövhər yaranmaz,
Aslanlar, şamillər – yüz ər yaranmaz[**].
Gözümüz önündə Qafqaz ram olar,
Bu cür döyüşməsək, Vətən qorunmaz!

## VI

Səni düşünürəm, cənab Məshədov,
Necə yaşayırsan bu məşəqqəti?
Sənin çiynindədir bu sərt zamanda
Çeçen dövlətinin məsuliyyəti.

Soyuq düşüncənə, əzminə əhsən,
Qəddin əyilməsin çətin günündə.
Sən gərək haçansa raport verəsən
Cövhər Dudayevin ruhu önündə!

---
[**] Аслан Мясщядов вя Шамил Басайев нязярдя тутулур.

Gəzir səngər-səngər gözüm ardınca,
Vətən od içində gözləyir səni.
Düşmənsə dörd yandan düşüb dalınca,
Min cür hiylə ilə izləyir səni.

Yuxusuz gözlərin, yorğun sifətin,
Ağarmış saçların göz dəlir, qardaş.
Bəs edər bir xalqa sənin qeyrətin
Ey ali komandan, adi vətəndaş.

Vətənə əsgərtək sadiqliyini
Canlı sübut kimi göstərə bildin.
Sən elə, gələndə qəhrəman kimi,
Əsl Çeçen kimi hünərlə gəldin!

Zaman tullantıtək atır qırağa
Adına siyasi şər atanları.
Heç kim, heç bir zaman sındıra bilməz,
Xalqının gözünə dik baxanları.

Ancaq bu bəlalı, qarabəxt ölkən
Dağıldı, döndü bir şeytanbazara.
Bir zaman özünün bildiyin ordu
Çevirdi yurdunu xarabazara.
Burda aparılır silah alveri,
Bura silahların sınaq meydanı.
Amma səbəbkarın kim olduğuna
Çeçen inandıra bilmir dünyanı.

Min ad da qoyurlar hələ üstəlik,
Guya terrorçular yığılıb orda.
Deyirlər, Çeçeni öyrətməliyik,
Sakit yaşamağa, olsa da harda.

Sakit yaşamağa… sən bir işə bax,
Gör kimlər kimləri ittiham edir.
Dünyanı yüz yerdən qarışdıranlar
Sakitlik öyrədir, dinclik öyrədir.

İndi də deyirlər Bin Ladenə də*
Məshədov dövləti köməklik edir.
Bu da bir əlavə iğtişaş, hədə,
Burdan da bir yeni məlumat gedir.

Dünyada nə qədər böyük dövlətlər,
Nə qədər qüdrətli təşkilatlar var.
Fəqət Çeçen üçün bu günə qədər
Heç bir əməli iş görməmiş onlar.

Ay haray, bir millət qırılır bu gün,
Hər gün qan rəngində açılır sabah.
Bu cür haqsız təlim qoymamış, yəqin,
Nə Həzrəti İsa, nə Rəsulullah!

Kiminə mərhəmət əli uzadır,
Kiminə göstərir ancaq zor dünya.
Bu gün həqiqəti görməkdən qaçır,
Çeçen fəryadına gözü kor dünya…

Səni düşünürəm, Aslan Məshədov,
Ey qəhrəman yurdun başçısı - əsgər.
Qafqaz yer üzünə şöhrət olardı,
Sənə oxşasaydı başçılar əgər!

**VII**

---

* Цсяма Бин Ладен – дцнйа мигйаслы мяшщур террорчу.

Tarix boyu müsibətlər izləyib bizi,
Tarix boyu əzib, didib güclü gücsüzü.
Tarix boyu azlıq hara, azadlıq hara,
Böyük xalqlar divan tutub kiçik xalqlara.
Tarix boyu sıxılmışıq darda, çətində,
Saxlanmışıq böyüklərin əsarətində.
Çox igidin taleyində bir acı sonluq,
Babək, Şamil, səttarxanlar olmuş qurbanlıq.
Yox-yox, ancaq tale deyil bu qismət, bu baxt,
Biz düşmənin qarşısında sınmarıq heç vaxt.
Bu bir millət savaşıdır - öz əlacı var,
Millət sayda qəhrəmana ehtiyacı var.
Qəm yemərik Vətən batsa, oğul yasına,
Biz Vətəni qoruyuruq qan bahasına!
Nə etməli, bu istəyi, duyğusu korlar
Hələ ki, haqq yolumuzda iblistək durar!
Dillərində sevdikləri bir məsəl də var:
«Yeyir kiçik balıqları böyük balıqlar».
Yox, ağalar, siz deyənlər qaldı keçmişdə,
Bir azca da siz yaşayın xofda, təşvişdə.
Olur, hərdən daş qayaya rast gələ bilir,
Olur, hərdən div cırtdanın əliylə ölür.
Olur, hərdən kiçik tikə qalır boğazda,
Hərdən böyük güc yığılır zərrədə, azda.
Damcı daim düşməsiylə dəlir sal daşı,
Dünya dözüm yarışıdır, səbr yarışı.
Bu yarışda özümüzük komandanımız,
Cövhər sönməz mayakımız, Vətən andımız!
Ümidliyik, keçəcəkdir bu zülmət gecə,

İsrarlıyıq, vuruşarıq son nəfərəcən!
Gedə bilməz bu cəsarət, bu savaş hədər,
İnşaallah, qələbəyə gücümüz yetər!

## VIII

Sən öz hünər tarixini qanınla yazdın,
Qəhrəman xalq, qəhrəman yurd – nə böyük qismət!
Qoy Qafqazın zirvəsinə ad olsun adın,
Hər igidin bir qayaya, bir dağa şöhrət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət.

Bu günündə, bu günümdə görüşək bir yol,
Sərt ruhunla canıma hop, ciyərimə dol.
Lap elə, gəl, rəhbərim ol, komandanım ol,
Bəlkə onda ellik ilə tapaq cəsarət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət.

Min əzaba qatlaşmasaq, bu bəla ötməz,
Səngərləri ev bilməsək, bu dava bitməz.
Ac qalmaqla canavarın ürəyi getməz,
Gödən belə yapışdıqca artar güc-qüvvət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət.

Gör haçandır, biz il-ildən cılızlaşırıq,
Bölünürk bölgələrə, yalqızlaşırıq.
Aldanırq, uduzuruq, ucuzlaşırıq,
Kasıbımda ruh qalmayıb, pullumda qeyrət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət.

Sən bir milyon - durmusan yüz miylona qarşı,
Bu inadla səsin qalxıb çatacaq ərşə!

Hər şəhidçün çaldırırsan qələbə marşı!
Sən gözümdə ən qadir  xalq, ən böyük millət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət.

Sənin xalqın qırılmaqda, yurdun dağılmış,
Mənim isə ruhum ölmüş, səsim boğulmuş.
Mənim sənə çatmağıma çox var, sağ olmuş.
Bu sözümə kim güləcək, kim edər heyrət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət!

Mən dünənlə çox öyündüm, sənsə bu günlə,
Sən Vətənə qurban getdin, mən dedim ölləm.
Nə vaxt görsən özümçündü sonuncu gülləm,
Deməк onda coşub – daşır qanımda cürət,
Onda daha söyləmərəm, gəl, məni öyrət,
İndi isə öyrət məni, yenə də öyrət,
Çeçen qardaş, vuruşmağı mənə də öyrət!

## IX

İçkeriya yer üzündə bir balaca ölkədir,
Çox yerlərdə diplomatlar bəzən tanımır onu.
Ancaq bu yer Qafqaz üçün əvəzsiz bir bölgədir,
Bu bölgədə bir qanun var-əyilməzlik qanunu!

İçkeriya Yer üzündə iddiasız ölkədir,
Amma böyük dövlətlərin gözlərinə soxulur.
Qəlb göynədən bu sualın cavabı yox bəlkə də,
Milyondan az Çeçen xalqı niyə bizi qorxudur?

İçkeriya özü boyda bir basılmaz qaladır,
Uşağı da, qocası da igid, qorxmaz, vuruşqan.

İçkeriyaya on ildir ki, mərmi yağışı yağır,
Məsəl vardır: - İslanmışın qorxusu yox yağışdan.

İçkeriya Yer üzündə bir mübariz ölkədir,
Çox dövlətlər onu hələ bundan sonra tanıyar.
Çeçenlərin harayına susduğuyçun, vaxt gələr,
Bu dövlətlər özünü də lənətləyib qınayar.

**X**

Nə müddətdir od içində alışır Cövhərqala,
Səmasında səngiməyir bir an mərmi yağışı.
Viran olmuş bu şəhərdə qoymaz kimsə sağ qala
Ölüm yüklü uçaqların ulartılı uçuşu.

Köçüb qartal yuvasında yurd salıbdı igidlər,
İstehkama çevrilibdir ağsaç Arqun dərəsi.
Qan bahası, Azadlığa yol gedirlər şəhidlər,
Bu yollarda hələ neçə ər oğlu ər öləsi!

Döz üzücü ağrılara, başın sağ olsun, Vətən,
Səbri hər əzaba yetən, buna da səbrin yetər.
Bu Boz qurddan süd əmənlər vuruşurlar sübhəcən,
Boyanır al qanlarına hər gün açılan səhər.

Milyon ildir sinə gərir hərblərə bəşəriyyət,
O zamandan üz-üzədir istibdadla fəzilət.
Xalqı tamam qırılsa da yaşayar iki millət,
Latınları dil yaşadar, çeçenləri dəyanət!

**XI**

Sən ey Rəhim Allah, ey Kərim Allah,
Pənahım, güvəncim, sərvərim Allah.

Səni çağırmaqdan dilimiz qabar,
Nə vaxt ətəyinə əlimiz çatar?
Haqsızlıq bürüyüb düzü, dünyanı,
Hanı yer üzündə ədalət, hanı?
Daha göndərməyə peyğəmbərin yox,
Olmaya, bizlərdən bir xəbərin yox?
Qırılsın qələmim, qurusun əlim,
Yoxsa ki, bu sözə dönməzdi dilim.
Ya Rəbb, əzabımız yetərincədir,

Dərdimiz bəs, olan qədərincədir.
Artıq dirənibdir göylərə zülüm,
Nə üçün xofundan qorxmayır zalim?
Cəzasız qaldıqca adamyeyənlər,

Artır asi çıxıb küfr deyənlər.
Dözüb seyr etməyə səbrin nə böyük,
Dözüm öyrətməyə səbrin nə böyük.
Cahan dəyişdikcə min illər boyu,

Dəyişib çox növün surəti, soyu.
Nə qədər canlının dəyişib əsli,

Nə qədər canlının kəsilib nəsli.
İnsan var taleyi tükdən asılı,
Ümidə açılan yolu kəsili.
Kimlərin arxanca əli uzalı,

Acı taleləri öncə yazılı.
Amma başçılar var, ruhları xəstə,
Qırır ətrafını dəstəbədəstə.
Nə çox öyünənlər, «mənəm» deyənlər,
Xalqları ölümlə hədələyənlər.
Varmı beləsində iman, əqidə,
Latın da bəndəydi, çeçen də bəndə!?
Neçə yol tuş gəldik dərdə, azara,
Nə qədər yurd döndü xarabazara,

Hələ verəcəyin əzab çoxdumu,
Bu  qədər dözümün sonu yoxdumu?
Bəlkə itaətkar bəndənik, deyə,
Döndərdin əzaba öyrəncəliyə?

Bu cürmü yoxlanır sədaqətimiz,
Adına sevgimiz, itaətimiz,
Bizlər də bu sayaq dərs aldıq deyə,
Yaxşını veririk daim özgəyə.
İmkanı veririk çox vaxt özgəyə,
Dünyanı veririk çox vaxt özgəyə.
İndi ki, halımız sənə əyandır,
Çevir, öz başına bizi dolandır.
Qıyma, yurdumuzu dönə tapdağa,
Qıyma nankor bizə qoya qadağa.
Xudaya, yenə də adına şükür,
Düşürük arabir yadına, şükür.
Düşməni əzməyə şücaətliyik,
Qorxmazıq, igidik, cəsarətliyik.
İslam bayrağıyla şiri-nərik biz,
Din-iman yolunda şəhidlərik biz.
Daima canımız sənə sadağa,
Ağıl-imanımız sənə sadağa!
Özümüz boyda bir qəza-qədərik,
Əqidə yolçusu – mücahidlərik!

**XII**

Bizi dar gün üçün doğubdu ana,
Tarnı rizasyla köməyə gəldik.
Vətən duyğumuzda ən böyük anlam,
Biz vətən yolunda ölməyə gəldik.

## XIII

## QƏHRƏMANLAR LAYLASI VƏ YA MÜCAHİDLƏRƏ AĞI

Qara bağlama, Vətən,
Qalx, yas saxlama Vətən.
Sonuncu oğlun ölsə,
Yenə ağlama Vətən.

Sən əmanət qal, Vətən,
Sağ-salamat qal, Vətən.
Gözümüz yumulunca
Bizə layla çal, Vətən.

Dostum, sirdaşım, neynək,
Bacım, qardaşım, neynək?
Vətən daşı hələ ki,
Olur başdaşım, neynək?

Dövrən dağ olsun, Vətən,
İçi bağ olsun, Vətən.
Oğul dar gün üçündür,
Başın sağ olsun, Vətən.

Vətən gülzarım olsun!
Dağ-daş güzarım olsun.
Bu yurd evim olmadı,
Barı məzarım olsun!

Vətən möhtəşəm saray,
Uçur, dağılır, haray!
Biz ölümdən qorxmuruq,
Yurd yiyəsiz qalsa, vay!

Döyüşdə ölsək, nə qəm,
Bayrağın olsun kəfən.
Biz cihad eylədik ki,
Üzün ağ olsun, Vətən!

Uyu, qardaşım uyu,
Ər silahdaşım, uyu.
Yenilməzliyin səni
Yaşadar tarix boyu!

*Noyabr, 1999*
*May, 2001*

## SƏN MƏNƏ ARXA OL, DAYAQ OL, ÜMİD!..

Şairlik insana Allah vergisidir. Şəxsiyyət kimi isə əlahəzrət Tanrıdan şairlik vergisi alan insan bütün ömrü boyu özü formalaşır. Əgər bir şair şəxsiyyət kimi bütövdürsə, mənəvi siması aydın, əqidəsi dəyişməzdirsə, o səni həm söz ustadı, həm də şəxsiyyət kimi özünə cəlb edir, qəlbini ovsunlayır. Şah beytləri, misraları ruhuna hopur həzin nəğmə kimi, könlünü oxşayır sərin meh kimi... Şairliyi ilə şəxsiyyəti bir-birini tamamlayan söz adamları xalqının şer-sənət aşiqlərinin əbədi sevgisini qazanır, bütün zamanlarda xoşbəxtlik dağının zirvəsində bərqərar olurlar...

Düşünürəm ki, ədəbiyyat aləminə ömrünün kamillik zirvəsinin astanasında, qırxıncı baharında gəlmiş Fəxrəddin Ziya da şəxsiyyəti ilə şairliyi bir-birini tamamlayan, mənəviyyatını aşınmalardan qoruyub saxlamağı bacaran belə xoşbəxt sənətkarlarımızdandır... Və onun sənətkar-şəxsiyyət kimi xoşbəxtliyinin mayasında məhz müqəddəs bildiyi dəyərlər, müqəddəs sandığı hisslər, duyğular durur:

Çıxmışam bir çətin yola, ay Allah,
Şirinmiş hər şeydən bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri
Balamın baxtına cala, ay Allah!

Övlada məhəbbətin, əbədi sevginin ən kövrək, ən gözəl ifadəsi, bənzərsiz poetik əksidir bu!..

Amma şairin—övladın anaya, müqəddəs varlığa məhəbbəti də əbədidir və bu əbədi məhəbbət F.Ziyanın “Mənim şair anam” şerində öz ifadəsini elə oricinallıqla tapıb ki…

Çəkib ürəyinin şəhdi-şirəsin,
Südünə qatıbmış mehriban anam.
Bizə laylasında şer öyrədib
Mənim şair anam, qəhrəman anam...

Sən demə haqqı Tanrı haqqına bərabər tutulan analar həm də "ürəyinin şəhdi-şirəsini südünə qatıb" laylasında ciyərparasına şairlik qüdrətini də pıçıldaya bilirmişlər. Həmin pıçıltılar da dönüb olurmuş nağıl, hekayə, roman, şerləşib çökürmüş ağ kağıza, səhifələnib cild-cild kitablar olaraq sıralanırmış rəflərə...

Son vaxtlar qəzet buraxmağın, kitab çıxarmağın, hətta şer yazmağın özünün də dəbə çevrildiyini təəssüf hissi və böyük bir yanğı ilə söyləyənlər də məhz dünya söz xəzinəsinə incilər bəxş edən Azərbaycan poeziyasının gələcəyindən narahatlıqlarını ifadə etməklə, həm də bir həyəcan təbili çalmaqdadırlar: Sən ey söz dünyasında özünü arayıb-axtaran kəs, elə bir cığır aç ki, izlərin əbədi qalsın, yoxsa böyük "Füzulinin ürəyinə toxuna bilər" (Məmməd Araz).

Nə yaxşı ki, "Qayıt məni qınamağa", "İl ayrıcında", "Zaman səndən hara qaçım", "Mənim şair anam" kitablarının və ən nəhayət "Yaxşılar" adlı son şerlər toplusunun müəllifi olan Fəxrəddin Ziya məhz bu dəyərlərə hörmət və məhəbbət hissindən qaynaqlanaraq misralarında böyük mənalar əks etdirə bilmiş, düşündürən, milli özünüdərkə səsləyən narahat poeziya yaratmağa nail olmuşdur. F.Ziya gəlişi gözəl söz demək xatirinə yazmır, sevimli anası Züleyxa xanıma "Mənim şair anam" kitabını təsadüfi həsr etmir. Çünki ədəbiyyat aləmində nadir hadisədir ki, bir ailənin dörd övladı şair doğulsun, söz ustadı, qələm sahibi olsun. Züleyxa ananın narahat dünyamıza bəxş etdiyi Zülfüqar Qodmanlı, Hacı Ağəddin Mansurzadə, Nurəddin Mansur və Fəxrəddin Ziya—öz dəst-xətti ilə seçilən və sayılan dörd yazar... məhz bu nadir ədəbi hadisənin qəhrəmanlarıdır. Ailənin sonuncu şair oğlu—Fəxrəddin Ziya mayasında həm də Vətən, xalq, torpaq və insanlığa məhəbbət duran Ana sevgisinin əzəmətini "Mənim şair anam" şerində səmimiyyətlə etiraf edir. "Kirpikləri ilə od götürərək", min bir əzab-əziyyətlə, ancaq sevə-sevə, əzizləyə-əzizləyə dörd şair oğul böyütmüş anasına

bəlkə də övladlıq-şairlik borcunu qismən də olsa ödəməyə çalışmışdır:

Ah, nələr var imiş canında onun,
Şairlik yatırmış qanında onun.
Əfsus, az yaşadım yanında onun,
Təbi bir çeşməydi, özü bir ozan,

Neçə anaların anası anam,
Neçə ataların anası anam.
Mənim şair anam, qəhrəman anam,
Hamıdan, hamıya mehriban anam!

Şairlərimizin yaradıcılığında başlıca olaraq iki əsas istiqamətdə yazılan şerlər üstünlük təşkil edir: məhəbbət, sevgi mövzusunda yazılanlar və ictimai motivli şerlər. Fikrimizcə, F.Ziyanın narahat və düşündürən poeziyasının ana xəttini Azərbaycanımıza, türklüyə sonsuz məhəbbət və bu məhəbbətdən qaynaqlanan ikiyə parçalanmış böyük Vətən, torpaq, xalq, millət dərdinin, yurd ağrısının poetik ifadəsi təşkil edir. Sirr deyil ki, elini-obasını sevməyən, ona biganə, laqeyd olan kəslər onun dərd və problemlərinə, ağrılarına da biganə qalır. Və bu biganəlik, süni məhəbbət onların yaradıcılığında da ən azı qeyri-təbiiliyi ilə seçilir. Amma xalqın, el-obanın səadəti, rifahı naminə ən əvvəl onun üzləşdiyi problem və sıxıntılardan qurtuluşunu düşünən F.Ziyanın ictimai motivli şerləri isə daha oricinal, daha sərrastdır və onun bu silsilədən olan əsərlərində oxucunun gözləri qarşısında bütövlükdə "Vətən" obrazı canlanır. "Vətən fəryadı", "Oyan, Sərkərdə babam", "Vətən", "Hardan başlanır Vətən", "Torpaq eşqi", "Çağırış", "Qeyrət Xocalıda, Şuşada qalıb", "Qarabağ bayatıları", "Yurd həsrətli bayatılar", "Masallı", "Bakı", "Odlar yurdum", "Ey Vətən" və s. əsərlərində vətənpərvər şair böyük vətəndaşlıq qayəsi ilə "Öncə Vətəndir!" deyir.

Narahat şair evbəev, kəndbəkənd gəzərək Ana Vətənin haradan başlanıb harada bitdiyini anlamağa çalışır və özünə sual verir: Haradan başlanır Vətən?

Və sualına cavabı da məhz həmin ad altında yazdığı şerdə verir:

Cənnətdir Qarabağ, Qonaqkənd, Xanbulan, Hacıkənd,
Ormanlar çəkibdir üzünə yaşıldan bir rübənd.
Dağ çayı zirvənin boynuna atılan bir kəmənd,
Doymaram gəzsəm də mən səni evbəev, kəndbəkənd,
Vətən! Vətən!

Vətən əcdadlarımızın uyuduğu müşk-ənbər qoxulu müqəddəs torpaq, sərhədlərdən sərhədlərə uzanan tarixi məkan, ilahi sevgi ilə bağlandığımız doğma yurd yerlərimizdir. Şairin etiraf etdiyi kimi, hansı arzudan, istəkdən, duyğudan, sevgidən, həsrətdən yarandığını bilmədən, aylı, ulduzlu, günəşli səmadan od alaraq gözündə yer, göy, od, su olan, bütün varlığını alovtək saran bu ilahi duyğudan, doğma yurda, tarixən Anaya bərabər tutulan müqəddəs Vətənə əbədi məhəbbətdən doymaq olarmı, torpağını, daşını "ovuclayıb ürəyinin başına, gözlərinin üstünə qoymaqla?»

Qərib, yan baxmaq ilə,
Yanıb dönərsən külə.
Vətən adlı gözəldən
Kim doymuş baxmaq ilə?

Şair bu əbədi məhəbbətdən doymağın mümkünsüzlüyünü hayqırır, sinəsi yaralı Vətəninə həsr etdiyi silsilə şerlərində... Onun üçün Vətən anlamı bütöv Azərbaycandır, odlar diyarımızın hər bucağı, hər qarışı, hər zərrəsidir. Doğulub boya-başa çatdığı füsunkar yerlərə həsr etdiyi "Masallı" şerində yazır:

Sən mənim dünyaya göz açdığım yer,
Sən mənə torpağı sevdirən məkan.

Sən mənim ilhamla söz açdığım yer,
Sən mənə vətəndə vətənsən, inan.

"Bakı" şerində isə o, doğma torpağa məhəbbətini, hissi, duyğusu, başının tacı, hətta şirin canı sandığı ulu yurdun baş şəhərinə olan bitməz-tükənməz sevgisini daha böyük anlamda verərək: -

Sən ey tarixlərə şahid şəhərim,
Qədim Azər yurdu, qəhrəman Bakı.
Sənə nəğmə qoşur mavi Xəzərim,
Dənizin içində boy atan Bakı,—

söyləyir və düşüncələrini bir daha təsdiq edir.

İstər qəzəl yazsın, istər poema («Yaşamaq uğrunda mübarizə», «Qəhrəmanlıq simfoniyası»), istərsə də dördcə bəndlik bayatı, hər misrasında əsl vətəndaşlıq mövqeyini aydın büruzə verən F.Ziya üçün ən böyük dərd, ən ağır nisgil doğma Qarabağın erməni cəlladları tərəfindən işğal olunması, qız-gəlinin yad əllərdə əsir qalması, ulularımızın sərgərdan ruhlarının fəryad çəkməsidir. Fəxrəddinin qələmində "sinəsi talan olunmuş Vətən dərddən saçını yolur", dərdin, ağrının şiddətindən dediyi söz də ağlayır, gözü tutulur:

Ağlayır söz ağrıdan,
Tutulur göz ağrıdan.
Qarabağın ağrısı
Ağırdır yüz ağrıdan.

Dağlar, daşlar qan ağlar,
Üfüq yanar, dan ağlar.
Qarabağın dərdinə,
Gör neçə ünvan ağlar.

Vətənin sevincinə sevinib, dərdinə kədərlənən həssas şair üçün onun kiçik dərdləri, ağrıları da böyükdür. Əzablar içində

qovrulan soydaşlarının ağrı-acısını, sıxıntı və qüssəsini şəxsi dərdi, qəmi kimi yaşayan F.Ziya "Dilənçi uşaq" və "Hələ ki, yox pənahımız" şerlərində Bakının küçə və meydanlarında, park və bazarlarında dilənən, hamballıq edən, maşın şüşələrini silməklə qəpik-quruş qazanan azyaşlı uşaqların faciəli taleyindən narahatlığını ifadə edir. Şair "Dilənçi uşaq" şerində bu körpə fidanların faciəsini işıqforun yanında verdiyi min manatın sevincindən atılıb-düşən bir dilənçi uşağın ani xoşbəxtliyində təsvir edir:

Ay özü-özünü aldadan uşaq,
Bu pul bir çörəyə yetər, ya yetməz.
Dilənçi ömrünü uzadan uşaq,
Bununla bir günün ötər, ya ötməz.

Səfalət və rəzalət içində, həyatın min bir çətinliklərinə, acınacaqlı taleyə sinə gərərək boy atan azyaşlı uşaqların dərdləri də özləri ilə bərabər böyüyür, onlar böyüdükcə, Vətənin işsiz gənclərinin sayı da artır. Bundan sonra tale daha amansızlıqla alınlarına «tərki-vətən» damğası vurur, bir növ, onları qınaq hədəfinə çevirir. Şair bu sosial bəlanın səbəbkarı kimi zamandan gileylənir, hökumət üzvlərini, xalq elçilərini, xalqa ağızdolusu xoşbəxtlik vədləri verən siyasətbazları qınayır:

Düşdüyün halından xəbərdardımı
Hökumət üzvləri, xalqa elçilər?
İndi də dahilik eşqinə düşüb
"Xalqı xoşbəxt edən siyasətçilər?"

Ölkənin gələcəyinin qarantı dediyimiz uşaqların bugünkü dilənçilik, sabahkı tərki-vətənlik qismətinə, bu qisməti onların taleyinə yazan qansız dövlət məmurlarının və ən sonda isə uduzan məmləkətimizin acınacaqlı aqibətinə vətəndaş ziyalı ki-

mi dərin narahatlıq keçirir, vicdan əzabı çəkir, əlacsızlıqdan için-için qovrulur:

Bu da sizin bəxtinizə yazılmış zaman,
Bu da sizin ömrünüzün gənclik illəri.
Siz qürbəti özünüzə yurd seçən andan
Solur Vətən bağçasının zərif gülləri.

Göründüyü kimi, şairin narahatçılığı əbəs deyilmiş, Vətəndə dolanışıq, çörək pulu əldə edə bilməyən dünənin səfil, küçədə dilənən bu uşaqları, əli diplomlu işsiz gəncləri özlərinə güzəran qurmaq ümidi ilə tərki-vətən olaraq qürbət ellərə üz tuturlar. Qürbət ellərdə onları normal həyat, iş yeri və həm də yad xalqın qızları gözləyir, bir də həmin qızlardan doğulacaq, lakin bizim olmayacaq nəsil törəmələri... Vətəndə isə həmin gənclərin taleyinə pay olacaq neçə-neçə ismətli qız, «səadətini ləyaqətinə qurban verərək» taleyini elçi daşına bağlayacaq və ata evində qarıyacaq, genefondumuz azala-azala gedəcək...

Şair yurdun başbilənlərini bu faciələri vaxtında görməyə, qarşısını almağa, milləti ayılmağa səsləyir. Əlbəttə, uşaqlığı küçələrin isti-soyuğunda keçən bəlalı xalqın talesiz övladlarının, küçə uşaqlarının, vətəni tərk edən gənclərin, vaxtsız solan zərif güllərin - qarımış qızların faciələrini bütövlükdə ölkənin faciəsi kimi dərk edir.

Müasir gənclərin evlənmək üçün imkanlı, var-dövlətli qız seçmələrini o, qeyrəti, kişiliyi şöhrətə, pula girov qoymaq kimi dəyərləndirir. Belə qohumluğu hünər sayan oğlanları xəstə düşüncə sahibi sayan şair yazıq qız atalarının, qeyrətli, mərd kişilərin kasıb daxmasında ömür çürüdən qarımış qızlarının taleyinə acıyır, Tanrıya xitab edərək “Amandı, bu qızlara qıyma”, - deyir. Subay oğlanları isə qürbətdən Vətənə səsləyir, bu sonaları xoşbəxt etməyə çağırır:

Ya Rəbbim, bir anlıq zülmünü unut,
Onsuz da çətin vaxt, ağır dövrandı.
Uçurt asimanı, başıma uçurt,
Ancaq bu qızlara qıyma, amandı!

Nə qədər dərd-səri vardı bu elin,
Ah, nələr çəkirlər qız anaları.
Ay subay oğlanlar yığışın, gəlin,
Sevin, gəlin edin bu sonaları!

Ümumiyyətlə, F.Ziya milli-mənəvi dəyərlərimizə hörmət və ehtiram hissi ilə yanaşan mübariz şairlərimizdəndir. Onun yaradıcılığını bütövlükdə analarımıza, Azərbaycan qadınlarına sevgisinin etirafı adlandırsaq, bəlkə də səhv etmərik. Şairin düşüncəsinə görə, Yer üzünün, bütün Azərbaycanın oğulları, kişiləri nail olduqları hər şeyə, elə həyatda insan olaraq yaşadıqlarına görə ən əvvəl qadınlara, analara borcludurlar. O,

...Şərəfin san, valideynçün diz çökməyi sən.
Tanrı-əcəl körpüsündən keçməzdən əvvəl,
Öz övladlıq borclarını ödəməlisən! —

deyərkən, övladları, dünyanın yeganə təmənnasız nemətini - ana südünü və ata malını onlara bəxş etmiş müqəddəs varlıqların - ata-ananın qarşısında borclarını unutmamağa, əcəl körpüsündən keçməzdən əvvəl oğul və ya qızın valideynlərinə qarşı ehtiramı, sayğısı, diqqət və qayğısına görə Tanrı dərgahında sorğu-suala çəkiləcəyini, ləyaqətsizlərin İlahinin qəzəbinə, lənətinə tuş gələcəyini yaddan çıxarmamağa səsləyir. Vətəndaş şair tərbiyəvi didaktik üsulla yolundan sapmış soydaşlarına həqiqətin, ləyaqətin, insanlığın, hər şeydən əvvəl, valideynə hörmət və ehtiramdan qaynaqlandığını, onlara həyat vermiş müqəddəs varlıqların xatirəsini əziz tutaraq, qədrini bilən övla-

dın Vətənini də, xalqını da, torpağını da sevəcəyini, yolunda canından keçməyə hazır olacağını vurğulayır.

"Qocalar evi" şerində F.Ziya, kimsəsizlər yurdunda olarkən insani hisslərdən, bəşəri duyğulardan uzaq övladlar tərəfindən atılmış zavallı, tənha insanlarla, taleyin amansız, ən dözülməz sınağına tuş gəlmiş talesiz ixtiyarlarla görüşündən aldığı acı təəssüratı, həssas şair ürəyinin tab gətirə bilmədiyi qüssə və kədəri qəlb ağrısı ilə oxucularının diqqətinə çatdırır.

Aman, Allah, nə sitəmdir qocalar çəkir,
Bu cür dərdə nə baş dözər, nə ürək dözər?
Qaçqınların, köçkünlərin gününə şükür,
Övlad, nəvə didərgini olmaqdan həzər.

"Bir parça çörəyə möhtac insanları" olan bir cəmiyyətdə qanunların axsadığını, "naziri dələduz olan dövlətdə" aliminin, şairinin "pencəyi cırıq" gəzərək dilənçilik etdiyini hiddət və qəzəblə, qəlb yanğısı ilə dilə gətirən şair, millətin taleyini yazan harınların, başbilənlərin kütləni aldadan qərarlarını ən böyük xəyanət sayır:

Bassa da ölkəni çadır kəndləri,
Qaçqınlar başçıya biz qurban - deyir.
Allah, bu ölkənin başbilənləri,
Çadırda doğana qəhrəman deyir.

və "susub abrına bürünən millətin" haqqını zorən almağın vaxtının çatdığını bəyan edir:

Qalx, zavallı millət, gücünü göstər,
Haqqı tələb etmək, xalqın haqqıdır!

O, Azərbaycanın bugünkü dərdlərinə, ağrı-acısına, problem və fəlakətlərinə vətəndaşlıq mövqeyindən yanaşaraq, onları şerlərində əks etdirir, xalqın həyatına ayna tutur, və poetik ustalıqla bütövlükdə dövrün ictimai-siyasi, real mənzərəsini yaradır. Vətən qeyrətini, milli təəssübkeşliyini "Papaq" şerində məhz öz mübariz poeziyasının leytmotivi kimi səsləndirir:

Hərəyə öz başına uyğun olan maldı papaq,
Müdrikə bir əzəmət, nakəsə yun şaldı papaq.

deyən şair:

Fəxrəddin, müqəddəs hisslər insana genlə keçir,
Qürursuzlar nə qanır qeyrətə simvoldu papaq.

misraları ilə bəzi vəzifəli məmurların vəzifədə qalmaq, tutduğu mövqeyi itirməmək naminə papaqlarını özlərindən yüksək rütbəlilərin ayaqları altına atmaqdan həzz aldıqlarını, şərəf duyduqlarını böyük ürək ağrısı ilə dilə gətirir.

8 milyonluq xalqa rəhbərlik etmək, onu arxasınca aparmaq niyyəti ilə yaradılmış çoxlu siyasi partiyaların və onların çoxlu da siyasi liderlərinin olmasını, uğurlu nəticəsi olmayan müxtəlif hərəkat dalğalarını milli faciə kimi dərk edən sənətkar min bir hiylə və saxtakarlıqla yüksək kürsülərə yiyələnən siyasət qullarının yalan vədlərlə, boğazdan yuxarı sözlərlə insafsızcasına aldatdığı zavallı xalqın halına acıyır:

Bu milləti öz içində qanan yox,
Bu kütlənin halına bir yanan yox.
On illərdir yaşayır min vəd ilə,
Başçılarda mərhəmət yox, aman yox.

Bu milləti inandırmaq çox rahat,
Bu kütlənin işi indi hərəkat.

Qabağında "YAP"-çılar at oynadır,
Arxasında "AMİP", "Cəbhə", "Müsavat".

Onun milli şüur və düşüncəyə, milli özünüdərkə, özünə qayıdışa, milli birliyə çağırış ruhlu mübariz poeziyasının sehrinə düşdükcə anlayırsan ki, Fəxrəddin Ziya əsl şairləri dünyanın söz sərkərdəsi, xalqının səsi, məddah şairləri isə fəlakət, şöhrətə, var-dövlətə satılmış, nəfsinin quluna çevrilmiş simasız qələm sahibi, məddahlığı isə şairin, sənətin ölümü kimi qəbul edir. Dərk edirsən ki, "Mən saray şairi ola bilmərəm", - qənaəti də Fəxrəddin Ziyanın şəxsiyyət kimi bütövlüyündən, daxili vüqarından, sənətkar ləyaqətindən qaynaqlanır. Ən nəhayət, söylədiklərinin səmimiliyinə inanırsan:

Şeri söykənmirsə səmimiyyətə,
Demək satılıbdır şair şöhrətə.

Başını dik tutmur, əyirsə, əlbət,
Keçir ürəyindən mənsəb, var-dövlət.

Əslində bu, şairin özünəməxsus etirafı, sənətkar kredosunun, poetik "mən"inin təsdiqi, həm də yaradıcılıq yolunun təqdimidir:

Gərək silkələsin haray şairi,
Mən ola bilmərəm saray şairi!
Mədh üçün sarayda qalsam, ölərəm,
Harınlardan "ilham alsam", ölərəm!

Onun qənaətinə görə, bu günün şairləri gərək savadlı, elmli, dərin məlumatlı, zəngin erudisiyaya malik olsunlar. Lirik söz deyə bilmək, şer yazmaq hər şey demək deyil. Dediyin sözün məsuliyyətini dərk etməli, ondan dürlü-dürlü istifadə etməyi bacarmalısan. Şairin ömür sarbanı olan kitablar, həm də onun söz dünyasının zinətidir və əbədi qalacaq.

Zinəttək söz demək, əbədi qalacaq şerlər yazmaq, bənzərsiz sənət nümunələri yaratmaq üçün F.Ziya daim axtarışdadır, öz üzərində müntəzəm çalışır, bildikləri ilə kifayətlənmir, daha çox öyrənməyə can atır. O ənənəvi Şərq şerini, klassik irsi oricinaldan mütaliə edə bilir. Əruzun vəzn poetikasını, nəzəriyyəsini yetərincə bilməsi ona çağdaş şerdə olduğu kimi, klassik şerin də müxtəlif formalarında rahat gedişlər etmək, mükəmməl qəzəllər yazmaq imkanı qazandırmışdır.

Klassik irsdən və çağdaş şairlərimizin yaradıcılığından, şifahi xalq ədəbiyyatından, folklor, motivlərindən sənətkarlıqla bəhrələnməyi və yeri gəldikcə, onlardan yaradıcı şəkildə fay-faydalanmağı bacaran şair «İncil»dən, «Qurani-Kərim»dən, Məhəmməd Peyğəmbərin, Həzrəti Əlinin kəlamlarından da iqtibaslar etmiş, təlmihlər vermişdir.

Nəticədə uğurlu poetik nümunələr yaranmışdır.

«Nə Məcnunam, nə Leylisən», «Sarı gəlin», «Nə yaxşı ki, gəlmədiniz», «Ağlaram», «Xətai işığında», «Ayrılır», «Dəmlər o dəmlər idi», «İki ulduz», «Qayıt, sevgi dünyam», «Şəhriyarın sevgisi», «Şairim», «Gül heyrəti», «Məmməd Araz karandaşı» və s. kimi neçə-neçə uğurlu sayılan, yaddaqalan şerlər belə poetik gedişlərin təzahürüdür.

Qədim Şərqdə ən çox sevilən, ən çox yayılmış canr olan qəzəl yazmaq çətin, həm də məsuliyyətli hesab olunmuş və bu şer şəkli həm də şairin poetik qüdrətinin göstəricisi kimi dəyərləndirilmişdir.

“Gəlməz”, “Bu gecə”, “Xumar olan könlüm”, “Ağlaram”, “Şəhriyarın sevgisi”, “Xəndan olmuşam”, “Vətən”, “Gəlmədi”, “Musiqidir”, “Qibləgahım mənim” və s. kimi uğurlu qəzəllərində aşiqanə hiss və duyğularını, məhəbbətin fəlsəfi mahiyyət daşıdığını, sevinc, həm də kədər bəxş etdiyini yığcam, təsirli dillə tərənnüm etməsi F.Ziyanın hərtərəfli şairlik qüdrətinə malik olduğunun təsdiqidir.

Onun sevgi dünyası, ali məhəbbət duyğuları, bahar çiçəkləritək kövrək hissləri öz səmimi, təsirli ifadəsini həm də lirik səpkidə yazdığı oricinal şer nümunələrində tapmışdır:

Yetməzmi, dərdindən dağlanır sinəm?
Daha dərələrdə sürünən çənəm,
Harda aldanan var, sanıram mənəm,
Unut bu sevdanı, qurbanın olum.

Şair "Unut", - desə də qəlbi, ürəyi bu hökmün qarşısında acizdir. Əqli, düşüncəsi «get», - söyləsə də, hissləri, ürəyi ağlın sözünə baxmır, ürəksə bu sevgiyə qapılarını taybatay açır.

Ha deyirəm daha səni unudam,
Ürəyimlə bacarmıram, neyləyim?
Öz içimdə gizli yanan bir odam,
Kimsə bilməz nədir yanğım, göynəyim,
Ürəyimlə bacarmıram, neyləyim?

Və bu məhəbbətin, sevginin təbiiliyinə, səmimiliyinə, reallığına inanmaya bilmirsən…

Etiraf son dərəcə təbii və inandırıcıdır!

Şairin məhəbbət və gözəlliyə olan xüsusi diqqəti, oricinal münasibəti təsadüfi xarakter daşımır. Onun ömrünün sultanı, məhəbbətinin əzəli, göydəki ayın, ulduzun yerdəki zərrəsi sanaraq sevə-sevə vəsf etdiyi, nəfəsində, ürəyində, qanında və canında olan "gözləri şəhla, zülfləri qara, gül ətirli, çiçək qoxulu, real Azərbaycan gözəlidir. Bütün gözəlliklərin baş tacı qadını sayan F.Ziya bu ilahi varlığın yolunda min bir cəfa çəkən, şirin canından keçən aşiqlərin, behiştdən qovulan Adəmin, fərhadların, qeyslərin cövrü-cəfasını fəxarət, "bəzmü-istirahət" bilir və əhsən deyir:

Gözəllik qadındır, qadın gözəllik,

Bu ülvi varlığın adına qurban.
Bir ömür borcluyuq ona ömürlük,
Kimlər getməmişlər qadına qurban?!

Nə yaxşı, qorunub yaşar yaddaşım,
Şirinçün Fərhadtək ölənə əhsən!
Bir gözəl çöhrəyə, mömin qardaşım,
Cənnəti əlindən verənə əhsən!

Onun poeziyasında, şer sənətində gözəllik, eşq, məhəbbət müəyyən fəlsəfi məna daşıyır. Şair qadını ömrə yaraşıq, qəlbin sevgi hədəfi, səcdəgahı, qəddar və zalimləri ovsunlayan, uğrunda müharibələr törədən cahangirləri qarşısında yay kimi əyən mələk, hər bir kişiyə sevgili, ana, övlad olan müqəddəs varlıq kimi dəyərləndirir. Lakin zirvəsində qadının durduğu gözəlliyə çox yüksək qiymət verərək ona ehtiramla yanaşan və dünyanın ən dəyərli neməti sayan F.Ziya eyni zamanda bu məfhumu fərdilikdən - insan gözəlliyi çərçivəsindən çıxarır və bəşəri mahiyyət kəsb edən ali sərvət kimi səciyyələndirir. Şair düşünür ki, dünyada hər şey - kainat, yer, göy, insanın əhatə olunduğu nə varsa, yaşadığı cəmiyyət, bu cəmiyyəti təşkil edən fərdlər - insanlar gözəl olmalıdırlar. Bax, o zaman ali varlıq olan insan da gözəlliklərin ağuşunda dərdsiz, möhnətsiz, bəxtiyar yaşayar və onun bir fərdi olduğu cəmiyyətdə də heç bir problem, heç bir çatışmazlıq, könülləri, qəlbləri ağrıdan naqisliklər də nəşə tapmazdı... Bunun üçünsə doğma yurda, Yer üzünə gözəllik toxumu səpmək lazımdır ki, yalnız və yalnız gözəllik cücərtiləri alınsın, pərvəriş tapsın!

Mənim ürəyimdən bir arzu keçər,
Gözəllik toxumu səpək bu yurda.

Şairin qənaətinə görə, doğma yurdumuza gözəllik toxumu səpmək, hər şeyi öz yerinə qoymaq üçün ulu Xətainin işığına

üz tutmaq, çeçenlərdən döyüş təcrübəsini öyrənmək, erməni cəlladlarının üstünə şahintək şığımaq, əsir torpaqlarımızı azad etmək, bir sözlə qələmi də süngüyə çevirmək lazımdır.

Dünyanı gözəlləşdirmək, cəmiyyətimizi problemsiz, ağrı-acısız, insanları xoşbəxt görmək arzusu ilə yaşayan, bu müqəddəs istəklə yazıb-yaradan şairin şer sənəti həm də yaxşılığa, soydaşlarını bir-birinə dayaq durmağa, dost, qardaş kimi yaşamağa, hər kəsi yaxşılıq etməyə çağırış poeziyasıdır.

Həzrəti Məhəmməd Peyğəmbərdən "Yaxşı insanlarla dostluq qurun! Yaxşılıq etməyə tələsin! -- kəlamlarını iqtibas verən şair elə 5-ci, sonuncu kitabına da məhz "Yaxşılar" adını seçmiş, "nə yaxşı ki, hələ var olan Yaxşılara», yaxşı kişilərə, mərd insanlara xitab etmişdir.

Bütün əməllərin gözü yaxşılıq,
Bürüsün qoy çölü, düzü yaxşılıq.
Nəcib arzulara körpü salaraq
Çəkir arxasınca bizi yaxşılıq.

Bu gün 50 yaşın zirvəsində olan, ürəyində nəyi varsa, kağızlara yazan, taleyini, istəyini, duyğusunu, yanğısını ifadə edən şair Fəxrəddin Ziya ürək yanğısını duyan oxucularına hesabat verir. Və o, "Yaxşılar" kitabına illərdən bəri qələmə aldığı şerlərdən seçmələri, eləcə də yeni yazdığı əsərləri salmaqla duyğulu oxucuları üçün al-əlvan bir gül çələngi hördüyünə əmindir!

Əlbəttə, bu çələngdə əlvan, şux güllər də var, nisbətən rəngsizi, azacıq soluxmuşu, ləçəkləri vağam olmuşu da.

Onlarla həmsöhbət olmağı, dərdləşməyi və qiymətləndirməyi isə yenə də əziz, başının tacı sandığı duyğulu oxucularının ixtiyarına buraxır.

***Esmira FUAD (ŞÜKÜROVA),***

***filologiya elmləri namizədi.***

## OXUCULARIMA

Dəyərli oxucularım!

Nəhayət ki, Sizi deyib yazdığım, Sizinlə görüşə hazırlaşdığım kitabımla qarşınızda dayanmışam. Şükür ki, bu arzumun mənzil başına da çata bildim. Bunun üçün Siz oxucularıma, bu işdə yardımçım olanlara və taleyimə minnətdaram. Axı, Sizsiz bu kitabın nə dəyəri? Çünki ustadımız Ə.Vahid demişkən: - Qiymətli o şeydir ki, xiridarı gözəldir.

Bu kitab indi həm də Sizinkidir.

Yaşından, vəzifəsindən, siyasi mənsubiyyətindən və milliyyətindən asılı olmayaraq hamıya eyni oxucu diqqətli və ehtiramla hazırlanıb bu toplu. Güman edirəm ki, burada hər yaşın öz şeri var. Həm yeniyetmənin, həm cavanın, həm ixtiyarın. Həm arabir haqqı tapdanan müxalifət dediklərimizin, həm hərdən həddini aşan iqtidar adlandırdıqlarımızın. Müxtəsər, həyatımızın neçə-neçə şirini, acısı öz əksini tapıb bu şerlərdə. Sizdən bir təvəqqem var. Fikir müxtəlifliyi (bəlkə də ziddiyyəti) üçün məni qınamazdan əvvəl anlamağa çalışın.

Etiraf edim ki, şer yazarkən bu amilləri heç vaxt bir-biriinə qarşı qoymuram və hansınısa digərindən üstün tutmağa çalışmıram. Mənim üçün dünya var, bəşər var, humanistlik var, ədalət var, bir də onlara qarşı çıxanlar. İstər yad olsun, istər doğmam, istər qardaşım. Əməli salehlər, yaxşılar gözümdə, sözümdə aliləşir, müqəddəsləşirlər, naqislər isə cılızlaşır, qüsurlu görünürlər. Ona görə də şerlərimdəki kəskin rəng çalarları, misralarımdakı gah lirik, həzin, gah sevdalı, şirin, gah qəmli, kədərli, gah hiddətli, qəzəbli görüntülər kimsəni hövsələdən çıxarıb çaşdırmasın.

Şəxsən mənim üçün şer konkret anın, məlum bir duyğunun məhsuludur. Nə vaxt hansı hisslə yaşamışamsa, hansıı duyğumun sehrinə düşmüşəmsə və ya hansı ədalətsiz, qərəzli əməldən hiddətlənmişəmsə və bu hal mənim poetik dünyama

inteqrasiya edə bilibsə, o fikrin əsirinə çevrilmişəm, o duyğunun beynimdəki inikasını yazmağa çalışmışam.

Mən heç bir siyasi marağın və siyasi məsuliyyətin fərqinə varmadan, millətinə, bəşərə eyni məhəbbətlə xidmət etmək istəyən insanları – yaxşıları sözümlə, şerimlə çiyinlərimin üstünə qaldırmağa səy göstərmişəm, bu ideala xidmət etməyə çalışmışam.

Kimi isə mədh etmək, kimi isə qərəzlə suçlamaq fikrindən çox uzağam, yəqin həmişə də belə olacağam.

Əlbət, sənət fədailərinin, bizə örnək olmuş mütəfəkkirlərin zaman-zaman seçib keçdiyi yoldu bu yol.

A.Blok yazırdı ki, şairə hər şeyi bağışlamaq olar, bircə zamanın ruhunu təhrifdən başqa. A.Qorki isə deyirdi ki, yazıçı öz dövrünün salnaməsini yaradır. Onun ictimai hadisələri təhrif etməyə haqqı yoxdur. Çünki əsl ədəbiyyat heç vaxt ictimai hadisələrii mədh etməz.

Mən də öz dövrümü yazmağa cəhd etmişəm.

Bu günün mədhiyyə yazarları, boğazdan yuxarı nitq söyləyənləri bolluqunda səsim, sözüm bir az əcaib görünsə də, hər halda gördüklərimin bir qismini yazmaq istəmişəm.

Gördüklərinin beşdə birindən də azını yazan Mirzə Sabirin, Mirzə Cəlilin, Məhəmməd Hadinin, Hüseyn Cavidin, Səməd Mənsurun… ruhları şad olsun. Nə yaxşı ki, bu cür insanlar hər zaman olub. Nə yaxşı ki, hələ vardır yaxşılar.

Sizi ədalətlilərin, qətiyyətlilərin, səxavətlilərin… bir sözlə, YAXŞILARIN sırasında görmək arzusu ilə.

***Müəllif***

## MÜNDƏRİCAT

Duyğulu poeziya……..……………………………………..3

**SÖZ KARVANIM**
Gözəllik ………….………………………………………11
Yaxşılar …………..………………………………………12
Mənim sarbanım ……..……………………………………13
Minilliyin ayrıcında ………………………………………14
Millət şərqisi ……………………………………………..16
Şer dünyası …..……………………………………………17
Xətai işığında ………..…………………………………..18
Xalqa zülm eyləyən kişi ….………………………………19
Dözmək olmur ……………………………………………..21
Yalançı Dövlətqulu ………………………………………..22
Qarışdırma ………..………………………………………..24
Vətənin işsiz gənclərinə …..………………………………26
Qocalar evi …………………………………………………...28
Vətən bizim pənahımız ….…………………………… 30
Tapılmaz ..…………………………………………………..31
Öz yerini bilməyənlərə ………..……………………………..32
Bir məzar daşında yazı ….………………………………… 33
Ömür vəfa qılsa ……………………………………….. 34
Qeyrət Xocalıda, Şuşada qalıb ……..…………………….35
Sədaqətim, xəcalətim ……………………………………36
Cavanlıqda ……………………………………………….. 38
Ey mənim möhtərəm prezidentim ….……………………40
Mədhiyyəçi yazarlara …….………………………………43
Yaz lövhələri ……………………………………………….45
Qış etüdləri ..………………………………………………..46
Allah qoysa ..………………………………………………. 47
Ey vətən …….……………………………………………….. 48
Vətən …………………...……………………………… 49
Hardan başlanır Vətən ……..…………………………… 50

Vətən, Vətən ………………………………………….. 51
Vətən fəryadı ……..………………………………… 51
Odlar yurdum ………………………………………...53
Öldüyün yer vətəndir ……..………………………….55
Dərd deməyə kimsəmiz yox ……..…………………….56
Ağrıma, ürəyim …………………………………………… 57
Təzə il …………………...………………………………… 58
Tanrı türkü qorusun ……...……………………………..59
Məmməd Araz karandaşı ……………….……………… 60
Nə yaxşı ki, gəlmədiniz ………………….……………… 62
Yeriyin düşmən üstünə ………………………………….. 65
Çağırış ………………………………….………………… 66
Ömrün xəzanı ……………………..…………………….66
İl ayrıcında ……………………………….……………….. 67
Oxucularıma ……………………………………………… 69
Biz hara gedirik …………………………………………...71
2002-ci ilin qışı …………………….………………...73
Ömürdən narazı olmayaq ……..……………………….74
Mən bu ömrü yaşadım ……………………….……….. 75
Taleyindən, qismətindən qaç görüm ………………….. 78
Duz-çörək qiyməti ……………………………………….. 80
Niyə belə vəfasızsan əziz dost ………………………… 82
Bilinməz ………………………………………………….... 83
Qəlb həkimi ………………………………………………. 84
Bu gərdiş ………………………………………….……… 87
Can, bacım …………………………………….………….. 88
Axtar ………………………………………..……………… 90
Olmur ……………………………………………….…….... 91
Hər canım ağrıyanda ……………………..……………… 91
Ata məhəbbəti …………………………………..…….... 93
Əcəb xoş gəldin ………………………….……………… 94
Öz yerini biləndə ……………………….…….…………… 95
Ququ xisləti …………………………………………….. 97
Bilmərik ……………………………..…………… 99
Bu millətin dərdi nə çox ………………..……………… 100
Ağlayır …………………………………………………… 101

Sənə elə gəlir ki ........................................... 102
Xudavəndə xitab ........................................... 103
Milləti bu hala salana yazıq ................................ 104
Rüşvət ........................................................... 106
Dost zarafatı .................................................. 109
Dəmlər o dəmlər idi ......................................... 110
Bacılar .......................................................... 112
Şəkər qızım, bal qızım ..................................... 113
Gül heyrəti ....................................................114
Toy günü ....................................................... 115
Mənim doğulduğum kənd .................................. 116
Dağların ........................................................ 120
Xanbulan ....................................................... 121
Lənkəran ....................................................... 123
Torpaq eşqi ................................................... 124
Min şükür ...................................................... 124
Bu dövran ...................................................... 125
Oyan, sərkərdə babam ..................................... 127
Yurd yerinin külündən öp ................................. 128
Ünvanlı, ünvansız müraciət ............................... 129
Tənqidçi soydaşıma ......................................... 131
Qudurğan ....................................................... 132
Dərdlərim ...................................................... 134
Boşaldın ürəyinizi ...........................................135
İlk şerim ........................................................ 136
Əbədi təəssüf ................................................. 137
Arzum-təsəllim ............................................... 137
Badam ağacı .................................................. 139
Bu quldur dəstə .............................................. 140
Nikbinlik ........................................................ 141
Atəşkəs dövrünün Bakısı ..................................141
Məzəmmət ..................................................... 142
Ünsiyyət incəliyi ............................................. 142
Ürəkli olmaq .................................................. 143
Payız buluduyam ............................................. 144
Nə bilim ........................................................145

Qocalıq ………………………………………………..…… 146
Gedən yerim olaydı ………………………………..…….147
Hələ başlamadığım son şerimə …………..………… 148
Boğazdan yuxarı nitq söyləyənlər …………………… 149
Naşılıq, nadanlıq ……………………………..….….150
Qurban sənə, qardaş …………………………..…. 152
Hələ ki, vay halımıza ……………………….……. 153
Qoşa qanad …………………………………….……. 154
Deyəsən qocalıram ……………………………..……. 155
Oxşarlıq və fərq ……………………………………….156
Dünəninçün… ağlama... ……………………………..157
Ah, bu şirin, acı dünya …………………………….…. 159
Dünya ……………………………………………..……159
Dünyanın ……………………………………………… 160
İmandan doğan inam (və ya qəzavat) ……….………. 161
Hünər ………………………………………………….. 162
Cılızlaşdırılan kütləyə …………………………………163
Mənim şair anam ……………………………………... 164
Bağışla, can ana ……………………………………... 166
Unudulmaz xatirə ……………………………………… 168
Ayılın, ağalar ………………………………………….. 169
Dördlüklər ……………………………………………... 170
Gül balam …………………………………………..…. 175
Şairin ölüm yaşı ……….……………………………... 175
Şerdən mənalı ………………………………………... 176
Bilirik, çətindir… …………………………………….. 177
Şairlik ………………………………………………..…. 179
Türküz, türkü oxuyuruz ……………………………..…180
Səni zəmanə öldürdü ………………………………... 181
Kamil olmaq imandandır …………………………..…. 183
Dövlət xalqı aldadırsa ……………………………….. 183
Yaxşı kişilərə …………………………………….……. 184
Məzarıstan evimiz ……………………………………. 185
Dilənçi uşaq ……………………………………….…. 186
Səni xatırlarkən ……………………………………... 188
Söz karvanım …………………………………………… 189

Soyuq təndirlərə çörək yapılmaz .......................... 191
Qulaq as, bala .............................................. 192
Dahilərə biganəlik etməyin ................................ 193
Talesiz qızlar ................................................. 195
Yas saxlayıram ............................................... 196
Mən saray şairi ola bilmərəm ............................ 199
Ayrılığın sonu olmur… ..................................... 200
İslam dinimiz ................................................. 201
Şən bacılar .................................................... 202
Oğlumla söhbət ............................................... 202
Nə yaman qocalıram mən ................................. 204
İç ağrım ......................................................... 205
Dəniz etirafı ................................................... 207
Bu bədbinlik deyil, nigarançılıqdır ..................... 208
Xan çinar ....................................................... 209
Atəşkəs dövrünün generalları ............................ 211
Fillərin məhkəməsi və ya ibrət dərsi ................... 213
**BAYATILAR**
Vətən qəribsəmələri ......................................... 215
Qarabağ bayatıları ........................................... 216
Qəm qanadlı bayatılar ...................................... 217
Sevgi, istək bayatıları ..................................... 218
İmpiçment ...................................................... 220
Biz kimik ....................................................... 222
Rəşidin səsi ................................................... 224
Ana fəryadı .................................................... 225
Ata ................................................................ 226
Qumru ........................................................... 227
Qız qalası ...................................................... 229
Bakı .............................................................. 230
Gözəllik qadındır, qadın gözəllik ....................... 231
Hələ ki, yox pənahımız ..................................... 233
Yaman yerdə gecələdik ..................................... 235
Biz elə bilirdik ................................................ 236
Can ata .......................................................... 237

Ayrılıq ........................................................ 237
Ağlayır ........................................................ 238
Ağlaram ........................................................ 239
Ayrılır ........................................................ 240
Axund qardaş ........................................................ 241
İki ulduz ........................................................ 242
Bu millətin ağrısını duymaz harınlar ........................ 244
Mən duyğumu yazıram ........................................ 245
Xəndan olmuşam ........................................ 246
Lazımdırmı bu dəbdəbə ........................................ 247
Sən Allah, bağışla… ........................................ 248
Yuxuma girən qadın ........................................ 250
Ürək ağrılarım ........................................................ 251
Qatır cinsi ........................................................ 252
Xoş günün dostuna ........................................ 253
Kim idin, kim oldun ........................................ 255
Xəbərin yox ........................................................ 256
Zaman, səndən hara qaçım ................................ 257
Qadınlar ........................................................ 258
Nə gözəl ........................................................ 258
Masallı ........................................................ 259
Qəm bəxtəvəri ........................................................ 261
Bir işsizin monoloqu ........................................ 262
Millət vəkilləri ........................................................ 264
Zəlzələ ........................................................ 266
Səhər xoş üz görənlərə ........................................ 266
Papaq ........................................................ 267
Pis adam ........................................................ 268
Vaxt öldürürük ........................................................ 269
Təkliyi sevirəm ........................................................ 271
İzahsız istək ........................................................ 272
Doğma hiss ........................................................ 273
Həmişə belə qal ........................................................ 274
Zəka təcəssümü ........................................................ 275
İgid əsgər ........................................................ 276
Qayıdın bu yoldan ........................................ 277

Sənin varlığına şübhəm var, Allah …………………..…. 279
Sərhədçi düşüncələri ………………………………….. 280
**BU QƏDƏR ÖYRƏTMƏ ÖZÜNƏ MƏNİ**
Bir türkü oxuyaq ……………………………………… 283
Qəşəngim ……………………………………………….. 284
Könül ………………………………………………..…. 284
Mən səninləyəm ……………………………………...… 285
İstərəm …………………………………………………... 286
Həsrət …………………………………………………..… 287
Səni sevməmək olmaz………………………………… 298
O şəhla gözlər ……………………………………..…. 290
Qayıt, məni qınamağa ………………………………..… 291
Gözlərinə qurban olum ……………………………… 293
Bəsimdir ………………………………………………… 293
Yuxuma gir …………………………………………… 293
Ruhunla yaşayıram …………………………………….. 294
Bu sevda yalanmış …………………………………..… 295
İnanmayır, neyləyim ………………………………… 296
Bağışla ……………………………………………...…. 297
Kaş qayıdaq o illərə …………………………….…… 298
Qurbanın olaram ……………………………………….. 299
Bu sevdada ……………………………………...…. 300
Sənin ürəyindən nə keçir görən ………………...….. 301
Sabah ad günündür ……………………………………. 302
Keç günahımdan……………………………………… 303
Qayıt, sevgi dünyam ………………………………… 304
Bilmirəm ………………………………………………… 305
Nə biləydim …………………………………………... 306
Sənin ad günündə …………………………………… 307
Dəli könlüm …………………………………………… 308
Sənsizlik ……………………………………………… 309
Sənsən ……………………………………………… 310
Qənirsiz gözəl ………………………………………… 311
Gözlərin ………………………………………………… 312
Sarı gəlin ……………………………………………….. 313
Umu-küsü vaxtımı …………………………………… 314

Azalt, bir az əzabımı ........................................ 314
Gülüm, hey ..................................................... 315
Təki, dön həyatıma ........................................ 316
Sizin küçə .................................................... 317
Barı bir zəng elə .............................................. 328
Qoşa gəzək dünyanı ....................................... 319
Neyləyim ....................................................... 319
Unut bu sevdanı ............................................... 320
Şirin xatirəmsən .............................................. 321
Görməyəcəksən ............................................... 322
Bir az ovsunlu ol ........................................... 323
Səndən savayı .............................................. 324
Ürəyimin ovsunu............................................ 325
Belə olmaz əzizim ........................................... 326
Gizli-gizli ...................................................... 326
Ətraf dolu gözəllərlə ........................................ 327
Bu qədər öyrətmə özünə məni ........................... 328
Üzündə ay işığı var .......................................... 330
**QƏZƏLLƏR**
Qayıtmır ....................................................... 333
Sevgisin car eyləməz… ................................. 334
Toya gəl ....................................................... 334
Təzələndi ..................................................... 335
Bilmir ........................................................... 336
Nə yaxşı .................................................... 336
Canımı gündə yüz yol… ................................. 337
Neynim ......................................................... 337
Yar gələ mehmanım ola… ............................. 338
Gəl ............................................................... 339
Şəhriyarın sevgisi .......................................... 339
Könlümü alsın ............................................... 340
Əhsən .......................................................... 341
İndi ............................................................. 341
Xumar olan könlüm ......................................... 342
Sehrin yenə məst eylədikcə… ........................ 342

Ömrümüzün ………………………………………….. 343
Peymanədən ötrü ……………………………………… 344
Musiqidir ………………………………………………. 344
Könlüm yenə qəm çəkmədə ……………………….. 345
Tələsmə ……………………………………………….. 346
Qəzəl ilə ………………………………………………. 346
Ola bilməz ……………………………………………. 347
Könlümü ………………………………………………. 348
Yetişsin ……………………………………………….. 348
Qəzəlxan olmuşam ………………………………… 349
Gəlmədi ……………………………………………….. 350
Gəlməz ………………………………………………... 350
Bu gecə ……………………………………………….. 351
Yoxdu, yox ……………………………………………351
Mərhəba ………………………………………………. 352
Görək ………………………………………………….. 352
Qibləgahım mənim…………………………………… 353
Qəm yemə …………………………………………….. 354
Olmasa ……..…………………………………………. 354
İstəmə …………………………………………………. 355
Yalvarım ………………………………………………. 356
Yar sorağı yalan olmaz ……………………………… 356
Yetsin …………………………………………………. 357
Muğam oxu …………………………………………… 357
Sarı gəlin ……………………………………………… 358
Gözlərimi yuman yoxdur …………………………… 359
Yar qadası yara gəlir ………………………………… 359
Eyləməz ………………………………………………. 360
Gözəllərin …………………………………………… 361

**POEMALAR**

Yaşamaq uğrunda mübarizə ……………………….. 363
Yenilməzlik simfoniyası ……………………………... 382

Sən mənə arxa ol, dayaq ol, ümid …………………… 498
Oxucularıma …………………………………………..… 412

*Fəxrəddin Ziya*
*(Əliyev Fəxrəddin Mansur oğlu)*

# YAXŞILAR

Bakı, 2004

Yığıma verilib: 17.06.04
Çapa imzalanıb: 09.07.04
Qarnitur Arial. Format 60x 84  1/16.
Həcmi 26,5 ç.v. Tiraj: 1000 nüsxə. Sifariş 500 nüsxə.